# KİTABXANAŞÜNASLIQ
# VƏ
# BİBLİOQRAFİYA

№2 * 2011

BAKI –2011

İSSN 2079-4150

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

**№2 (29) * 2011**

1997-ci ilin
oktyabrından çıxır

**BAKI –2011**

*KBT- 78*
*K 73*

***Təsisçi və baş redaktor:*** ***professor Xəlil İSMAYILOV***

***Məsul katib:*** ***dosent Knyaz ASLAN***

***REDAKSİYA HEYƏTİ:***

***Professor Abuzər XƏLƏFOV***
***Professor Zöhrab ƏLİYEV***
***Professor Bayram ALLAHVERDİYEV***
***Dosent Nadir İSMAYILOV***
***F.e.d. Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ***
***T.f.d. Kərim TAHİROV***
***Tamella İSMİXANOVA***
***Mələk HACIYEVA***
***T.f.d. Solmaz SADIQOVA***

K 73 *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-B.: Bakı Universiteti Nəşriyyatı, 2011.-№2.-186 s.*

*Redaksiyanın ünvanı:*
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası*
*Telefonlar*: **510-17-60**

**© «Kitabxanaşünaslıq və biblioqrafiya», 2011**

İSSN 2079-4150

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЕ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ**

# БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФИЯ

**Научно-теоретический,**
**методический и практический журнал**

**№2 (29) * 2011**

Выпускается
с 1997 года

**БАКУ-2011**

***ББК-78***
***К 73***

***Учредитель и главный редактор:*** ***профессор Халил ИСМАИЛОВ***

***Ответственный секретарь:*** ***доцент Князь АСЛАН***

***РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:***

**Профессор Абузар Халафов**
**Профессор Зохраб Алиев**
**Профессор Байрам Аллахвердиев**
**Доцент Надир Исмаилов**
**Д.ф.н. Айбениз Алиева-Кенгерли**
**К.и.н. Керим Тахиров**
**Тамелла Исмиханова**
**Мелек Гаджиева**
**К.и.н. Солмаз Садыгова**

**К 73** *Библиотековедение и библиография: Научно-теоретический, методический и практический журнал .- Б., Изд-во Бакинского Университета, 2011.-№2.-186 с.*

*Адрес редакции:*

*AZ –1073/1 г. Баку, ул. Захида Халилова, 23,*
*учебный корпус №2, этаж IV, Библиотечно-информационный факультет, редакция журнала «Библиотековедение и библиография».*
*Тел.: 510-17-60*

**© «Библиотековедение и библиография», 2011**

İSSN 2079-4150

**MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC**

**BAKU STATE UNIVERSITY**
**LIBRARIANSHIP AND INFORMATION DEPARTMENT**

# LIBRARIANSHIP AND BIBLIOGRAPHY

**Scientific and theoretical, methodical and practical journal**

**№2 (29) * 2011**

**Issued in 1997**

**BAKU-2011**

*LBC-78*
*К 73*

***Founder and editor in chief:*** ***professor Khalil ISMAILOV***

***Executive secretary:*** ***docent Knyaz ASLAN***

## Editorial Board:

**Professor Abuzar Khalafov**
**Professor Zohrab Aliyev**
**Professor Bayram Allahverdiyev**
**Docent Nadir Ismailov,**
**Ph.D. Aybeniz Aliyeva Kengerli**
**Ph.D. Kerim Tahirov**
**Tamella Ismihanova**
**Melek Hajiyeva**
**Ph.D. Solmaz Sadigova**

**К 73 Librarianship and bibliography: The scientific-theoretical, methodical and practical journal.- B., Publisher of Baku University, 2011 .- № 2.-186 p.**

*Editorial address:*

AZ -1073 / 1, Baku, st. Zahid Khalilov, 23, an educational building № 2,
Floor IV, Librarianship and information department,
Edition of "Librarianship and bibliography" journal;
Tel.: **510-17-60**

**© «Librarianship and bibliography", 2011**

# MÜNDƏRİCAT

## KİTABXANAŞÜNASLIQ


***S.RZAYEV G.HACIYEVA*** *Mütəxəssislərin şəxsi təhsil mütaliəsi və onların ixtisas biliyinə yiyələnməsindəki rolu............................9*

**S.XƏLƏFOVA** *Kitabxana kataloqlarının inkişaf formaları...........14*

**Y.QAZIYEV** *Natamam orta və orta məktəblərin kitabxanaları..21*

***S.MUSTAFAYEVA*** *Avtomatlaşdırılmış kitabxana sistemi şəraitində AMEA Mərkəzi Elmi Kitabxanasi fondunun təşkili38*

**R.QARDAŞOV** *Kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaçılıq təcrübəsinin rolu...................................................51*

**Z.RZAYEVA** *Milli kitabxana sistemində informasiya axtariş sistemləri ............................................................64*

***D.M HƏSRİN*** *Təbriz Universitetinin Mərkəzi Kitabxanasının RFİD texnologiyası........................................................72*

***R.RÜSTƏMOVA*** *Elektron resurs kitabxananin sənəd-informasiya resurslarinin təkamülünün yeni mərhələsi kimi......79*

***G.ƏLİYEVA*** *Sumqayıt MKS – in sənəd–informasiya fondunun müasir vəziyyəti.....................................................84*

***Z.RƏHİMOVA*** *Müstəqillik illərində C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında fondun formalaşması......94*


## BİBLİOQRAFİYAŞÜNASLIQ


***N.İSMAYILOV L.NAĞIYEVA*** *Naxçıvan iqtisadi rayonunda kitabxana-informasiya resurslarının yerləşməsi vəziyyəti.............100*

***X.AĞAYEVA*** *Təhsilin informasiya təminatında tövsiyə biblioqrafik vəsaitlərin əhəmiyyəti.............................112*

**S. İSMAYILOVA** *Ədəbiyyatşünas mütəxəssislər biblioqrafik fəaliyyətin potensial və fərdi obyekti kimi........121*

***İ.BAYRAMOVA*** *Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının yerləşməsinin vəziyyəti..........................................................127*

***Ə.MƏMMƏDOV*** *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında yaradılmış "Azərbaycan Respublikası – 20" elektron sənəd-informasiya layihəsinin quruluşu və informasiya-axtarış imkanları*............................................*142*

***V.HƏSƏNOVA*** *Nağıllar biblioqrafik informasiya resursları sistemində*.......................................................*155*

***X.XƏLİLOVA*** *Ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin axtarış imkanları*............................................*160*

***G.ƏLİYEVA*** *M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının cari biblioqrafik fəaliyyəti*......................*168*

***T.MİRZƏYEVA*** *"Azərbaycanda neft sənayesi" – biblioqrafiyasının təhlili*.......................................................*174*

# СОДЕРЖАНИЕ

## БИБЛИОТЕКОВЕДЕНИЕ

***С.РЗАЙЕВ Г.ГАДЖИЕВА*** *Роль самообразовательное чтение в формировании квалификационная и профессиональное знание специалистов..........................................9*

***С.ХАЛАФОВА*** *Формы развития библиотечных каталогов ..14*

***Й.ГАЗИЕВ*** *“Неполных библиотеки неполных средных и средиля полных средных школ”, существующих в Азербайджане.................................................21*

***С.МУСТАФАЕВА*** *Организация фондов центральной научной библиотеки нан в условиях автоматизации.....38*

***Р.ГАРДАШОВ*** *Роль библиотечной практики в развитии библиотечного образования...................................51*

***З. РЗАЕВА*** *Информационно-поисковые системы в системе Национальной Библиотеки................................64*

***М.Д.НАСРИН*** *Технология RFID в Центральных Библиотек Университете Тебриза.....................................72*

***Р.РУСТАМОВА*** *Электронный ресурс как новый этап эволюции документально-информационных ресурсов библиотеки.............................................................79*

***Г.АЛИЕВА*** *Современное положение и информационный фонд цбс гор. Сумгаита...................................84*

***З. РАГИМОВА*** *Формирование фонда Республиканской Юнешеская Библиотека имени Дж. Джаббарлы в независимые годы...................................................94*

## БИБЛИОГРАФОВЕДЕНИЕ

***Н.ИСМАИЛОВ Л.НАГИЕВА*** *Состояния библиотечно-информационных ресурсов в нахчыванской экономического региона ......................................................100*

| | |
|---|---|
| ***Х. АГАЕВА*** | *Значение рекомендательной библиографических пособии в информационном обеспечение образование.................................................112* |
| ***С.ИСМАИЛОВА*** | *Специалисты –литературоведы как потенциальные и индивидуальные объекты библиографической деятельности..........................121* |
| ***И. БАЙРАМОВА*** | *Современное состояние размещения библиотечно-информационных ресурсов в регионах Азербайджанской Республики......................127* |
| ***А. МАММАДОВ*** | *Структура и информационно-поисковые возможности электронного документально – информационного проекта «Азербайджанская Республика -20» созданного в Президентской Библиотеке Управлении Делами Президента Азербайджанской Республики.....................142* |
| ***В. ГАСАНОВА*** | *Сказки в системе библиографических информационных ресурсов......................................155* |
| ***Х. ХАЛИЛОВА*** | *Поисковые возможности многотомного “Müstəqilliyimiz əbədidir” посвященному общенациональное лидера Гайдара Алиев..160* |
| ***Г. АЛИЕВА*** | *Текущая библиографическая деятельность Азербайджанской Национальной Библиотеки Имени М.Ф.Ахундова..................................168* |
| ***Т. МИРЗОЕВА*** | *Анализ библиографии «Нефтяная промышленность Азербайджана»............................174* |

# CONTENTS

## LIBRARY SCIENCE


| | |
|---|---|
| ***S.RZAYEV G.HACIYEVA*** | *The role of self-education reading in the formation of the qualified and professional knowledge of the specialist…………………………………………….9* |
| ***S.KHALAFOVA*** | *Development forms of library catalogs …………..14* |
| ***Y. GAZIYEV*** | *"The secondary and incomplete secondary schools" in Azerbaijan.....................................................21* |
| ***S.MUSTAFAYEVA*** | *The organization of funds of Central Scientific Library NAS in conditions of automation...........38* |
| ***R.GARDASHOV*** | *The role of library practice in development of library education……………………………………51* |
| ***Z. RZAYEVA*** | *Information search systems in national library system ………………………………………………..64* |
| ***M.D.NASRIN*** | *The RFID technology in the Central Libraries of Tabriz University……………………………………..72* |
| ***R.RUSTAMOVA*** | *Electronic resource as a next stage of evolution of documentary- informational resources of the library…………………………………………….……79* |
| ***G.ALİYEVA*** | *The present situation of document information fund of Sumgait SSL (system of centralized library)…………………………………84* |
| ***Z. RAHIMOVA*** | *Formation of the fund republican youth library named after j. jabbarli in the years of independence....................................................94* |


## BIBLIOGRAPHY SCIENCE


| | |
|---|---|
| **N.İSMAILOV L .NAGIYEVA** | *The situation of the library-information resources in the nakhchivan economical region…………100* |

| | |
|---|---|
| ***Kh.AGAYEVA*** | *Importance of the recommended bibliographic allocations in the provision of educational information…………………………………112* |
| **S. ISMAILOVA** | *Literary information specialists bibliographic object, of the bibliographic activities………...121* |
| ***I. BAYRAMOVA*** | *The position of location library-information resourses in regions of azerbaiyan republic…127* |
| ***A.MAMMADOV*** | *Structure and information search features of electronic documentary-information project "Azerbaijan republic -20" of the Presidential Library of Administrative Department of the President of Azerbaijan……………………….142* |
| ***V. HASANOVA*** | *Tales at system of bibliographical information recourses.....................................................155* |
| ***X.XALILOVA*** | *Search opportunities of the voluminous edition named "Müstəqilliyimiz əbədidir" which was dedicated to national leader Heydar Aliyev …160* |
| ***G. ALIYEVA*** | *The current bibliographic activities of the Azerbaijan National Library named after M.F.Akhundova…………………………………..168* |
| ***T. MIRZAYEVA*** | *The analyses of the bibliography of "The oil industry of Azerbaijan"………………………..174* |

# KİTABXANAŞÜNASLIQ

**Sahib RZAYEV**
***Kitabxanaşünaslıq kafedrasının dosenti***
***Filologiya üzrə fəlsəfə doktoru***
**Günel HACIYEVA**
***Magistrant***

## MÜTƏXƏSSİSLƏRİN ŞƏXSİ TƏHSİL MÜTALİƏSİ VƏ ONLARIN İXTİSAS BİLİYİNƏ YİYƏLƏNMƏSİNDƏKİ MÜTALİƏNİN ROLU

***Açar sözlər:*** *şəxsi təhsil, mütaliə, mütəxəssis, şəxsiyyətin formalaşması, sahəvi kitabxanalar.*

***Ключевые слова:*** *личное образование, чтение, специалист, формирование личности, отраслевые библиотеки.*

***Keywords:*** *personal education, reading, forming of personality, field libraries.*

Hər bir cəmiyyət kamil şəxsiyyətlərə, yetkin ziyalılara və öz ixtisas biliyinə lazımi səviyyədə yiyələnmiş mütəxəssislərə böyük ehtiyac duyur. Ona görə də cəmiyyətdə bu ehtiyacı ödəmək üçün lazımi tədbirlər həyata keçirilir.

Bu gün dünyanın hər yerində insanlar öz mənəvi ehtiyaclarını ödəmək üçün axtarış vasitələri içərisində çap məhsullarına müraciət etməyi, yəni mütaliəni daha üstün tuturlar. Təbiətin və cəmiyyətin istənilən problemi, mövzusu və həyati əhəmiyyəti barədə lazımi məlumat əldə etmək üçün mütaliənin əvəzedilməz vasitə olması böyük həqiqətdir. Ona görə də yaşından, ixtisas və peşəsindən asılı olmayaraq hər bir kəs lazımi məlumatı əldə etmək üçün, eləcə də müvafiq biliklərə yiyələnmək üçün lazımi məsələdən bəhs edən çap məhsulunu əldə edib mütaliəsini vacib sayır.

Mütaliənin sosial xarakteri haqqında mühakimə yürütmək üçün bir sıra meyarlardan çıxış etmək tələb olunur. Bunlar mütaliənin cəmiyyətdə tutduğu mövqe və ona ictimai münasibət, çap əsərlərinin cəmiyyət üzvləri arasında yayılması, eləcə də əhalinin mütaliəyə cəlb olunmasında sosial-mədəni institut kimi kitabxanaların geniş fəaliyyəti kimi izah oluna bilər.

Sosial institut kimi kitabxanaların funksiyalarını professor A.Xələfov «onların xarici aləmlə, cəmiyyətlə əlaqələri, cəmiyyətin inkişafına təsiri, öz növbəsində isə cəmiyyətin kitabxana fəaliyyətinə təsiri» kimi izah edir. (1.s.3-32) Bu cəhətdən müasir cəmiyyətin yüksək ixtisas sahibi, nəzəri və təcrübi baxımdan yetkin mütəxəssisə olan ehtiyacını nəzərə alsaq, kitabxanaların çoxsahəli fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Onu da qeyd edək ki, mütəxəssis oxucuların gündəlik mütaliə tələbatının ödənilməsi, onlara kitabxana xidmətinin elmi əsaslar üzərində qurulması sahəsində sahəvi Respublika kitabxanalarının imkanı böyükdür. Ona görə də öz ixtisası və peşəsi üzrə sistemli mütaliə edən hər bir mütəxəssis, eləcə də tədqiqatçı birinci növbədə sahəvi respublika kitabxanalarının xidmətindən istifadə etməyə üstünlük verir.

Mütəxəssis oxuculara xidmət sahəsində Respublika Elmi-Texniki Kitabxanasının zəngin təcrübəsi vardır. Kitabxananın hesabatında deyilir: «Bu gün Respublika Elmi-Texniki kitabxanası respublikanın nazirlik, şirkət, idarə və müəssisələrinə, elmi-tədqiqat və layihə institutlarına, elm və texnika sahəsində tədqiqat aparan ayrı-ayrı mütəxəssislərə, tələbələrə, aspirant və magistratura pilləsində təhsil alanlara məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən respublika mərkəzi hesab olunur» (2.2010.s.).

Hazırda kitab fondu 20 milyona çatmış bu kitabxanada yaradılmış soraq-məlumat aparatı, kataloq və kartoteka sistemi vasitəsilə öz oxucularına fondun məzmunu, tərkibi barədə operativ məlumat verilir, mütəxəssis oxucuların çoxcəhətli sorğularını tam və dolğun ödəmək üçün məqsədyönlü iş aparılır.

Müasir cəmiyyət bu günün mütəxəssisinin qarşısında daha çox tələblər qoyur. Mütaliə vasitəsilə insan həm şəxsiyyət kimi, həm də mütəxəssis kimi bəşər mədəniyyətinə, lazımi söz sərvətinə qovuşur və bunun sayəsində cəmiyyətin tələbinə uyğun olaraq öz yaradıcılıq imkanlarını işə salır, təşəbbüskarlıq edir. Bu təşəbbüskarlıq ölkədə iqtisadiyyatın, təsərrüfatın, mədəniyyətin inkişafında lazımi rol oynayır. Mütəxəssis məqsədyönlü mütaliə etməklə öz həyati funksiyasını düzgün müəyyənləşdirir, davranış və təfəkkürünün stereotiplərini həmin səmtə uyğun qura bilir.

Bütün bunlar kitabxanaçıların mütəxəssis oxucularla iş prosesində nəzərə alınmalıdır. Kitabxanaçılar, xüsusilə sahəvi kitabxanaların abonement və oxu zallarında çalışan peşəkar kitabxanaçılar mütəxəssis oxucuların yaradıcı oxucu tipi kimi formalaşmasına ciddi əhəmiyyət verməlidirlər.

Bunun üçün isə kitabxana şəraitində hər bir oxucuya fərdi yanaşmaq, onun müqabilində fərqli xidmət etmək vacib prinsip kimi həyata keçirilməlidir. Xidmət prosesində fərdi yanaşmanın başlıca məqsədi oxucuların mütaliəsini istiqamətləndirməkdən ibarətdir.

Bu baxımdan Respublika Elmi-texniki kitabxanasında oxuculara fərdi yanaşarkən burada ayrı-ayrı oxucuların yalnız fərdi keyfiyyətlərinin müntəzəm surətdə uçotunu aparmaqla kifayətlənmirlər. Bu işdə hər bir oxucunun sosial-tipik xüsusiyyətləri də müəyyənləşdirilir. Ayrı-ayrı oxucuları bu cəhətdən izləmək prosesində kitabxanaçılar eyniliklə rəngarənglik, ümumiyyətlə fərdlər arasındakı ziddiyyətləri müşahidə edib fərqləndirirlər.

Kitabxanada oxucular açıq rəfdən kitab seçərkən, kataloq və kartoteka sistemindən istifadə edərkən, müəyyən kitaba münasibət bildirərkən kitabxanaçıları baş verən oxşarlığa, tipikliyə fikir verir, oxucularda hiss olunan fərdiliyi, özünəməxsusluğu qeyd edirlər.

Bu günün mütəxəssis oxucusu mükəmməl oxu vərdişlərinə, eyni zamanda bu vərdişləri şərtləndirən konkret bir məqsədə malik olmalıdır.

Mütəxəssis oxucuların mütaliə xüsusiyyətlərindən və mütaliələrinin məzmunundan bəhs edən rus oxucuşünaslardan biri S.İ.Povarnın onları üç qrupa bölür: birinci qrupa o, vərəqləməklə əsas faktları toplayan, maraqlı hesab etmədiyi yerləri ötürməklə mütaliə edənləri, ikinci qrupu təşkil edən oxucuları fəal və passiv olmaqla iki yerə ayırır. Onun fikrincə, mütaliə zamanı bütünlüklə müəllifin təsiri altına düşən, heç bir tənqidi münasibət bildirmədən onun fikirləri ilə qeydsiz-şərtsiz razılaşan passiv oxucular, bir də müəllifin hər bir fikrini özünün təfəkkür süzgəcindən keçirən, «öz mən»in prizması ilə yanaşan, tənqidi münasibət bildirən fəal oxucular vardır. Üçünçü qrupa daxil olan oxuculara isə müəllif dərin mütaliə edənləri şamil edir. Onun fikrincə mütaliə prosesinə ruhi həyatın elementləri nə qədər çox cəlb olunarsa, bir o qədər dərin mütaliə alınar, şüur və hisslərdə əvvəl mövcud olanlarla kitab arasında bir o qədər sıx əlaqə yaranmış olar (3.s.69).

Yuxarıda deyilən fikirlər mütəxəssis oxucunu şəxsi təhsil mütaliəsi ilə məşğul olmağa cəlb edir. Əlbəttə bu hal müvəqqəti xarakter daşıya bilməz. Çünki daim inkişafda olmağa can atan, cəmiyyətdə özünü təsdiq etməyə çalışan mütəxəssis yaşdan-yaşa keçdikcə onun ətraf mühitə, cəmiyyətin və təbiətin mövcud qanunlarını mənimsəməyə olan meyli davam edir. O öz ixtisası ilə əlaqədar olan məlumatlar qazandıqca, yeni-yeni məlumat əldə etmək istəyində olur. Bu baxımdan mütəxəssisin müntəzəm xarakter daşıyan şəxsi təhsil mütaliəsi anlayışı meydana çıxır. Mütəxəssisin öz mənəvi tələbatını ödəməyə yönəlmiş şəxsi təhsil mütaliəsi onun şəxsiyyətinin intellektual inkişafına ciddi təsir göstərir.

Məlum həqiqətdir ki, şəxsiyyətlər öz-özünə yaranmır, mövcud cəmiyyətin sosial münasibətləri sisteminin məhsulu kimi çıxış edir. Bununla belə şəxsiyyət heç də sosial mühitin passiv nəticəsi deyildir. O, özünün praktik fəaliyyətində yaşadığı mühitə fəal dəyişdirici təsir göstərir. Bu cəhətdən zəngin mütaliəsi ilə fərqlənən mütəxəssislər xüsusi qeyd olunmalıdır. Çünki onlar öz əməli fəaliyyətləri ilə cəmiyyətin həm mənəvi, həm də maddi inkişafına kömək edirlər.

Bir cəhəti qeyd edək ki, müxtəlif oxucu qrupları kimi mütəxəssis oxucuların idrakı cəhətdən fəallaşmasında, öyrənməyə, müxtəlif məlumat xarakterli ədəbiyyatı araşdırmağa meylin güclənməsində kitabxanalar, xüsusilə sahəvi kitabxanalar böyük imkana malikdir. Belə ki, sahəvi kitabxanalarda təşkil edilən kitab müzakirələri, elmi konfranslar, tanınmış elm xadimləri ilə görüşlər, disputlar iştirakçılarda yeni-yeni maraq oyadır, müəyyən mənəvi tələbat yaradır, konkret məsələ üzrə müvafiq məlumatı araşdırmaq istəyi aşılayır.

Bu proseslərdə yaranan maraq mütəxəssis oxucuda sabit və dərin mütaliə marağı formalaşdırır.

Tarixi mənbələr təsdiq edir ki, heç bir ali təhsil müəssisəsi, heç bir ali məktəb proqramı öz məzununa təbiətin və cəmiyyətin inkişaf qanunları haqqında lazımi bilikləri tam dolğunluğu ilə verə bilməz. Çünki məhdud zaman çərçivəsi üçün hazırlanan təhsil proqramları bu sahədəki problemləri bütövlükdə əhatə edə bilməz. Ona görə də, ali və orta ixtisas məktəbini bitirən hər bir məzun cəmiyyətin tələbinə uyğun mütəxəssis kimi yetişib formalaşmaq üçün ardıcıl, sistemli, çoxcəhətli və rəngarəng mütaliəyə üstünlük verməlidir.

Elmlərin daim inkişafda olması, eləcə də ayrı-ayrı elmlərin inteqrasiyası və diferensasiyası şəraitində müvafiq elm sahələrinin mütəxəssisləri sahəvi kitabxanaların zəngin kitab fondundan səmərəli istifadə etmədən lazımi mənəvi inkişafa, yetkin mütəxəssis adına yiyələnə bilməz.

Müxtəlif məzmunlu çap məhsullarından səmərələnmək, kitabxanaların xidmətindən lazımi səviyyədə istifadə etmək üçün hər bir mütəxəssis oxucu yüksək mütaliə mədəniyyətinə malik olmalıdır. Yəni mütəxəssis oxucunun sabit, geniş oxucu marağı olmaqla bərabər, özünün mütaliə marağına müvafiq hər bir sorğunu harada və necə axtarmaq yollarını bilməlidir. Bununla əlaqədar mütəxəssis oxucu kitabxanalarda mövcud olan kataloq və kartoteka sistemindən, müxtəlif məzmunlu biblioqrafik göstəricilərdən lazımi səviyyədə istifadə etməyi bacarmalıdır.

Bütün oxucu qruplarının, o cümlədən, mütəxəssis oxucuların kitabxanadan sərbəst istifadə vərdişinə yiyələnməsi üçün kitabxanalar oxucularla müntəzəm iş aparmalıdır. Bu baxımdan respublika səviyyəli sahəvi kitabxanalarda aparılan işlər daha çox səmərə verə bilir.

Respublika Elmi-Texniki kitabxanasında apardığımız araşdırmalar bu fikri söyləməyə əsas verir.

## ƏDƏBIYYAT


1. *Xələfov A.A. Müasir kitabxanaların sosial funksiyaları// Kitabxanaşünaslıq və biblioqrafiya.- B.:BUN, 199.- №2.-3.3-32*
2. *Respublika Elmi-Texniki Kitabxanasının 2010-cu il hesabatı*
3. *Поварнин С.И Типология читателей М.: Книга, 1994.- С.69*



**С.РЗАЙЕВ**
**Г.ГАДЖИЕВА**


## РОЛЬ САМООБРАЗОВАТЕЛЬНОЕ ЧТЕНИЕ В ФОРМИРОВАНИИ КВАЛИФИКАЦИОННАЯ И ПРОФЕССИОНАЛЬНОЕ ЗНАНИЕ СПЕЦИАЛИСТОВ.

### РЕЗЮМЕ


В этой статье характеризируется самообразовательное чтение специалистов и роль чтение в формировании их личности.



**S.RZAYEV**
**G.HACIYEVA**


## THE ROLE OF SELF-EDUCATION READING IN THE FORMATION OF THE QUALIFIED AND PROFESSIONAL KNOWLEDGE OF THE SPECIALIST

### SUMMARY


This article characterizes the specialists self-education and the role of reading in the formation of their personality.

**Sevda XƏLƏFOVA**
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru***

## KITABXANA KATALOQLARININ INKIŞAF FORMALARI

**Məqalə "Universitetdaxili 50+50 qrant proqramı" çərçivəsində işlənmişdir.**

***Açar sözlər:*** *kitabxana kataloqu, informasiya, kitabxana, elektron kataloq, ənənəvi kart kataloqu.*

***Ключевые слова:*** *библиотечный каталог, информация, библиотека, электронный каталог, традиционный электронный каталог.*

***Key words****: library, catalog, information, library e-catalog, traditional card catalog*

Əqli əməyin istənilən forması informasiya axtarışı ilə bağlıdır. Bu axtarışın getdikcə daha da çətinləşdiyini sübut etməyə ehtiyac yoxdur. Çünki axtarış sisteminin özü çətinləşir və getdikcə xüsusi bilik sahəsinə çevrilir. Sistemsiz axtarış həmişə çox vaxt aparır və onun tamlığına təminat olmur. Bununla belə, təəccüblü deyil ki, hətta təcrübəli mütəxəssislər belə lazımi informasiyanın axtarışında öz üsullarının nə dərəcədə rasional olması üzərində bəzən tərəddüd edirlər.

Sənədli informasiya mənbələrinin axtarışının məqsəd və şərtləri o qədər müxtəlifdir ki, bu məsələdə vahid sxem ola bilməz. Məsələn, müəyyən mövzunun tədqiqi üçün müvafiq ədəbiyyatın tam siyahısı lazım olduğu halda, digər mövzu ilə bağlı yalnız müasir və ya əsas nəşrlər kifayət edir; bir tədqiqat üçün ilkin informasiya mənbələrinə çıxış tələb olunduğu halda, bir başqası üçün ikinci mənbələrdəki informasiyalar da kifayət edər.

Kitabxana kataloqlarından, kartotekalarından və biblioqrafik göstəricilərdən bacarıqla istifadə etməklə çətinlik çəkmədən sənədli informasiya mənbələrinin axtarışının sxemini onun məqsədlərinə uyğun tərtib etmək mümkündür.

Kataloqlar kitabxana fondunu açır, onu təbliğ etməkdə, oxuculara ədəbiyyatın seçilməsində və mütaliənin istiqamətləndirilməsində, habelə kitabxana resursları haqqında məlumatın verilməsində xüsusi rol oynayır. Daha doğrusu, kitabxana işinin əsas elementi kimi kitabxana kataloqları kitabxana fəaliyyətinin əsasını təşkil edərək onun ən mühüm funksiyalarının operativ və keyfiyyətli həyata keçirilməsinə həlledici təsir göstərir. Kitabxana kataloqu bir və ya bir qrup kitabxananın fondunda

olan və müəyyən bir prinsip üzrə tərtib edilən əsərlərin siyahısıdır. Kataloq və kartotekalar sisteminin əsas funksiyası kitabxanaların qarşısında duran elm, təhsil, tərbiyə, mədəni-maarif, informasiya vəzifələrinin yerinə yetirilməsini təmin etməkdir. Kataloq və kartotekalar sistemi ədəbiyyatı təbliğ edən ən mühüm vasitədir.

Kitabxana kataloqlarının formaları cəmiyyətin maddi və ictimai şərtlərinin məhsulu sayılır. Hər bir kataloq forması özünün yaranma və inkişaf, həmçinin dünya kitabxanalarında geniş tətbiq edilmə tarixinə malikdir. Cəmiyyətin inkişafının müəyyən dövrlərində kataloqların fiziki formalarının növbələşməsi baş vermişdir. Bəzi mütəxəssislər qeyd edir ki, kitabxana kataloqlarının yeni formalarının yaradılması və yayılmasının əsas səbəbi iqtisadi faktordur. Həmçinin kitabxana kataloqlarının formalarının dəyişməsinin zəruri şərtlərindən biri həmin mərhələdə texnologiya və texniki vasitələrin inkişaf səviyyəsi sayılır.

Son 100 il ərzində kitabxana kataloqlarının tarixi baxımdan inkişafı onları bir neçə formalara və mövcudluq dövrünü ayırd etməyə imkan verir:

1. XIX əsrin sonu-XX əsrin əvvəlləri - kitab formasında çap kataloqları
2. 1920-30-cu illər - kataloqların kartoçka formasının inkişafı
3. 1940-50-ci illər - çap kataloqlarının və maşınlayazılan kartoçkaların fotoofsetli metodlarla hazırlanması və inkişafı
4. 1960-80-ci illər - ilk elektron kataloqların meydana gəlməsi
5. 1990-cı illər - elektron kataloqların geniş miqyasda tətbiq olunması
6. XXI əsrin əvvəlləri - elektron kataloqların digər axtarış alətləri ilə inteqrasiyası (o cümlədən internet).

Deyilənlərdən aydın olur ki, kitabxana kataloqları formasına görə kitab şəkilli, kartoçka formasında, elektron və ya maşınlaoxunan növlərinə ayrılır.

Kitab formasında olan kitab kataloqları fondun az-çox stabil hissəsini əks etdirir. Ənənəvi kitabxanalarda əsasən kataloqların kartoçka formasından istifadə olunur. O, kataloqları kitabxanaya yeni daxil olan kitabların təsviri ilə tamamlamaq imkanı verir, bu zaman təsvirin qəbul olunmuş yerləşmə sırası da pozulmur. Respublikamızın kitabxanalarında da hal-hazırda ənənəvi kartoçka formalı kataloqlardan daha çox istifadə edilir. Müasir informasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq isə son dövrlərdə ənənəvi kataloqlarla yanaşı, elektron kataloqlar da yaradılaraq istifadəyə verilmişdir.

**Kartoçka kataloqları, yayılma səbəbləri və ilkin şərtləri.** XIX əsrin sonu XX əsrin əvvəllərində bütün dünya kitabxanalarında kitabxana

fondunu açan, ayrı-ayrı kitab və ya kitab seriyası şəklində nəşr olunmuş çap kataloqları geniş yayılmışdır. Bu dövrdə çap məhsullarının sayı artırdı ki, bu da kitabxana fondlarının həcminin genişlənməsinə səbəb olurdu. Böyük kitabxanaların fondlarının illik artımı il ərzində 50-75 min cildə çatmışdı. Kitabxanalar öz fondlarına kitab formalı çap kataloqlarının hazırlanması zamanı ciddi maddi və əmək problemləri ilə üzləşmişdilər. Kitab formasında çap kataloqları kitabxanaların fəaliyyətinin dəyişən şərtlərinə uyğun gəlmirdi. Bu səbəbdən kitabxanalara yeni daxil olan kitabları operativ şəkildə əks etdirən və yüksək xərc tələb etməyən yeni kataloq formasına ehtiyac vardı. Bu forma kartoçka kataloqu oldu.

Kitabxana praktikasında kartoçka kataloqunun kütləvi tətbiqinə başlanması XIX əsrin sonlarına təsadüf edir. Hərçənd kartoçka kataloqu qəti şəkildə xeyli sonralar tətbiq edildi. Kitabxanalarda kitab formalı çap kataloqlarından kartoçka kataloquna hərtərəfli keçid XX əsrin 20-ci illərində baş verdi. Bu keçid tədrici təkamül yolu ilə deyil, inqilabi şəkildə oldu və fantastik qısa müddət - bir neçə il ərzində yekunlaşdı. Bu cür sıçrayışın səbəbi I Dünya müharibəsindən sonra dünyanın bütün kitabxanalarının ağır iqtisadi durumda olması idi. Məhz bu dövrdə bir sıra ölkələrdə (Avstiya, Rusiya, Almaniya, ABŞ) kitabxanaları əhəmiyyətli xərclərdən azad edəcək mərkəzləşdirilmiş kataloqlaşdırma orqanlarının yaradılması məsələsi müzakirə olunurdu. Bu kataloqlaşdırma üsulu kitabxana yazılarını əks etdirən kartoçkalardan istifadə etməklə daha asan təmin olundu.

XIX əsrdən başlayaraq kitabxana kartoçkaları həm ölçü, həm də kitab haqqında məlumatların düzülüş ardıcıllığı baxımından müxtəlif görkəm dəyişikliyinə məruz qalmışdı. Ayrı-ayrı kitabxanalarda kartoçkaların müxtəlif forma və növləri tətbiq olunurdu. 1876-cı ildə Amerika Kitabxana Assosiasiyasının təsis konqresində M.Dyui tərəfindən işlənmiş 7,5 x 12,5 sm ölçüdə standart kataloq kartoçkası forması qəbul edildi. Bu forma tədricən digər ölkələrə yayıldı və beynəlxalq status aldı.

Kartoçka kataloqu öz yığcamlığı və operativliyi sayəsində uzun illər kitabxana kataloqunun əsas və geniş yayılmış forması oldu. Amma 1920-ci illərin əvvəllərində kitab formalı çap kataloqunun kartoçka kataloqu ilə əvəzlənməsi birincinin tamamilə aradan qaldırılması demək deyildi. Kartoçka kataloqunun çatışmazlıqlarını yüngülləşdirmək üçün kitabxanalar eyni zamanda kitab formalı çap kataloqundan da geniş istifadə edirdilər. Belə ki, 1946-cı ildə Konqres Kitabxanasının kitab formalı çap kataloqu 167 cilddə nəşr olundu. Çap kataloqları hazırda da müxtəlif daşıyıcılarda buraxılır. Bununla belə, kartoçka kataloqları kitab formalı çap kataloqları ilə müqayisədə daha effektiv olub dövrün

tələblərinə cavab verdi. Sənədlərin müxtəlif əlamətlər (müəllif, başlıq, predmet rubrikası, təsnifat indeksi və s.) üzrə axtarışına imkan verən kataloq sistemi işlənib hazırlandı.

**Elektron kataloqlar, yaranması və formalaşması.** Kataloqun yeni forması olan elektron kataloqun yaradılmasına 1950-ci illərin sonunda ilk kompüterlərin meydana çıxması ilə start verildi. Kataloqun bu formasının inkişafı digər formalardan fərqli olaraq bir neçə mərhələdən keçdi. Yalnız zəruri iqtisadi və texniki imkanların təşəkkül tapdığı dövrdə elektron kataloq kitabxana kataloqunun başlıca formasına çevrildi. Bu, 1990-cı illərin ortalarında baş verdi. Elektron kataloqun formalaşması mərhələlərini nəzərdən keçirək:

**I nəsil elektron kataloqlar**. Kitabxanalarda 1960-cı illərin ortalarında peyda olan biblioqrafik yazının strukturu, onun məzmunu və axtarış elementlərinin yığımı sahəsinə aid ilk elektron kataloqlar kartoçka kataloqu modeli üzrə formalaşmışdır. Axtarış texnikası və axtarış interfeysləri avtomatlaşdırılmış axtarış sistemlərinin imkanları ilə müəyyənləşdirilirdi. Axtarış sahəsində iki müxtəlif yanaşma tətbiq olunurdu: axtarışın kartoçka modeli və məntiqi operatorlardan istifadə etməklə axtarış modeli. Bu modellərdə axtarış parametrləri biblioqrafik təsvirin əsas elementləri ilə məhdudlaşdırılmışdı - müəllif, sərlövhə və yazının nəzarət nömrəsi üzrə axtarış mövcud idi. İlk elektron kataloqlar yalnız ayrı-ayrı sözlərdən istifadə yolu ilə axtarışa imkan verirdi, çoxsözlü axtarış isə sözlərin kombinasiyasının dəqiq təyini üçün yalnız məntiqi operatorların dəqiq müəyyənləşməsi şərti ilə aparılırdı. Axtarışın nəticəsi biblioqrafik yazıların qısa siyahısı formasında təqdim olunurdu. Bütünlükdə 1960-cı illərin elektron kataloqları axtarış imkanları üzrə bir çox hallarda kartoçka kataloqlarından irəli keçə bilmirdilər.

**II nəsil elektron kataloqlar**. İkinci nəsil elektron kataloqların meydana gəlməsi 1980-ci illərin əvvəlinə təsadüf edir. Bu dövrdə elektron kataloqların malik olduğu axtarış imkanları kartoçka kataloqlarının imkanları ilə müqayisə olunurdu. I nəsil elektron kataloqların iki axtarış modeli II nəsil elektron kataloqlarda birləşdirilmişdi. Yeni modeldə axtarış nöqtələrinin sayı artırılmış, axtarış və informasiyanın daxil edilməsi imkanları genişləndirilmişdi. Axtarışı yalnız biblioqrafik təsvirlərin əsas və fakultativ elementləri üzrə deyil, nəşr dili, nəşr tipi kimi parametrlərlə axtarış imkanları da meydana gəlmişdi. Açar sözlər, sözləri kombinasiya etmək imkanı ilə ayrı-ayrı frazalar üzrə axtarış da mümkün olmuşdü.

II nəsil elektron kataloqların vacib müsbət xüsusiyyəti axtarışın nəticələrinə detallı baxmaq funksiyasının meydana gəlməsi idi. Yeni və təcrübəli istifadəçilərin kompüter və informasiya bacarıqları səviyyəsinə

istiqamətlənmiş interfeyslər peyda olmuşdu. Məhz II nəsil sistemlər on-line public access (on-line card catalogue-dən fərqli olaraq) kimi məşhurlaşdı və kütləvi istifadəçilərin ümumi çıxış imkanına istiqamətləndi.

**III nəsil elektron kataloqlar**. Elektron kataloqların üçüncü inkişaf mərhələsi (1990-cı illərin sonu) üçün və avtomatlaşdırılmış axtarış üçün istifadəçilərə yardımçı vasitələrin meydana gəlməsi xarakterikdir. Bu vasitələr axtarış, baxış, seçim və nəticələrin daxil edilməsi imkanlarını əlçatan formada açır.

**IV nəsil elektron kataloqlar.** Müasir dövr elektron kataloqların şəbəkə mühitində təqdim olunması ilə səciyyələnir. İlk elektron kataloqların formalaşması dövründən indiyədək istər biblioqrafik yazıların təqdimatı planında, istərsə də axtarışın təşkili sahəsində kartoçka kataloqları ilə elektron kataloqlar müqayisə olunur. Bu nöqteyi-nəzərdən kartoçka kataloqu ilə elektron kataloqun nəyi əks etdirdiyini ümumi səviyyədə müəyyənləşdirməyə çalışaq:

Kartoçka kataloqu-əlifba üzrə ad başlıqlarının, sərlövhələrin (əlifba kataloqu), predmet rubrikalarının (pretmet kataloqu) və ya təsnifat indekslərinin (sistemli kataloq) yazılarının nizamlı ardıcıllığıdır. Sənədlərin müxtəlif kriteriyalar (ad, sərlövhə, predmet rubrikaları, təsnifat indeksləri) üzrə axtarışının təmin olunması üçün bir sənəd bir neçə kartoçkada tərtib olunur. Onlardan biri əlifba kataloqunda «əsas təsvir»i əks etdirir. Əsas təsvir iki funksiyanı yerinə yetirir. Birincisi, bir-biri ilə əlaqəli əsərləri (məsələn, bir müəllifin əsərlərini bir ad altında) bir yerdə toplamağa imkan verir. İkincisi, əsas təsvir sistem daxilində predmet rubrikalarının və təsnifat indekslərinin göstərilməsi yolu ilə kartoçka kataloqlarının əlaqəsini təmin edir.

Elektron kataloq kartoçka kataloqundan fərqli olaraq, strukturlaşdırılmış biblioqrafik yazıların massivini ifadə edir. Proqram təminatı sənədlərin biblioqrafik yazıda müəyyənləşdirilmiş istənilən element üzrə axtarışını təşkil etməyə imkan verir. Axtarışın nəticələri tapılmış yazıların müəyyən elementlərinin xətti (nizamlı) ardıcıllığı formasında, axtarışın şərtlərinə uyğun olaraq çeşidlənmiş və tapılmış sənədlərin sayının göstərilməsi ilə təqdim oluna bilər. Bu zaman axtarışın nəticələri düzülərkən hansı axtarış elementinin əsas kimi götürülməsindən asılı olaraq ənənəvi kataloqun bəzi növünün analoqu haqqında danışmaq olar. Məsələn, əgər axtarış sərlövhə üzrə aparılıbsa, biz əlifba kataloqunun analoqunu, təsnifat indeksi üzrə keçirilibsə, sistemli kataloqun analoqunu alırıq.

Elektron kataloqun təyinatının çoxsaylı variantları mövcuddur. Onların hamısı bu və ya digər dərəcədə elektron kataloqun müxtəlif

funksiyalarını və ya məqsədini açır, strukturunu və yaxud mövcudluq formasını müəyyənləşdirir. 2006-cı ilə qədər nəşr edilmiş elmi ədəbiyyatlarda elektron kataloqa aşağıdakı tərif verilmişdir: «Elektron kataloq - real zaman rejimində işləyib kitabxana oxucularının istifadəsinə verilən maşınlaoxunan formada kitabxana kataloqudur». Bu təyin kataloqun yalnız ayrı-ayrı xüsusiyyətlərini - iş rejimini və təqdimat formasını əks etdirir.

Elektron kataloqun daha bir tərifi: «Kitabxananın elektron kataloqu (sinonimi: kitabxananın biblioqrafik verilənlər bankı) VBİS (verilənlər bazasını idarəetmə sistemin) kompleksində biblioqrafik və leksikoqrafik verilənlər bazasının məcmusu və ənənəvi kitabxana kataloqları ilə müqayisədə tam yeni axtarış imkanlarını təmin edən tətbiqi proqramların yığımıdır. Müxtəlif biblioqrafik və leksikoqrafik verilənlər bazasının vahid şəkildə birləşdirilməsi keyfiyyətcə yeni anlayışa gətirib çıxarır». Deyilən tərif elektron kataloqu struktur və əlavə axtarış imkanları baxımından xarakterizə edir.

Elektron kataloqun yaradılmasına kitabxana texnologiyalarının digər proseslərindən ayrıca şəkildə baxmaq olmaz. Çünki onlarsız elektron kataloq yalnız ənənəvi kartoçka kataloqunun təkrarı olar. Hər şeydən əvvəl bunlar aşağıda sadalanan texnoloji proseslərdir: komplektləşdirmə (istifadəçilərin informasiya tələbatının və nəşr olunan ədəbiyyatın təhlili), sifariş, nəzarət və mövcud daxilolmaların işlənməsi (kataloqlaşdırma, sistemləşdirmə, fondda sənədin saxlanma yerinin müəyyənləşdirilməsi, soraq aparatının təşkili), istifadəçilərə kitabxana və soraq biblioqrafik xidmət, kitabxana fondları ilə əlaqəli müxtəlif informasiya nəşrlərinin hazırlanması, kitabxana fondlarının vəziyyətinin uçotu və nəzarəti, sənədlərin dövriyyəsinə nəzarət, kitabxanadaxili texnoloji proseslərin təmin olunması (oxucu tələbatının formalaşdırılması, sifariş verilməsi və s.), uçot və statistikanın aparılması, sənədlərin işlənməsi və xidmət texnoloji proseslərinə nəzarət.

«Elektron kataloq» anlayışını formalaşdırmaq üçün onun strukturunu məzmun və fəaliyyət baxımından təyin etmək lazımdır. Kataloqun ümumi strukturu ilk növbədə ayrı-ayrı yazıların daxili strukturu ilə təyin olunur. Elektron kataloqun əsasını maşınlaoxunan biblioqrafik yazıların massivi təşkil edir. Bu biblioqrafik yazılar ənənəvi kataloqda olduğu kimi üç hissədən ibarətdir: 1.Biblioqrafik təsvir; 2.Axtarış nöqtələri; 3.Nüsxələr və yerləşmə haqqında məlumat.

Elektron kataloqa sənəd bütün zəruri əlamətlər (hətta onlar yüzlərlə olsa belə) qeyd edilməklə bir dəfə daxil edilir. Lakin bu əlamətlərin hər biri üzrə axtarış aparmaq olar. Əgər kartoçka kataloqunda biraspektli, yəni yalnız bir əlamət (müəllif və ya hər hansı mövzu) üzrə axtarış

aparılması mümkündürsə, elektron kataloq çoxaspektli sistemdir. Sənəd kompüterə bir dəfə daxil edilir və müxtəlif əlamətlər (müəllif, sərlövhə, açar söz, seriyanın adı və s.) üzrə axtarış aparılaraq ondan dəfələrlə istifadə edilir.

Kartoçka, elektron və ya kitab kataloquna müraciət edilməsindən asılı olmayaraq, onlar fondun məzmununu tam açа, qiymətli ədəbiyyatın seçilməsinə və ədəbiyyat axtarışına yardım edirlər. Qeyd etmək lazımdır ki, kataloqlar yeni maraqların və sorğuların meydana gəlməsinə təsir edir, biliklər sistemi haqqında təsəvvürləri genişləndirir, diqqəti məzmunca daha geniş ədəbiyyat dairəsinə cəlb edir.

## ƏDƏBİYYAT


1. *Вершинин,М.И. Электронный каталог: проблемы и решения.- СПБ, 2006.-235 с*
2. *Минеяров,З.М. Электронный каталог – особая поисковая среда // Науч. и техн. б-ки, 2005.- № 7.- с. 67-72*
3. *Пищальников,С.А. Эволюция библиотечных каталогов: (формы, развитие, состояние, перспективы), Ленинград, 1992.- 200 с.*
4. *Селиванова,Ю.Г. Электронный каталог: формирование и поиск // Библ. дело.- 2004.- № 8 (20).- с. 20-21*
5. *Briant,P. The library catalogue: current state a future trends/ Libr. and inform. science, 1990.- № 28.- p. 11-20*



**С.ХАЛАФОВА**


## ФОРМЫ РАЗВИТИЯ БИБЛИОТЕЧНЫХ КАТАЛОГОВ

### РЕЗЮМЕ


В публикации проанализированы формы и время развития библиотечных каталогов и нынешнее состояние, дана информация о создании и развитии наиболее часто используемых сегодня традиционных карточных и электронных каталогов.



**S.KHALAFOVA**


## DEVELOPMENT FORMS OF LIBRARY CATALOGS

### SUMMARY


The article reflects explanation of development forms and existence period of library catalogs from viewpoint of the history, information on creation and development of currently used at libraries – traditional card catalogs and e-catalogs

**Yusif QAZIYEV**
*276 saylı orta məktəbin müəllimi,*
*əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru*

# NATAMAM ORTA VƏ ORTA MƏKTƏBLƏRİN KİTABXANALARI

## (Azərbaycanda məktəb kitabxanalarının inkişaf tarixindən)

***Açar sözlər:*** *kitabxana, Azərbaycan, xidmət, məktəb kitabxanası, cəmiyyət.*
***Ключевые слова:*** *библиотека, Азербайджан, служба, школьная библиотека, общество.*
***Key words****: library, Azerbaijan, service, school library, community.*

1864-cü il Nizamnaməsinə əsasən XIX əsrin 60-cı illərindən başlayaraq Azərbaycanda natamam orta və orta məktəblər açılıb və onların nəzdində əsaslı və şagird kitabxanaları təşkil edilirdi. Sonra isə uzaq şəhər və kəndlərdən gəlmiş şagirdlərin dərslərinə yaxşı hazırlaşmalarına kömək etmək məqsədi ilə məktəblərin nəzdində pansion kitabxanaları, kasıb şagirdlər üçün dərsliklər və kitab anbarı, sinif rəhbərlərinin təşəbbüsü ilə kiçik sinif kitabxanaları da təşkil edilirdi (1).

1 sentyabr 1865-ci ildə ilk dəfə Bakıda 4 sinifli ali məktəbin əsasında təşkil edilmiş Bakı realnı progimnaziyası bu tip məktəblərdən idi (2). 1865-ci ildə onun əsaslı kitabxanasında 583 adda, 1325 nüsxə kitab, pansion kitabxanasında 2 qlobus, Korablevin bir dənə Rusiya xəritəsi, Sidovun xəritələri, şagird kitabxanasında müxtəlif kitablar (sayı məlum deyildir), 2 böyük qlobus, Sidovun coğrafiya xəritələrindən bir nüsxə, 1 nüsxə ibtidai oxunun tədrisi üçün səyyar əlifba vardır (3). 1868-ci ildə isə progimnaziyanın əsaslı kitabxanasında 746 adda, şagird kitabxanasında 212 manat 27 qəpik dəyərində 99 adda kitab vardır. Şagird kitabxanasında olan kitablardan 6-sı əsaslı kitabxanadan gətirilmiş, 19-u direktor və müəllimlər tərəfindən, 12-i progimnaziyanın pansionçu şagirdləri tərəfindən verilmiş tamaşalardan əldə edilmiş pulun hesabına, 2-i pansionun yetirmələrdən birinin hesabına, 36-ı tədris vəsaitlərinin hesabına, qalanları 4 sinifli ali məktəbinin şagird kitabxanasından əldə edilmişdir (4).

Bakı realnı məktəbinin əsaslı kitabxanası başqa məktəblərə nisbətən zəngin idi. Bununla bərabər kitabxananın hər il əldə etdiyi kitabların sayı QTD-nin (Qafqaz Tədris dairəsi) başqa məktəb kitabxanalarından üstünlük təşkil edirdi. Ancaq şagird kitabxanasında sinifdənxaric mütaliə

üçün kitablar azlıq təşkil edirdi. Buna görə kitabxanada şagirdlərin yaş dərəcələrinə müvafiq mütaliə kitablarının siyahısının tərtibi tələb olunurdu(QTD-nin 1881-ci il sərəncamı. T. 1881, №2-Bakı realnı məktəblərinə dair 1880-ci il hesabatı, səh.3).

Progimnaziyanın kitabxanası əlverişli otaqda yerləşirdi. Belə ki, progimnaziyanın direktorunun 2 iyun 1867-ci ildə QTD-ə yazdığı məktubunda qeyd edilirdi: "Kitabxana, fizika və təbiət kabineti yuxarı mərtəbədə yerləşdirilmişdir. Progimnaziyanın kitabxanaçı ştatına il ərzində 120 manat pul verilirdi və il ərzində tədris vəsaitlərinə 400 manat pul xərcləməyə icazə verilirdi(5).

1iyul 1870-ci ildə Gəncə qəza məktəbi əsasında təşkil edilmiş Gəncə klassik gimnaziyaya çevrildi (ход учебного дела на Кавказ. С. 1802 по 1880 года, Т. 1881). 1878-ci ilin 1 yanvarında əsaslı kitabxanada 443 adda, 1341 nüsxə, 660 manat dəyərində, şagird kitabxanasında 226 adda 367 nüsxə kitab vardır. Şagirdlərin sayı isə 214 (hazırlıq sinfində 95, I sinifdə 52, II sinifdə 32, III sinifdə 21, IV sinifdə 14) nəfər olmuşdur(6). Kitabxananın kitab fondu ilbəil artırdı. Əsaslı kitabxana yalnız 1883-cü ildə 1000 manat dəyərində kitab əldə etmişdir. Əldə etdiyi kitablar riyaziyyata, qədim dillərə və pedaqogikaya aid idi ki, bununla Gəncə gimnaziyası QTD-ə daxil olan gimnaziyalar içərisində üstünlük təşkil edirdi (7). Dərsliklərdən geniş sahədə səmərəli istifadə edilirdi. Kitabxana ayrı ucqar bir sinifdə yerləşirdi. Kitabxana mərkəzi qəzet və jurnallara abunəçi idi, o, 1878-ci ildə 21 adda dövri mətbuat alırdı(8).

1874-cü ilin 9 sentyabrında Bakı Mariya qadın gimnaziyası və 1881-ci ilin 20 sentyabrında Şuşa realnı məktəbi açılıb, onların nəzdində kitabxanalar təşkil edildi. 1882-ci ildə Şuşa məktəbinin kitabxanasında 2116 manat dəyərində kitab vardır. Yalnız 1883-cü ildə kitabxana 833 manat dəyərində kitab əldə etmişdir. Ümumiyyətlə, kitabxanaların kitab fondu kəmiyyət və keyfiyyətcə zəif olmuşdur. Ancaq sonralardan vəziyyət bir qədər yaxşılaşmışdır. Belə ki, QTD popeçitelinin 1884-cü il hesabatında deyilirdi: "Ümumiyyətlə, Dairənin bütün kitabxanaları təlim-tərbiyənin düzgün gedişi üçün yararlı olan, keyfiyyətcə təlim və tədrisin, həmçinin müəllim və şagirdlərin tələbini təmin edən kifayət qədər sayda əsərlərə malikdirlər (9)".

Beləliklə, XIX əsrin sonunda 7, XX əsrin II onilliyində 18 natamam orta və orta məktəb kitabxanası fəaliyyətdə idi. Kitabxanalrın kitab fondu ilbəil artmışdır. 1884-cü ildə fəaliyyətdə olan 4 kitabxana cəmi 22305 manat dəyərində, 4895 adda, 12153 nüsxə, 1900-cu ildə 7 kitabxanada 67107 manat dəyərində, 24153 adda, 51552 nüsxə, 1902-ci ildə 8 kitabxanada 77612 manat dəyərində, 29076 adda 60985 nüsxə, 1913-cü ildə 18 kitabxana 130752 manat dəyərində 54764 adda, 109906

nüsxə kitab olmuşdur. Həmin illər üzrə şagirdlərin sayı-1256, -3649, -4596, -7114 nəfər olmuşdur(10).

Digər tip məktəb kitabxanaları kimi orta məktəb kitabxanalarının kitab fondu ictimaiyyətin və fərdi şəxslərin yardımı ilə də artırdı. QTD-nin 1871-ci il hesabatında Bakı realnı gimnaziyası haqqında deyilirdi: "Valideynlərdən biri Şuşkiy Pupko Bakı gimnaziyasının təntənəli yığıncağı günü oğlunun orada (ginmaziyada-Y.Q.) təhsil aldığına görə razılıq əlaməti kimi ona (gimnaziyaya-Y.Q.) hədiyyə olaraq özünün mühüm kitabxanasını gətirmişdir. Mən gimnaziyanın müsəlman şagird-lərindən birini, Osman Qoma Məmmədli məmnuniyətlə xatırlayıram: təəssüf ki, vəfat etmişdir.

O, kiçik ianə toplanışında ona (gimnaziya-Y.Q.) 5 kitab gətirmiş-dir" (11). Fərdi şəxslər məktəblərə nəinki kitab, paltar və digər əşyalarla yardım edirdilər, onlar hətta bina ilə yardım göstərirdilər. Məsələn, 1864-cü ilin 2 aprelində Zaqatala qadın məktəbi açılarkən Mayor Mahmud Ağa Həsən Ağa oğlu öz 2 evini məktəb binasi üçün həmişəlik vermişdir (12).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycanda məktəblərə ictimaiyyət tərəfindən edilən kömək QTD-ə daxil olan başqa quberniya və qəzalarından xüsusilə fərqlənirdi. Belə ki, 1871-ci il hesabatına görə ictimaiyyət tərəfindən kömək olmadığı üçün Tiflis və Stavropol pansion-ları bağlanmışdır. Daha sonra hesabatda deyilir: "Ancaq Bakıda gimnazi-yanın köməkçi müəssisələrinin işi müqayisə edilməz dərəcədə yaxşıdır: iki fərdi şəxs gimnaziyanın müdiriyyətinin razılığı ilə yanlarında ümumi şagird yataqxanası açmışlar, orada valideynlər 14 gimnaziyaçı yerləşdir-mişlər"(13).Həmçinin QTD-nin 1882-ci il hesabatında deyilirdi: "Tərkibi 125 nəfərdən ibarət olan şagirdlərə Bakı kömək cəmiyyəti təhsil haqqına, tədris vəsaitləri və kitabların alınmasına, paltar, ayaqqabı və digər vəsaitlərə cəmi 3658 manat xərcləmişdi. Eyski 336 manat, Vladiqafqaz isə 700 manat xərcləmişdi"(14).

Kitabxanalarda olan kitablar köhnə idi. Kitab və dərsliklər yeni nəşrləri ilə nadir vaxtlarda əvəz edilirdi. XIX əsrin 80-ci illəri ərzində yalnız Şuşa realnı məktəbinin kitabxanasında olan dərsliklərdən bir neçəsi yenisi ilə əvəz edilmişdir: tərsimi həndəsə, mexanika, alman dili, I və II siniflər üçün bir neçə dərslik(15).

Təlim işinin səmərəliyini yüksəltməkdə natamam orta və orta məktəb kitabxanalarının qarşısında aşağıdakı vəzifələr olurdu.

1. Kitabxanalar müntəzəm olaraq öz kitab fondunu zənginləş-dirməli, müəllimlər pedaqoji metodiki, didaktiki və dövri mətbuatla şagirdlərin dərslik və müxtəlif yaş dərəcəsinə uyğun sinifdənxaric müta-liə üçün yararlı kitablarla təmin etməli, tədris işinə yaxından kömək göstərməli idi.

Bu vəzifənin həyata keçməsi üçün XMN-nin 30 iyul 1871-ci ildə qəbul etdiyi orta məktəblər haqqındakı Nizamnaməsinin 70 və 74-cü paraqrafın tələbinə uyğun olaraq kitabxanalar kitabları fənn müəllimlərinin siyahısına əsasən məktəblərin pedaqoji sovetlərində təsdiq edilmiş siyahı üzrə əldə edirdilər.

Lakin 1873 və 1874-cü il yoxlamalarından aydın olmuşdur ki, kitabxanalarda, xüsusən şagird kitabxanalarında dərsliklər və sinifdənxaric mütaliə üçün mövcud olan kitablar heç də yararlı deyildir. Ona görə XMN kitabxanalara kitabların verilməsini Nazirliyin nəzdində Elmi Komitəyə, pedaqoji Sovetə və ya Tədris Dairə İdarəsinə tapşırırdı (16).

Mənbələrin birində deyilirdi: Pedaqoji Sovetlərin üzvlərinin nə vaxtları, nə imkanları vardır, nə də vəzifəsi deyilirdi ki, cari ədəbiyyatı izləsinlər, fənlər üzrə yeni çıxan əsərləri oxusunlar, nə də şagirdlərin tələbinə uyğun olduğunu qiymətləndirə bilsinlər...(16)

Nəhayət, XMN-nin Elmi Komitəsi 28 iyun 1883-cü ildə orta məktəb kitabxanaları üçün kitabların seçilməsini və şagirdlərə kitab verilməsini aşağıdakı kimi müəyyənləşdirə bildi:

a) Məsləhət görülür ki, məktəblərdə kitabların elmi və tədris əhəmiyyəti nəzərə alınaraq və eyni növlü kitablar başqaları ilə müqayisə edilərək, pedaqoqların fikri ilə layiqli və istifadəsi üstün tutulan kitablar təqdim olunsun.

b) Öz məzmun və ifadəsi ilə təlimin məqsəd və tələbini ödəyə bilən kitabların seçilməsi tövsiyə olunur. Ancaq onların məzmunu eyni şöbədən olan bir çox başqa kitablarla bir səviyyədə olsun.

c) İmkansız şərait yaranarsa, məzmun və ifadəsində bəzi nöqsanlar olan kitabların seçilib istifadə edilməsinə o halda icazə verilir ki, onlar heç olmasa müəyyən qədər faydalı olsun.

Lakin demək olar ki, çar Rusiyasının bütün məktəblərində şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsi üçün seçilən kitabların şagirdlərin yaş dərəcəsinə uyğun olması, məzmunca keyfiyyətli olması bütün dövrlərdə heç də adi vəziyyətdə olmamışdır. Ona görə yenə də QTD-ə daxil olan orta məktəb müdirlərinin 1903-cü ilin dekabrında Tiflisdə çağırılmış iclasında deyilirdi: "Tədris işindən sonra sinifdənxaric mütaliəni təhsil vasitələri sırasında ən mühüm əhəmiyyəti vardır və o əqli münasibətlərdə çox qüvvətli təsir göstərir. Ona görə bütün müəllimlər və sinif rəhbərləri əxlaq tərbiyəsinin əsas anlayışlarından baş çıxarması, mütaliə üçün ciddi və tam müvafiq tərbiyə məqsədi güdən kitabların seçilməsinə lap ciddi diqqət yetirməli, öz təcrübə və nüfuzlarından istifadə edərək əqlin hərtərəfli inkişafına kömək göstərməlidirlər(17).

2. Şəhər məktəb kitabxanalarında olduğu kimi sinifdən və məktəbdənxaric mütaliə vəsaitləri şagirdlərin estetik və əqli tərbiyələrinin

formalaşmasına və inkişaf etdirilməsinə yaxından kömək etmək vəzifəsi irəli sürülürdü.

Qeyd edilən vəzifənin həyata keçməsi üçün məktəblərdə bütün müəllim kollektivinin köməyi ilə rəhbərliyi ilə kütləvi-mədəni tədbirlər həyata keçirilirdi.

3.Sinifdən və məktəbdənxaric mütaliəni bütün fənlər üzrə təşkil etmək, şagirdlərin mütaliəsini sinifdə verilən dərs materialının möhkəmləndirilməsi və dərinləşdirilməsi işinə xidmət etdirmək(17a)

Bu vəzifənin dürüst yerinə yetirilməsi məqsədi ilə kitabxanada fənlərə dair mütaliə kitabları fənn müəllimlərinin sərəncamına verilirdi.

Dövrü mətbuatda deyilirdi: "İşin müvəffəqiyyətli aparılması üçün onların (fənn müəllimlərinin-Y.Q.) hər birinin sərəncamında öz fənninə aid ədəbiyyatın olması vacibdir ki, onlar dərslərdə keçilənləri müvafiq əsərlərlə genişləndirsinlər(18). Bu fikir qeyd edilən məqsədə uyğun həyata keçirdi. Belə ki, fənn müəllimləri və həmçinin sinif rəhbərləri fənlər üzrə şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsinə rəhbərlik edirdilər.

Şagirlərin məktəbdənxaric mütaliəsində sinif rəhbərləri daha böyük rol oynayırdılar. Onlar ailələrə və yataqxanalara müntəzəm baş çəkib, valideynlərə pedaqoji mərifətlər aşılayıb, şagirdlərin məktəbdənxaric bütün işləri ilə halı olurdular. Mənbələrin birində deyilirdi: "Şagirdlərin məktəb və məktəbdənxaric həyatlarının normal istiqamətləri üçün zəruri tədbirlərin görülməsi məqsədi ilə sinif rəhbərləri nəinki şəxsi mənzillərdə, eləcə də ailələrinin və qohumlarının yanında yaşayan şagirdlərə baş çəkirdilər, bununla himayəsində olan şagirdlərin valideynləri ilə əlaqəyə girirdilər (19).

4. Şagirdlərin mütaliəsini müntəzəm və ardıcıl aparmaq, şagirdlərdə mütaliəyə maraq oyatmaq, mütaliə prosesində təhsil və tərbiyəvi əhəmiyyət güdmək.

Qeyd edilən vəzifənin yerinə yetirilməsində QTD-ə daxil olan bütün orta məktəblər içərisində Gümrü (Aleksandropol) kimi gimnaziyasının təbiət, tarix və gigiyena müəllimi N.S.T.Saakovun işi daha məqsədəuyğun idi. O, şagirdlərin mütaliəsini ardıcıl, müntəzəm və sistematik aparmaq üçün şagirdlərə həftədə 2 saat mütaliə dərsi təşkil edirdi. Şagirdlərin məşğələlərə davamiyyəti məcburi idi(18a). Məşğələdə oxunacaq və oxunmuş kitablar barədə söhbət və digər əməli işlər təşkil edilirdi. O, şagirdlərdə mütaliəyə maraq oyatmaq, onları mütaliəyə alışdırmaq və mütaliə prosesində təhsil və tərbiyəvi əhəmiyyət güdmək məqsədi ilə III sinifdən başlayaraq kitab tədavülü vaxtı hər bir şagirddən oxuduğu kitabın məzmununa dair aşağıdakı sualdan ibarət yazılı məlumat da tələb edirdi:

1. Oxunmuş əsərin qısa şərhi. 2. İştirak edən şəxslərdən kimlər xoşuna gəlir, kimlər gəlmir və nə üçün? 3.Müəllif öz əsərində bizə nə demək istəyir (18b). Bununla bərabər, o, şagirdlərin mütaliəsini istiqamətləndirmək üçün sinif kitabxanasında olan kitabların qısa məzmunu ilə bərabər siyahısını və mütaliəyə dair təlimat tərtib edib divara vururdu. Təlimatda hansı kitabları oxumaq, necə oxumaq, oxu prosesində ən çox nələrə fikir vermək və sair məsləhətlər qeyd edilirdi(18c).Bu nümunəvi iş QTD-ə daxil olan natamam orta və orta məktəblərdə həyata keçirilməsinə çalışırdı.

Natamam orta və orta məktəb kitabxanalarının qarşısında qoyulan məqsəd və vəzifələrlə bağlı olaraq kitabxanalarda məktəb kollektivinin rəhbərliyi ilə aşağıdakı işlər aparılırdı: kitab tədavülü, mütaliə məşğələləri, qiraətlər, kitab müzakirələri, söhbətlər, ədəbi-bədii gecələr, səhərciklər, teatr tamaşaları, oxunmuş əsərlərə dair şagird rəyləri və konspektlər tərtibi idi ki, bu sonrakı 2 iş şəhər məktəb kitabxanalarında təsadüf edilmir. Ümumiyyətlə, natamam orta və orta məktəb kitabxanalarının apardığı işlərin məzmun və forması şəhər məktəb kitabxanalarının apardığı işlərin məzmun və formasından fərqlənərək kəmiyyət və keyfiyyətcə üstün idi.

Azərbaycanda XIX əsrin sonlarında 7, XX əsrin əvvəllərində isə 18 natamam orta və orta məktəblərdə fəaliyyət göstərən kitabxanaların qarşısında aşağıdakı vəzifələr dururdu: kitab fondunu zənginləşdirmək; müəllimləri pedaqoji, metodiki, psixoloji ədəbiyyatla təmin etmək; sinifdən və məktəbdənxaric mütaliə vasitəsilə şagirdlərin estetik və əqli tərbiyəsinin formalaşması və inkişaf etdirilməsinə yaxından kömək etmək; sinifdən və məktəbdənxaric mütaliəni bütün fənlər üzrə təşkil edib, tədris materialının möhkəmləndirilməsinə və dərinləşdirilməsinə nail olmaq; şagird mütaliəsini müntəzəm və ardıcıl aparmaq (17b).

Qeyd edilən vəzifələr aşağıdakı iş üsulları ilə yerinə yetirilirdi: kitabxana xidmətləri, ədəbi bədii qiraətlər, mədəni-kütləvi tədbirlər və teatr tamaşaları, gecələr və səhərciklər, oxunmuş əsərə dair söhbətlər və onların məzmununun nəql etdirilməsi, mütaliə edilmiş əsərlərə dair konspekt və referat yazmaq.

Kitab tədavülü və sinifdənxaric mütaliənin təşkili işi bütün məktəb kitabxanalarında mövcud idi. Ancaq Bakı gimnaziyasında bu iş daha səmərəli aparılırdı. Gimnaziyanın kitabxanası bacarıqlı əllərə tapşırılırdı. Burada şagirdlərin sinifdənxaric mütaliəsinə daha böyük əhəmiyyət verirdilər. Hətta xarici dillərdə olan kitabların da mütaliəsi təşkil edilirdi. Təsadüfi deyildir ki, QTD popeçitelinin 1868-ci il hesabatında deyilirdi:” Kitabxanaya gimnaziyanın inspektoru müdirlik edir və o, həm də mütaliədə şagirdlərə rəhbərlik edir, mən bu haqda qeyd etməkdən çəkinirəm

ki, onun rəhbərliyi altında 4-cü sinif şagirdlərindən bəziləri kitabxanada olan fransız dilində bir neçə uşaq povestlərini oxumuşlar" (20).

Qadın gimnaziya və progimnaziyalarında şagirdlərə kitabxana xidməti işinin təşkili sonradan belə qurulurdu: "Gimnaziya və progimnaziyaların şagird kitabxanaları pedaqoji şuralar tərəfindən xüsusi seçilmiş şəxslərin müdirliyi altında idi, onlar tədris müəssisələrinin kasıblığı üzündən öz əmək haqlarına xüsusi mükafat alırdılar. Bəzi gimnaziyalarda aşağı siniflər üçün olan kitablar ayrı-ayrı siniflərin rəhbərliyi arasında bölüşdürülmüşdür, onlar kitabların mübadiləsini idarə edirdilər; yuxarı siniflər üçün olan kitablar isə tədris fənlərinin müəllimləri arasında bölüşdürmüşdür (21).

Burası da maraqlıdır ki, şagirdlərdə müstəqil işləmək bacarığı əldə etmək məqsədi ilə QTD-nin bir çox qabaqcıl natamam orta və orta məktəblərinin sinif kitabxanalarında kitab tədavülünə fəal şagirdlər rəhbərlik edirdi(18ç).

Sinifdənxaric qiraətlər realnı məktəblərin və gimnaziyaların ibtidai siniflərində daha yaxşı aparılırdı. Burada qiraətin forması izahlı oxu idi. Oxu prosesində çətin sözlər aydınlaşdırılırdı. Qiraətin təşkilində asandan çətinə prinsipi əsas tutulurdu: əvvəlcə kiçik təmsillər, sonra mürəkkəb hekayə və nağılların qiraətinə başlanırdı. O cümlədən elm və coğrafiya yeniliklərinə dair mətbuatda çap edilən məqalələrin də qiraəti keçirilirdi. Məktəbdə sinifdənxaric aparılan qiraət yekunlaşdırılaraq oxunmuş material barədə sual-cavab və söhbət aparılırdı və bəzən də şagirdlərə tapşırıq verilirdi ki, oxuduqları materialın məzmununu evdə yazıb gətirsinlər. Növbəti məşğələdə onun nəticəsi yoxlanılırdı. Siniflər üzrə sinifdənxaric təşkil edilmiş belə qiraətlərin təlim işində böyük rolu olurdu. Əvvələn, kitabxanada olan kitabların məzmunu ilə mütaliə etməyən şagirdlər də tanış olurdu; ikincisi, yerli(rus olmayan) şagirdlərin oxu prosesində etdikləri avaz, üslub, tələffüs səhvlikləri düzəldilirdi ki, bunun da rus dilini öyrənmək üçün şagirdlərə böyük köməyi olurdu (18d).

QTD-nin qabaqcıl məktəblərində, I və II siniflərdə sinifdənxaric alışırdılar. Artıq III sinifdə ev oxusu üçün şagirdlərə kitabxanada sinif və fənn müəllimlərinin razılığı ilə kitablar verilirdi və şagirdlərin mütaliə keyfiyyətinə dair uçot vərəqi təşkil edilirdi (18e).

Sinifdənxaric qiraət məşğələlərində və məktəbdənxaric mütaliədə rus və xarici dillərin şagirdlər tərəfindən mükəmməl öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Lakin xarici dillərdə olan kitabların şagirdlər tərəfindən mütaliə edilməsi yalnız xarici dilləri öyrənmək məqsədi güdmürdü. Burada digər fənlərin də mükəmməl öyrənilməsi məqsədi nəzərdə tutulurdu. Belə ki, 70-ci illərdə orta məktəblərdə tədris edilən fənlərə dair mütaliə kitabları rus dilində çatışmırdı. Lazım gəlirdi ki,

şagirdlər mütaliə prosesində xarici dillərdə(alman və fransız) olan kitablardan da istifadə etsinlər. Onlar oxuduqları əsərə dair xarici dillərdə ifadə yazırdılar. Bununla şagirdlər nəinki müstəqil fəaliyyət vərdişi qazanırdılar, həmçinin öyrənilən dillərdə ədəbiyyatdan istifadə etmək bacarığı əldə edirdilər ki, bununla bu və ya digər dilin tədris məqsədi həyata keçirdi (22).

Bu münasibətlə QTD popeçiteli K.P.Yanovski QTD-nin 8 fevral 1879-cu il 654 nömrəli sərəncamında qeyd edilirdi: "Bütün məktəb kollektivi əlbir olaraq, yuxarı siniflərdə şagirdlərin ev oxusu üçün... necə rus dilində, eləcə də xarici dillərdə, qədim və müasir xarici dillərdə olan ən yaxşı əsərlər təyin etməlidirlər. Əlbət ki, şagirdlərin onlarla(əsərlərlə-Y.Q.) tanışlığı başqa fənlərin öyrənilməsinə də kömək edəcəkdir... təyin edilmiş bu əsərlərdən müxtəlif tədris sənədlərinə dair məlumatlarla istifadə etmək lazımdır.

Nəhayət, şagird oxuduğu əsərə dair müəllimin razılığı ilə qədim və ya müasir xarici dillərin birində ifadə yazmalıdır. Tədris fənləri arasında belə bir əlaqədə gözləmək olar ki, şagird nəinki müstəqil fəaliyyət vərdişi qazanır, eləcə də orta məktəblərdə öyrənilən dillərdə ədəbiyyatdan istifadə etmək bacarığı əldə edir ki, bununla da bu və ya digər dilin tədrisinin məqsədi təşkil edilə bilir, təəssüf ki, bu məqsədə hər yerdə nail olunmur.

Aşağı siniflərdə əlavə məşğələlərdə, məsələn, mütaliə zamanı, onlara (şagirdlərə-Y.Q.) nəzərdə tutulan məqalənin qiraətində rast gələn müxtəlif söz və ifadələri tanış etmək lazımdır. Ayrı-ayrı bu və ya digər söz və ifadələrin şagirdlərə şüurlu olaraq mənimsədilməsi məqsədi ilə, onlar imkan daxilində mütləq tərcümə edilməlidir.

Ancaq xarici dillər üzrə də şagirdlərin sinifdənxaric mütaliəsi zəif və səmərəsiz idi. Şagirdlərin xarici dillərdə mütaliəsi dərsliklərlə məhdudlaşırdı. Mütaliəyə rəhbərlik ardıcıl aparılmalıdı. Mənbələrin birində deyilirdi:" Aydındır ki, müasir xarici dillərdə ədəbiyyatdan istifadə etmək bacarığı bizim məktəblərdə heç vaxt məqsədə çatdırılmamışdır və şagirdlər tərəfindən bircə qrammatik qaydaların öyrənilməsi və müntəxəbatdan tərcümələr vasitəsilə məqsədə çatmaq olmaz: yalnız şagirdlər məktəbi qurtarana qədər məktəbin özündə xarici dildə ədəbi əsərlərin sərbəst mütaliəsinə dair sadədən başlayaraq tədricən mürəkkəbə doğru aparılan təlim onlara(şagirdlərə) bu dilin ədəbiyyatından istifadə etmək imkanı verir. Xarici ədəbi əsərlərin belə sərbəst mütaliəsini zəruriliyi bizim orta məktəblərdə yeni dillərin tədrisini yaxşılaşdırmasına aid məsələlər müzakirə edən komissiyanın da nəzərinə çatdırılmışdır.(QTD popeçitelinin 1879-cu il sərəncamı, T. 1879,№ 4 )

Qeyd edilən qüsurların aradan qaldırılması məqsədi ilə 80-ci illərədən başlayaraq məktəb kitabxanalarında şagirdlərin xarici dillərdə

sərbəst mütaliələri üçün xarici dillər(alman və fransız) şöbəsi təşkil edilməyə başlandı. (QTD-nin 1883-cü il hesabatı, T. 1884, səh.3-4). Bunun da şagird mütaliəsinin təşkili üçün böyük əhəmiyyəti oldu.

Natamam orta və orta məktəb şagirdlərinin sinifdənxaric mütaliəsi işində ən çox istifadə edilən üsullardan biri də söhbətlər və oxunmuş əsərlərin qısa məzmununun nəql etdirilməsi, bunlara dair konspekt və referatların yazılması idi. Təəlim və tərbiyə keyfiyyətinin yüksəldilməsi, şagirdlərin əqlini inkişaf etdirmək məqsədi ilə onlara ev tapşırığı olaraq bütün fənlərə dair müəyyən əsərlərin mütaliəsi tapşırıldı, vaxtaşırı şagirdlər tərəfindən oxunmuş və oxunacaq əsərlərə aid ədəbi söhbətlər təşkil edildi (17c).

Natamam orta və orta məktəblərdə ibtidai və qəza məktəb kitabxanaları ilə müqayisədə sinifdənxaric mütaliəyə daha ciddi fikir verilirdi. Şagirdlərin sinifdənxaric mütaliəsinin daha səmərəli olması üçün müxtəlif metod və üsullardan istifadə edilirdi. Belə ki, natamam və orta məktəb şagirdlərinin musiqiyə marağından istifadə edən müəllimlər şagirdləri belə tədbirlərə o şərtlə buraxırdılar ki, onlar ən yaxşı mütaliəçi olsunlar. Tədbirdə iştirak edən şagirdin mütaliə keyfiyyəti hərtərəfli yoxlanılırdı.

Bu baxımdan QTD-nin popeçitelinin 1880-ci il hesabatında dairəyə daxil olan natamam orta və orta (progimnaziya və gimnaziya) məktəblərinin bir çoxunda məktəblərin ictimaiyyətlə yaxınlaşması nəticəsində müəllim və şagirdlərin təşəbbüsü ilə ifaçıları şagirdlərdən olan ədəbi-musiqi səhərciklər və gecələr təşkil edilirdi. Şagirdlər bu tədbirlərə o şərtlə buraxılırdı ki, onlar müəllimlər tərəfindən seçilmiş və tapşırılmış ədəbi əsərlərin mütaliəsini şüurlu, aydın, yüksək, bundan başqa xoş avazla ifadə edə bilsinlər; həmçinin yaxşı mahnıları aydın, səlis və lazımı qaydada yerinə yetirə bilsinlər. Belə yığıncaqların Qafqazda çox əhəmiyyət daşıdığı vurğulanırdı.

Ədəbi söhbətlər Bakı realnı məktəbində daha nümunəvi təşkil edilmişdir: oxunmuş və oxunacaq əsərlərə aid aparılan söhbətlərdə şagirdlər müəllimə və yoldaşlarına şəxsi mütaliələri haqqında məlumatlar verib maraqlı epizodlar və süjetlər danışırdılar. Söhbətlər qeyri rus şagirddə düzgün rus nitqinin formalaşmasına kömək edirdi. Söhbətlər həm də fənn materiallarının dərindən mənimsənilməsinə və mütaliəyə ciddi münasibətə xidmət edirdi(23).QTD popeçitel Şurasının iclasında qeyd edilir ki, ədəbi söhbətlər təlim və təhsilin gedişinə müsbət təsir göstərir, bu iş şagirdlərin yazılı və şifahi nitqlərinin yaxşılaşdırılmasında ən qəşəng və faydalı məşğələlərdən biridir(17ç).

Sinifdənxaric mütaliəyə həsr edilmiş ədəbi və elmi söhbətlərə şagirdlər 2-3 həftə qabaqcadan hazırlaşırdılar. Müəllim və ya kitabxanaçının tapşırığı ilə şagirdlər hər hansı fənnə dair tövsiyə edilən

əsərləri oxuyub ya konspekt tuturdular, ya da referat yazırdılar. Sinifdən və məktəbdənxaric oxunmuş əsərlərə dair konspekt və referatların yazılmasına Bakı realnı məktəbinin yuxarı siniflərində ciddi fikir verilirdi. Orada bu işlərin nəticələri vaxtaşırı pedaqoji şuralarda müzakirə edilib lazım olan pedaqoji və metodiki işlər aparılırdı(17d).

Oxunmuş əsərlərin müzakirəsi üçün opponentlər təyin edilirdi. Opponentlər müəllimin göstərişi ilə ədəbi və ya elmi söhbətin keçirilməsinə 2-3 gün qalmış tapşırılmış əsəri mütaliə edən yoldaşlarının konspekt və ya referatlarını oxuyub tanış olurdular. Söhbət zamanı opponentlər çıxış, tənqid və təkliflər edirdilər, əsər və onun haqqında yazılmış rəylər barədə fikir mübadiləsi gedirdi. Müəllim mübahisəyə rəhbərlik edirdi və söhbətin sonunda danışıq və fikirləri yekunlaşdırıb öz rəyini deyirdi(17e).

Aparılan ədəbi söhbətlər fərdi və kütləvi formada aparılırdı. Kütləvi formada olan söhbətlər daha məqsədəuyğun və təsirli hesab edilirdi. Belə ki, şagird mütaliəsinə həsr edilmiş belə söhbətlər valideynləri məktəbə yaxınlaşdırırdı, şagirdləri məktəbin məqsədinə uyğun ruhda tərbiyə edirdi və onların asudə vaxtları səmərəli təşkil olunurdu. QTD-nin popeçitel şurasında deyilirdi: "Mütaliə və söhbətin məharəti təşkilində şagirdlər məktəbin tələb etdiyi ruhi qida keyfiyyətini anlayırlar,...zəhmət çəkmədən maarifçi dostlara (valideynlərə-Y.Q.) yaxınlaşırlar. Eləcə də gəncliyin yüngülxasiyyətliliyi sakit zövq və əyləncələrə qapılır və şit ədəbazlığa toxunurlar..."(17ə).

Baxmayaraq, tərəqqipərvər elm, mədəniyyət və incəsənət xadimlərinin əsərlərinə aid şagirdlərin mütaliəsi ilə əlaqədar olan ədəbi söhbətlər proqram materialını möhkəmləndirir, şagirdlərin əxlaq və estetik tərbiyəsini zənginləşdirirdi, ümumiyyətlə təlim və tərbiyənin keyfiyyətini yüksəldirdi (24), lakin şagirdlərdə ictimai mühitə və quruluşa qarşı etiraz hissləri, mənfi münasibətlər yaradırdı. Xüsusən 1905-1907-ci illər inqilabı ərəfəsində şagirdlər arasında nizam-intizam pozulmuşdur, onlar inqilabi ruhda çıxışlar edib mövcud ictimai quruluşa nifrət bəsləyirdilər. Bu vəziyyət QTD popeçiteli 1903-cü ildə Tiflisdə çağırılmış öz Şura iclasında orta məktəb müdirlərinin iştirakı ilə müzakirə edilərdi, işin əsl mahiyyəti ört-basdır edilib və bir çox məktəb tədirləri kimi şagirdlərin sinifdənxaric mütaliəsinə dair ədəbi söhbətlərin də aparılmasını qadağan edir, onun fəaliyyətini anti-pedaqoji fəaliyyət kimi pislənərək qeyd edilirdi: "Pedaqoqlar tərəfindən müdafiə olunan şagird ədəbi söhbətlərinə gəldikdə Şuranın üzvlərinin diqqəti ona yönəldilmişdir ki, təntənəli, kütləvi xarakterli bu söhbətlər pedaqoji münasibətdə xoşa gəlməyəndir. Belə ki, onlar əxlaq tərbiyəsinin məqsədlərinə daban-dabana zidd olan keyfiyyətlər-özünü həqiqətdə

mövcud olmayan ən yaxşı, bacarıqlı qələmə vermək cəhdi; yoldaşlarından özünü qabaqcıl göstərmək və yalan heysiyyat doğura bilər; bundan başqa belə növ söhbətlər iştirakçılara həyəcanlandırıcı təsir göstərir, onların mənəvi rahatlığını və səbrini əlindən alır, lakin şagirddə belə coşğun əhval-ruhiyyəni tamamilə qəbul etmək olmaz" (17c).

Şagirdlərin estetik zövqlərinin inkişafı naminə xarici və rus müəlliflərinin ən yaxşı əsərlərinin mütaliəsi əsasında təşkil edilmiş musiqili səhərciklərin təşkili daha faydalı olurdu. Bu səhərciklərə şagirdlər yaradıcılıqla hazırlaşırdılar(17, 8). Belə səhərciklərə valideynlər də dəvət olunurdu. Şuşa realnı məktəbi belə səhərcikləri daha nümunəvi təşkil edirdi (25).

Şagirdlərin estetik zövqlərinin inkişaf etdirilməsi məqsədi ilə ən çox geniş yayılmış iş forması teatr tamaşaları vermək idi.

Bu iş forması 2 məqsəd güdürdü: teatr tamaşaları vasitəsilə pul toplamaq, həmin pulla kitabxana fondunu zənginləşdirmək və digər məktəb avadanlıqları əldə etmək; təlim keyfiyyətinə kömək etmək və şagirdlərin estetik tərbiyəsini inkişaf etdirmək idi. Lakin XX əsrin əvvəllərində QTD popeçitelinin Şurası bu iş formasını məhdudlaşdırmağı lazım bildi. Orada deyilirdi: "Tamaşalar tamamilə şagirdlərin tərbiyəsi işinə xidmət etmir, ancaq onlar fikirlərdə arzu edilməz istiqamətlər oyadır və məşğələlərin müvəffəqiyyətli gedişinə tez-tez əngəl törədir: gülməli səhnə mühit və hazırlanmış aktyorların oyunları estetik anlayışların təhrif edilməsinə xidmət edir, onların(teatr əsərlərinin-Y.Q.) mənimsənilməsinə və başa düşülməsinə xidmət etmir, məşqlər çoxlu vaxt apararaq birbaşa məşğələlərə zərər gətirir, ... Şura təklif edərdi ki, məktəbdə dramatik əsərlərin mütaliəsi imkan daxilində geyimlə rollar üzrə nümayiş etdirilmədən aparılsın (17f.).

Qeyd etmək olar ki, şagirdlərin teatr tamaşalarının QTd popeçitel Şurası tərəfindən məhdudlaşdırılmasının səbəbi heç də yuxarıda qeyd edilən məqsəd güdmürdü. Bunun ictimai və siyasi mahiyyəti vardır. Belə ki, tərəqqipərvər elm, mədəniyyət və incəsənət xadimlərinin əsərlərinin şagirdlər tərəfindən camaat qarşısında nümayiş etdirilməsi və müzakirəsi şagirdləri və valideynləri çar mütləqiyyətinə nifrət ruhunda, inqilabi çıxışlar ruhunda tərbiyə edirdi. Bu baxımdan XMN (Xalq Maarif Nazirliyi) 28 iyun 1903-cü il 19744 saylı sərəncamında şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsinin məzmunu qeyd edilərək tapşırılırdı ki, şagirdlərin mütaliəsinə nəzarət və rəhbərliyi elə etmək lazımdır ki, "onların əlinə zərərli kitablar düşməsin"(17g).

A.Qriqoryevin, Belinskinin, Brandesin, Beselovskinin, Majkovun və digərlərinin əsərlərində tərənnüm edilən tənqidi təklifləri unutmaq olmaz (17ğ). Digər mənbələrin birində deyilirdi ki, M. Qorkinin,

Nisşenin, Andreevin əsərlərində “cəmiyyət və insan qaranlıq boyalarla ifadə edilmişdir, onlar (şagirdlər-Y.Q.) qərara gəlirlər ki, yaşamağa dəyməz və tam ümidsizliyə yaxınlaşırlar(17h).

Aydındır ki, bu heç də M. Qorkinin əsərlərinə verilən qiymət deyildir. Təbliğat məqsədi ilə çar mütləqiyyətinin ictimai və siyasi simasını açıb göstərən və inqilabi çevriliş tələb edən əsərlərin şagirdlər arasında mütaliəsinin qarşısını almaqdan, xalq kütlələrini inqilabi əhval-ruhiyyədən çəkindirməkdən başqa bir şey deyildir.

Şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsi ilə əlaqədar keçirilən gecələr daha geniş əhəmiyyət kəsb edirdi.

Gecələrdə elm və texnika yeniliklərini şagirdlərə çatdırmaq məqsədi ilə mühazirələr oxunurdu. Gecələrdə şagirdlər kitabxanaçının, fənn müəllimlərinin və sinif rəhbərlərinin köməyi ilə ayrı-ayrı fənlərə(tarix, fizika, incəsənət və s.) dair oxuduqları əsərlər və elmi yeniliklər haqqında mülahizələr oxuyurdular. Həmçinin belə gecələrə müxtəlif ixtisasçı alimlər, müəllimlər və həkimlər dəvət olunurdu. Onlar da elmi yeniliklər, böyük mütəfəkkirlər bəşəriyyətin mübarizləri, mübarizə yollarında onların rast gəldikləri əngəlliklər və çətinliklər haqqında, həyat mübarizəsində rast gələn çətinliklərin öhdəsindən gəlmək üçün qarşıda duran vəzifələr və işlər haqqında mülahizələr oxuyurdular. Xüsusən məktəb həkimlərini gigiyenik qaydalar, papiros çəkməyin, spirtli içkilərin insan sağlamlığına zərəri və sairlər haqqında oxuduqları mühazirələr daha maraqlı keçirdi(17h).

Yeri gəlmişkən, İrəvan gimnaziyasında təlim işi 3 vasitə ilə aparılırdı: 1) əqli tərbiyə naminə tədris materialının düzgün tədrisinin qoyuluşu 2) Sinifdənxaric mütaliə 3) sinifdənxaric söhbətlər. QTD-nin Popeçitel Şurasının yığıncağında qeyd edilirdi ki, yuxarı siniflərdə sinifdənxaric mütaliə tədris müəssisəsinin özündən işləyən müəllimlərinin rəhbərliyi ilə olmalıdır. Belə ki, bəzən ola bilər ki, şagirdin əlinə ziyan gətirici kitab düşə bilər. Mütaliə üçün seçilən kitablar ölkənin müasir yazıçılarının əsərlərindən olmalıdır (Şiller, Bayron, Höte, Şekspir, Hüqo, Yessinq və s.). Tənqidi kitabları (Apollon, Qriqoryev, Belinski, Brandes, Veselovski, Maykov və s.) yaddan çıxarmaq olmaz. Sinifdənxaric oxu ilə yanaşı uşaqları məktəbə daha da yaxınlaşdıran müsahibələr məktəb təlimində görkəmli yer tutmalıdır. Müsahibələrin maraqlı keçməsi üçün isə onun hazırlığından asılıdır. Hazırlıq isə ən azı bir neçə həftə qabaqcadan görülürdü. Müsahibədə oxunmuş əsər haqqında şagirdlər referat yazırdı, onun opponenti olurdu. Həmin opponent müsahibənin aparılmasına 2-3 gün qalmış yoldaşının kitabını oxuyurdu, yığıncaqlarda fikir mübadiləsi aparılırdı (17c).

Nəticə olaraq natamam orta və orta məktəb kitabxanaları haqqında aşağıdakıları qeyd etmək olar.

1. Natamam orta və orta məktəb kitabxanalarının sayı və onların kitab fondu ilbəil artmışdır. Onların sayı 1913-cü ildə Azərbaycanda 18-ə çatmışdır. Ancaq kitablar azlıq təşkil edirdi. Məsələn, Bakı qadın gimnaziyasının şagird kitabxanasında 1884-cü ildə bir şagirddə 0.2 adda, 0.8 nüsxə, 1890-ci ildə 2.2 adda, 3.6 nüsxə, 1913-cü ildə 4 adda, 11 nüsxə kitab düşürdü. Həmçinin mütaliə üçün nəzərdə tutulan kitabların əksəriyyəti şagirdlərin yaş və bilik səviyyələrinə uyğun deyildir.

2. Şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsi ilə əlaqədar olaraq natamam orta və orta məktəb kitabxanaları vasitəsilə aparılan işlər nümunəvi və rəngarəng olub, şagirdlərin təlim və tərbiyəsi işində başlıca rol oynamışdır. XMN sərəncamında qeyd edilirdi: "... mütaliə edilən əsərlərin , ədəbi əsərlərin, ədəbi söhbətlərin və sinifdənxaric mütaliəni təşkil tərcüməsi məktəb təliminin məhsuldarlığını artırmaq vasitəsi kimi gənclərə geniş fikir, ruhi əməyə hörmət, layiqli tələbkarlıqla öz yazılı və şifahi nitqinə düzgün münasibət cəhdi öyrədir"(17i).

QTD-ə daxil olan tədris müəssisələrinin pedaqoji şuraları bu məsələ barədə öz fikirlərini qeyd edirdilər: " Sinifdənxaric məşğələlərin ən faydalıları ev oxusu və ədəbi söhbətlərdir. Ancaq bununla göstərirdilər ki, sinifdənxaric oxu ilə güdülən ən yaxşı məqsədə nail olmaq üçün şagird kitabxanalarının yaxşılaşdırılmasında və onların düzgün təşkilində inadlı ehtiyac meydana çıxır(17j).

3. Kitabxanaların iş üsulları vahid sistem təşkil etmirdi: kiçik bir məktəbdə hər sinif üçün ayrı kitabxanalar düzəldilmişdir, digərində onlar yaş dərəcələrinə görə bölünmüşdür, üçüncüsündə elmi ixtisaslar üzrə bölünmüşdür. Kitablar şagirdlərə ya sinif rəhbərləri, ya ixtisaslar üzrə fənn müəllimləri, ya da xüsusi kitabxanaçılar tərəfindən verilirdi. Kitab verilişi qaydası da eyni deyildir: bəzi məktəblərdə hər gün, bəzilərində isə təyin edilmiş gün və saatlarda verilirdi. Oxu otaqları yalnız pansionu olan məktəblərdə düzəldilmişdir ki, bu da yalnız pansionçular üçün idi. Mütaliəyə nəzarət müxtəlif idi: bəzilərində mütaliənin yoxlanışını sinif rəhbəri, bəzilərində fənn müəllimləri, bəzilərində isə kitab mütaliə etmiş məktəb işçisi aparırdı. Şagirdlər müəllimlərə oxuduqları kitablar haqqında aşağı siniflərdə şifahi, yuxarı siniflərdə isə yazılı hesabat verirdilər. Başqa bir məktəbdə isə şagirdə verilən kitab müəllim tərəfindən oxunurdu və kitabın məzmunu haqqında suallar yazılıb kitabın ilk səhifəsinə yapışdırılırdı. Şagird kitabı mütaliə etdikdən sonra suallara cavab yazırdı. Beləliklə, verilən suallar şagirdlərə kitabla şüurlu rəftar öyrədirdi.(17q).

Kitabxana otaqları əksər məktəblərdə normal vəziyyətdə deyildir. Əksər kitabxanaların oxu otaqları yox idi. Ancaq sonradan məktəblərdə oxu otaqlarının təşkili işində QTD popeçiteli böyük əhəmiyyət verirdi. Mənbələrin birində deyilirdi: "Məktəbin həyatında oxu zalı çox real rol oynaya bilər. Məktəb günün müxtəlif saatlarında hər zaman şagirdlərin bir hissəsi bu və ya digər səbəb üzündən boş qalırlar. Bezikən və bekar şagirdlər üçün oxu zalı əla sığıncaqdır. Arzu edilir ki, belə oxu zalları şagirdlər üçün nahar vaxtlarından sonra da açıq olsun. Müəllimlərin şagirdləri oxu zalı və kitabxana müdirlərinin köməyinə cəlb edilməsini lazımdır bilmirdi.

4. Şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsinə zəif rəhbərlik edilirdi, bütün şagirdlər mütaliəyə cəlb edilmirdi. Bunun da iqtisadi səbəbi olmuşdur. Belə ki, Gəncə gimnaziyasından başqa heç bir məktəbdə kitabxanaçıya və şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsinə rəhbərlik edən şəxslərə maaş verilmirdi. Kitabxana müdirləri yalnız cüzi mükafat alırdı.

Nəhayət, 15-23 dekabr 1903-cü ildə Tiflisdə çağırılmış QTD popeçitelinin Şurası şagirdlərin sinifdən və məktəbdənxaric mütaliələri ilə əlaqədar olaraq orta məktəb kitabxanalarının vəziyyətini müzakirə edərək aşağıdakı nəticəyə gəlmişdir.

1) Şagird kitabxanasını yaxşılaşdırmaq və onların xüsusi şöbələrə ayırmaq zəruridir: onların rəhbərliyini müvafiq fənn müəllimlərinə tapşırmaq.

2) Kitab verilişində şagirdin marağını istiqamətləndirə və qaydaya sala bilən müəyyən suallar qoymaq lazımdır.: bununla bərabər aşağı siniflərdə kitabların məzmununu tamamlayan suallar qoymaq təklif olunur, yuxarı siniflərdə isə müəllifin hər hansı bir məsələdə nəzər sistemini əhatə edən, həyat hadisələrini və iştirak edən şəxslərin (əsərdə-Y.Q.) xarakterlərini aydınlaşdıra bilən suallar tərtib etmək arzu olunur;

3) Elə əsərlər irəli sürmək lazımdır ki, onların məzmunu ilə həmin sinfin şagirdləri mütləq tanış olsunlar;

4) Mütaliə elmi-ədəbi söhbətlərdə əlaqədə olmalı, onun yoxlanması müvafiq fənn müəllimləri tərəfindən aparılmalıdır;

5) Sinif rəhbəri müxtəlif ixtisaslar üzrə mütaliənin bərabərliyini izləməli və sinfin hər yarım ildə sinifdənxaric mütaliəsinin hesabatını pedaqoji şuraya təqdim etməlidir;

6) Pedaqoji sovetlər məktəblərdə oxu otaqlarının açılmasına və təşkilinə cəhd göstərsinlər, bunlar (çox otaqları-Y.Q.) şagirdlərə nahar vaxtlarından sonra yaxşı kitablar haqqında söhbət imkanı yaradır və həm də məktəb günü müddətində boş şagirdlərə xidmət edə bilər"(26). Ancaq qeyd edilən tələblər problem olaraq qalırdı.

## ƏDƏBİYYAT

*1.Qafqaz Tədris dairəsinin (QTD) 1882-ci il hesabatı, Tiflis (T) 1883-cü il , səh. 129, 179, 182.*

*2.Gürcüstan Respublikası Mərkəzi Dövlət Arxivi (GRMDTA) Fond(f) 423, Siyahı(s) 1, iş 29, vərəq (v) 27, s.3, iş. 174, v. 31, 43.*

*3. Fond 423, s.1, iş 177, v. 172 arxa.*

*4. GRMDTA, fond 416, s. 3, iş 474, v. 43-44; QTD popeçitelinin 1869-cu il sərəncamı, T.1969, №4, səh.25.*

*5. GRMDTA, f.423, s. 1, iş 29, v. 97, 101.*

*6. GRMDTA, f. 422, s.4, iş 136, v. 39.*

*7. DTD-nin 1883-cü il heabatı, T. 1984, səh.2-3.*

*8. GRMDTA, f. 422, s.4, iş136, v.40 arxa, v. 52 arxa.*

*9. QTD-nin 1882, 1883, 1884-cü il hesabatları, T. 1883, 1884, 1885-ci illər üzrə səh.33, 36, 2.*

*10.QTD hesabatları: 1884 (cədvəllər, 6,7, 36, 66, 67, 98, 130, 132, 133, 156; T. 1885; 1900-cu il, T. 1901, cədvəllər-25, 77. 106, səh.54, 135, 167; 1902, T.1903, cədvəllər: 1,2, 25, 32, 77, 108, səh.6,7,8,9,111,135,174; 1913, T. 1914, cədvəllər: 1, 16, 17, 36, 51, 84, 138, 164.*

*11.GRMDTA, f. 416, s.3, iş 496, v.15, 21.*

*12. GRMDTA , f. 423, s.1, iş 38, v. 17.*

*13.GRMDTA. f. 416, s.3, iş 496, v.14.*

*14.QTD popeçitelinin 1882-ci il hesabatı, T. 1883, səh.129, 179, 182.*

*15. QTD popeçitelinin 1888-ci il hesabatı, T. 1889, səh.34.*

*16. Soposinskiy A. Ukazatel kniqam, Kiyev, 1887, səh.1, 2.*

*17. Jurnal zasedanii popeçitetskoqo soveta KYO. Na prava rukopisi, T. 1904, III, XVI bölmə, səh.7.*

*17a. Yenə orada, III hissə, II bölmə, səh.7.*

*17b.QTD popeçitelinin şurasının iclaslarının jurnalı. Əlyazma hüququnda, T. 1904,III hissə, II bölmə, səh.7.*

*17c. III hissə, VIII bölmə, səh. 59-60.*

*17ç.QTD popeçitelinin şurasının iclasları jurnalı, T. 1904, səh. 59..*

*17d. QTD popeçiteli şurasının iclasları jurnalı, T. 1904, III hissə, IV bölmə, səh. 17, 26.*

*17e. Yenə orada səh.19.*

*17ə. Yenə orada səh.60.*

*17f. QTD popeçitelinin 1883-cü il hesabatı, T. 1884-cü il, səh.55.*

*17g. QTD popeçiteli şurasının iclasları jurnalı, səh.7, 18-19.*

*17ğ. Yenə orada. III hissə, Iv bölmə, səh.18-19.*
*17h. Yenə orada. III hissə, II bölmə, səh.7.*
*17x. Yenə orada səh.79, 94.*
*17i. Yenə orada səh.79-94.*
*17j. Yenə orada səh.77*
*17q. Yenə orada səh.77.*
*18. Саков Н. С. Т. Внекласснойо чтения учашыхсийа Кафказскайа школа.( jurnal), T. 1913, səh.10*
*18a. Кафказскайа школа (jurnal), T. 1913, s.12-13.*
*18b. Yenə orada səh.9.*
*18c. Yenə orada səh.13.*
*19. QTD popeçitelinin 1883-cü il hesabatı, T. 1884, səh.55.*
*20. GRMDTA, f. 416, s.3, iş 475, v.44, QTD popeçitelinin 1869-cu il sərəncamları, T. 1869, N 4əh.25.*
*21. QTD popeçitelinin 1905-ci il hesabatı, T. 1906, səh.7.*
*22. GRMDTA, f. 416, s.3, iş 535, v.7-8.*
*23.QTD-nin sərəncamları 1881-ci il, T. 1881.ş №2, səh.12.*
*24. QTD popeçitelinin 1882-ci il hesabatı, T. 1883-cü il səh.60.*
*26. QTD xalq məktəbləri Direktorlarının və İnspektorlarının 1903-1904-cü illər üzrə hesabatları, T. 1904, səh.154-155.*

**Й.ГАЗИЕВ**

## “НЕПОЛНЫХ БИБЛИОТЕКИ НЕПОЛНЫХ СРЕДНЫХ И СРЕДИЛЯ ПОЛНЫХ СРЕДНЫХ ШКОЛ”, СУЩЕСТВУЮЩИХ В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

В соответствии политикой царской России пользование местных жителей для более благоприятных намерений и политику обрусования, по Уставу 1864 года в Азербайджане были созданы 18 средных школ и были предоставлены библиотеки на базе школьных библиотек.

Главное значение средных школьных библиотек было в том, что они служили не только ученикам и учителям, в том числе они служили для сельского и городского общества. Эти библиотеки сыграли главную роль в образовании и учеников, и учителей и народных масс.

**Y. GAZIYEV**

## "THE SECONDARY AND INCOMPLETE SECONDARY SCHOOLS" IN AZERBAIJAN

## SUMMARY

According to Russia`s tsar aim of using the local population for more suitable purpose and Russianzed policy 18 libraries were formed in these schools on the convention which is hold in 1864 in Azerbaijan.

The one main of the service of city school libraries had been that they served not only students and teachers but also played a great role in educating the city and village community.

**Sənubər MUSTAFAYEVA**
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş müəllimi***

# AVTOMATLAŞDIRILMIŞ KİTABXANA SİSTEMİ ŞƏRAİTİNDƏ AMEA MƏRKƏZİ ELMİ KİTABXANASI FONDUNUN TƏŞKİLİ

***Açar sözlər:*** *Azərbaycan Milli Elmlər Akademiyası MEK-sı, Avtomatlaşdırılmış sistemlər, AMEA MEK-ın elektron kataloqu, AMEA MEK-də avtomatlaşdırılmış sistemlərin tətbiqi, AMEA MEK-də kitabxana proseslərinin avtomatlaşdırılması.*

***Ключевые слова:*** *ЦНБ-ка Национальной Академии наук Азербайджанской Республики, Автоматизированные системы, Електронный каталог ЦНБ-ки НАН Азербайджана, Применение автоматизированных систем в ЦНБ НАН Азербайджана, Автоматизация библиотечных процессов в ЦБН НАН Азербайджана.*

***Key words:*** *CSL of the National Akademy of Sciences of the Azerbaijan, the automated systems, electronical catalogue of CSL of the NAS of Azerbaijan, application of the automated systems in CSL of the NAS of Azerbaijan,automation of library processes in CSL of the NAS of Azerbaijan.*

Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan elminə, təhsilinə, mədəniyyətinə göstərilən qayğı bu gün Prezident cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Cənab Prezidentin bu sahənin inkişafına yönəlmiş fəaliyyəti elmi ictimaiyyət tərəfindən də yüksək hörmətlə qarşılanır. Prezident cənab İlham Əliyevin 20 aprel 2007-ci il tarixdə "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" imzalamış olduğu Sərəncam bir daha sübut edir ki, ölkə kitabxanalarının inkişaf etdirilməsi dövlətin mədəniyyət sahəsindəki strategiyasının prioritetidir. Bu gün AMEA MEK-sı öz fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsinə yönəltmişdir.

Dünya təcrübəsində təsdid edilmişdir ki, kitabxanalarda yeni xidmət formalarına keçmək üçün yeganə və real baza – qabaqcıl telekommuniksiya və informasiya texnologiyalarıdır. Buna görə də müasir kitabxanalar, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının mütəxəssisləri cəmiyyətdə gedən bu dəyişikliklərə nəinki biganə qalmır, həmin prosesdə aktiv iştirak etməklə yüksək nailiyyətlər əldə edirlər.

AMEA Mərkəzi Elmi Kitabxanası Azərbaycanın görkəmli ziyalıları, N.Nərimanov, Ə.Haqverdiyev, T.Şahbazi, H. Zeynallı və başqalarının təşəbbüsü və yaxından köməyi ilə 1923-cü ildə təşkil edilmiş “Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti”nin nəzdində yaradılmışdır (4,s.41).

Hazırda ölkəmizdə təbiətşünaslıq, sosial-iqtisadi, siyasi, humanitar və texniki elm sahələri üzrə ən iri elmi kitabxana sayılan Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası dünya xalqlarının 50 dildə nəşr olunmuş 3 milyondan artıq elmi ədəbiyyatı əldə edən informasiya fonduna malik olub, 30 mindən arrtıq oxucuya xidmət göstərir (3,s.7).

Qeyd etmək lazımdır ki, AMEA MEK-sı Azərbaycanın ilk böyük elmi və mədəni müəssisələrindən biri olduğuna ğörə onun fondu daima yeni ədəbiyatla komplektləşdirilmişdir. Məlumdur ki, kitabxanaların fondları bir qayda olaraq məzmun və tipologiya baxımından olduqca mürəkkəb, hərtərəfli və rəngarəng olurlar. Kitabxanalara müraciət edən oxucuların sorğuları da olduqca müxtəlif, mürəkkəb, əksər hallarda isə çoxcəhətli olur. Belə sorğuları ödəmək, ümumiyytlə oxuculara kitabxana-informasiya xidmətini təşkil etmək dolğun kitabxana fondu olmadan qeyri-mümkündür.

Fond fəaliyyət göstərən kitabxananın əsasını təşkil edir və kitabxana fondsuz ictimai institut kimi mövcud ola bilməz. Kitabxana fondu-bütünlükdə cəmiyyətin, habelə onun ayrı-ayrı üzvlərinin məlumat tələbatının ödənilməsində əsas mənbə hesab olunur. Bütün ölkə ərazisində əhaliyə xidmət işini təşkil edən kitabxana fondlarının yaradılması mədəniyyətin ən böyük nailiyyətlərindən biri sayılır. Kitabxana fondlarında toplanan sənədlər oxucuları elmi biliklərlə silahlandırır.

Kitabxana fondu mürəkkəb anlayışdır. Onun əsl mahiyyətinin müəyyənləşdirilməsi, onun təcrübi prosesdə meydana gəlməsi səviyyəsinin öyrənilib izah edilməsi çətinlik yaradır. Lakin mahiyyətini bilmədən onun formalaşmasını və idarə edilməsini bilmək qeyri-mümkündür.

Qeyd etmək lazımdır ki, fondsuz kitabxana mövcud ola bilməz. Ona görə də vaxtilə fond anlayışı “Kitabxana”sözünün yaranmasına səbəb olmuşdur. Hərfi mənada fond sözünün yunan dilindən tərcüməsi “kitabsaxlayıcı” deməkdir. Əsrlər boyu “kitabxana” və “kitab fondu” anlayışları biri-birindən fərqləndirilməmişdir. Kitabxana sözü altında “çox və ya az miqdarda kitabların yığımı” nəzərə alınmışdır.

Əvvəllər “kitabxana fondu” termini əvəzinə “kitab kolleksiyası”, kitabxana şöbəsi”, “kitabların toplanması”, ”kitab əmlakı” və s. sözlər işlənmişdir. “Fond” sözü həqiqi mənada kitabxanaşünaslıq aləmində XX əsrin 20-ci illərində və ondan sonrakı dövlərdə meydana gəlmişdir.

Kitabxana fondunun yaranması obyektiv olaraq mədəni inkişafın gedişi prosesi ilə müəyyən edilir. Sosial təcrübəni qoruyub saxlamaq, onları yeni nəslə çatdırmaq məqsədilə informasiyanın müəyyən daşıyıcılarda həkk olunmasına gətirib çıxarmışdır ki, bu da son dövrllərdə "sənəd" adını almışdır. Bu söz latın sözü olaraq "öyrədirəm, məlumat verirəm" deməkdir.

İnsan idrakı tərəfindən yaradılmış və xüsusi daşıyıcılarda istifadə və qorunma məqsədilə əks etdirilmiş informasiya (1960-cı illərdən) sənəd hesab olunur. Bu informasiyalar istənilən daşıyıcılara yerləşdirilərək (kirab, kağız,plyonka, maqnit lentləri, mikrofiş, qrammafon valı, disk, CD-ROM və s.) kitabxana fondlarında saxlanılır.

Müəyyən dövrlərdə "sənəd" və "kitab" əlaqələri haqqında bir sıra ziddiyyətli fikirlər irəli sürülmüşdür. Hətta 1970-ci illərin axırlarına qədər belə bir əqidə geniş yayılmışdı ki, kitabxana findunu təşkil edən əsas ünsür kitab (geniş mənada) hesab olunur. Lakin çoxlu miqdarda yeni növlü sənədlərin sürətlə meydana gəlməsi müqabilində 1960-cı illərdə kitabın və onunla birlikdə kitabxananın taleyi haqqında müzakirələr yaranmışdır. Bununla belə sənəd növlərinin qəbul edilməsi "kitabların məhv olunması" nəzəriyyəsini, "kitabsız kitabxanalar" nəzəriyyəsini yaratmışdır. (13, s.21)

Belə bir fikir də irəli sürülür ki, güya kitablar mühafizə, təşkil, informasiyanın axtarılması və verilməsi sahəsində çətinlik yaradır və gələcəkdə kitabxanalar yalnız maşın daşıyıcılarında əks etdirilən informasiyalara malik olacaq, ya da öz fəaliyyətini dayandıracaqlar.

Bu məsələnin düzgün həlli XX əsrin 80-ci illərində müəyyənləşdirilmişdir. Onun mahiyyəti isə bundan ibarətdir ki, əsas məsələ "kitab" və ya digər termində deyildir. Məsələ həmin terminin məzmunundadır. Əgər "kitab" termininin məzmunu altında bütün informasiyaları əks etdirmək mümkün olarsa, onda bu termini bundan sonra da saxlamaq olardı. Lakin təəssüflə qeyd etmək lazımdır ki, hər şeydən əvvəl kitabxanaşünaslar özləri buna qarşı etiraz etmişlər.

Kitabda informasiya kinolentində oldugu kimi deyil, semiotik yəni, müəyyən edilmiş xüsusi işarələrlə (hərf, rəqəm, heroqlif, not və s.) verildiyinə görə müxtəlif növ informasiyanın müəyyən növü əks etdirilir. Ona görə də informasiya mənbələri üçün ümumiləşdirilməş termin lazım olmuşdur ki, bu da sənəd termini adını almışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında müxtəlif növ sənədlər yerləşdirilmişdir. Kitabxananın fondu daim yeni ədəbiyyatlarla zənginləşdirilir. Mərkəzi Elmi Kitabxananın fondunun zənginləşdirilməsi xüsusilə avtomatlaşdırılmış kitabxana sistemi şəraitinə təsadüf etmişdir.

Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra kitabxana işinə dair də müstəqil qanunlar qəbul edilmişdir. 12 mart 1999-cu il "Kitabxana işi haqqında" Qanun Azərbaycanda kitabxana işinin əsas hüquqi bazasının mühüm dövlət sənədidir. Bu qanun Azərbaycan respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirilməsi mənbələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən etmişdir. Azərbaycanda Milli kitabxana ilə yanaşı Respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların və icra hakimiyyəti orqanları kitabxanalarının məcburi nüsxələrlə təmin olunması bu qanunda öz əksini tapmışdır. AMEK Mərkəzi Elmi Kitabxanasının əsas komplektləşdirmə mənbəyi Qanunun "Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı" adlanan 15-ci maddəsinə əsaslanır. (10)

Azərbaycan Respublikasının Qanunu respublikamızın bütün kitabxanaları, o cümlədən MEK-nın həyatında mühüm və əhəmiyyətli bir hadisə olmuşdur. Bu Respublika Prezidenti Heydər Əliyev cənablarının elmin, mədəniyyətin, nəsillərin tərbiyəsini təmin edən, kitab fondlarına, onların mühafizəsinə yetirdiyi diqqət və qayğının nəticəsi idi. Qanun respublikada kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini təyin etməklə, kitab fondlarının formalaşmasını, mühafizəsi tələblərini, kitabxanaların maliyyə mənbələrini və beynəlxalq əməkdaşlıq prinsiplərinin inkişafı məsələlərini müəyyənləşdirmişdir. Bununla yanaşı kitabxana proseslərinin avtomatlaşdırılması, kitab fondlarının, qiymətli nəşrlərin müasir, elektron daşıyıcılarına köçürülməsi, İNTERNET şəbəkəsində milli fondlarımızın əks etdirilməsi və dünya informasiya fəzasına inteqrasiya kimi prinsipləri də Qanunda müəyyən edilmişdir.

Respublikanın siyasi nüfuzunun yüksəldilməsi ilə bağlı bir çox xarici dövlətlərin ölkəmizə maraq və diqqətinin artması nəticəsində ölkənin beynəlxalq əlaqələri genişləndi. Bu da öz növbəsində kitabxana fondunun yeni ədəbiyyatlarla komplektləşdirilməsi və beynəlxalq elmi ədəbiyyat mübadiləsi sahəsində dönüş yaratdı. Əgər 90-cı illərə qədər Mərkəzi Elmi Kitabxana dünyanın 55 ölkəsinin 500-dən artıq elmi müəssisəsi ilə kitab mübadiləsi təşkil edirdisə və onun fonduna 100.000 nüsxə ədəbiyyat daxil olurdusa, 1991-1993-cü illərdə beynəlxalq əlaqələrin pozulması nəticəsində dövri nəşrlərin və digər sənədlərin əldə edilməsi imkansız olmuşdur. Lakin müstəqillik illərində bu əlaqələr genişlənmiş və artıq 2004-cü ildə kitabxana dünyanın 60 ölkəsinin 549 elmi təşkilatı, elmi-tədqiqat məssisələri, nəşriyytları və assosiasiyaları, ali təhsil müəssisələri, kitabxanaları ilə beynəlxalq kitab mübadiləsi həyata keçirir və təqribən hər il 46 min nüsxə ədəbiyyat əldə edir. (9,s.5-6)

Kitabxana ABŞ, Türkiyə, Almaniya, Çin, İngiltərə, Kanada, Yaponiya, MDB ölkələrinin kitabxanaları ilə sıx əlaqə saxlayır.

Bununla yanaşı, kitabxananın respublikada fəaliyyət göstərən humanitar fondlarla, o cümlədən SOROS fondu ilə, bir çox səfirliklərlə əlaqəsi genişləndi. Belə ki, 2002-ci il martın 28-də Fransa səfirliyi tərəfindən Fransız dilli oxucular arasında fransa ədəbiyyatının təbligini genişləndirmək məqsədi daşıyan "Azərbaycan-Fransa Elmi Mədəni Əlaqələr Mərkəzi"nin açılışı kitabxananın fəaliyyətində əlamətdar hadisə olmuşdur. Eyni zamanda kitabxana bir çox layihələrdə yaxından iştirak etmişdir.

Beynəlxalq əməkdaşlıq nəticəsində kitabxana bir sıra nüfuzlu təşkilatların, o cümlədən 1998-ci ildə Beynəlxalq Kitabxanaçılıq Assosiasiyaları Federasiyasının (İFLA), Avrasiya Kitabxana Assambleyasının, Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyası Direktorlar Şurasının, Zaqafqaziya İnformasiya Mütəxəssisləri Assosiasiyasının və s. üzvlüyünə qəbul edilmişdir. (9,s.6) Buradan belə bir qənaətə gəlmək olar ki, nəşriyyat və mətbələrdən, ayrı-ayrı kitab müəlliflərindən, humanitar təşkilatlardan hədiyyələrin alınması beynəlxalq kitab mübadiləsi hesabına və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən məcburi nüsxələrin alınması kitabxananın komplektləşdirmə ehtiyacını qismən də olsa həll etmiş oldu.

Məlum olduğu kimi XX əsrin sonlarından kitabxanalar müxtəlif informasiya prosesləinə cəlb olunmuşlar. Artıq cəmiyyətdə informasiya proseslərinin avtomatlaşdırılması işinin həyata keçirilməsinə başlanmışdır. Müxtəlif informasiya sistemləri yaranmışdır. Həmin sistemlər funksiyalarından asılı olaraq informasiya axtarışı, informasiya-idarəetmə, informasiya hesablayıcı, məlumatın işlənməsi, avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri və s. adlandırılmışdır.

İnformasiyanın toplanması,kompüterə daxil edilməsi, saxlanması, işlənməsi və sonradan axtarışı və mübadiləsi üçün avtomatlaşdırılmış kitabxana-informasiya axtarışı sistemləri tətbiq edilmişdir.

Məlumdur ki, avtomatlaşdırma prosesi Qərb ölkələrinin kitabxanalarına XX əsrin 60-70-ci illərindən, Rusiyanın və MDB ölkələrinin bir çox kitabxanalarına isə 70-80-ci illərdən daxil olmuşdur.

Bu günə qədər Qərb ölkələrinin firmaları, Rusiya, Ukrayna, Belarus, Qazaxstan müəssisələri müxtəlif proqram və informasiya sistemləri işləyib hazırlamışlar. Bu proqram və sistemlər bir çox kitabxanalar tərəfindən bəyənilərək kitabxanaların avtomatlaşdırılması prosesində müvəffəqiyyətlə istifadə olunmuşdur. Respublikanın bir sıra iri kitabxanaları, o cümlədən AMEA Mərkəzi Elmi Kitabxanası son illər kitabxana-biblioqrafita proseslərinin avtomatlaşdırılması məsələlərinə

ciddi diqqət yetirmişdir. Bununla əlaqədar olaraq Azərbaycanda və respublikadan kənarda keçirilmiş elmi konfrans, seminar və müşavirələrdə iştirak etməklə Qərb ölkələrinin, Rusiya və MDB ölkələrinin kitabxanalarının qabaqcıl iş təcrübəsi öyrənilmiş və onlara əsaslanaraq avtomatlaşdırma proseslərinin tətbiq olunmasında müəyyən işlər görülmüşdür (6,s.25).

Kitabxanalarda avtomatlaşdırma proseslərinin tətbiqi onların bütün fəaliyyət istiqamətlərini əhatə edir: ədəbiyyatın abunəsi, komplektləşdirilməsi, işlənməsi, kataloqlaşdırılması, xidmət sahələrini: abonement, qiraət zalları, kitabxanalararası abonement, ədəbiyyatın mühafizəsi, nadir nəşrlərin konservasiyası, xarici ölkələrlə ədəbiyyat mübadiləsinin təşkili və biblioqrafik fəaliyyətin ən mühüm istiqamətlərindən biri olan biblioqrafik informasiya xidməti fəaliyyəti və s.

"Kitabxana işi haqqında" Qanun Respublika kitabxanaları, o cümlədən MEK-nın qarşısında geniş imkanlar açır. Kitabxana işi proseslərinin avtomatlaşdırılması məsələlərinə daha ciddi yanaşılmışdır. Kitabxana xüsusi ədəbiyyatlarla təmin olunmuş, konfranslar keçirilmişdir.

"Avtomatlaşdırma" dedikdə kitabxana-informasiya texnologiyalarında və təcrübəsində kompüter-proqram təminatının tətbiqi və inkişafı nəzərdə tutulur. Bəzən bu anlayışa sinonim kimi "kompüterləşdirmə" anlayışı işlədirlər. Kompüterləşdirmə avtomatlaşdırmanın bir mərhələsi və ya komponentidir. Burada əsas məqsəd kompüterlərin konkret miqdarda və modeldə alınması, yaradıcı qurğuların müəyyən edilməsi, kitabxananın bölmələrində optimal yerləşdirilməsi, proqram təminatının və istifadə rejiminin təyinidir. Belə demək olar ki, əgər oxu zalında kompüter qoyub oxucuya yeni daxil olan ədəbiyyatla tanış olmaq imkanı yaranırsa, bu artıq avtomatlaşdırmadır, daha dəqiq desək onun bir daxili mərhələsidir. Əgər biz əməkdaşları və oxucuları öyrəniriksə və ya oxu zalında olan bir kompüter digərləri ilə hər hansı şəbəkə ilə əlaqələndirilirsə bu proses informasiyalaşdırılma adlandırıla bilər.

Beləliklə, avtomatlaşdırma dedikdə kitabxana işçilərinin iş yerində və oxucu yerlərində kompüterlərin qurulması və nəticədə əməkdaşların yorucu, təkrar olunan işdən, ənənəvi kartotekaların tərtibindən və s.-dən azad olması, oxuculara isə fonddan ədəbiyyatın axtarışı və verilməsi üçün rahat şərait yaradılmaşıdır.

2003-cü ildə Mərkəzi Elmi Kitabxanada "Kitabxana proseslərinin avtomatlaşdırılması" şöbəsi fəaliyyətə başlamışdır. Şöbə 2000-ci ildən fəaliyyət göstərən Acıq Cəmiyyət İnstitutu SOROS fondu tərəfindən 6 kompüterlə təmin edilmişdir. İnternet şəbəkəsinə qoşulmuş kompüterlər kitabxananın imkanlarını xeyli genişləndirmişdir. Bundan əlavə 2003-cü ilin əvvəlində "Mərkəzi Elmi Kitabxanada kitabxana-biblioqrafiya

proseslərinin avtomatlaşdırılmasının əsas istiqamətlərinin təxmini planı"nı hazırlamışdır ki, bu plana əsasən də bir neçə istiqamətdə iş aparılır. Bunlar aşağıdakılardır:

1. Komplektləşdirmə istiqamətində-kitabxanaya daxil olan sənədlər (kitab, dövri mətbuat, qəzet, dissertasiya, avtoreferat, CD-ROM və b.) xüsusi baza proqramı vasitəsilə kompüterə daxil edilir və nəticənin statistik uçotunu, sənədlərin müxtəlif parametrlərdə axtarışını və təhlilini təmin edəcək;

2. Elektron kataloqun yaradılması istiqamətində - "Gələcək naminə" təşkilatı ilə MEK-nın birgə layihə çərçivəsində nəzərdə tutulmuş Kitabxananın Azərbaycan dilində ədəbiyyat fondunun elektron kataloqunun yaradılması üzrə işə başlanılmışdır. Elektron kataloqun məlumat bazalarına təxminən 100.000-nə qədər kitab retrokonversiya vasitəsilə daxil ediləcək;

3. Oxuculara kitabxana xidməti istqaməində - xüsusi proqram vasitəsilə oxucuların elektron kartotekasının hazırlanması üzrə iş başlanılmışdır. Bu proqram abonentlərin (kitabxanaçi abonent daxil olmaqla) qeydiyyatını, uçotunu, müxtəlif parametrlərlə axtarışını, oxuculara verilən və qaytarılan ədəbiyyatın qeydiyyatını, borclu olan oxucuların avtomatlaşdırılmış nəzarətini və s. həyata keçirilməsini təmin edir;

4. Beynəlxalq kitab mübadiləsi istiqamətində - xarici partnyorları ilə respublika daxilində müxtəlif təşkilatlarla elektron rabitə vasitəsi ilə müvəffəqiyyətlə işgüzar yazışmalar aparılır və mübadilə məqsədilə müqavilələr bağlanılır.

Kitabxana proseslərinin avtomatlaşdırılmasını daxili və xarici proseslərə ayırmaq olar. Daxili proseslər dedikdə kitabxanalarda ümumi halda texnoloji və idarəetmə prosesləri və əməliyyatları başa düşülür. Buraya komplektləşdirmə, kitabişləmə, fondun mühafizəsi, biblioqrafik proseslər, xidmət, statistika, iqtisadi təhlil, mühasibat uçotu, marketinq fəaliyyəti və bunlarla bağlı olan yüzlərlə əməliyyatlar daxildir. XX əsrin 80-ci illərə qədərki dövrdə deyilən proseslərin və onlara aid əməliyyatların kompleks halda avtomatlaşdırılması nəticəsində bir sira avtonom kitabxana-informasiya sistemləri yaradılmışdır.

Azərbaycan kitabxanalarının daxili proseslərini avtomatlaşdırmaq üçün hazırda İRBİS (Rusiya regional inteqral kitabxana-informasiya sistemi) və Respublika Milli Kitabxanasında ABŞ-ın VTLS (Virciniya Texnikal Library System) korporasiyasının eyni adlı sistemi (VTLS) tətbiq edilir. (14,s.16)

İRBİS sistemi MDB ölkələrinin bütün tip kitabxanalarında tətbiq edilmişdir. 2002-ci ilə qədər bu sistemin üç nəsli, versiyası olmuşdur. Həmin ildən başlayaraq sistemin dördüncü nəsli, yəni İRBİS-64 işlən-

məyə başlamışdır. 2004-cü ildə həmin versiyanın sənayedə istismarına başlanmışdır. Bu versiya Azərbaycan kitabxanalarına alınaraq tətbiq edilməkdədir. Əvvəllər İRBİS 32 versiyası tətbiq edilmişdir. Bu sistemə nisbətən yeni yersiyanın (İRBİS-64) bir sıra üstünlükləri vardır. (2, s.109)

Dünyada baş verən bu müsbət dəyişikliklər Azərbaycandan da yan keçməmişdi. Son dövrdə bu sahədə bir sıra uğurlar qazanılıb. Respublikanın bir neçə iri kitabxanaları kompüter sistemi əsasında fəaliyyət göstərir, eyni zamanda oxucular internet vasitəsilə dünya kitabxanaları ilə də sərbəst şəkildə əlaqə saxlayırlar. İnternet xidmətinin bu imkanlarından istifadə edən Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası ABŞ-ın ölkəmizdəki səfirliyinin Tədris və İnformasiya Mərkəzi ilə birlikdə İnternetdə "Azərbaycan ədəbiyyatının antologiyası" adlı elektron kitabxana yaratmışdır.

Kitabxanaların daxili proseslərinin avtomatlaşdırılması baxımından nisbətən qabaqcıl mövqe tutan Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında ilk növbədə 1990-2003-cü illəri əhatə edən tematik məlumat bazaları yaradılmışdır(14,s.6). Bunlardan "H.Əliyev şəxsiyyəti Rusiya mətbuatında", "Azərbaycan iqtisadiyyatı", "Bakı-Tbilisi-Ceyhan", "Qarabağ müharibəsi", "Azərbaycanda seçkilər", "İlham Əliyev" və s. Şöbədə həmçinin insan hüquqlarına dair informasiya ehtiyatları əsasında məlumat bazası yaradılmışdır, atom enerjisi üzrə Beynəlxalq Agentliyin 17 istiqamət üzrə CD-ROM nəşri komplektləşdirilmişdir.

AMEA MEK-nın xidmət göstərdiyi əsas kontingent – elmi işçilər, professorlar, aspirantlardır. Mütəxəssislərin yüksək informasiyaya malik olması fondun yüksək səviyyədə komplektləşdirilməsini tələb edir. Hazırki dövrdə AMEA MEK-da fondun komplektləşdirilməsi ənənəvi üsulla və İNTERNET vasitəsi ilə həyata keçirilir. Bu gün rəqəmli texnologiyadan istifadə edərək çox asanlıqla oxucunu maraqlandıran kitabı tapıb oxumaq və ya onun haqqında bütün məlumatı öyrənib sifariş vermək mümkündür. Komplektləşdirmənin qarşısında duran məsələləri həll etməyin ilk yolu şərti olaraq nəşriyyatların saytlarını araşdırmaq, real və virtual kitab mağazarına baxmaqdır. Müsbət haldır ki, artıq nəşriyyatların çoxu İNTERNET-ə qoşulmuşdur. Bunlardan çoxu elektron kataloqlar hazırlamışdır ki, bu da AMEA MEK-na istənilən kitabın nəşr ili, sərlövhəsi, müəyyn məzmun və ya janra uyğun axtarışın aparılmasına imkan verir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına müvafiq olaraq Azərbaycan dilində kütləvi nəşrlər çap olunur.

Respublikanın kitabxanalarına hədiyyə olunan kitablar AMEA MEK-sı fondunun da zənginləşdirilməsinə kömək etmişdir. Belə ki, 2005-ci ilin iyun ayınadək nəşr olunan 106 adda kitabdan 5500 nüsxə kitabxanaya daxil olmuşdur (12,s.78). Bu təkcə Mərkəzi Elmi Kitabxananın fondunun deyil, həm də kitab mübadiləsinin genişlənməsinə kömək etmişdir. Həmin kitablar arasında Azərbaycan yazıçılarının, dünya klassiklərinin əsərləri latın qrafikası ilə çap olunmuşdur.

Beynəlxalq kitab mübadiləsi dövrümüzdə kitabxanalararası elmi və mədəni əlaqələrin bərpası və genişləndirilməsində, elmi məlumatların toplanması və yayılmasında əsas yerlərdən birini tutur. Dünyanın inkişaf etmiş xalqları ilə elmi və mədəni əlaqələrin yaradılmasında kitab mübadiləsinin böyük əhəmiyyəti vardır. Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasında aparılan beynəlxalq kitab mübadiləsi xarici ədəbiyyatın komplektləşdirilməsində əsas mənbələrdən biridir (12,s.77).

2003-cü ildə MEK-na beynəlxalq əlaqələri genişləndirmək məqsədilə daima yazışmalar aparmış, ədəbiyyat qıtlığı, nəşrlərin müntəzəm daxil olmaması nəticəsində pozulmuş mübadilə əməliyyatlarının bərpa edilməsi üçün çalışmışdır. Kitabxana ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya, Türkiyə, MDB dövlətləri və digər ölkələrin Akademiyaları, Elmi-Tədqiqat institutları, kitabxana və informasiya təşkilatları, cəmiyyətləri və assosiasiyaları, ali təhsil müəssisələri, nəşriyyatlar, redaksiyalar, ayrı-ayrı elm və mədəniyyət xadimləri ilə əlaqə yaradaraq ədəbiyyat və informasiya mübadiləsi aparmışdır.

2003-cü ildə MEK-na 58-ə yaxın dövlətin 558 təşkilatı, tədqiqat müəssisələri, kitabxanalar, ali təhsil müəssisələri, görkəmli elm və mədəniyyət xadimlərilə mübadilə və informasiya əlaqələri aparmışdır. (14) Beynəlxalq kitab mübadiləsi MEK-nın fondlarının komplektləşdirilməsinin əsas mənbələrindən biridir. Demək olar ki, o xarici ədəbiyyatın daxil olmasının yeganə kanalı olaraq qalır. 2003-cü ildə BKM-si vasitəsi ilə kitabxanaya 4.228 nüsxə ədəbiyyat alınmışdır. Xarici dövlətlərin kitabxanalarına: Şərq ölkələrinə 697, Qərbi Avropa ölkələrinə 1.415, MDB ölkələrinə 238 nüsxə ədəbiyyat göndərmişdir.

Sonrakı illərdə də Mərkəzi Elmi Kitabxana elmi-tədqiqat işlərinin planına əsasən Universal sənəd-informasiya fondlarının AMEA ETM-nin elmi-tədqiqat istiqamətinə uyğun milli və xarici elmi çap və elektron nəşrlərlə komplektləşdirilməsi, mühafizəsi, istifadəsinin təşkili, təbliği, elmi fondların bərpası və konservasiyası, elmin analitik-informasiya təminatı, kitabxana-informasiya işinin tədqiqi, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması istiqamətində fəaliyyətini davam etdirmişdir.

Ədəbiyyatın elmi komplektləşdirilməsi söbəsi, Qərbi Avropa ədəbiyyatı şöbəsi və Şərq ədəbiyyatı şöbəsi AMEA ETM-lərində aparılan tədqiqatların istigamətinə müvafiq Azərbaycan və xarici dillərdə fondların elmi ədəbiyyatla komplektləşdirilməsini davam etdirmişdir.

Azərbaycan və rus dillərində elmi ədəbiyyatın cari komplektləşdirilməsi məqsədilə aparılan tədqiqatların mövzularının təhlili aparılmış və elmi ədəbiyyatın komplektləşdirilməsinin profili müəyyənləşdirilmişdir.

Kitabxananın fondunun elmi ədəbiyyatla cari komplektləşdirilməsi "Qasid", "Avista" firmasından, nəşriyyatlardan, "məcburi nüsxələrin alınması, müxtəlif mənbələrdən ədəbiyyatın sifarişi və komplektləşdirilməsinin mühüm mənbələrindən biri olan beynəlxalq kitab mübadiləsi yolu ilə aparılmışdır. Eyni zamanda bu mərhələ alim və mütəxəssislərdən, təşkilatlardan alınmış kitab hədiyyələrinin hesabına həyata keçirilmişdir.

Belə ki, 2006-cı ildə kitabxanaya 16.081 nüsxə ədəbiyyat daxil olmuşdur, o cümlədən 3.752 nüsxə xarici dillərdə. Daxil olan 6.319 nüsxə kitabların 3.787 nüsxəsi –Azərbaycan dilində, 1.315 nüsxəsi rus dilində, 1.217 nüsxəsi – Qərbi Avropa və Şərq dillərindədir. Kitabxanaya daxil olan dövri və ardı davam edən ədəbiyyatın ümumi sayı 7.299 nüsxə olmuşdur ki, onların 1.917 nüsxəsi xarici dillərdədir (14).

2006-cı ildə kitabxananın elektron bazası genişlənmişdir. "Ədəbiyyatın elmi komplektləşdirilməsi şöbəsi" vasitəsilə kitabxanaya AMEA-nın bir sıra nəşrləri həm də elektron variantında toplanmışdır. Həmin nəşrlər şöbədə toplanaraq vahid formada işlənmişdir. Buraya AMEA-nın "Xəbərlər"i (2005-2006-cı il üçün bütün nömrələr), "Yer elmləri (2005-2006), "Azərbaycan kimya jurnalı" (2001-2006), "Məruzələr" (2004-2005), "Hesabatlar" (2003-2005), "Biologiya jurnalı" (2005-2006), "İnformasiya texnologiyaları problemləri" (2005-2006) jurnalının elektron variantı daxildir. 2006-cı ildə Mərkəzi Elmi Kitabxanaya elektron formada 36 dissertasiya və avtoreferat daxil olmuşdur.

Mərkəzi Elmi Kitabxana respublikada beynəlxalq kitab mübadiləsi mərkəzi olaraq beynəlxalq əlaqələrini daima genişləndirir. 2006-cı ildə kitabxana xarici ölkə partnyorları, o sırada Elmlər Akademiyaları, elmi-tədqiqat institutları, kitabxana və informasiya mərkəzləri, cəmiyyət və assosiasiyaları, ali təhsil müəssisələri, nəşriyyatlar, ayrı-ayrı elm və mədəniyyət xadimləri və digərlərilə apardığı yazışmaları davam etdirərək ədəbiyyat qıtlığı, nəşrlərin müntəzəm daxil olmaması nəticəsində pozulmuş mübadilə əməliyyatlarının bərpa edilməsi üçün çalışmışdır.

Kitabxananın ən aktiv partnyorları olan ölkələr ABŞ, İsveçrə, İtaliya, Yaponiya, Bolqariya, Almaniya, Türkiyə, İran, Misir, Suriya, Küveyt, Səudiyyə Ərəbistanı Krallığı, Birləşmiş Ərəb Əmirlikləri, MDB dövlətləri və digərləridir.

Əgər 2006-cı ildə kitabxana dünyanın 65 dövlətinin 612 təşklatı ilə əlaqə saxlayaraq ədəbiyyat və informasiya mübadiləsi aparırdısa, hazırda kitabxana 72 dövlətin 571 təşkilatı ilə əlaqə saxlayaraq ədəbiyyat və informasiya mübadiləsi aparır.

Beynəlxalq kitab mübadiləsi nəticəsində 2006-cı ildə kitabxanaya 4010 nüsxə ədəbiyyat alınmışdır. Eyni zamanda Şərq ölkələrinə 330 nüsxə, Qərbi Avropa ölkələrinə 914 nüsxə, MDB ölkələrinə 1514 nüsxə ədəbiyyat göndərilmişdir. (7,s.65) 2008-ci ildə isə beynəlxalq kitab mübadiləsi vasitəsilə 4073 nüsxə ədəbiyyat alınmışdır. Eyni zamanda Şərq ölkələrinə 666 nüsxə, Qərbi Avropa ölkələrinə 344 nüsxə, MDB ölkələrinə 724 nüsxə ədəbiyyat göndərilmişdir.

AMEA-sı MEK-nın kitab fondunun planlı şəkildə zənginləşdirilməsində və komplektləşdirilməsinin elmi əsaslarla təşkil olunmasında mühüm rol oynayan köməkçi məlumat aparatı (komplektləşdirmənin tematik kartotekası, cari komplektləşdirmə kartotekası, komplektləşdirilən ədəbiyyatın toplu kartotekası, ədəbiyyatın yenidən komplektləşdirilməsi kartotekası və s.) ilə kitabxanada ciddi redaktə işləri aparılır. Nəticədə AMEA-nın Elmi-Tədqiqat müəssisələrində aparılan elmi–tədqiqat mövzuları təhlil edilmiş, kartotekalarda müvafiq dəyişikliklər aparılmış, aktuallıgını itirmiş mövzular çıxarılmış, elmi ədəbiyyatın komplektləşdirilməsi profili müəyyənləşdirilmişdir.

Eyni zamanda kitabxananın fondlarının müasir dövrə uyğun inkişafı məqsədilə “Yeni şəraitdə AMEA ETM-lərin profilinə uyğun olaraq fodların elmi ədəbiyyatla komplektləşdirilməsi”, “Fondların müasir komplektləşdirmə mexanizminin yaradılması” istiqamətində tədqiqat işləri aparılmış, alınan nəticələr təhlil edilmiş və ETM-lərdə aparılan elmi-tədqiqat prioritet və perspektivli mövzuları müəyyənləşdirmişdir. Onların əsasında ən aktual mövzulara aid çap və elektron elmi nəşrlər əldə edilmiş və oxucuların istifadəsinə verilmişdir (8,s. 18).

Nəticə etibarilə qeyd etmək lazımdır ki, Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası respublikada ən iri elmi kitabxanadır. 90 ilə yaxın fəaliyyət göstərən kitabxana çox mürəkkəb inkişaf yolu keçmişdir. XX əsrin 70-80-ci illərində keçmiş SSRİ-də böyük nüfuz qazanmış kitabxana 90-cı illərdə maliyyə çətinlikləri ilə üzləşmiş, ədəbiyyatın komplektləşdirilməsi problemləri, informasiya təminatı passivliyi, beynəlxalq əlaqələrin zəifləməsi, maddi-texniki bazanın yetərli olmaması, kompüter texnologiyalarının tətbiqi ilə bağlı problemlərin qarşıya çıxması səbəbindən böhran vəziyyətinə düşmüşdür.

Müstəqilliyimizin bərpasından sonra ölkənin digər kitabxanaları kimi MEK-na da öz xidmət işini yeni şəraitə yuğun tələblər əsasında qurmağa başlamışdır. Belə ki, Beynəlxalq əməkdaşlıq nəticəsində kitab-

xana bir sıra nüfuzlu təşkilatların üzvlüyünə qəbul edilmişdi. Kitabxanada "Kitabxana işinin avtomatlaşdırılması" şöbəsi yaradılmışdır. 2003-cü ildən İRBİS-in tətbiqi ilə məşğul olmağa başlamışdır. Kitabxanada "Mərkəzi Elmi Kitabxanada kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasının əsas istiqamətlərinin təxmini planı" hazırlanmışdır. Bunlar: komplektləşdirmə istiqamətində, elektron kataloqun yaradılması istiqamətində, oxuculara kitabxana xidməti istiqamətində, Beynəlxalq kitab mübadiləsi istiqamətindən ibarət olmuşdur .

## ƏDƏBİYYAT

1. *Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan.-2007.-21 aprel.*

2. *Бродовский А.М., Новое поколение автоматизации библиотек ИРБИС-ИРБИС-64 от электронного каталога к полнотекстовым БД /А.М. Бродовский, К.О. Сбойчиков // Науч. и техн. библиотеки.-2005.- №7.- С.107-110.*

3. *Əliyeva- Kəngərli, A. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası-80. / A. Əliyeva- Kəngərli // Elmi əsərlər/ AMEA MEK-80.- Bur 6.-B.,2005.-S.7-24.*

4. *Əliyeva- Kəngərli, A. Müasir Azərbaycanda elmin-informasya təminatı və kitabxanalar./ A. Əliyeva- Kəngərli -B.:Elm,2007.-394 s.*

5. *Həsənov M.M. Kitabxana fondunun yaranması,formalaşması və idarə edilməsi: Dərs vəsaiti / M.M.Həsənov -B.:BDU, 2004.-143 c.*

6. *Hüseynova, F. Kompüter texnologiyalarının tətbiqi mərhələsində AMEA Mərkəzi Elmi Kitabxanasında biblioqrafik-informasiya xidmətinin təşkili:ənənə və perspektivlər /F. Hüseynova // Elmi əsərlər /AMEK MEK-80.-Bur.4.-B.,2003.-S.24-32.*

7. *Hüseynova,F.İ. AMEA Mərkəzi Elmi Kitabxanasının fəaliyyətinin 2006-cı il üzrə əsas yekunları / F.İ.Hüseynova,Q.Ə.Cəfərova // Elmi əsərlər /AMEA MEK-na.-Bur. 8.-B.,2008.-S.64-77.*

8. *Hüseynova,F.İ. Mərkəzi Elmi Kitabxana:Yekunlar və nailiyyətlər / F.İ.Hüseynova, Q.Ə.Cəfərova // Elmi əsərlər /AMEA MEK-na .-Bur.9.- B., 2009.-S.16-30.*

9. *Xələfov,A.A. Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində / A.A.Xələfov // Kitabxanaşünaslıq və biblioqrafiya.-2004.-№4 .-S.3-11.*

10. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.-1999.-14 mart.*

11. *Rüstəmov,Ə. Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması / Ə.Rüstəmov, N.Mustafayeva // Kitabxanaşünaslıq və biblioqrafiya.-2007.-№2.-S.15-28.*

12. *Rzayeva,S. AMEA Mərkəzi Elmi Kitabxanasında ədəbiyyatın komplektləşdirilməsi məsələləri / S.Rzayeva //Elmi əsərlər /AMEA MEK-80.-Bur.6.- B.,2005.-S.69-78.*

13. *Столяров Ю.Н. Библиотечный фонд: Учебник / Ю.Н.Столяров.-М.:Книжная палата,1991.- 270 с.*

14. *Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının 2000-2008-ci il hesabatları*

15. *Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsinin 2003-2009-ci il hesabatları*

**С.МУСТАФАЕВА**

## ОРГАНИЗАЦИЯ ФОНДОВ ЦЕНТРАЛЬНОЙ НАУЧНОЙ БИБЛИОТЕКИ НАН В УСЛОВИЯХ АВТОМАТИЗАЦИИ

### РЕЗЮМЕ

За 80 лет своей деятельности Центральная научная библиотека Национальной Академии Наук Азербайджана всегда уделяла первостепенное внимание в оказании помощи ученым в подборе информации, которая имеет существенное значение для изучения и дальнейшего развития науки в Азербайджане.

В статье рассматриваются этапы развития и современное состояние книжных фондов научной библиотеки НАН Азербайджана в условиях автоматизированной системы.

**S.MUSTAFAYEVA**

## THE ORGANİZATİON OF FUNDS OF CENTRAL SCİENTİFİC LİBRARY NAS İN CONDİTİONS OF AUTOMATİON

### SUMMARY

For 80 years of the activity of the Central scientific library of the National Academy of th Sciences of Azerbaijan always paitd paramaunt attention in rendering asisstanse of scientists in selection of the information, wohich has essential value for studying and the further. Development of as science in Azerbaijan. In article is analyzes the stages of development and a modem condition of book finds of scientific library NAS of Azerbaijan in conditions of the automated system.

**Rəşad QARDAŞOV**
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi***

# KİTABXANAÇILIQ TƏHSİLİNİN İNKİŞAFINDA KİTABXANAÇILIQ TƏCRÜBƏSİNİN ROLU

***Açar sözlər:*** *Kitabxana işi, kitabxana təhsili, RF təcrübəsi, ABŞ təcrübəsi.*

***Ключевые слова:*** *библиотечное дело, библиотечное образование, опыт РФ, опыт США.*

***Keywords:*** *library practice, library education, practice of RF, practice of USA.*

Təhsil və təcrübə çox zaman fərqli mənalar kəsb edir. Bu, həmçinin kitabxanaçılıq sahəsinə aiddir. Hər bir kitabxana öz fəaliyyətində öz spesifik xüsusiyyətlərini nəzərə alır və fəaliyyət dairəsini bu istiqamətlərdə qurur. Bunu nəzərə alaraq, gənc kitabxanaçılar hər zaman nəyisə öyrənmək, nəyəsə nail olmaq uğrunda mübarizə aparırlar. Kitabxanaçılıq təhsilinin əsas qayəsi yalnız ondan ibarət deyil ki, kursa dair materialları mənimsəsin. O, həm də gələcək peşəyə dair vacib keyfiyyətləri öyrənməlidir. Bu, özünəinam, maraqlılıq, yaradıcı təfəkkür, kommunikativlik və məsuliyyətdir. Sadalanan bu yeni şərtlərə uyğunlaşmaq üçün əməkdaşın üzərinə hansı işlərin düşdüyünü müəyyənləşdirmək lazımdır. Həmçinin, onu da bilmək lazımdır ki, o, özünü hansı mühitdə və hansı iş şəraitində göstərə bilər.

Peşəkar fəaliyyət tərzi, ixtisaslaşmanın daha yüksək səviyyədə olması, kollektiv işlərdə özünügöstərmə kimi xüsusiyyətlər də kitabxanaçılıq təhsilində öz əksini tapmalıdır. Bütün bu deyilənlər kitabxanaçılıq təhsilində öz əksini taparsa və kitabxanaçılıq təcrübəsində düzgün tətbiq olunarsa, təhsilin keyfiyyəti daha da yüksək və effektiv olar. Beləliklə, daha effektiv kitabxanaçılıq təhsilini və təcrübəsini yaymaq üçün kitabxanaçılıq təhsili verən təhsil müəssisələri və təşkilatlarda təhsil alan mütəxəssislərə bu fikirləri aşılamaq lazımdır.

Peşəkar əməkdaşlıqda kitabxanaçılıq təhsilinin və təcrübəsinin 2 infrastrukturu müəyyənləşdirilmişdir:

1. Bu sahə üzrə mütəxəssis kadrların hazırlanması: bu istiqamət birinci və əsasdır;
2. Fəaliyyət və istehsal (kitabxanaçılıq işi): burada həyata keçirilən fəaliyyət və işlər Azərbaycan Respublikasının bu sahəyə dair qanunları ilə tənzimlənir.

Peşəkar kitabxanaçı-biblioqraf kadrların hazırlığı və onlara verilən minimum dövlət tələbləri respublika hökuməti tərəfindən hazırlanmış müvafiq dövlət standartlarına əsasən həyata keçirilir. Qəbul olunmuş dövlət standartlarında kitabxanaçılıq təhsilinin bölgüsü, fəaliyyət dairəsi, prinsipləri, kitabxanaçı kadr hazırlığında qarşıya qoyulan tələblər öz əksini tapmışdır. Qəbul edilmiş ilk dövlət standartından son dövlət standartınadək kitabxanaçı kadr hazırlığında qarşıya çıxan problemlər öz həllini tapmışdır ki, bu işdə də bu sahədə çalışan mütəxəssislərin, fənləri tədris edən alimlərin fədakar əməyini qeyd etmək lazımdır.

Yuxarıda qeyd etmək lazımdır ki, kitabxanaçılıq təhsilində və təcrübəsində ilk istiqamət kitabxanaşünas-biblioqraf kadrların hazırlığıdır. Bu məsələni bir az dərindən araşdıraq.

Məlumdur ki, kitabxanaşünas-biblioqraf kadr hazırlığı bu sahəyə olan tələbatdan irəli gəlmişdir. Bazar iqtisadiyyatının tələb-təklif münasibətlərinə əsaslansaq görərik ki, zaman keçdikcə tələb olunan yerlərə qarşı təklif olunan kadrlar hər zaman azlıq təşkil etmişdir. Çünki mədəniyyətimizin ayrılmaz hissəsi olan və cəmiyyətdə hər zaman informasiya funksiyasını önə çəkən kitabxanaların sayı artan xətlə inkişaf etmişdir. Tarixə nəzər salsaq görərik ki, XX əsrin 20-ci illərindən başlayaraq, ölkədə olan kitabxanaların sayı xeyli artmışdır. Hazırda respublikamızda 12 minə yaxın kitabxana fəaliyyət göstərir. Bu kitabxanaları kitabxanaçı kadrlarla təmin etmək üçün kitabxanaşünas-biblioqraf kadr hazırlığına xüsusi diqqət yetirmək lazımdır.

Peşəkar kitabxanaşünas-biblioqraf kadr hazırlığı özündə peşəkar fəaliyyəti əks etdirməlidir. Bu fikrimizi təhlil etsək, belə qənaətə gələrik ki, peşəkar kitabxanaşünas-biblioqraf kadrlar aşağıdakı fəaliyyət prinsiplərini özündə birləşdirməlidir:

- Elmi-tədqiqat bacarığı;
- Praktiki istehsal bacarığı;
- Müzakirə;
- Metodiki iş və s.

Bu zaman təcrübədə çalışan kitabxanaçıların praktiki istehsal fəaliyyəti anlamını daha ətraflı mənimsəmək lazımdır. Birinci fəaliyyət istiqamətini araşdırarkən bir daha belə qənaətə gəlmək olar ki, kitabxanaçılıq təhsili və təcrübəsində əsas yerlərdən də birini kadr hazırlığına verilən tələblər tutur. Kitabxanaçılıq təhsili və təcrübəsi bu sahədə çalışan kadrların hazırlığından başlayır. Düzgün kadr hazırlamaq kitabxanaçılıq təhsili və təcrübəsində əhəmiyyətli yer tutur. Kitabxanaçılıq təhsilində peşə biliklərinin tədrisi dedikdə nə başa düşülür? Təhsil bazası: bu zaman həmin peşənin dərinliklərinə nüfuz edən, onun əhəmiyyətini cəmiyyət üçün açıqlayan biliklər toplusu başa düşülür.

Ümumiyyətlə, kitabxanaçılıq təhsilində kitabxanaşünaslıq elmlərinin tədrisi iyerarxik qaydada, sadədən mürəkkəbə doğru formalaşmışdır. İndi isə kitabxanaçılıq təhsilində birinci yerdə dayanan kitabxanaşünaslıq fənlərinin tədrisi metodikasına nəzər yetirək.

Məsələn, "Kataloqlar": kadr hazırlığında istifadə olunan dövlət standartında sırf belə bir ixtisas yoxdur, lakin peşəkar kadr hazırlığı üçün bu fənnin tədrisi böyük əhəmiyyət kəsb edir. Burada kitabxana kataloqlarının əsas xüsusiyyətləri, kataloq sistemi, onun növləri, biblioqrafik təsvir və təsnifləşdirmə və predmetləşdirmə məsələləri tədris olunur. Həmçinin, ənənəvi informasiya-axtarış sistemləri ilə müasir informasiya-axtarış sistemləri arasında olan fərqlər bu fənnin tədrisində öz əksini tapır. Kitabxana kataloqları kursu kitabxanalarda işləyən kadrların ixtisaslaşmasında böyük əhəmiyyətə malikdir. Məlum olduğu kimi, kitabxanalarda ənənəvi və avtomatlaşdırılmış kataloqlar mövcuddur. Bunlar arasındakı fərqlər də bu fənnin tədrisində öytənilir.

Elmi, tərbiyəvi fikirləri özündə birləşdirən və bu sahənin baza fənlərindən biri sayılan "Kitabxana xidməti" fənninə dövlət standartında mühüm yer verilmişdir. "Kitabxana xidməti": burada oxuculara xidmət işinin məqsədi, məzmunu və vəzifələri elmi cəhətdən izah olunur, şəxsiyyətin formalaşmasında, cəmiyyətin intellektual səviyyəsinin inkişafında mütaliənin və bu işə xidmət edən kitabxanaların rolu əsaslandırılır. Burada, həmçinin, oxucu marağı, oxucu tipologiyası, mütaliə psixologiyası, mütaliə sosiologiyası və mütaliə pedaqogikası kimi mühüm problemlərin şərhi verilmişdir. Həmçinin, kitabxana ünsiyyəti, kitabxana etikası, kitabxana xidmətində effektivlik, eləcə də kitabxanaçılıq peşəsi və kitabxanaçının şəxsiyyəti üçün vacib sayılan əlamət və keyfiyyətlər izah olunur. Sırf bu fənlə əlaqədar olduğu üçün bir müqayisəni aparmaq yerinə düşərdi. 1998-ci ildə Rusiyada kitabxanaşünas-biblioqraf kadr hazırlayan təhsil müəssisələrində kitabxanaçılıq psixologiyası adlı fənnin tədrisinə başlanılmışdır. Haşiyə çıxaraq qeyd etmək istərdik ki, kitabxanaşünaslıq elmi bir fəndən, bir predmetdən ibarət deyil. Bura bu sahənin əsas prioritet istiqamətlərini özündə birləşdirən və geniş elmi izahını vermək bacarığında olan fənlər toplusu aiddir.

Qeyd etdiyimiz kimi, hər bir fənni tədris edərkən, ilk növbədə, onun tarixinə nəzər yetirmək lazımdır. "Azərbaycanda kitabxana işinin tarixi" fənni ən qədim zamanlardan müasir dövrə qədər kitabxanaların inkişafının xronoloji ardıcıllığını öyrənir. Kitabxanaşünas-biblioqraf ixtisasına yiyələnən kadrlar üçün bu fənnin əhəmiyyəti böyükdür.

"Ümumi kitab tarixi": burada Misir, Şumer, Çin, Hind, Yəhudi, Türk, Slavyan xalqlarının ən qədim yazı tipləri, sistemləri, əlifbaları, yazı materialları, əlyazma kitabları, onların meydana gəlməsi, təşəkkülü,

inkişafı, istifadəsi və yayılması problemləri şərh edilir. Ümumiyyətlə, kitab tarixi kursunun öyrənilməsi, elmi şəkildə işlənməsi, oxucu qrupları arasında kitabın təbliği və yayılmasının səmərəliliyinin yüksəldilməsi böyük aktuallıq və əhəmiyyət kəsb edir.

"Ümumi biblioqrafiyaşünaslıq": burada biblioqrafik fəaliyyətin nəzəri əsaslarından, biblioqrafik informasiyanın mahiyyətindən, əsas ictimai funksiyalarından, biblioqrafik informasiyanın yaranma tarixindən, inkişaf qanunauyğunluqlarından bəhs olunur.

"Kitabxanaşünaslığa giriş": cəmiyyətin malik olduğu sosial sistemlər arasında kitabxanaşünaslığın keçdiyi yol, əldə etdiyi nailiyyətlər, inkişaf perspektivləri və ən əsası, bu sahə fənlərinin başlanğıcı hesab olunur və bu sahədə açar rolunu oynayır.

"Kitabxana işinin təşkili və idarə edilməsi": burada əhaliyə kitabxana xidmətinin səmərəliliyi və keyfiyyətini yüksəltmək, elmi idarəetmənin əsaslarını öyrətmək, onun inkişaf perspektivlərini, qanunauyğunluqlarını açıb göstərməkdən, həmçinin mütəxəssisləri ilkin təşkilati işlərə yönəltməkdən ibarətdir.

"Kitabxana-informasiya texnologiyaları": burada kitabxana-informasiya texnologiyalarının nəzəri əsasları, tarixi, strukturu, fəaliyyət prinsipləri ətraflı şərh edilir, informasiya proseslərinin nomenklaturası, toplanması, işlənməsi, informasiya resurslarının təsnifatı, reqlamentləri, eləcə də texnoloji layihələşdirmənin mərhələləri haqqında geniş təsəvvür yaradılmışdır.

Göründüyü kimi, kitabxanaşünas-biblioqraf kadr hazırlığında, kitabxanaçılıq təhslinin inkişafında baza fənlərinin tədrisi mühüm əhəmiyyətə malikdir. Kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elmləri ilə yanaşı, kitabxanaçılıq təcrübəsinin də böyük yeri vardır.

Məlum faktdır ki, müasir dövrdə orta və ali kitabxanaçılıq təhsili cəmiyyətdə baş verən mürəkkəb kitabxana-informasiya proseslərindən təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Təsadüfi deyil ki, dünya kitabxanaşünaslıq nəzəriyyəsi və təcrübəsi qarşılıqlı əlaqədə tədris edilir. Buna görə də müasir kitabxanaçılıq təhsili sistemində heç bir nəzəri fənni təcrübədən kənarda təsəvvür etmək mümkün deyildir. Bütün bunlar aydın göstərir ki, kitabxanaçılıq təhsili müəssisələrində tədris prosesinin mütərəqqi təcrübi yeniliklərlə zənginləşdirilməsi ilk növbədə tədris planları və proqramlarının tərtib edilməsinə metodik mərkəz statusuna malik olan elmi kitabxanaların cəlb edilməsi zərurətini irəli sürür.

İndi isə Azərbaycan kitabxanaçılıq təhsilinə örnək ola biləcək Rusiya və ABŞ kitabxanaçılıq təcrübəsinə müraciət edək.

Məlumdur ki, Azərbaycan 70 ildən artıqdır ki, SSRİ məkanında yaşamışdır. Təkpartiyalı sistem olan SSRİ-də kitabxanaçılıq təhsili bütün

müttəfiq respublikalar üçün eyni tərzdə qurulmuşdur. Müstəqillik əldə etdikdən sonra da, mütəqilliyimizin ilk illərində Azərbaycan kitabxanaçılıq təhsilində Rusiya təcrübəsinə böyük yer vermişdir. Buna bariz nümunə kimi, 1992-1993-cü illərdə tədris planlarının Rusiya tədris planları ilə eyni olduğunu göstərmək olar.

Rusiya Federasiyasında 130 min kitabxana vardır. Onlardan 47 400-ü kütləvi kitabxana, 65 minə yaxını məktəb kitabxanaları, yerdə qalanları isə xüsusi – tibb kitabxanaları, Rusiya Elmlər Akademiyasının kitabxanaları, universitet, kənd təsərrüfatı, elmi-texniki, iqtisadiyyatın ayrı-ayrı sahələrinə dair kitabxanalardır. Rusiyada peşəkar kitabxanaçı kadr hazırlayan 40 kollec, 17 universitet vardır ki, onlar da hər il 1800 orta, 1600 ali təhsilli kitabxanaçı kadr hazırlayırlar.

Rusiyada kitabxanaçılıq təhsilinin yaranması XX əsrin 30-cu illərinə təsadüf edir. İlk dəfə olaraq ölkədə 1930-cu ildə Moskva Kitabxanaçılıq İnstitutu təsis edilmişdir. Bu illərdən başlayaraq orta ixtisas müəsssisələri təsis olunmağa başlandı ki, burada da kitabxanaçı mütəxəssislər ayrı-ayrı sahələr üzrə hazırlanırdı. 1970-ci illərdə vahid bir ixtisas – "Kitabxanaşünaslıq-biblioqrafiyaşünaslıq" ixtisası üzrə kadr hazırlığına başlandı. XX əsrin son 15 ilində Rusiyada kitabxanaçılıq təhsili sahəsində əldə olunan ən böyük nailiyyətlərdən biri o oldu ki, çoxsəviyyəli təhsil sistemi yaradıldı. Bu, 1990-cı illərin əvvəllərində tam formalaşdı. Bu çoxsəviyyəli təhsil sisteminin əsas tərkib hissələrini aşağıdakılar təşkil edirdi:

- orta təhsil: kollec, texnikum;
- ali təhsil: ayrı-ayrı institutların, akademiyaların kitabxanaçılıq fakültələri;
- əlavə təhsil: ixtisasartırma kursları, institutların aspirantura və doktorantura şöbələri.

Yuxarıda sadaladığımız ilk iki istiqamət kitabxanaşünas-biblioqraf baza təhsili verirdi: orta təhsil – 3 il, ali təhsil – 4 il. Bu sistem bir məntiqi qanunauyğunluğu meydana çıxarırdı ki, burada da dərsliklər və tədris planlarına uyğun olaraq hazırlanan tələbələr öz bilik və bacarıqlarını çoxsəviyyəli təhsil sisteminə uyğunlaşdıra bilirdilər. 2000-ci ildə Rusiyada kitabxanaçılıq təhsili üzrə birinci dövlət standartı qüvvəyə mindi. İkinci nəsil (2003) standartı kitabxanaçılıq təhsili üzrə yeni ixtisasın – kitabxanaçılıq-informasiya ixtisasının yaranmasına səbəb oldu. Bu standart kitabxanaşünaslıq-biblioqrafiya ali təhsili almış mütəxəssislərə informasiya mütəxəssisi, informasiya resurslarından istifadə edən referent, informasiya meneceri kimi adlar verirdi ki, bu da müasir dövrlə uyğunluq təşkil edir. Lakin baş verən bu uğurlarla yanaşı, Rusiya kitabxanaçılıq-informasiya təhsilində çatışmayan bir böyük cəhət

var idi. Bu da genişlənməkdə olan dünya praktikasından geri qalmaq idi. Məzunlara informasiya-kommunikasiya texnologiyaları sahəsində biliklər, menecment-marketinq fəaliyyəti ilə bağlı biliklər lazımi səviyyədə tədris olunmurdu ki, bütün bunları da bilmək sosial mədəniyyət sahəsində mühüm əhəmiyyət kəsb edirdi.

Sadalanan bütün bu faktorlar Rusiya kitabxanaçılıq təcrübəsinin Bolonya prosesinə qədər olan dövrünə aiddir. İndi isə Rusiyada kitabxanaçılıq təhsilinin Bolonya prosesi kontekstində islahatlarına nəzər salaq.

Rusiya Bolonya Bəyannaməsinə 2003-cü ildə qoşulmuşdur. Məhz bu dövrdən başlayaraq kitabxanaçılıq-informasiya təhsili sahəsində ölkədə yeni mərhələnin başlanğıcı qoyuldu. Təhsil sistemində bu islahatların əsas hədəfi kitabxanaçı kadrların peşə səviyyəsini artırmaqdan ibarət idi ki, bu zaman da Avropa modeli və mümkün bütün təcrübədən istifadə olunmalı idi. Bu sahədə yenidənqurma 2005-ci ildə başladı. Gələcək təhsil strategiyasını özündə birləşdirən yeni kitabxanaçılıq-informasiya təhsili üzrə dövlət standartı qəbul edildi (2008). Bu standartda Bolonya prosesinin tələbləri öz əksini tapırdı.

Müasir kitabxanaçı informasiya axtarışını, analizini nəinki kitabxana sferasında, bütün informasiya-kommunikasiya sahəsində həyata keçirə bilən mütəxəssis olmalıdır. Qəbul olunmuş yeni standart ixtisas proqramları və dərsliklərinin geniş səviyyədə tədrisini tələb edirdi. Təhsil səviyyəsinin yüksəldilməsi Rusiya Federasiyasının təhsil sistemində həyata keçirilən ən böyük islahatlardan biridir. Kitabxanaçılıq-informasiya təhsilinin keyfiyyətini daha da yüksəltmək onun digər fənlərlə, onun ayrı-ayrı kriteriyaları ilə əlaqələrinin kompleks təhlilindən ibarətdir. Kitabxanaçılıq-informasiya təhslinə marketinq-menecment fəaliyyətinin bağlanılması bu peşənin sosial nüfuzunun artmasına səbəb olacaqdır. Məhz bu islahatlar kitabxanaçılıq təhsili üzrə qəbul olunmuş dövlət standartında önə çəkilmişdir. Lakin bütün bunlar da bu sahədə olan problemlərin tam həllini məqbul görmür. Aşağı səviyyədə olan əməkhaqqı gənc və bacarıqlı mütəxəssislərin yetişməsinə öz mənfi təsirini göstərir. Bu faktor aradan qaldırılmasa Rusiyada gələcək kitabxanaçı mütəxəssislərin yetişməsi sual altına düşə bilər. Bu gün öz peşəsini tərk edib ayrı-ayrı fəaliyyət sahələrində çalışan Rusiya kitabxanaçılarının sayı 80 faizə yaxındır. Sözsüz ki, qəbul olunmuş yeni təhsil standartı kitabxanaçılıq-informasiya təhsilinin ölkədə keyfiyyətinin artırılmasına xidmət edir. Lakin unutmaq olmaz ki, yaranmış bu vəziyyəti aradan qaldırmaq üçün çoxillik fədakar əmək fəaliyyəti lazımdır.

Rusiyada ikipilləli təhsil sisteminin yerinə qəbul edilmiş üçpilləli təhsil sistemi (bakalavr, magistr, doktor) bir çox Şərqi Avropa

ölkələrinin, həmçinin doqquz MDB ölkəsinin kitabxanaçılıq təcrübəsindən yararlanmışdır. Şərqi Avropa ölkələrində kitabxanaçılıq təhslinə verilən tələblər də müxtəlifdir. Bu ölkələrin hər birində milli kitabxanaçılıq təhsili modeli qorunub saxlanılır. Məsələn, Polşa, Estoniya, Litva, Çexiya və Slovakiyada ali kitabxanaçılıq təhsili üçpilləli (bakalavr, magistr, doktor), Bolqarıstanda dördpilləli (mütəxəssis, bakalavr, magistr, doktor), Belarusda isə birpilləli (mütəxəssis) təhsil modeli saxlanılmışdır.

Rusiya kitabxanaçılıq təhsili sahəsində hələ qarşıda böyük çətinliklər və maneələr durur. Zəngin kitabxanaçılıq təhslinə malik ölkələrin təcrübələrindən yararlanmaq və təhsildə yeni islahatlar həyata keçirməklə bu problemlərin aradan qaldırılmasına səy göstərilir.

Hazırda kitabxanaçılıq sahəsinin ən çox inkişaf etdiyi ölkələrdən biri də ABŞ-dır. Respublikamızda kitabxanaçılıq təhsilinin inkişafında ABŞ kitabxanaçılıq təhsilinin də təsiri böyükdür. ABŞ-da kitabxanaçılıq sahəsinin yüksək inkişaf etməsinə səbəb burada yüksək və müasir tələblərə cavab verən kitabxanaçılıq təhsilinin olmasıdır. Bu səbəbdən də ölkəmizdə kitabxanaçılıq təhsilinin daha yüksək səviyyədə inkişaf etdirilməsi üçün bu ölkənin təcrübəsindən yararlanmaq daha məqsədəuyğun olar.

ABŞ-da kitabxanaçılıq təhsili, bu sahədə kadr hazırlığı məsələlərini öyrənmək üçün Bostonda yerləşən ABŞ-ın Yeni İngiltərə regionunun ən əhəmiyyətli kitabxanaçılıq təhsili müəssisəsi olan Simmons Kollecinin fəaliyyətini araşdırmaq yerinə düşərdi. Buraya müxtəlif sahələrdən bakalavr diplomu olan mütəxəssislər qəbul olunur və onlar kitabxanaçılıq-informasiya fəaliyyəti üzrə ixtisaslar əldə edib, magistr dərəcəsi ilə kolleci bitirirlər. Kollecdə tədris prosesinin xüsusiyyətləri müxtəlifdir.

ABŞ-da 1-2 tədris müəssisəsindən başqa heç bir yerdə bakalavr pilləsi üzrə kitabxanaçı hazırlanmır və kitabxanaçı-biblioqraf ixtisası ilə bağlı vəzifələrə yalnız bu sahə üzrə diplomu olan mütəxəssislər qəbul edilirlər. Bu da ölkədə həmin peşəyə verilən yüksək qiymətdən və peşənin nüfuzundan irəli gəlir.

İndi isə ABŞ-ın kitabxanaçılıq-informasiya təhsili verən bir neçə universitetinin təhsil proqramları haqqında daha geniş məlumat verək:

Alabama Universiteti-Kitabxana və İnformasiya Tədqiqatları məktəbi: Alabama Universiteti ABŞ-da yüksək səviyyəli kitabxanaçılıq təhsili verən qabaqcıl universitetlərdən biridir. Universitetdə təhsil alan tələbələr kitabxana və informasiya tədqiqatları üzrə elmi dərəcə almaqla yanaşı, oxuduqları müddət ərzində üç sahə üzrə ixtisas seçimi apara bilərlər: 1) Kitabxana tədqiqatları; 2) Arxiv tədqiqatları; 3) İnformatika.

Lakin tələbələrin ümumilikdə aldıqları icbari fənlər də vardır: cəmiyyətdə informasiya, informasiya strukturları, kitabxana-informasiya xidmətləri layihələri, ictimai xidmət. Bundan başqa, tələbələr maraqlandıqları ayrı-ayrı kitabxana tiplərinin fəaliyyətinə uyğun istiqamətlərdə dərslər götürüb ixtisaslaşa bilərlər. Universitetdə tələbələr həmçinin aşağıdakı istiqamətlər üzrə ixtisaslaşa bilərlər:

- Müxtəlif mədəniyyətlərə aid cəmiyyətlərdə uşaqlara və gənclərə xidmət;
- Bütün formatlarda kitabxana materiallarının saxlanması;
- Etik və hüquqi problemlər, müəlliflik hüququ, intellektual azadlıq;
- Kitab və biblioqrafiya tarixi;
- İnsanların informasiya ehtiyacı və informasiya-axtarış qaydaları;
- Kitabxana şirkətləri və əməkdaşlıqları;
- Kitabxana binalarının layihələşdirilməsi;
- Elektron ticarət strategiyaları;
- İnformasiya arxitekturası;
- Verilənlər bazası layihələri, idarəetmə və qiymətləndirmə.

Ümumiyyətlə, ABŞ universitetlərinin əksəriyyətində tələbələr hər kursda üç semestr təhsi alırlar: 1) payız semestri; 2) yaz semestri; 3) yay semestri. Əgər tələbələr payız və yaz semestrində yalnız nəzəri biliklər əldə edirlərsə, yay semestrində təcrübi biliklər qazanırlar. Bunun üçün universitet tərəfindən Yay məktəbləri (Summer school) təşkil edilir ki, burada tələbələr həm işləyərək təcrübə toplayır, həm də məvacib alırlar.

Qeyd edək ki, universitet yay məktəblərini ölkənin ayrı-ayrı şəhərlərində, əsasən mərkəzdən uzaq yerlərdə təşkil edir ki, bu da tələbələri daha çox həvəsləndirir və həm də onlar bir növ istirahət etmiş olurlar. Alabama Universiteti də bu cür yay məktəbləri təşkil etməklə tələbələrin daha yüksək səviyyədə ixtisasa yiyələnmələrinə şərait yaradır.

Sirakuza Universiteti. Bu universitet ABŞ-da az saylı universitetlərdən biridir ki, orada kitabxana-informasiya elmləri üzrə bakalavr, informasiya menecmenti və texnologiyası üzrə bakalavr dərəcəsi almaq mümkündür. Tələbə il ərzində 120 kredit toplamalıdır ki, bunun da 40-ı informasiya elmləri məktəbində toplanmalıdır. Universitetdə tələbələr üçün Media mərkəzləri fəaliyyət göstərir ki, burada sırf kitabxana ixtisası üzrə təhsil alan və bilik səviyyəsi daha yüksək olan tələbələr işləmək imkanı əldə edirlər. Bu Media mərkəzlərinin əsas özəllikləri nədir? Media mərkəzləri fəaliyyət və quruluş etibarı ilə kitabxanaları xatırladır, lakin bir fərq vardır ki, bu mərkəzlər gündəlik olaraq dünyada baş verən siyasi, iqtisadi, sosial, mədəni, informasiyanın toplanması və yayımı ilə də məşğul olurlar. Beləliklə, burada oxucular onlara lazım olan kitabları,

dövri nəşrləri əldə etməklə yanaşı, gündəlik dünyada baş verən hadisələr haqqında məlumat ala bilirlər. Sirakuza universitetində kitabxana informasiya elmləri üzrə geniş magistr proqramı vardır. Burada aşağıdakı magistr dərəcələri verilə bilər:

1. Kitabxana və informasiya üzrə magistr;
2. Məktəb-media mütəxəssisi;
3. İnformasiya menecmenti üzrə magistr;
4. Telekommunikasiya və şəbəkə menecmenti üzrə magistr;
5. İnformasiya menecmenti üzrə icraçı magistr.

- Burada doktor dərəcəsi də almaq olar ki, o da informasiya elmi və texnologiyası üzrə fəlsəfə doktoru adlanır.

Simmons Kolleci. Bu kollec kitabxanaçılıq təhsili verən universitetlərdən heç də geri qalmır və burada yüksək ixtisasa malik peşəkar kitabxanaçılar yetişdirilir. Kollecdə həm bakalavr, həm də magistr dərəcəsində təhsil almaq mümkündür. Simmons Kollecindəki tədris proqramı ABŞ Kitabxanaçılıq Assosiasiyasının təsdiqi ilə qəbul edilmişdir. Çünki ABŞ Kitabxanaçılıq Assosiasiyası Amerikada və onlarla əməkdaşlıq edən ölkələrdə kitabxanaçılıq təhsilinin inkişaf etdirilməsi üçün 2005-ci ildə proqram hazırlamış və bu proqramı bir çox universitetlərə, həmçinin Simmons kollecinə təqdim etmişdir. Doğrudan da proqramın kitabxanaçılıq təhsilinin inkişafına çox böyük dəstəyi olmuşdur.

Simmons Kollecindəki tədris proqramına uyğun olaraq təhsil alan tələbələr istənilən semestrdə dərsə başlaya bilərlər. İl ərzində üç semestr olmaqla dərslər, adətən, gündüzlər, axşamlar hərdən həftə sonları olur.

Xüsusilə qeyd etmək lazımdır ki, kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaçılıq təcrübəsindən danışarkən bu sahədə beynəlxalq əməkdaşlığı önə çəkmək vacibdir. Kitabxanaşünas-biblioqraf kadr hazırlığında yeganə ali təhsil müəssisəsi olan BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin beynəlxalq təcrübəsinə nəzər salaq.

Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi beynəlxalq əlaqələr sahəsində zəngin təcrübəyə malikdir. Fakültə fəaliyyətə başladığı ilk vaxtlardan etibarən keçmiş SSRİ-nin nüfuzlu elm, təhsil mərkəzləri ilə əlaqələr yaratmağa başlamış və bu əlaqələr tədrisin keyfiyyətini və mütəxəssis hazırlığınının səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərmişdir. Fakültənin Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Sankt-Peterburq Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Daşkənd Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Vilnüs Dövlət Universiteti, Tbilisi Dövlət Pedaqoji İnstitunun Kitabxanaçılıq fakültələri ilə sıx elmi əlaqələri və əməkdaşlığı olmuşdur. Bu elmi əlaqələrin yaradılmasında, inkişafında böyük rolu və müstəsna

xidmətləri olmuş alimlər arasında professor Abuzər Xələfovun, professor Zöhrab Əliyevin, professor Xəlil İsmayılovun, professor Bayram Allahverdiyevin, dosent Rasim Kazımovun və başqalarının xüsusi rolu olmuşdur.

Kitabxanaçılıq-informasiya fakültəsi respublika daxilində də müvafiq elm, təhsil və mədəniyyət ocaqları ilə sıx elmi əməkdaşlıq şəraitində fəaliyyət göstərmişdir. Bu baxımdan fakültənin M.F.Axundov adına Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Prezident Kitabxanası və digər respublika əhəmiyyətli kitabxanalarla əlaqələri daim inkişaf etmişdir. Fakültənin bu əlaqələri, xüsusən də respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra daha da intensivləşmişdir.

Fakültənin bu sahədə göstərdiyi fəaliyyətdən bəhs edərkən 1999-cu ildə fakültənin dekanı prof. X.İ.İsmayılov, fakültənin bir sıra əməkdaşları və respublikanın kitabxana ictimaiyyətinin nümayəndələri ilə birgə təsis edilmiş Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının (AKİİA) böyük rolu olmuşdur.

Təsis olunduğu vaxtdan dərhal sonra AKİİA dünyanın bir çox ölkələrində fəaliyyət göstərən kitabxana təşkilatları, beynəlxalq təşkilatlar ilə sıx işgüzar əlaqələr qurmağa başlamışdır. Bunların arasında ilk növbədə ABŞ-ın Azərbaycandakı səfirliyi, Açıq Cəmiyyət İnstitutunun Bakı ofisi, Amerika Kitabxana Assosiasiyasını qeyd etmək olar. Fakültənin bir çox beynəlxalq proqramlarda və layihələrdə yaxından iştirakı məhz AKİİA-nın təşkilati dəstəyi ilə mümkün olmuşdur. Bu layihə və tədbirlər təkcə universitetə deyil, bütün respublikada kitabxana işinə fayda gətirmişdir. Belə tədbirlər içərisində 1999-cu ildə ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkilati və maliyyə yardımı ilə keçirilmiş seminarı qeyd etmək olar. Respublikamızda kitabxana fəaliyyəti ilə bağlı ilk beynəlxaq tədbir olan bu seminara ABŞ-dan, Litvadan və Rusiya Federasiyasından gəlmiş kitabxanaçı mütəxəssislər qatılmışdı. Buraya müasir kitabxana-bibilioqrafik fəaliyyətdə geniş istifadə edilən maşınla oxunan kataloqlaşdırma (MARC) texnologiyaları müzakirə edilmişdir. Xaricdən gələn qonaqlar fakültədə olan tədris prosesi ilə tanış olmuşlar.

Yenə həmin ildə fakültənin alimlərinin və AKİİA-nın təklifi və ABŞ səfirliyinin dəstəyi ilə Bakıda Kitabxanaçılar üçün İnformasiya-resurs və təlim mərkəzi (KİRTM) təsis edilmişdir ki, burada kitabxana işçiləri ilə yanaşı fakültənin əməkdaşları da yeni kitabxana-informasiya texnologiyalarına dair məşğələlərdə iştirak etmişdir. Bu mərkəzin rəhbərləri amerikalı Kitabxana mütəxəssisi Pol Miller və digər mütəxəssislər fakültənin beynəlxalq nüfuz və əlaqələrinin genişlənməsinə öz yardımını göstərmişlər.

Fakültənin beynəlxalq əlaqələrinin inkişafında Avrasiya fondunun

dəstəyi ilə həyata keçirilmiş "Qafqaz " Treninq mərkəzinin böyük əhəmiyyəti olmuşdur. Cənubi Qafqaz Respublikalarında kitabxana işinin kitabxanaçı təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə yönəlmiş bu layihədə sahə mütəxəssisləri üçün yeni tipli interaktiv məşğələlər keçirilmişdir ki, bu işdə də fakültənin əməkdaşlarına amerikalı və gürcü mütəxəssisləri yardım göstərmişlər. Layihə çərçivəsində fakültənin nümayəndəsi, AKİİA-nın prezidenti prof. X.İsmayılov bir neçə dəfə Tbilisi şəhərində olmuş gürcu həmkarlar ilə faydalı görüşlər keçirmişdir.

Fakültənin beynəlxaq əlaqələrinin genişləndirilməsində Avropa Şurasının TASİS proqramı çərçivəsində həyata keçirilən "Universitetlərin modernləşməsi" proqramının da böyük əhəmiyyəti olmuşdur. Bu uzunmüddətli proqram Avropanın İnkişaf etmiş ölkələrinin ilk növbədə Fransa və Belçikanın ali təhsil sahəsində təcrübəsinin öyrənilməsində və MDB ölkələrində, o cümlədən Azərbaycanda tətbiq edilməsini nəzərdə tuturdu. Bu layihə çərçivəsində fakültənin dekanı prof. X.Ismayılov 2001-ci ilin iyulunda Belçikanın Namur şəhərində, 2003-cü ilin mayında isə Fransanın müxtəlif şəhərlərində yerləşən ali məktəblərdə olaraq orada təhsil işinin təşkili ilə yaxından tanış olmuşlar. Bu proqram çərçivəsində fakültənin müəllimi Ə.M.Məmmədov da 2002-ci ilin noyabrında Lion şəhərində yerləşən Milli Ali Kitabxanaçılıq Informasiya mərkəzində keçirilən təlimlərdə iştirak etmişdir.

Fakültənin yaxından iştirak etdiyi digər bir beynəlxalq layihə ABŞ Dövlət Departamentinin yardımı ilə həyata keçirilmiş BDU və İndiana Universitetləri (ABŞ) arasında əlaqə proqramı olmuşdur. Hər iki universitetin pedaqoji kollektivi arasında əlaqələrin yaradılması, təcrübənin qarşılıqlı öyrənilməsinə yönəlmiş bu layihədə əsasən BDU-nun Tarix, Hüquq, Jurnalistika və o cümlədən Kitabxanaçılıq-informasiya fakültəsinin əməkdaşları yaxından iştirak etmişdir. Bu layihə çərçivəsində fakültənin müəllimi Ə.M.Məmmədov 2003-cü ilin yanvar-may aylarında İndiana Universieti (KİEA Bliminqton) Kitabxana-informasiya Elmləri məktəbində ixtisasartırma kurslarında olmuşdur. Bu ezamiyyət ərzində o dörd konfransda iştirak etmiş və tezis dərc etdirmişdir. Bu proqramın tərkib hissəsi kimi 2003-cü ildə İndiana Universiteti və (Bliminqton) əsas kitabxana işinin biblioqrafı Bob Qollart BDU-ya gələrək universitetin və Kitabxanaçıhq-informasiya fakültəsinin işi ilə yaxından tanış olmuşdur. Bundan əlavə yenə həmin universitetin Kiev-m magistri Meqan Mok Kril də 3 ay ərzində BDU-da olmuş, Amerikaşünaslıq mərkəzində çalışmış, Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri ilə təlim keçmişdir.

Fakültənin beynəlxalq əlaqələrinin genişlənməsində yuxarıda adı qeyd edilmiş AKİİA-nın böyük xidmətləri olmuşdur. Bu təşkilat

dünyanın Kitabxana-informasiya fəaliyyəti sahəsində ən böyük beynəlxalq təşkilatına-IFLA-ya Azərbaycandan üzv kimi qəbul edilmiş ilk təşkilat olmuşdur. AKİİA-nın prezidenti prof. X.İsmayılov iki dəfə (2001-ci il Boston və 2005-ci il Oslo) IFLA-nın illik konfranslarında iştirak etmiş Azərbaycan nümayəndə heyətinə başçılıq etmişdir. 2001-ci il konfransının işində prof. X.İ.İsmayılovla yanaşı, fakültənin müəllimi Ə.M.Məmmədov da iştirak etmişdir.

Fakültənin Baltikyanı ölkələrdəki həmkarları ilə də sıx beynəlxalq əlaqələri mövcuddur. Belə ki, bu ölkələrin nümayəndələri dəfələrlə Azərbaycanda və fakültənin nümayəndələri ilə də həmin ölkələrdə olmuş faydalı əməkdaşlıq quraraq inkişaf etdirmişdir. 2004-cü il 4-11 noyabrda Açıq Cəmiyyət İnstitutunun yardımı ilə prof. X.İ.İsmayılovun başçılığı ilə Azərbaycanı təmsil edən nümayəndə heyəti Litvaya səfər etmişdir. Həmin ölkədə kitabxanaçıhq işi, kitabxana-informasiya təhsili, peşə təşkilatlarının fəaliyyəti ilə tanış olmuşlar. Səfər çərçivəsində onlar Vilnüs Universitetinin işi, oranın elmi kitabxanasının fəliyyəti və kitabxanaçılıq fakültəsinin işi ilə yaxından tanış olmuşlar.

Beləliklə, kitabxanaçılıq təhsilinin inkişafında kitabxanaşünaslıq elminin, kitabxanaçılıq təcrübəsinin rolundan danışarkən, bu sahədə tədris olunan fənlərin elmi xarakteristikasına və mövcud təcrübənin tətbiqi keyfiyyətinə diqqət yetirmək lazımdır.

## ƏDƏBİYYAT


1. *Xələfov.A. Kitabxanaçılıq fikirlərinin meydana gəlməsi, təşəkkülü və inkişafı // Kitabxanaşünaslıq və informasiya:-Elmi-nəzəri və praktiki jurnal.- 2010 № 2.S. 7-20*
2. *Xələfov.A. İnformasiya cəmiyyəti və kitabxanaşünaslıgın müasir problemləri// Kitabxanaşünaslıq və informasiya.-Elmi-nəzəri və praktiki jurnal .-2010 № 1.S. 9-14*
3. *Xələfov.A Azərbaycanda kitabxanaçılıq təhsilinin inkşafı.- Bakı: Maarif,1987.-130s*
4. *Xələfov.A Azərbaycanda ali kitabxanaçılıq təhsili:-Bakı: BDU, 1998.-126 s.*
5. *İsmayilov.X. Kitabxana İnformasiya texnologiyaları.-Bakı: Nurlar, 2009.-311 s*
6. *İsmayilov.X. Kitabxanaşünasliq texnoloji biliyin təkamülü kimi// Kitabxanaşünasliq və biblioqrafiya.-2009.- № 2.S.48-55*
7. *Rüstəmov.Ə.,Mustafayeva.N. Avtomatlaşdirilmiş kitabxana-informasiya sistemləri və şəbəkələri.-Bakı,2007.-235 s*

*8. Abbasov. A və b. İnformatika, telekommunikasiya, radioelektronika üzrə terminoloji lügət. -2-ci nəşr.-Bakı,2004.-295 s*

*9. Алтухова, Г. Беседы об этике и имидже Библиотека. - 1998. - № 2. - С. 39 - 41*

*10. Дрешер, Ю.М. Современная концепция подготовки специалиста-библиотерапефта. - М., 2003. - 247 с.*

*11. Дворкина, М.А. Профессиональные ценности библиотекарей .Мир библиотек сегодня// Науч.-информ. сб. - Вып. 4. - М., 1996. - С. 50 - 53*

*12. Жданова, Т.А. Библиотекарь - профессионал: какой он сегодня? //.Библиотековедение. - 1994. - № 4. - С. 90 - 97*

*13. Кузьмин, Е.И. Мы готовы ответить на вызов времени // .Библиотека. - 1994. - № 9. - С. 8 - 11*

*14. Кабачек, О.Л. Размышления об этике. (Профессия библиотекаря). //.Библиотека. - 1995. - № 12. - С. 32 - 35*

*15. Осипова, И.П. Библиотечные кадры: социальные аспекты обновления .//Мир библиотек сегодня. - Вып. 2. - М., 1994. - С. 90*

*16. Хайцева, Л.Б. Управление трудовыми ресурсами. Мир библиотек сегодня. - Вып. 4. - М.1996. - С. 50 - 53*

**Р.ГАРДАШОВ**

## РОЛЬ БИБЛИОТЕЧНОЙ ПРАКТИКИ В РАЗВИТИИ БИБЛИОТЕЧНОГО ОБРАЗОВАНИЯ

### РЕЗЮМЕ

В статъе рассматривается система связей и отношений между библиотечным делом и библиотечным образованием. Анализ проводится на основе практике России и США.

**R.GARDASHOV**

## THE ROLE OF LIBRARY PRACTICE IN DEVELOPMENT OF LIBRARY EDUCATION

### SUMMARY

The system connections and relations between library practice and library education is considered in the report. The analysis is carried out on the basis of requirements of the educational standard approve of the USA and Russian

**Zahidə RZAYEVA**
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi***

# MİLLİ KİTABXANA SİSTEMİNDƏ İNFORMASİYA AXTARIŞ SİSTEMLƏRİ

**Açar sözlər:** informasiya axratış sistemləri, informasiya cəmiyyəti, elektron kitablar

**Ключевые слова:** Информационно-поисковые системы, информационное общество, электронные книги

**Keywords:** Information search systems, information society, electronic books

Bəşər tarixinin inkişaf xronologiyası birmənalı şəkildə ayrı-ayrı cəmiyyətlərin inkişafında müstəsna rola malik elementlərin varlığını və onların konkret olaraq spesifikliyi ilə fərqləndiyini özündə ehtiva etməkdədir. İstər nəzəri, istərsə də praktiki baxımdan inkişaf etmiş cəmiyyətlərin əsas hərəkətverici qüvvələri kimi təhsil, təhsilə əl çatımlılıq səviyyəsi, kütləvi maariflənmə və daha konkret desək zəngin informasiya mühitinin formalaşdırılması və nəticə etibarilə informasiya infrastrukturu mühüm əhəmiyyət kəsb etməkdədir. Əgər son dövrlərdə cəmiyyətin tələbatında xüsusilə fərqlənən hazır məhsullar, xidmətlər, müxtəlif təyinatlı texnologiyalar əhəmiyyətli rola malik idisə, XXI əsrdə bu tələbat istehlakçıların zövq dəyişikliyi nəticəsində informasiya resurslarının əlavə edilməsi ilə daha qabarıq şəkildə özünü büruzə vərməkdədir. Ümumiyyətlə, ayrı-ayrı ölkələrin ümumi milli inkişafının əsas hərəkətverici istiqamətlərindən biri kimi elmin, təhsilin, mədəniyyət və bu kimi amillərin kifayət qədər dinamik və mobil şəkildə istehlakına əsaslanan informasiya xidmətlərinin təşkili xüsusi əhəmiyyət kəsb etməkdədir.

Respublikamız müstəqillik əldə etdikdən sonra cəmiyyətin bütün fəaliyyət sferalarında olduğu kimi, kitabxanaşünaslıq sferasında da ciddi və ciddi olduğu qədər də radikal islahatlara getmişdir. Bu gün Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyi ölkələri ilə müqayisədə kitabxana infrastrukturunun təkmilləşdirilməsi və dünya standartlarına uyğunlaşdırılması istiqamətində daha ciddi islahatlar aparmaqdadır. Sözügedən proses dövlətin birbaşa himayəsi altında olmaq etibarilə spesifik inkişaf istiqamətləri ilə müşahidə edilməkdədir. Belə ki, respublikamızda kitabxanaşünaslıq sektorunun inkişafı və tərəqqisi isti-

qamətində bir çox dövlət proqramları və konkret konsepsiyalar işlənilib hazırlanmış və uğurla reallaşdırılmaqdadır.

Bütün bunlara baxmayaraq milli kitabxana sisteminin inkişafının tarixi xronologiyasına diqqət yetirdikdə, sözügedən sistemin ayrı-ayrı tarixi dövrlərdə də müxtəlif nailiyyətlər və ilklərə imza atdığını görə bilərik. Kitabxanaşünaslıq elminin ayrı-ayrı istiqmətlərinə nəzər yetirdikdə birmənalı şəkildə görə bilərik ki, praktiki baxımdan sözügedən sferada informasiya axtarış sistemlərinin müasir standartlara və geniş oxucu auditoriyasının tələbatlarına uyğunlaşdırılması daima gündəmdə olmuşdur. Bu baxımdan milli kitabxana sistemində informasiya axtarış sistemlərinin tarixi inkişaf xronologiyasına diqqət yetirmək və zəngin ənənə, eləcə də böyük təcrübə mənbəyinin sistemli təhlili kifayət qədər ciddi aktuallıq kəsb etməkdədir. Problemə məhz bu prizmadan yanaşdıqda milli kitabxana sistemində informasiya axtarış sistemlərinin təşəkkülü tarixində ən azı üç böyük problem mövcuddur ki, onlarda əsas etibarilə aşağıdakılardan ibarətdir:

1. İnformasiya axtarış sistemlərinin təşəkkülü prosesinin dərkedilməsi və interpretasiyası problemi;
2. İnformasiya axtarış sistemləri prosesinin əsasları və hərəkətverici qüvvələrinin müəyyənləşdirilməsi problemi;
3. İnformasiya axtarış sistemlərinin təkmilləşdirilməsi proseslərinin xronoloji dövrlənməsi problemi.

Respublikamızın milli kitabxana sisteminin zəngin tarixinə nəzər saldıqda maraqlı faktlarla uzləşməklə yanaşı bir sıra həqiqtlərin ortaya çıxarılmasına da nail olmuş olarıq. Azərbaycan Respublikası milli kitabxanasının yaradılması sovetlər birliyi dönəminə təsadüf etsə belə (yəni 23 may 1923-cü il) prosesin ilkin rüşeymləri özlərini 1918-1920-ci illərdə biruzə vermişdir. Tarixi mənbələrə nəzər yetirsək görərik ki, Milli kitabxana 5 iyun 1923-cü ildə rəsmi şəkildə geniş oxucu kütləsinin ixtiyarına verilmişdir [5]. Milli kitabxananın ilk dövrlərdəki strukturuna nəzər saldıqda görə bilərik ki, burada yalnız iki şöbə, müvafiq olaraq Avropa və Şərq ədəbiyyatı şöbələri, iyirmi min dörd yüz qırx bir (20 441 nüsxə) nüsxəlik kitab fondu və on üç nəfərlik (13 nəfərlik heyət) kitabxanaçı personalına malik olmuşdur [6].

Həmin dövrlərdə milli kitabxana infrastrukturunun müvafiq nəşrlərlə zənginləşdirilməsi və həmçinin təkmilləşdirilməsinin əsas istiqamətləri kimi aşağıdakı sxemdəki mənbələr verilmişdir.

Sxem 1.

Milli kitabxananin kitab fondunun zənginləşdirilməsinin
əsas məbələri (I faza, XX əsrin 20-ci illəri)




**QEYD**: Sxem müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıdakı mənbələrin bəziləri hal-hazır ki, dövrdə də əsas depozitar mənbə qismində çıxış etsə də bəziləri isə bu gün öz aktuallığını tamamilə itirmiş durumdadır. Belə ki, aktuallığını itirmiş ən əsas mənbələrdən biri kimi SSRİ Dövlət Kitab Palatasıdır ki, onun da M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının kitabxana fondunun zənginləşdirilməsində müstəsna rolunun qeyd edilməsi təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Belə ki, həmin dövrün tarixi siyasi-ictimai və eləcə də iqtisadi-mədəni durumunun təhlili bizə onu deməyə əsas verir ki, məhz sözü gedən mənbənin zamanında potensial imkanlarından istifadə keçmiş SSRİ-nin o dövrki rəhbərlərindən biri olmuş və eyni zamanda müstəqil Azərbaycan Respublikasının memarı Ümummilli Liderimiz Heydər Əliyev cənablarının çox gərgin mübarizəsinin nəticəsində müəssər olmuşdur. Lakin digər mənbələr bu günün standartları çərçivəsində istifadə edilməklə yanaşı yeni alternativ mənbələr xüsusilə müasir standartlara cavab verən istiqamətlərdən istifadə edilməkdədir.

Müasir informasiya cəmiyyətinin inkişafı və qloballaşma prosesinin bütün dünyanı ənginə alması heç şübhəsiz kitabxana infrastrukturu, münasibətləri və həmçinin elmindən də yan keçməmişdir. Qloballaşma fenomeni informasiya və elmi biliyi strateji resursa çevirməklə yanaşı ona yanaşmanı da köklü sürətdə dəyişdirmişdir. Kəmiyyət etibarilə informasiyanın istehsalı, emalı və yayılması sferasında çalışanların xüsusi çəkisi maddi istehsal sferasında çalışanların xüsusi çəkisini üstələməyə başlayır. Beynəlxalq təşkilatların hesabatlarına görə 1980-ci ildə bu 50:50 nisbəti kimi qərarlaşmışdı. Məhz belə bir şəraitdə informasiya və elmi biliklərin yayılması məhsuldar qüvvələrin ərazicə yerləşməsində əhəmiyyətli dəyişikliklərə gətirib çıxarır.

Sxem 2.

Milli kitabxananin kitab fondunun zənginləşdirilməsinin
əsas məbələri (II faza, müasir dövr)




Bir sıra dünya şöhrətli tədqiqatçılar “informasiya cəmiyyətini” “inkişaf etmiş postindustrial cəmiyyət” kimi xarakterizə edir və göstərirlər ki, yeni cəmiyyət və ümumiyyətlə NOU-HAU-lar, yeniliklər, kreativliklər o ölkələrdə reallaşır ki, hansılarda postindustrial cəmiyyətə keçid 1960-1970-ci illərdə baş vermişdi. İnformasiya cəmiyyətinin əsas xarakteristikası aşağıdakı kriteriyalar vasitəsi ilə əks olunur:

**1.** Texnoloji: əsas amil – burada əsas məqam informasiya texnologiyaları ictimai həyatın əksər sferalarında tətbiq olunur.

**2.** Sosial: informasiya həyat səviyyəsinin dəyişməsində təbii olaraq mühüm stimul formalaşdıran amil kimi çıxış edir;

**3.** İqtisadi: informasiya resurs, xidmət, əmtəə, əlavə dəyərin və məşğulluğun mənbəyi keyfiyyətində çıxış edir və əlavə dəyər yaratmış olur;

**4.** Siyasi: azad informasiya əhalinin sosial təbəqələri arasında bilavasitə konsensusa xidmət edir.

**5.** Mədəni: ayrıca götürülmüş fərdin və bütövlükdə cəmiyyətin mədəni tərəqqisinə yardım göstərir.

Dünya kitabxanaşunaslıq sferasında xüsusilə də elmi kitabxanaçılıqda müşahidə edilən bu tendensiyalar heç şubhəsiz Azərbaycan milli kitabxana sisteminin konyukturasında da müşahidə edilən əsas istiqamətlərdən birini təşkil etməkdədir. «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Məhz ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir» [1] deyə qiymətləndirən Ümummilli Liderimiz Heydər Əliyev cənabları bu sferanın daima müasirləşdirilməsini, mütərəqqiləşdirilməsini, dünya standartlarına uyğunlaşdırılmasını ön görmüş və bu sahədə daima öz uzaqgörənliyi ilə mayak rolunu oynamışdır. Bu ilkləri əsas götürərək milli elmi kitabxanaçılıq sferasının inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinin rəsmi aspektləri bu gün də Respublikamızın prezidenti İlham Əliyev cənablarının 20 aprel 2007-ci il tarixində imzaladığı «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» sərəncamında öz əksini daha dolğun bir şəkildə əks etdirmişdir [2].

Respublika prezidenti İlham Əliyev cənablarının Türk Dilli Ölkələrin Milli Kitabxana Direktorlarının konfransı və Avrasiya Kitabxanalar Assambleyası Əməkdaşlıq Təşkilatının ümumi iclasının iştirakçılarına məktubunda da qeyd etdiyi kimi «Qloballaşan dünyada informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasirləşən milli kitabxanalar ölkələrin davamlı inteqrasiyası və xalqların qarşılıqlı mədəni əlaqələrinin zənginləşdirilməsi proseslərinə öz layiqli töhvələrini verməkdədir» [3] və bu da öz növbəsində sözügedən subyektlərin qarşılarında ciddi bir məsuliyyət qoymuşdur.

Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramında müəyyənləşdirilmiş inkişaf istiqamətləri və yaxud əgər belə demək mümkündürsə sözügedən sferada dövlət siyasətinin prioritetlərinə nəzər yetirdikdə burada əsas etibarilə aşağıdakı məsələlər üzrə müvafiq işlərin reallaşdırılmasının labüdlüyünü görə bilərik [4]:

**1.** Tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanılıb saxlanılması;

**2.** Sösü gedən resursların oxuculara çatdırılmasının təkmilləşdirilməsi;

**3.** Fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi;

**4.** Dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübələrindən yararlanmağı təmin etməli;

**5.** Elektron məlumat banklarının yaradılması;

**6.** İnnovativ informasiya axtarış sistemlərinin tətbiqi və s. kimi məsələlərdən ibarətdir.

Məhz bu baxımdan Respublikamızda informasiya cəmiyyətinə sürətli keçid və bu infrastrukturun yaradılması istiqamətində reallaşdırılan davamlı və rəqabətqabiliyyətliyi təmin edən kitabxana işinin təşkili, menecmenti (idarə edilməsi) və oxuculara xidmətin təşkili kimi prioritet istiqamətlərin modernləşdirilməsi ilə yanaşı, elmi kitabxanalarında innovativ informasiya axtarış sistemlərinin tətbiqi xüsusiyyətlərinin mövcud durumu və onun konkret normalar çərçivəsində reallaşdırılması mühüm əhəmiyyət kəsb etməkdədir.

Respublika elmi kitabxanalarında müasir kommunikasiya texnologiyalarının mənimsənilməsi və ayrı-ayrı mərhələlərdə tətbiqi bu sferada da modernləşmənin prioritetləşdirilməsinə gətirib çıxarmaqla məhz bu tip kitabxanaların islahatlardan bəhrələnməsi ilə nəticələnmişdir. İstər elm və texnika üzrə elektron sənədlərlə xidmətin təşkili, vahid istifadə məntəqəsindən vahid istifadəçi interfeysinin yaradılması, onlayn rejimində elektron informasiyalardan istifadə üçün ödənişin mərkəzləşdirilmiş virtual hesablar sitemində toplanması və onun uçotunun daha mobil aparılması istərsə də elektron sənədlər arxivinin formalaşdırılması və yaxud əgər belə demək mümkündürsə müasir elektron sənəd-resurs depozitar fondunun yaradılması, onlara elektron poçtla sifarişin təmin edilməsi və bu kimi digər mütərəqqi texnologiyaların tətbiqi kimi innovativ tədbirlər planının reallaşdırlması prosesin məntiqi nəticəsi kimi öz bəhrəsini vermişdir.

Qlobal münasibətlər sisteminin dərinləşdiyi bir dövrdə dünyanın qabaqcıl elmi-texniki kitabxanalarında elektron kataloqların işlənməsi, istehlakçılara (oxuculara) adekvat elektron xidmətin təşkili sahəsində bir sıra innovativ strategiyalar tətbiq edilərək informasiya resurslarına daha operativ və effektiv çıxışın təmini sahəsində daha ciddi nailiyyətlər əldə edilmişdir. Bu da öz növbəsində elmi-texniki kitabxanalarda avtomatlaşdırılmış kitabxana informasiya sistemlərinin tətbiqində çox çeşidliliyə gətirib çıxarmışdır. Bu sahədə tətbiq edilən İRBİS 64 avtomatlaşdırılmış

kitabxana informasiya sistemi Müstəqil Dövlətlər Birliyi məkanında Elmi-Texniki və Kütləvi Kitabxanalar tərəfindən daha geniş tətbiq edilən ilklərdən biri kimi daha ciddi əhəmiyyətə malik olsa da digər alternativlər kimi MİLLENİUM, VTLS, FOLLET, ALEPH və s. tətbiqi də mühüm əhəmiyyət kəsb etməkdədir [7].

Yuxarıda qeyd etdiyimiz tendensiyalar ilə yanaşı bu gün elmi kitabxanalarda innovasiyaların tətbiqinin təkcə ayrı-ayrı milli kitab-xanalar vasitəsilə deyil, dünyanın əsas aktorları kimi qəbul edilən transmilli və həmçinin çoxmilli korporasiyalar və digər iri biznes strukturları tərəfindən də reallaşdırıldığını müşahidə edə bilərik. Bu gün informasiya-kommunikasiya texnologiyaları sferasında fəaliyyət gostərən Microsoft və Apple kimi texnologiya dövlərinin yaratdıqları e-kitabxanalar və virtual məkanda müxtəlif konfiqurasiyalara malik innovativ axtarış sistemlərinin müasir planşetlərə inteqrasiyası ənənəvi kitabxanaçılıq dairələri ilə sözügedən biznes dairələr arasında rəqabətin daha da dərinləşməsinə səbəb olacaqdır [8]. Texnoloji proqresin yaratdığı müxtəlif avadanlıqlar ilə e-book daha sürətli trendlər qət etmiş və müasir texnologiyaların ənənəvi kitabxanaçılıq infrastrukturuna inteqrasiyasını labüdləşdirmişdir.

Elə bu baxımdan da Milli kitabxanaçılıqda daha mütərəqqi informasiya axtarış sistemlərinin tətbiqi olduqca ciddi əhəmiyyət kəsb etməklə yanaşı, sözügedən sferanın elmi dairələr tərəfindən daima tədqiqinin aktuallığı ilə xarakterizə edilməkdədir.

## ƏDƏBİYYAT


**1.** *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı // Azərbaycan qəzeti.-1995.-6 iyun.*

**2.** *"Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan qəz. – 2007. - 21 aprel.*

**3.** *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli Ölkələrin Milli Kitabxana Direktorlarının Konfransı və «Avrasiya Kitabxanalar Assambleyası» Əməkdaşlıq Təşkilatının ümumi iclasının iştirakçılarına məktubu: 17 noyabr 2008-ci il // Xalq qəzeti, 2008, 18 noyabr.*

**4.** *Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya.- 2008.-№2, S.7-30.*

**5.** *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (3 hissədə. H.1.). - Bakı, 2004*

**6.** *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (3 hissədə. H.2.). - Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007*

**7.** *Məmmədov E., Gülağayev S. İrbis 64 AKİS-də elektron kataloqun yaradılması / metodik vəsait – B.2011.*

**8.** *H.Baş, M.Selim. Modern informasyon ötürücüleri. İstanbul – 2009.*

**9.** *İsmayılov X. Azərbaycanda kitabxanaların metodik təminat sisteminin formalaşması tarixindən // Tarix və onun problemləri, 1999, № 3-4*

**З. РЗАЕВА**

## ИНФОРМАЦИОННО-ПОИСКОВЫЕ СИСТЕМЫ В СИСТЕМЕ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ

### РЕЗЮМЕ

Быстрый и эффектовая передача информации и знаний потребителям является важным приоритетом национальных библиотечных систем в период современном глобалиризованном информационном обществе. Обратив внимание на мировой опыт убедимся о быстром развитии отрасли. Интегрирующий в мировой общину Азербайджанская Республика активна, притворяет современные технологии в информационные просесы.

**Z. RZAYEVA**

## INFORMATION SEARCH SYSTEMS IN NATIONAL LIBRARY SYSTEM

### SUMMARY

The relevant information and the transfer of knowledge and faster and more effective delivery information to their consumers of the national library system, measured as one of the most important priorities in today's global information society. Such a national library system, the application of modern information retrieval systems such as the measurement is very estimable, as well as strategic issues in the implementation of more effective as a priorities technology.

**Mitra DADAŞİ NƏSRİN**
***doktorant***

# TƏBRİZ UNİVERSİTETİNİN MƏRKƏZİ KİTABXANASININ RFİD TEXNOLOGYASI

***Açar sözlər***: *RFİD texnologiyası, Radio Dalğaları ilə İdentifikasiya,Təbriz Universitetinin mərkəzi kitabxanası.*

***Ключевые слова:*** *технологии RFID, Радиочастотная идентификация, центральные библиотеки университета Тебриза.*

***Key words:*** *RFID technology, Radio Frequency Identification, Central Libraries of Tabriz University.*

XX əsrin sonlarında kitabxana işində iki elektron xidmət meydana gəlmişdir. Əvvəllər ştrix kodlarından istifadə olunurdı. Hazırda RFİD (Radio Dalğaları ilə İdentifikasiya) texnologiyasından istifadə olunur. 1990-ci ildən sonra RFİD etiketləri ştrix kodları yerinə işlənir. RFİD qurğusu ştrix kodu kimi eyni məqsədə xidmət edir və hər obyekt üçün unikal identifikatoru təmin edir [9, 10].

RFİD radio dalğalarından istifadə edərək üzərindəki bir obyektin şəxsiyyət məlumatını ədədi ardıcıl nömrə olaraq çatdıran sistemlərin ümumi adıdır. Bu kabelsız sistemlərə təmas etmədən və hətta görünən belə olmadan oxunma imkanı verir ki, bu xüsusiyyəti ilə istehsal və ştrix kodu kimi ənənəvi texnologiyalarının istifadə edilə bilmədiyi çətin mühitlərdə də böyük asanlıqla təmin edilir.

RFİD etiketlər, eyni zamanda elektronik məlumat daşıyıcıları olaraq da istifadə edilə bilər və tapıldıqları dəyişik nöqtələrdə fərqli məlumatlar yazılıb oxuna bilər. RFİD ümumi kateqoriya olaraq avto-ID (identifikasiya) texnologiyası altında qruplaşır; avto-ID texnologiyalarının ortaq xüsusiyyəti əl ilə edilən məlumat girişlərindəki müddəti qısaltmaq və səhvləri önləməkdir.

RFİD etiketi bir mikroçip, bir antena və bunların üzərini örtən qoruyucu film təbəqəsindən meydana gələ bilər. RFİD etiketlər İngiliscədə “tag” yəni etiket, transponder adlandırılar. Bir çox şəkil və ölçüyə sahib etiketlər vardır. RFİD etiketlər passiv (batareyasız) və ya aktiv (batareyalı) ola bilər. Bu mikroçip 64 bitdən 2 KB-ə qədər məlumat yığma xüsusiyyətinə malikdir ki, bu da üzərində tapıldığı məhsulun istehsal-istehlak tarixi, sifariş nömrəsi, müştəri məlumatları, ardıcıllıq nömrəsi kimi əhəmiyyətli məlumatları asanca daşıya biləcəyi mənanı verir.

RFİD etiketlərinə məlumat yazılması və bu məlumatların lazım olduqda oxunması radio dalğaları ilə edilir. Ən geniş şəkildə istifadə

edilən passiv etiketlər RFİD oxucusu tərəfindən yayılan enerji ilə aktiv olurlar və üzərindəki məlumatı oxucuya göndərirlər. RFİD oxucular etiketlərdən yığdıqları məlumatları dirək olaraq, ya da şəbəkə üzərindən işləyəcək olan kompüter proqram sisteminə çatdırarlar. Gələn bu məlumat eyni ilə barkod sistemlərində olduğu kimi istifadəçinin istədiyi əməliyyatlara uyğun olaraq işlənərək istifadə edilir, yığılır.

RFİD etiketi oxucu tərəfindən görünmədən və uzaq məsafədən də oxuna bilər. Etiket üzərindəki məlumat istənildiyi zaman RFİD oxucu ilə sərhədsiz dəyişdirilə bilər. Eyni anda bir çox etiket oxuna bilər (300 Ad/sn). Etiketlər mühit şərtlərindən qismən təsirlənə bilərlər. İstifadəyə bağlı olaraq uzun ömürlüdürlər.

RFİD sistemləri son illərdə sürətlə inkişaf edərək daha məşhur istifadə sahəsinə sahib olmuşdur. Bir RFİD sistemi üçün büdcə meydana gətirmək istəndiyində, əvvəlcə sistemdən nələr gözlənildiyi və etiketləmənin hansı səviyyədə ediləcəyinin təyin olunması lazımdır. Etiketləmə məhsul səviyyəsində edilə biləcəyi kimi qolu, palitra və ya konteyner səviyyəsində də edilə bilər. Yenə tətbiqə bağlı olaraq RFİD etiketlər geri çevrilməli şəkildə istifadə edilərək xərclər azala bilər. Ayrıca son dövrdə performansı gedərək artırılan mobil oxucular ilə sabit sistemlərə asılılıq azaldılaraq daha çox nöqtədə məlumat toplana bilərkən xərclərdə də qənaət təmin edilməkdədir. RFİD sisteminin ana komponentləri olan sabit oxucu və antenalar, mobil oxucular, RFİD printerlər, Proqram, İnteqrasiya sabit xərci meydana gətirərkən illik etiket istehlakı da dəyişən xərcləri meydana gətirir [1,4,13].

Radio dalğalari ilə identifikasiya və Avtomatik identifikasiya iqtisadiyyatın real sektorlarında: ticarətdə, sənayedə, səhiyyədə, anbarlarda, satış məntəqələrində və s. istifadə olunur [7].

Qısaca demək olar ki RFİD-də, RF “radio dağaları”; İD “identifikasiya mənasını verir. RFİD etiketi İngiliscədə “tag” adlandırılır. Hər etiket bir kompüter çip və antenadan ibarətdir ki, kağızda və ya başqa ( flexible ) mühitdə çap edilir. RFİD bir ştrix koduna bənzəyir ki, elektromaqnit (field) sahə və ya lazer şüası ilə oxunur. RFİD ştrix kodlarla müqayisədə irəli çəkilən texnologiyadır. RFİD etiketləri oxumaq üçün görünməlidir; əvəzində bu etiket harada yerləşdirildiyindən asılı olmayaraq, məsələn, kitabın örtüyündə və ya hər məsulun qablaşdırmasında oxuna bilər. Yalnız identifikasiya nömrəsiylə məhdudlaşan ştrix kodundan ibarət olan etiketlər daha çox, mürəkkəb məlumatı daşıyır. Çip RFİD etiketin bir hissəsidir ki, kitabxana informasiya baytlarını, məsələn, kitabın adı və ya onun şifrəsini daşıyır.

Kitabxanaların inkişafı və fondun artması, həmçinin yeni texnologiyadan istifadə etməyin üstünlükləri kitabxanaların RFİD

texnologiyasından istifadə etməsinə səbəb olub. Bu texnoloji yüksək texnologiyadır (Hi-Tech), o bir obyektin identifikasiya üçün informasiyanı radio dalğalar və etiketlər vasitəsilə FRİD qəbuledici təchizata göndərir.

RFİD sistemi iki təməl komponentdən, yəni texniki vasitələr və proqram təminatı ilə təşkil olunur. Texniki vasitələr bütün elektrik təchizatıdır ki, bu da iki qrupa bölünür: oxucular və etiketlər. Oxucuların işi informasiyanı yazmaq və oxumaqdır. RFID etiketlərində isə informasiya ehtiva edilir və bu məlumatların lazım olduqda radio dalğaları ilə oxunması təmin edilir. Etiketlərin müxtəlif formaları var ki, kitabxanada ən çox nişan (label) formadan istifadə olunur. Proqram təminatı RFİD oxucularını idarə və nəzarət edir. Kitabxanalarda RFİD texnologiyası üç hissədə xidmət edir: fondun təşkili, kitabxana xidmətləri, kitabxana sənədlərinin təhlükəsizliyi.

Kitabxanada istifadə olunan qurğular aşağıdakılardan ibarətdir: sabit RFİD sistemlər, mobil RFİD sistemlər, RFİD yazıçıları, RFİD oxucuları, RFİD antenalar (ümumiyyətlə hər oxucu üçün iki ya da dörd antenaya ehtiyac duyulmaqdadır), Ana kompüter, Proqram və işıq sensörü [2,3,4,5,6,8].

Kitabxanada RFİD texnologiyadan istifadə etmək üçün əvvəlcə sənədləri hazırlamaq lazımdır. Təbriz universitetinin Mərkəzi kitabxanasında 2010-ci illin sentyabrından RFİD texnologiyadan istifadə etdir. Sənədləri hazırlamaq məqsədi ilə əvvəlcədən kitabxananın bütün kitabları FRİD etiketi ilə təmin edilirdi. RFİD yazıçılar (RFİD printer) vasitəsilə bu etiketlərin üzərində hər kitabın ştrix kodu, qeydiyyat nömrəsi, kitabın adı, saxlanan yerin kodu, kitabxananın nişanı və s. informasiyalar yazılıb və kitabın cildinə əlavə olunub və rəflərdə yerləşdirildi. Sənədlərin etiketi olmasa abonentə evə oxumağa verilmir. Bu FRİD etiketləri gözlə oxuna bilinməz və yalnız FRİD oxucu vasitəsilə oxunar.

Kitabxanaçılara mövcud olan kitablara nəzarət etmək üçun mobil (portativ) oxucu lazımdır. Mobil oxucuların bir proqram təminatı var ki, o da nişanların oxunması prosesini yerinə yetirir və ehtiyatda saxlanan informasiyanı oxuyur və sonra informasiyanı xidmət göstərən təchizata köçürür. Mobil oxucu vasitəsilə az müddətdə və rahatlıqla kitab rəflərini oxumaq olur. Mobil oxucu vasitəsilə 10 kitabı bir saniyədə oxumaq olar. Mobil oxucunu rəflərin kənarında dalğa formada hərəkət etdirib və hər rəf haqqında informasiyasını bir saniyədə təmin etmək olar. Beləliklə, kitabxanaçılar həm kitabların siyahısını əldə edir və həm göz önündə yerləşməyən, yerində olmayan kitabı tapıb öz yerində yerləşdirə bilərlər. Həmcinin mobil oxucu və onun proqramı vasitəsilə hər hansı bir kitabı

rəflərdə axtarmaq olar. Buna görə əvvəlcə o kitab haqqında informasiyanı mobil oxucuya yazıb və sonra rəflərdə gəzdirib kitabı tapmaq mümkündür. RFİD-in böyük üstünlüklərindən biri də odur ki, o rəfdə olan kitabların etiketini oxuya bilir. Beləliklə, kitabxanada mövcüd olan kitabların siyahısı əldə edilir və həm kitabların müntəzəm olaraq rəfdə öz yerlərində yerləşmələrinə nəzarət etmək mümkün olur. Yeni texnologiya kitabxanalara imkan verir ki, eyni funksiyaları sadə və effektiv formada yerinə yetirsinlər.

Həmçinin RFİD texnologiya vasitəsilə ağıllı oxucu biletləri də təmin etmək mümkündür.

Abonoment şöbəsində RFİD texnologiyadan istifadə edərək müxtəlif xidmətlər həyata keçirilir. RFİD texnologiyanın bu hissəsi “ştat işlənməsi” (Staff Handling) adlanır. Burada etiketdə yazılan informasiyanın düz olub-olmaması yoxlanır və nəzarət olunur. Əgər informasiyada səhv olarsa, onu ləğv edib və yenidən yükləyirlər. Bu hissədə həmçinin texniki vasitələr və onun proqram təminatı ilə abonoment işləri, məsələn, oxucuya xidmət və geri qaytarıldıqda qeydiyyata salmaq və s. məsələlər yerinə yetirilir.

Kitabxanalarda kitablar və diğər sənədlər dəfələrlə oxumağa alınır və qaytarılır. FRİD-dən istifadə kitabxananın fəaliyyətlərini daha da səmərəli edir. Çünki RFİD etiketləri dəfələrlə yenidən istifadə edilir. Həmçinin kitabxanada RFİD təhlükəsizlik mexanizmi kimi işlənir. RFİD etiketlərı müxtəlif yollarla təhlükəsizlik əməyini yüngülləşdirə bilər. Bir metodda istifadə olunan etiketin bir “təhlükəsizlik biti” var ki, “aparmaq” (checked-in) və “qaytarmaq”(checked-out) vəziyyəti dəyişilə bilər. Kitabxananın çıxış darvazalarında etiket oxuyan təchizatlar var. Əgər istifadəçi etiketi “aparmaq” istəyində olarsa xüsusi həyəcan siqnalı səslənir və beləliklə, icazəsiz kitabı kitabxanadan çıxartmaq mümkün olmur. Başqa metodda həmin istifadəçi çıxış qapısından keçdikdə, sistem əldə və ya çantada olan kitabların etiketini oxuyur və kitabxananın verilənlər bazasından sənədin aparmaq icazəsinin olub-olmamasını soruşur. Baxmayaraq ki, RFİD-dən oğurluğa qarşı sistem kimi istifadə etmək olar, amma onu olduqca yüksək təhlükəsizlik texnologiyası adlandırmaq olmaz.

Kitabxanada RFİD texnologiyanın başqa xidməti növü “özü qaytarmaq” (self Check-in) və “özü aparmaq” (Check-out) təchizatından ibarətdir. Bu avtomatik abonoment şöbəsi adlanır. Kitabxana oxucuları bu hissəni çox istəyirlər, çünki oxucu istənilən kitabı seçib və qötürdükdən sonra müstəqil formada onu təchizata yaxınlaşdırıb və qeydiyyatdan keçirir. Beləliklə, oxucu kitabxanaçıya ehtiyac düymadan kitabı oxumağa aparır və hətta kitabı qaytaranda yenidən təchizata yaxın-

laşdırıb kitabı öz adından çıxarda bilir. Bu təchizatda çalışmışlar ki, abonentlər daha rahatlıqla abonoment işlərini özləri yerinə yetirsinlər.

İkinci mərhələ sənədi proqram təminatı vasitəsilə identifikasiya etməkdir. Buna görə oxucu sənəd və ya kitabı RFİD oxucu sisteminə yaxınlaşdırır və sistem sənədi identifikasiya edib və oxucuya bir qəbz verir.

RFİD texnologiya vasitəsilə oxucu sənədi günün hər saatında kitabxanaya qaytara bilər. Bu sistem "salma qutusu" (Drop Box) adlanır. Beləliklə kitabın qaytarmaq əməliyyatı avtomatik olub və kitabxanaçıların köməyi olmadan yerinə yetirilir. Buna görə oxucu kitabı "salma qutusu"-na salır. Sistem kitabın informasiysını ekranda göstərir və dərhal onun adını oxucunun faylından silib və qaytarmaq qəbzini oxucuya verir [11,12,13,14].

Yekun olaraq qeyd etmək olar ki, Təbriz Universitetinin Mərkəzi Elmi Kitabxanalarında tətbiq olunan RFİD texnologiyası həm kitabxana xidmətini yaxşılaşdırır, həm də kitabxanaçıların əməyini yüngülləşdirir. Buna görə də bu sistemin bütün tip kitabxanalarda tətbiq olunması məsləhətdir.

## ƏDƏBİYYAT


***Azərbaycan***

1. *RFİD (Radio Frequency Identification) nədir? www.gmg.com.az*

***English***

1. *Ayre, Lori bowen. Position Paper: RFID and Libraries. (2004). Available from www.galecia.com/included/docs/position-rfid-permission.pdf*
2. *Boss, Richard. Automated Circulation Systems in university libraries of brezil. Library and Information Science .- (1978).-Vol. 12.- s. 54-68 .*
3. *Coyle, Karan . Management of RFİD in libraries. The Journal of Academic Librarianship.-2005.- Volume 31.- Number 5.- s. 486–489*
4. *Engels,E.(2006). RFID implementation in California Libraries: Costs and benefits. Sacramento: California Library Association. Available from*
5. *www.Cla-net.org/included/docs/IT3.pdf*
6. *Molnar,D.; Wagner,D.A.(2004). Prevacy and security in library RFID:*
7. *Issues, practices and architectures. Available via: www.cs.berkely.edu/~dmolnar/library.pdf.*

8. RFID. http://babelserver.org
9. Thornely, Clare; Ferguson, Stuart ; Weckert, John.The application of
10. RFIDs in libraries: an assessment of technological, management and
11. professional issues. International Journal of Information Management.-
12. 2010.- Available from www.elsvier.com/locate/ijinformgt
13. What is RFİD? www.palowireless.com
14. What is RFİD? www.technovelgy.com

**İran**

11. زلف پور، مرتضی ؛ یاری زنگنه، مرضیه. استفاده از فن آوری شناسایی با امواج رادیویی
(RFID ) در بهبود و کنترل کتابخانه ها و مراکز اطلاع رسانی// فصلنامه علمی پژوهشی
ایران.- 1388 پژوهشگاه علوم و فناوری اطلاعات http://jist.irandac.ac.ir
12. عطوفت نیا، وحید. ردها و فرکانسهای مورد استفاده در فناوری RFID . مقاله ارائه شده در
دومین کنفرانس بین المللی RFID . -تهران، مرکز توسعه اطلاعات کاربردی شورای عالی
اطلاع رسانی.-1386.- 1و2 اسفند.

13. کاربرد فن آوری RFID در کتابخانه. www.parslib.com
14. کرمی، نورالله؛ کامگار، فرید؛ وزیری، اسماعیل. کاربرد آر.اف.آی.دی در کتابخانه ها و مراکز
اطلاع رسانی : خودکار سازی وکمک به سازماندهی دانش// ماهنامه الکترونیکی ارتباط
علمی.- دوره 17.- شماره 1.- (مهر).
http://ejournal.irandoc.ac.ir/browse.php?a-code=A-10-85-4

**М.Д.НАСРИН**

## ТЕХНОЛОГИЯ RFID В ЦЕНТРАЛЬНЫХ БИБЛИОТЕК УНИВЕРСИТЕТЕ ТЕБРИЗА

### РЕЗЮМЕ

Эта статья - о технологии RFID в Центральных Библиотек Университете Тебриза. Также в статье изучена общая особенность программного обеспечения библиотеки “технологии RFID.”

**M.D.NASRIN**

## THE RFID TECHNOLOGY IN THE CENTRAL LIBRARİES OF TABRİZ UNIVERSITY

**SUMMARY**

This article is about RFID technology in the Central Libraries of Tabriz University. Also in article is studied the general characteristic of the “RFID technology” library software.

*Rübabə RÜSTƏMOVA*
*Kitabxanaçılıq-informasiya fakültəsinin dissertantı*

# ELEKTRON RESURS KİTABXANANIN SƏNƏD-İNFORMASİYA RESURSLARININ TƏKAMÜLÜNÜN YENİ MƏRHƏLƏSİ KİMİ

***Açar sözlər:*** *inkişaf; elektron resurslar; təkamül; sənəd-informasiya; kitabxana.*

***Ключевые слова:*** *развитие; электронные ресурсы; эволюция; документально-информационный; библиотека.*

***Key words:*** *development; electronic resources; evolution; documentary-informational; library.*

Müasir kitabxanaşünaslıqda, sənədşünaslıqda sənəd fondlarından bəhs edərkən bir çox halda sənəd fondu anlayışı ilə paralel olaraq sənəd resursu(ehtiyatı) anlayışından istifadə edilir. Bu anlayış artıq kitabxana ictimaiyyətinin leksikonunda özünə möhkəm mövqe qazanmışdır. Bu səbəbdən də, bu artıq standartla təsdiq edilmiş termin kimi elmi dövriyyəyə və istehsalat praktikasına daxil olmuşdur. Belə ki, 7.0-99. "İnformasiya-kitabxana fəaliyyəti, biblioqrafiya" adlı QOST-a (Dövətlərarası Standart) görə, "informasiya resursu səhih informasiyanın effektiv alınması üçün zəruri olan verilənlərin mütəşəkkil məcmusudur". Elektron sənəd və elektron informasiya resursu anlayışları arasında çox kiçik məna fərqi vardır. Bu səbəbdən də elektron sənədlərdən bəhs edilən elmi və tədris ədəbiyyatında elektron sənəd anlayışı ilə yanaşı, "elektron sənəd resursu" və "elektron resurs" anlayışından geniş istifadə edilir. Məsələn, Rusiyanın Dövlət İctimai Elmi-Texniki Kitabxanasının direktoru, EBNİT Assosiasiyasının prezidenti Y. Şrayberq və onun elmi tərəfdaşı, məşhur alim A. Zemskov "Elektron Kitab-xanalar" əsərinin ayrıca fəslini "Elektron resurslar.Tərifi, tipologiyası" adlandır-mışdır.. Bu fəsildə elektron sənədə "maşınla oxuna biləcək tərzdə maddi daşıyıcı üzərində qeyd edilmiş məzmunca bitkin informasiya massivi" kimi tərif veril-mişdir. Elektron resurs isə belə bir tərif almışdır: "Elektron resurs elektron sənədlərin məcmusu, çoxluğudur (kolleksiyasıdır) Burada nəzərdə tutulur ki, kolleksiya bir qayda olaraq xüsusi niyyətlə yaradılır, resurs isə təsadüfi hərəkət-lərin, hadisələrin nəticəsində yarana bilər".

Müasir elmdə adi sənəd resursları ilə elektron resurlar müqaisə edilərkən elektron resursların bir sıra fərqli növləri göstərilir:

1. Çap analoqu olmayan elektron resurlar(elektron poçt, intenet-dəki veb səhifələri, diskussiya qrupları, bir sıra elmi və kütləvi jurnallar, verilənlər bazaları, multime-diya materiallar və s.);

2. Çap formasında mövcud olan sənəd-informasiya resurslarının dəstəklənməsi, məsələn onların mühafizəsi, istifadəçilərə xidmətin yaxşılaşdırılması və genişlən-dirilməsi ( o cümlədən, istifadəçilərin soruşduğu nəşrlərin elektron analoqlarına mülti-müyəssərliyin təmin edilməsi), onların uzun müdətli mühafizəsini təmin edilməsi üçün (məsələn, elektron kitablar, çap edilmiş əsərlərin elektron versiyalrı) yaradılan elektron resurslar;

3. Çap edilmiş sənəd resursları əsasında yaradılmış, uzun müddət saxlanmaq üçün nəzərdə tutulmayan və ya bir dəfə istifadə edildikdən sonra məhv edilməsi nəzərdə tutulan elektron resurslar(KAA sistemidə istifadə edilmiş materialların nüsxələri, qəbzlər, elektron arayışlar Şrayberq və A. Zemskov elektron resursların ənənəvi sənədlərdən əsas fərq-lərini sadalamaqla bir sıra digər əlamətlərinə görə də təhlilini verir. Lakin bizim fikrimizcə, elektron resursların həmin tərzdə təsnifləşdirilməsi və qruplaşdırılması məntiqi cəhətdən qeyri-mükəmməl-dir və fərqləndirmə əlamətlərinin bu tərzdə qruplaşdırılması lazımi qədər əsaslandırılmamışdır. Bundan əlavə, həmin alimlər elektron resursların bir sıra geniş yayılmış növlərinin səciyyəsini verir. Bu zaman həmin növlərdən aşağıdakılar göstərilir:

1.Hiper əlaqələrə, axtarış imkanlarına malik elektron resurslar;

2. Verilənlərin emal edilməsi və nəticələrin nümayiş etdirilməsi funksiyaları olan elektron jurnallar;

3. Axtarış imkanlarına malik kitabxana-biblioqrafik verilənlər bazaları tipli elektron resurslar ;

4. Şəkillərin ölçülərinə, rənginə, fəza parametrlərinə görə emal edilməsinə imkan verən fayllar, çoxölçülü təsvirlərin qurulmasına imkan verən elektron resurslar;

5. Video, audio (o cümlədən musiqi) yazıları, kompüter animasiyası tipli elektron resurslar;

6. Rəqəmsal xəritələr və kartoqrafik informasiya tipli elektron resurslar;

7. Kompüter proqramları, o cümlədən bilavasitə EHM tərəfindən icra edilmək üçün nəzərdə tutulmuş proqramlara aid edilən elektron resurslar;

8. Multimediya materiallar(insanın müxtəlif qavrama kanalları üçün nəzərdə tutulmuş informasiyann-mətn, musiqi, animasiya, təsvir-müxtəlif uzlaçmasından ibarət elektron resurslar);

9. Elektron sənədlərin digər növləri.

Bildiyimiz kimi, cəmiyyatin ehtiyaclarının mmüəyyən istiqamətinin ödənil-məsi üçün yaradılan hər bir şey sonradan daha dar istiqamətlərə görə də bölünüb detallaşdırıla bilər. Bu baxımdan electron

resurslar cəmiyyətin fəaliyyərinin hansı istiqamətlərində tətbiq edilməsinə görə də təsnifləşdirilə bilər Bu zaman aşağıdakı növlərini fərqləndirmək mümkündür:
- elmi təyinatlı;
- tədris təyinatlı;
- asuda vaxt üçün nəzərdə tutulmuş;
- bədii;
- elmi-texniki informasiy;
- elanlar, reklam və təbliğat;
- elektron kommersiya təyinatlı;
- istehsalat təyinatlı elektron resurslar;
- texnoloji təyinatlı elektron resurslar;
- maliyyə təyinatlı elektron resurslar;
- digər təyinatlı s elektron resurslar.

Bundan əlavə, elektron resurslar onların əlçatarlıq (ingiliscə buna "access" deyilir) dərəcəsinə görə də fərqləndirilərək aşağıdakı növlərə bölünə bilər:
- tam əlçatar, heç bir məhdudiyyət olmayan;
- pulsuz:
- şərti olaraq pulsuz;
- pullu;
- ictimai istifadə üçün qapalı;
- insanların özəl həyatı ilə bağlı.

Elektron sənəd-informasiya resurslarının xüsusiyyətləri, funksiyaları bir çox digər tədqiqatların predmeti olmuşdur. Məsələn M.F. Menyayev, İ.S. Pilko, A.P. Antopolski, A.Y. Fridland ümumilikdə informasiya resurslarının və xüsusi olaraq sənəd-informasiya resurslarının xüsusiyyətlərini, yaradılması və istifadə məsələ-lərini nəzərdən keçirmişlər. Lakin biz hesab edirik ki elektron sənəd-informasiya resurslarının təqdim edilən təsnifat prinsipi heç də ideal sayıla bilməz və onun yenidən və əsaslı nəzərdən keçirliməsinə böyük tələbat vardır. Çünki, belə bir elmi cəhətdən mükəmməl təsnifatın olması bu sahədə baş verən hadisə və proseslərin mahiyyətini düzgün anlamağa, proqnozlaşdırmağa və qiymətləndirməyə imkan verər.

Elektron resursların müxtəlif əlamətlərinə görə təhlili müasir elektron sənəd-lərin demək olar ki, bütün növ müxtəlifliyini əhatə edir. Lakin bütün bu növ sənəd-lərin yaradılması və sənəd-kommunikasiyalar sisteminə daxil edilməsi ancaq infor-masiya texnologiyalarının, resursların hazırlanması və istifadəyə verilməsinin yük-sək səviyyəsində mümkündür. Bundan başqa, həmin resursların bütün növlərinin yaradılması və istifadə imkanları dünyanın ən qabaqcıl kitabxanalarına

müyəssər olan bir səviyyədir. Lakin biz nəzərə almalıyıq ki, son zamanlarda respublikamızda kitabxana işində yeniləşmə və inkişaf ildən-ilə daha yüksək sürət almaqdadır. Bu inkişafın əsas konturları və vəzifələri 2008-ci ildə ölkəmizdə qəbul olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" adlı direktiv sənəddə tapmışdır. Respublikamızın tarixində kitabxana quruculuğu sahəsində ilk proqram sənədi olan bu sənəddə kitabxana işinin müxtəlif aspektləri ilə yanaşı ölkə kitabxanalarının fondlarının, sənəd-informasiya resurslarının inkişafı məsəlsi də diqqət mərkəzinə gətirilir. Burada ölkəmizdə kitabxana işinin inkişaf etdirilməsi sahəsində qarşıda duran vəzifələrdən bəhs edilərkən "-kitab nəşri, yayımı və fond komplektləşdirilməsi işinin tənzimləyən, maraqlı tərəflərin mənafeyini ifadə edən "müəllif-nəşriyyat-kitabxana-oxucu" mexanizminin və infrastrukturunun təkmilləşdirilməsi;

- elektron informasiya fondlarının formalaşdırılması və virtual kıtabxanaların inkişaf etdirilməsi, "Azərbaycan ədəbiyyatının virtual kıtabxanası" nın oxucuların istifadəsinə verilməsi;

- elektron kataloq və elektron kitabxanaların yaradılması işinin təmin edilməsi, onların müasir standartlar səviyyəsinə çatdırılması;

- kompüterləşdirilmiş kitabxana infrastrukturunun qurulması, kitabxanaların yeni informasiya texnologiyaları ilə təchiz edilməsi;

- kitabxana fondlarının zənginləşdirilməsi, onların mühafızəsinin və təhlükəsizliyinin təmin edilməsi;

- "Azərbaycanın kitab abidələri" dövlət reyestrinin hazırlanması, milli informasiya resurslarının elektron daşıyıcılara köçürülməsi kimi vəzifələr müəyyən edilir.

Göründüyü kimi, bu vacib direktiv sənəddə respublikamızda kitabxanaların elektron sənəd-informasiya resurslarının yaradılması istiqamətində vacib vəzifələr müəyyənləşdirilmişdir. Ümid etmək olar ki, həmin vəzifələrin həyata keçirilməsi ölkəmizdə sənəddə kitabxanaların elektron sənəd-informasia resurslarının zama-nın tələbləri səviyyəsinə yüksəlməsinə şərait yaradacaqdır.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı //Kutabxanaşünalıq və biblioqrafiya: elmi-nəzəri və metodiki jurnal.-2008.- №2.- S 7-30.*
2. *ГОСТ 7.0-99. Информационно-библиотечная деятельность, библиография // http://gsnti-norms.ru/norms/common/doc.*

3. *Антопольский А.П. Информационные ресурсы России: науч. метод. пособие. – М:Либерия, 2004.- 423 с.*
4. *Земсков А. И., Шрайберг Я. Л. - Электронные библиотеки. – М., 2003. – С. 60-61).*
5. *Меняев М.Ф, Информационные технологии управления. В 3 книгах. Информационные ресурсы.-М.: Омега-Л, 2003. -432 с.*
6. *Пилько И.С. Информационные и библиотечные технологии.- С.Пб.: Профессия, 2008. -342 с.*
7. *Фридман А.Я. Информатика: Процессы, системы, ресурсы.- М.: БИНОМ, Лаборатория знаний, 2003. – 232 с.*

## ЭЛЕКТРОННЫЙ РЕСУРС КАК НОВЫЙ ЭТАП ЭВОЛЮЦИИ ДОКУМЕНТАЛЬНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ БИБЛИОТЕКИ

**РЕЗЮМЕ**

В статье рассмотрен вопрос возникновения и развития электронных ресурсов как нового этапа эволюции документально-информационных ресурсов библиотеки. Дана характеристика электронного ресурса, приведены основные типы и виды этих ресурсов.

## ELECTRONIC RESOURCE AS A NEXT STAGE OF EVOLUTION OF DOCUMENTARY- INFORMATIONAL RESOURCES OF THE LIBRARY

**SUMMARY**

The paper considered the origin and development of electronic resources as a new stage in the evolution of documentary-informational resources of the library. The characteristic of the electronic resource was given and the main types and kinds of resources were introduced.

**Günel ƏLİYEVA**
*Magistrant*

## SUMQAYIT MKS – in SƏNƏD–İNFORMASİYA FONDUNUN MÜASİR VƏZİYYƏTİ

***Açar sözlər:*** *Sumqayıt MKS, informasiya fondu, müasir vəziyyəti.*

***Ключевые слова:*** *ЦБС Сумгаита, фонд информации, современное состояние.*

***Key words:*** *Sumgait System of centralized library (SCL), Information fund The present situation .*

Azərbaycanda kitabxana sistemlərinin yaradılmasına əsasən 1920-ci illərdən başlanılmış,demək olar ki,dünya kitabxana sistemlərindən fərqli olaraq yeni sistem meydana gəlib formalaşmışdır. SSRİ məkanında formalaşan bu sistem demək olar ki, bütün müttəfiq respublikalarda tətbiq edilmiş sovet kitabxana sistemi adlanırdı. Doğrudur, o dövr üçün olduqca mütərəqqi xarakter daşıyan bu sistem nöqsanlardan, çatışmazlıqlardan kənar deyildi. Sistem yaradılarkən və tətbiq edilərkən respublikaların milli xüsusiyyətləri, adət və ənənələri, mədəni inkişaf tarixi, vicdan azadlığı, milli kitabın toplanılması və saxlanılması məsələləri nəzərə alınmırdı. Azərbaycanda bir neçə dəfə - 1929-cu ildə, 1938-ci ildə əlifbanın dəyişməsi ilə, ərəb və latın qrafikası ilə yazılmış və çap edilmiş milli Azərbaycan kitabının, xalqımızın ən qədim və ən qiymətli milli sərvətinin dini kitab və köhnə əlifba bəhanəsilə kitabxana fondlarından çıxarılıb, yandırılıb, məhv edilməsini misal göstərə bilərik.

Ciddi qüsurlara, çatışmazlıqlara baxmayaraq, sovet kitabxana sistemi bütövlükdə mütərəqqi xarakter daşıyırdı.

Azərbaycanda kitabxana sistemlərinin yaradılması və formalaşması bilavasitə Rusiya kitabxanalarının və rus kitabxanaşünaslarının təsiri ilə baş vermişdir. Bu sistem 1920-ci illərdən yaranmağa başlamış, artıq 30-cu illərdə tam formalaşmış bir sistemə çevrilmişdi. 1941-1945-ci illər İkinci Dünya müharibəsi sistemin təkmilləşməsi prosesini ləngitsə də, 50-ci illərdən başlayaraq əhaliyə kitabxana xidmətini yaxşılaşdırmaq üçün dövlət miqyasında keçirilən tədbirlər nəticəsində ölkənin kitabxana sistemi yeni-yeni çalarlarla zənginləşmiş, təkmilləşmə və yeniləşmə prosesi davam etmişdir. Görülən bütün tədbirlərə baxmayaraq, mövcud kitabxana sistemi ölkənin qarşısında duran böyük vəzifələrə, cəmiyyətin durmadan artan informasiya tələbatına, 60-70-ci illərin oxucularının sorğularına cavab verə bilmirdi. Məhz buna görədir ki, 1974-cü ildə "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunun artırılması haqqında" mühüm partiya sənədi qəbul

edildi. Bu sənəddə ölkədə kitabxana sistemlərinin təkmilləşməsində çox mühüm rolu olan kitabxana işinin mərkəzləşdirilməsi məsələsi irəli sürülürdü ( 5, 209 ).

Mərkəzləşdirilmiş kitabxana sistemi iriləşdirilmiş, yeni tipli kitabxana müəssisəsi olub, struktur cəhətdən bütöv(tam), ümumi fond və vahid texnologiya əsasında fəaliyyət göstərən, bir-biri ilə üzvi şəkildə qarşılıqlı əlaqədə olan kitabxanaların və kitabxana birliklərinin məcmusudur. Bu sistem ayrı-ayrılıqda fəaliyyət göstərən xırda kitabxanaların mexaniki birliyi yox, insanların təhsilində, tərbiyəsində, mədəni inkişafında, informasiya təminatında yaxından iştirak edən, ölkə miqyasında kitabxana xidmətini həyata keçirən keyfiyyətcə yeni orqanizmdir.

Kitabxana işinin mərkəzləşdirilməsi dedikdə kitabxana şəbəkələrinin yenidən təşkilinin elə forması yaranır ki, bu zaman kitabxanaların fəaliyyəti regionda, zonada və s. həmin kitabxanalardan biri, daha böyüyü, məsələn, rayon kitabxanası baş mərkəzi kitabxanaya çevrilir, qalan kitabxanalar isə onların filialları kimi fəaliyyət göstərir. Filiala çevrilmiş kitabxanalar öz müstəqillik statusunu itirmir, kitabxana statistikasında müstəqil kitabxana kimi qeydə alınır ( 5, 211 ).

Mərkəzləşdirmə müasir şəraitdə əhaliyə kitabxana xidmətini dövrün tələblərinə, dünya təcrübəsinə uyğun olaraq yenidən qurmaq, kitabxana işini əsrin məzmunundan irəli gələn informasiya partlayışının tələblərinə cavab verəcək səviyyəyə qaldırmaq vəzifələrini yerinə yetirməli idi. Bu vəzifələrin yerinə yetirilməsi dövrün, zamanın tələbi olduğundan Azərbaycan hökuməti bu işi ümumxalq, ümummədəni tərəqqi işi kimi qiymətləndirmiş və xüsusi tədbirlər planı hazırlamışdı. Məhz buna görədir ki, öz miqyasına görə şox böyük iş qısa müddət ərzində - 80-ci illərin əvvəllərinə qədər həyata keçirildi. Qısa müddət içərisində respublikamızda 3174 filialı olan 69 mərkəzləşdirilmiş rayon kitabxana sistemi yaradılmışdı.

Ölkəmizdə mərkəzləşdirmənin müvəffəqiyyətlə həyata keçirilməsi və onların işinin ilkin yekunlarının elmi təhlili bu mühüm dövlət tədbirinin böyük üstünlüklərə malik olmasını, kitabxana xidmətinin təşkilində ciddi keyfiyyət dəyişikliklərinin baş verməsini, kitabxana işinin perspektiv inkişafı üçün əhəmiyyətli nəticələr əldə edilməsini aşkara çıxardı.

Heç də təsadüfi deyil ki, 1998-ci il 29 dekabrda qəbul edilmiş, 1999-cu il 12 mart tarixində "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərman vermiş olduğu bu qanunda mərkəzləşdirilmiş kitabxana sistemləri Azərbaycan kitabxana sistemlərinin əsas tiplərindən biri kimi göstərilmişdir ( 5, 218 ).

Bakı iqtisadi rayonunun tərkibində olan Sumqayıt şəhərinin informasiya arealına daxil olan ən zəngin iş təcrübəsinə malik olan kitabxana sisitemlərindən biri də Sumqayıt şəhər MKS-dir.

Sumqayıt şəhərində 88 kitabxana fəaliyyət göstərir. Bu şəhərdə yerləşən kitabxanaların 22,7 faizi Mədəniyyət və Turizm Nazirliyi sisiteminə daxildir və Respublika üzrə ümumi kitabxana resurslarının 3,8 faizini təşkil edir. Sumqayıt şəhər kitabxanalarının informasiya resurslarının ümumi həcmi 2,5 milyona yaxındır ki, bu da Respublika kitabxana resusrslarının 3 faizini təşkil edir. Sumqayıt şəhərində mövcud olan kitabxanalarda 82 kitabxanaçı işləyir ki, bunlardan 22 faizi ali kitabxanaçılıq təhsilli, 24,4 faizi isə qeyri-ali kitabxanaçılıq təhsilli işçilərdir ( 6).

Sumqayıt şəhər S. Vurğun adına Mərkəzi kitabxana 1958-ci ildən fəaliyyət göstərir. 1966-cı ildən kitabxanaya S. Vurğunun adı verilmişdir. 1974-cü ildən Sumqayıtda olan dövlət kitabxanalarını özündə birləşdirən MKS-nin metodik mərkəzidir. Kitabxananın 5 şöbəsi, 19 filialı var. sistemə 20 dövlət kitabxanası: S. Vurğun adına mərkəzi şəhər kitabxanası, 13 böyük, 1 gənclər, 4 uşaq kitabxanaları və N. Gəncəvi adına uşaq kitabxana klub daxildir. S. Vurğun adına Sumqayıt şəhər Mərkəzi kitabxananın fondu 124419 nüsxə, oxucusu 5488 nəfər, kitab verilişi 169181 nüsxədir. Filiallarda olan kitab fondunun ümumi həcmi 493962 nüsxədir. MKS-in fondu isə 582776 nüsxədir ( 6, 11 ).

Bildiyimiz kimi "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda da göstərilir ki, kitabxana fondunun tərkibinə kitab, jurnal, qəzet, digər çap məhsulları, audiovizual və texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və başqa informasiya daşıyıcıları daxildir ( 1, 13 ).

Bu qanunu əldə rəhbər tutaraq Sumqayıt şəhər MKS-i də dövlət vəsaiti hesabına yeni ədəbiyyatları almaqla, Prezident Aparatından, M. F. Axundov adına Respublika Milli Kitabxanasından kitab mübadiləsi yolu ilə, nəşriyyatların və müəlliflərin bağışladıqları kitablar hesabına kitab fondunu daim zənginləşdirir.

Oxucuların ümumtəhsil, mədəni və peşə sorğularının ödənilməsi üçün kitabxananın universal profilli kitab fondu vardır.

MKS-in fondu elm sahələri üzrə də çox zəngindir. Elm sahələri üzrə fondun tərkibi: ictimai-humanitar, təbiət elmləri, texnika, kənd təsərrüfatı, iqtisadiyyat, hüquq və hərbi elm, təhsil, mədəniyyət, incəsənət, filologiya, bədii ədəbiyyat, din, fəlsəfə, psixologiya, məlumat nəşrlərindən və s. ibarətdir. Fondun tərkibinə daxil olan sənəd-informasiya resursları həm kiril, həm də latın qrafikalıdır. Burada

azərbaycan, rus və digər başqa dillərdə kitab, kitabça, jurnal,qəzet və digər nəşrlər vardır.

Burda oxucuya lazım olan kitabı tapmağa kömək edən mühüm mənbə kimi əlifba və sistemli kataloqlar, sistemli və ölkəşünaslıq kartotekaları tərtib edilmişdir. Xidmət şöbəsi əhaliyə abonement və oxu zalı vasitəsilə xidmət göstərir. Oxucuların müxtəlif sorğularını tez və dolğun ödəməyə çalışır, çap əsərlərindən səmərəli istifadə etməyə kömək edir, fondun qorunmasını həyata keçirir, MKS-in imkanlarını açmaqdan ötrü hər bir oxucuya sistemdaxili və kitabxanalararası abonement haqqında məlumat verir.

Sistemin oxucularına əhatəli və dolğun xidmət göstərmək üçün məlumat-biblioqrafiya şöbəsi onlara biblioqrafiya xidmətini təşkil edir. Soraq-biblioqrafiya aparatını təkmilləşdirir, biblioqrafik işi əlaqələndirir və ona nəzarət edir, məqalələrin sistemli və diyarşünaslıq kartotekalarını aparır. Oxuculara lazım olan ədəbiyyatın seçilməsində köməklik göstərir, onların kartotekalardan, tövsiyə siyahılarından və biblioqrafik materiallardan istifadə etmələrinə imkan yaradır. Soraq-biblioqrafiya aparatı və onun tərkib hissələri, kataloq və kartoteka sistemi haqqında məlumat verir. Yeni daxil olan ədəbiyyatın məlumat bülletenini tərtib edir və xülasəsini "Sumqayıt" qəzetində dərc etdirir.

Hər il soraq-biblioqrafiya aparatını təşkil edən soraq və biblioqrafik nəşrlər fondu, kataloq və kartotekalar sistemi, yazılı şəkildə yerinə yetirilmiş arayışlar fondu ilə iş müntəzəm olaraq davam etdirilir. 2009-cu ildə məlumat-biblioqrafik nəşrlər fonduna şöbə əməkdaşlarının tərtib etdiyi "Sumqayıtın mədəni həyatı" (Sumqayıt şəhərinin yaranmasının 60 illiyi), "Bəşəri ideyalar carçısı" (Şeyx Məhəmməd Xiyabaninin anadan olmasının 130 illiyi), "Sinəmdə söz bulağı var" (Vaqif Bəhmənli-55) adlı vəsaitlər daxil olmuşdur. "Uşaqların haqqları və reallıqlar" (Beynəlxalq uşaq ili), 1988-ci il fevralda Sumqayıtda baş verən hadisələrə həsr olunmuş "Həqiqəti gələcək nəsillərə" adlı biblioqrafik vəsaitlər yeni materiallarla zənginləşdirilmiş, biblioqrafik nəşrlər fonduna daxil edilmişdir. "Ölkəşünaslıq", "Sumqayıt", "Sistemli", "Poeziya mövzularda" kartotekaları (Azərbaycan və rus dillərində) ilə iş davam etdirilmiş, məzmunca köhnəlmiş məqalələrin təsvir kartoçkaları kartotekalardan xaric edilmişdir.

Prezidentin sərəncamına əsasən 2005-ci ildə kitabxanaya 6600 nüsxə, 2006-cı ildə isə 2658 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Buna görə digər illərlə müqayisədə 2005-2006-cı illərdə MKS-in fondu çox olmuşdur. Yeni daxil olan ədəbiyyat əsasən Respublika Kitabxana Kollektorundan, Prezident Aparatından, Mədəniyyət İdarəsi tərəfindən, M. F. Axundov adına Respublika Milli Kitabxanasının mübadilə şöbəsin-

dən, müxtəlif təşkilatlar, oxucular və müəlliflər tərəfindən isə avtoreferat və jurnal kimi daxil olmuşdur. Gözdən Əlillər Cəmiyyətinin səsyazma studiyasından bədii əsərlər köçürülmüş 20 ədəd kaset alınmışdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının" Tədbirlər Planına uyğun olaraq S. Vurğun adına Mərkəzi kitabxanada və MKS-də bir sıra işlər görülmüşdür. 2009-cu ildə kitabxanaya yeni proqram – Avtomatlaşdırılmış Kitabxana Sistemi İRBİS - 64 kitabxana proqramı alındı. Bu proqram vasitəsilə ilk növbədə ölkə prezidentinin fərmanları ilə çap olunmuş latın qrafikalı ədəbiyyat, o cümlədən, yeni alınmış qəzet və jurnallar, həmçinin kitabxanaya yeni yazılan oxucuların formulyarları proqrama köçürüldü və bu iş müntəzəm davam etdirilir. Həmçinin MKS-in 12 saylı uşaq kitabxanasına İRBİS – 64 kitabxana proqramı alınmışdır. ( 6, 37 )

Dövlət Proqramının Tədbirlər Planının 2.1.2 bəndində nəzərdə tutulan "Azərbaycanşünaslığı inkişaf etdirmək məqsədilə fondların ölkəşünaslığa və diyarşünaslığa dair materiallarla zənginləşdirilməsi" ilə əlaqədar S. Vurğun adına Mərkəzi Kitabxananın Kitabişləmə və Komplektləşdirmə şöbəsi il ərzində MKS-in fondunun komplektləşdirilməsini həyata keçirərkən ilk növbədə ölkəşünaslığa, diyarşünaslığa dair çap əsərlərinin sistemin fonduna alınmasına çalışırlar.

Dövlət Proqramının Tədbirlər Planının 2.1.3 bəndində nəzərdə tutulan "Gözdən əlil insanların informasiya tələbatını ödəmək məqsədilə kitabxana fondlarının xüsusi nəşrlərlə komplektləşdirilməsi" ilə əlaqədar gözdən əlil insanların istifadə etməsi üçün Mərkəzi Kitabxanaya 20 nüsxə audio kaset alınmışdır. Bunlardan Anarın "Otel otağı", Mehdi Hüseynin "Yeraltı çaylar dənizə axır", İsmayıl Şıxlının "Ölən dünyam", Y. V. Çəmənzəminlinin "Cənnətin qəbzi", "Yunan əfsanələri" və digər audio kasetləri göstərmək olar.

Dövlət Proqramının Tədbirlər Planının 2.1.7 bəndində nəzərdə tutulan "Oxuculara verilən ədəbiyyatın tematik – tipoloji uçotunun təşkili, fəal və qeyri-fəal istifadə edilən nəşrlərin müəyyənləşdirilməsi, oxucuların informasiya tələbatının ödənilməsinə yönəlmiş sorğuların keçirilməsi və əldə edilmiş nəticələr əsasında fondların komplektləşdirilməsi" sahəsində də MKS-də bir sıra işlər görülmüşdür. Belə ki, Mərkəzi Kitabxananın Komplektləşdirmə və kitabişləmə şöbəsi komplektləşmə işini həyata keçirərkən oxucular tərəfindən daha çox soruşulan və əksər hallarda fondda olmadığı və ya az nüsxədə olduğu üçün "rədd" cavabı verilən informatika, kompüterləşmə, bazar iqtisadiyyatı, beynəlxalq əlaqələr, xarici ölkələrin iqtisadiyyatı, siyasət,

texniki elmlər, dilçilik və ədəbiyyatşünaslığa dair kitabların, xüsusilə dərslik ədəbiyyatının sistemin fonduna alınmasına çalışır.

Məlumat-biblioqrafiya şöbəsinin əməkdaşları uşaq kitabxanalarında olaraq təsvir kartoçkalarının şifrələnib yerləşdirilməsinə, kartotekaların yeni materiallarla zənginləşdirilməsinə, yeni rubrikaların ayrılmasına, məzmunca köhnəlmiş rubrikalarının və təsvir kartoçkalarının kartotekalardan xaric edilməsini həyata keçirirlər. 2009-cu ildə 7 saylı uşaq kitabxanasına "Mən bir susmaz duyğuyam ki …" (C. Cabbarlı-100, iyul), "Tarixin Xocalı faciəsi" (Fevral), "Hünər və rəşadət rəmzi"(9 May-Qələbə günü), 12 saylı kitabxanaya "Ana laylası, uşaq dünyası" (Kiçik və orta yaş qrupları üçün. May), Uşaq Kitabxana Kluba "Şərqşünas alim" (A. İmanquliyeva-70) və s. mövzularda biblioqrafik vəsaitlərin tərtibinə köməklik göstərilmişdir.

Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin filiallarının fondu, oxucu tərkibi və kitab verilişi belədir:

| ***Kitabxanalar*** | ***Fondu*** | ***Oxucusu*** | ***Kitab verilişi*** |
|---|---|---|---|
| ***Mərkəzi kitabxana*** | *124419* | *5488* | *169181* |
| *1 saylı kx-f* | *22920* | *2005* | *42199* |
| *2 saylı kx-f* | *44911* | *2936* | *62203* |
| *3 saylı kx-f* | *35579* | *1521* | *37987* |
| *4 saylı kx-f* | *33945* | *2434* | *42682* |
| *5 saylı kx-f* | *27144* | *2470* | *47400* |
| *6 saylı kx-f* | *27573* | *2004* | *42053* |
| *7 saylı kx-f* | *26578* | *2076* | *33230* |
| *8 saylı kx-f* | *26379* | *2005* | *44953* |
| *9 saylı kx-f* | *31596* | *2266* | *42346* |
| *10 saylı kx-f* | *31964* | *2224* | *42744* |
| *11 saylı kx-f* | *11307* | *750* | *12101* |
| *12 saylı kx-f* | *41264* | *2349* | *40500* |
| *13 saylı kx-f* | *22197* | *702* | *9049* |
| *14 saylı kx-f* | *26981* | *2100* | *40255* |
| *15 saylı kx-f* | *16667* | *1303* | *26115* |
| *16 saylı kx-f* | *23402* | *1485* | *28045* |
| *17 saylı kx-f* | *22190* | *865* | *14596* |
| *18 saylı kx-f* | *1416* | *612* | *860* |
| ***UKK*** | *19949* | *3597* | *78408* |

Cədvəldən göründüyü kimi 11 və 18 saylı kitabxana-filiallarda oxucu tərkibi, kitab verilişi və kitabxananın fondu digər kitabxana-filiallardan azdır. Çünki 18 saylı kitabxana-filial Sarıqaya yaşayış məntəqəsində yerləşir və işini heç bir məktəblə qurmur, 11 saylı kitabxana isə Corat qəsəbəsində yerləşir və işini 7 saylı məktəb, 2 saylı uşaq bağçası ilə əlaqəli qurur. Bu yaşayış məntəqələrində məktəb az olduğundan və əhalinin az hissəsinin kitabxanalara cəlb olunmasını nəzərə alaraq iş də çox zəif gedir.

Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" Qanununda bildirilir ki, Milli kitabxana, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları, respublika əhəmiyyətli elmi sahəvi kitabxanalar və Bakı Dövlət Universitetinin Kitabxanası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada ölkədə nəşr edilən çap məhsullarının məcburi nüsxələrini almaq hüququna malikdir ( 1, 14 ).

Bunu nəzərə alaraq Sumqayıt şəhər MKS-i hər il müxtəlif orqanlardan yeni ədəbiyyatlar alaraq öz fondunu daim zənginləşdirir.

2005-ci ildə MKS-in 622866 nüsxə fondu olmuşdur ki, bunun 279051 nüsxəsi Azərbaycan, 343815 nüsxəsi isə digər dillərdə olmuşdur. Latın qrafikalı ədəbiyyat 24325 nüsxədir. Fondun 561872 nüsxəsi kitab, 28530 nüsxəsi kitabça, 32464 nüsxəsi jurnaldır. Elm sahələri üzrə fondun tərkibi: təbiət elmləri 49577 nüsxə, ictimai, siyasi ədəbiyyat 110728 nüsxə, texnika, kənd təsərrüfatı 32452 nüsxə, incəsənət27624 nüsxə, filologiya, bədii ədəbiyyat 402485 nüsxə olmuşdur.

2005-ci ildə MKS-in fonduna 15745 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Bu ədəbiyyatın 467 nüsxəsi Respublika Kitabxana Kollektorundan, 12567 nüsxə Prezident Aparatından, 20 nüsxə Mədəniyyət İdarəsi tərəfindən, 430 nüsxə M. F. Axundov adına Respublika Milli Kitabxanasının mübadilə şöbəsindən, 1233 nüsxə müxtəlif təşkilatlar, oxucular və müəlliflər tərəfindən hədiyyə kimi, 471 nüsxə avtoreferat, 537 nüsxə jurnal kimi daxil olmuşdur.

2006-cı ildə MKS üzrə dövri mətbuata mərkəzləşdirilmiş abunə yazılışı həyata keçirilmiş və 25 adda qəzet, 22 adda jurnala abunə yazılmışdır. Hal-hazırda MKS-ə 25 adda qəzet və 17 adda jurnal daxil olur.

2006-cı ildə MKS-in fondu 618381 nüsxə olmuşdur ki, bunun 253873 nüsxəsi azərbaycan, 335859 nüsxəsi digər dillərdədir. Latın qrafikalı ədəbiyyat 28649 nüsxədir. Elm sahələri üzrə fondun tərkibi: təbiət elmləri 48879, texnika, kənd təsərrüfatı 1772, ictimai-humanitar 42575, iqtisadiyyat 14980, hüquq və hərbi elm 11997, elm, əhsil, təhsil, mədəniyyət, incəsənət 38972, filologiya, bədii ədəbiyyat 401465, din, fəlsəfə, psixologiya 3738. məlumat nəşrləri 12983 nüsxə olmuşdur. Fondun 253873 nüsxə ədəbiyyatı kiril qrafikalı, 28649 nüsxə ədəbiyyatı

latın qrafikalı azərbaycan dilində, 335859 nüsxə ədəbiyyatı isə digər dillərdə olmuşdur.

2006-cı il MKS-in fonduna 7542 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Bu ədəbiyyatın 705 nüsxəsi Respublika Kitabxana Kollektorundan, 3937 nüsxə Prezident Aparatından, 428 nüsxəsi M. F. Axundov adına Respublika Milli Kitabxanasının mübadilə şöbəsindən, 1669 nüsxə müxtəlif təşkilatlar, oxucular və müəlliflər tərəfindən hədiyyə kimi, 353 nüsxə avtoreferat, 450 nüsxə jurnal kimi daxil olmuşdur.

2007-ci il MKS-in fondu 622410 nüsxə olmuşdur ki, bunun 252760 nüsxəsi azərbaycan, 33673 nüsxəsi digər dillərdədir. Latın qrafikalı ədəbiyyat 35977 nüsxədir. Fondun 589207 nüsxəsi kitab, 21 nüsxəsi kitabça, 33182 nüsxəsi jurnaldır. Elm sahələri üzrə fondun tərkibi: təbiət elmləri 48946, texnika, kənd təsərrüfatı 31705, ictimai-humanitar 42956, iqtisadiyyat 14961, hüquq və hərbi elm 12123, incəsənət 39033, filologiya, bədii ədəbiyyat 405690, din, fəlsəfə 13807, biblioqrafik vəsait 13189 nüsxə olmuşdur.

2007-ci il MKS-in fonduna 8928 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Bunlardan 7539 nüsxəsi Azərbaycan, 1389 nüsxəsi rus dilindədir. Azərbaycan dilində olan ədəbiyyat latın qrafikalıdır. Daxil olan yeni ədəbiyyatın 884 nüsxəsi Respublika Kitabxana Kollektorundan, 5358 nüsxə Prezident Aparatından, 116 nüsxə Mədəniyyət İdarəsi tərəfindən, 1460 nüsxə M. F. Axundov adına Respublika Milli Kitab-xanasının mübadilə şöbəsindən, 156 nüsxə müxtəlif təşkilatlar, oxucular və müəlliflər tərəfindən hədiyyə kimi 494 nüsxə avtoreferat, 335 nüsxə jurnal kimi, 125 nüsxə KAA-dan daxil olmuşdur.

2008-ci il MKS-in fondu 622301 nüsxə olmuşdur. Bunun 249283 nüsxəsi azərbaycan, 327312 nüsxəsi digər dillərdədir. Latın qrafikalı ədəbiyyat 45706 nüsxədir. Elm sahəsi üzrə fondun tərkibi: təbiət elmləri 48534 nüsxə, texnika, kənd təsərrüfatı 31409 nüsxə, ictimai-humanitar 42354 nüsxə, iqtisadiyyat 14876 nüsxə, hüquq və hərbi elm 12210 nüsxə, incəsənət 39064 nüsxə, filologiya, bədii ədəbiyyat 404624 nüsxə, din, fəlsəfsə 13889 nüsxə, biblioqrafik vəsait 15341 nüsxə olmuşdur. 2008-ci il MKS-in fonduna 10375 nüsxə yeni ədəbiyyat daxil olmuşdur.

2009-cu il MKS-in fondu 608078 nüsxə olmuşdur ki, bunu 293916 nüsxəsi azərbaycan, 314162 nüsxəsi digər dillərdədir. Latın qrafikalı ədəbiyyat 52260 nüsxədir. Elm sahələri üzrə fondun tərkibi: təbiət elmləri 47595 nüsxə, texnika, kənd təsərrüfatı 30654 nüsxə, ictimai-humanitar 38867 nüsxə, iqtisadiyyat 13922 nüsxə, hüquq və hərbi elm 11011 nüsxə, incəsənət 39090 nüsxə, filologiya, bədii ədəbiyyat 399298 nüsxə, din, fəlsəfə 13698 nüsxə, biblioqrafik vəsait 14921 nüsxə olmuşdur.

2009-cu ildə MKS-in fonduna 8074 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. Bunun 1273 nüsxəsi Respublika Kitabxana Kollektorundan, 3101 nüsxəsi Prezident Aparatından, 125 nüsxə M. F. Axundov adına Respublika Milli Kitabxanasının mübadilə şöbəsindən, 1985 nüsxə müxtəlif təşkilatlar, oxucular və müəlliflər tərəfindən hədiyyə kimi, 910 nüsxə avtoreferat, 640 nüsxə jurnal kimi, 40 nüsxə Mədəniyyət İdarəsindən daxil olmuşdur.

2010-cu ildə MKS-in fonduna 3583 nüsxə yeni ədəbiyyat daxil olmuşdur ( 6, 45).

Hər il yeni daxil olan ədəbiyyatlar əlifba uçot kataloqu ilə yoxlanılır, qeyd jurnalında qeydiyyata alınaraq inventar nömrə verilir, təsnifləşdirilir, təsvir kartoçkaları, kitab formulyarları yazılır. Kitablar bölmələrə bölüşdürülərək qeyd jurnallarında, uçot kataloqlarında və ümumi uçot kataloqlarında qeydiyyatı aparılır və MKS-in bölmələrinə çatdırılır.

İl ərzində müntəzəm olaraq əlifba-uçot, əlifba-sistemli kataloqları redaktə edilir, yeni alınan kitabların kartoçkaları operativ olaraq əlifba-uçot, əlifba və sistemli kataloqlarda əks etdirilir.

Bütün bunlarla yanaşı hər il MKS-in fondundan silinən ədəbiyyatlar olur. 2006-cı ildə 11961 nüsxə, 2007-ci ildə 5549 nüsxə, 2008-ci ildə 10549 nüsxə, 2009-cu ildə 22297 nüsxə, 2010-cu ildə isə 28870 nüsxə ədəbiyyat silinmişdir. Bunlar məzmunca köhnəlmiş, cırıq, oxucular tərəfindən itirilmiş, Azərbaycan və rus dillərində olan kitab və jurnallardır.

MKS-nin abonement, VFTİ şöbələrində, MKS-nin kitabxana-filiallarında fond, kataloq və uçot sənədləri yoxlanılır, fondlardan silinmiş ədəbiyyatların aktlar üzrə inventar kitablarından, filialların qeyd jurnallarından mərkəzi əlifba və sistemli kataloqdan çıxarılması işi həyata keçirilir.

## ƏDƏBİYYAT


1. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya.- 1999.- №1.- s.3-17.*
2. *İsmayılov X. İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi.- Bakı.; 2000*
3. *Xələfov A. A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. 2 hissədə. I hissə.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004.- 328 s.*
4. *Xələfov A. A. Kitabxanaşünaslığa giriş: Dərslik: 3 hissədə. h. 1-2.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001.- 400 s.*

5. *Xələfov A. A. Kitabxanaşünaslığa giriş: Dərslik. III hissə.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003.- 314 s.*
6. *Sumqayıt MKS-nin 2005-2010-cu il hesabatları.*

**Г.АЛИЕВА**

## СОВРЕМЕННОЕ ПОЛОЖЕНИЕ И ИНФОРМАЦИОННЫЙ ФОНД ЦБС ГОР. СУМГАИТА

### РЕЗЮМЕ

В статье указаны истории о создании ЦБС и его филиалах. В том числе о современном положении информационного фонда ЦБС гор.Сумгаита

**G.ALİYEVA**

## THE PRESENT SITUATION OF DOCUMENT INFORMATION FUND OF SUMGAIT SSL (SYSTEM OF CENTRALIZED LIBRARY)

### SUMMARY

Arise history and Information about the branches of the CLS was reflected In the article. The same time the information fund and modern situation has been reflected here.

**Zabitə RƏHİMOVA**
*magistrant*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ C.CABBARLI ADINA RESPUBLİKA GƏNCLƏR KİTABXANASINDA FONDUN FORMALAŞMASI

***Açar sözlər:*** *kitabxana fondu, fondun formalaşması, komplektləşdirmə, elektron kataloq, İRBİS-64*
***Key words:*** *библиотечный фонд, формирование фонда, приобретение, электронный справочник , ИРБИС-64*
***Ключевые слова:*** *library fund, formation of the fund, acquisition, electronic directory IRBIS-64*

Elmin varlığını, inkişafını təmin edən ən mühüm amillərdən biri, bəlkə də birincisi onun sənəd-informasiya sərvətləridir. Müasir dövrdə hər bir cəmiyyətin elminin səviyyəsini xarakterizə edən əsas göstəricilərdən biri onun informasiya ehtiyatlarıdır və bu informasiyanı toplayan, sistemləşdirən, mühafizə edən və elmin inkişafı naminə istifadə edən kitabxanalardır.

Müstəqil Azərbaycan Respublikasında kitabxanalar cəmiyyətin mədəni quruculuğunda mühüm rol oynayan mədəni-maarif və elmi-informasiya müəssisələridir. Kitabxanalar əhali arasında elmi biliklərin yayılmasında, oxucuların mənəvi, estetik dünyagörüşünün formalaşmasında fəal iştirak edən elmi-informasiya və maarif ocaqlarıdır. Buradan belə bir nəticəyə gəlmək olar ki, hər bir cəmiyyətin sosial-siyasi, iqtisadi və mədəni inkişaf səviyyəsini müəyyən edən ölçülər və meyarlar vardır. Bu meyarlar içərisində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası mühüm yer tutur. Çap əsərlərinin və digər sənədlərin kitabxanada toplanması zəngin sənəd-informasiya fondlarının cəmiyyət üçün böyük tarixi, elmi və mədəni əhəmiyyəti vardır. Kitabxana fondu mədəniyyətin “qızıl fondu” olub bəşəriyyət tərəfindən əsrlər boyu toplanmış intellektual xəzinədir.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası 1928-ci ildən qiraətxana kimi fəaliyyətə başlamışdır. Yarandığı ilk vaxtlar kitabxananın binası və yeterincə fondu yox idi. 1950-ci ildən başlayaraq kitabxananın fəaliyyətində ciddi dönüş yaranmışdır. Fondu ilbəil zənginləşmiş, geniş oxucu kütləsini, əsasən gəncləri və məktəbliləri kitabxanaya cəlb etmişdir. 1937-ci ildən Azərbaycan dramaturgiyasının banilərindən biri sayılan Cəfər Cabbarlının adını daşıyan kitabxanaya 1976-cı ildə gənclər kitabxanası statusu verilmişdir.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında oxuculara xidmət sisteminin modernləşdirilməsi məqsədilə yeni informasiya texnologiyasının tətbiqi sahəsində çox işlər görülmüşdür. Kitabxana Soros Fondunun yerli Açıq Cəmiyyət İnstitunun Yardım Fondu ilə müqavilə bağlamış və 2003-cü ildə "Puşkin kitabxanası" layihəsi əsasında fonda xeyli kitab daxil edilmişdir. Kitabxana Soros Fonduna 2 layihə təqdim etmişdir. 2003-cü ilin sonunda keçirilən müsabiqədə kitabxana yardımçı təşkilat kimi iştirak etmişdir. Kitabxanada qısa müddət ərzində "Soros biblioqrafiya aparatı" yenidən tərtib edilmişdir.

Respublika prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 27 dekabr 2004-cü il tarixli sərəncamlarına əsasən son 3 il ərzində ümumi tirajı 9 milyon nüsxəyə yaxın kitab nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə verilmişdir. Yeni nəşrlər kitabxana fondlarını və onlardan istifadə imkanlarına xeyli genişləndirmişdir. Eyni zamanda C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası Azərbaycanda yaşayan rusdilli oxucuların mütaliə marağını və tələbatını nəzərə alaraq Rusiyanın "Premyera" nəşriyyatı ilə 5 illik müqavilə bağlamışdır. Müqaviləyə əsasən hər il oradan 1200-1300 nüsxə lüğət, ensiklopediya və digər ədəbiyyat alınaraq oxucuların istifadəsinə verilir.

Ölkəmizdəki kitabxanaların dünya informasiya məkanına daxil olmasının təminatı, müvafiq dünya standartlarına uyğun olaraq elektron formaya keçirilməsi, elektron kataloqlarının yaradılması və cəmiyyətin inkişafına birbaşa təsir göstərən elektron mənbələrin sərbəst istifadəsinin təmini məqsədilə "Dövlət Proqramı"na uyğun olaraq 2009-cu ilin mart ayından İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) tətbiq edilmişdir. Sistemin proqram təminatı Rusiyanın İRBİS-64 proqramı vasitəsilə kitabxanalar üçün xüsusi avtomatlaşdırılmış proqramlar işləyən təşkilatlar tərəfindən həyata keçirilmişdir. Buraya elektron kataloqun tərtibi, elektron kitabxanaın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, yəni kitabxana proseslərinin avtomatıaşdırılması modulları daxildir. Elektron kitabxananın yaradılmasında məqsəd respublika kitabxana fondunun mühafizəsi, fondun elektron versiyasının hazırlanması, zənginləşdirilməsi, Azərbaycan elminin nailiyyətlərini internet vasitəsilə təbliği və informasiya təminatını təmin etməkdir.

Artıq avtomatlaşdırma işinə kitabxananın ən vacib sahəsi olan elektron kataloqunun tərtibindən başlanmışdır və bu günə kimi milli ədəbiyyata dair təsvir məlumat bazasına daxil edilir. İRBİS-64 AKİS-də

elektron kartotekada Azərbaycan dilində 3.068, rus dilində 706, cəmi 5.491 adda dövri mətbuat təsdiq edilmişdir. Elektron kataloqa Azərbaycan dilində 716, rus dilində 736, digər dillərdə 22 retro kitab salınmışdır ki, bunlar da 1.474 adda 5.479 nüsxə ədəbiyyatı əhatə edir. Azərbaycan dilində 203, rus dilində 736, digər dillərdə 43, ümumilikdə 4.718 nüsxə yeni kitab elektron kataloqa salınmışdır ki, bunlar da cəmi 859 adda olmuşdur. Həmin kitabların kartoçkaları çıxarılıb kataloqa düzülmüşdür.

Elektron kataloqda "Ümummilli lider", "İdman", " Neft strategiyası", "Ekologiya" adlı yerli məlumat bazaları yaradılmışdır. Bu məlumat bazalarında qəzetlər, jurnallar və kitablar öz əksini tapmışdır.

Bu gün kompüter dünyada milyonlarla insanın həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Kompüterləşmə bütün bəşəriyyətin böyük nailiyyətinə çevrilmişdir. Məhz bu təzahür elmi-texniki tərəqqinin müasir mərhələsinin əsasını qoymuşdur. Texniki hesablamalara görə, yaxın gələcəkdə fərdi kompüterlərin ¼-i kompüter şəbəkəsi ilə əhatə olunacaqdır. "Azərbaycan Respublikasında kitab-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən kitabxanaların informasiyalaşdırılması işi böyük vüsətlə ölkəmizin bütün şəhər və rayon kitabxanalarını əhatə edir. Müasir dövrdə bir kitabxana belə tapmaq mümkün deyil ki, orada kompüterləşmə prosesinə start verilməsin. Kompüter şəbəkəsi, veb sayt, elektron poçt ünvanı müasir kitabxanalarımızın fəaliyyətinin ayrılmaz hissəsidir. Təbii ki, bizim kitabxanalarımız da istisnalıq təşkil etmir.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının veb saytı 2009-cu ildə yenidən yenilənmiş və istifadəçilərin ixtiyarına verilmişdir.

Elmin müxtəlif sahələrində müxtəlif sahələrində məlumat texnologiyalarının inkişafı respublika kitabxanasının oxucularının kəskin şəkildə artan və dəyişən tələblərinə uyğun məlumatların işlənməsi, saxlanmasının ənənəvi sisteminin dəyişdirilməsi vacibliyi qarşısında qoydu. Bunun üçün 3 mühüm bir-biri ilə bağlı məsələni həll etmək tələb olunurdu: kitabxanadaxili texnoloji proseslərin kompüter yardımı və kitabxana fəaliyyəti ilə idarə olunması, elektron təsəvvürdə özünün informasiya resurslarının təşkili, elektron məlumat resurslarına oxucularının girişinin təşkil edilməsi.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası fondun komplektləşdirilməsinə çox mühüm diqqət verir. Kitabxana öz fondunun komplektləşdirilməsində 7 mühüm xüsusiyyəti nəzərdə tutur:

- kitabxana vəzifəsinin öyrənilməsi;
- oxucu sorğularının öyrənilməsi;

- biblioqrafik mənbələrin istifadə edilməsi;
- maliyyə imkanlarının nəzərə alınması;
- komplektləşdirmə mənbələrinin müəyyənləşdirilməsi;
- ədəbiyyatın seçilmə keyfiyyətinin müəyyənləşdirilməsi;
- fondun oxucularla əlaqəsi və əks əlaqəsi.

Bu xüsusiyyətlərin kitabxanada qarşılıqlı surətdə istifadə edilməsi fondun formalaşmasına mühüm təsir göstərir. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası fondun formalaşmasında bu xüsusiyyətləri geniş nəzərə alır və bir sıra forma və metodlara isnad edir. Bu formalardan biri kartotekaların təşkilidir. Bu kartotekalardan kitabxanada səmərəli istifadə olunur. Belə ki, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının "kitabxana profili", "oxucu profili" mövzularında təşkil etdiyi kartotekalar bu baxımdan xeyli maraq doğurur. Həmin kartotekalarda fonda çatışmayan və komplektləşdirilməsi zəruri hesab edilən ədəbiyyat əks etdirilir. Burada xüsusən kitabxana vəzifəsinə və oxucu sorğusuna dair ən mühüm ədəbiyyat nümunələri seçilib əhatə olunur. Oxucu tələbatından, marağından asılı olaraq kitabxana fondunun formalaşması və zənginləşməsi kitabxananın cəmiyyətin mədəni inkişafına təsirini gücləndirir. Getdikcə oxucu təhsilinin artması onun mədəni tələblərinin genişlənməsinə və dərinləşməsinə başlıca təsir göstərir. Kitabxana mədəni və elmi məlumat idarəsi kimi bu tələblərin öyrənilməsində mühüm rol oynayır. Burada kitabxana fondlarının elmi əsaslar üzrə kompleks formalaşması zərurəti meydana çıxır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının işçiləri kitabxananın sənəd informasiya fondunun komplektləşdirilməsinə böyük diqqət verirlər və nəzəri cəhətdən fondun komplektləşdirilməsinin 4 mərhələsindən istifadə edirlər:

1. Hazırlıq adlanan birinci mərhələdə sənəd-informasiya fondunun öyrənilməsinin ardıcıllıq vaxtı, işin aparıcıları müəyyənləşdirilir və uçot sənədləri dəqiqləşdirilir;
2. İkinci mərhələdə kitabxana fondunun mövcud bölmələrinin tərkibi, həcmi, istifadəetmə xarakteri öyrənilir;
3. Üçüncü mərhələdə sənəd-informasiya fondunun öyrənilməsi prosesində əldə edilən məlumatlar işlənilir və təhlil edilir;
4. Dördüncü mərhələdə kitabxananın qəbul etdiyi qərarların həyata keçirilməsi nəzərə alınır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının komplektləşdiriciləri sənəd-informasiya fondunun öyrənilməsinin bir sıra metodlarından da istifadə edir:

-yeni alınan sənədlərlə ötəri tanışlıq, sərgilərin, mövzu rəflərinin təşkilində, kitabların düzülüşündə sənədlərlə tanışlıq;

-sənəd-informasiya fondunun öyrənilməsinin xüsusi metodları. Fondun həcmi, tərkibi və istifadə edilməsi haqqında analitik məlumatlar;

-biblioqrafik metod əsasında fondun öyrənilməsi.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının sənəd-informasiya fondunun komplektləşdirilməsi prosesini 3 növə ayırmaq olar ki, komplektləşdirmə şöbəsinin işçiləri bundan səmərəli istifadə edirlər:

-yeni kitabların alınması; (cari)

-keçmiş illərdə çap olunmuş sənədlərin əldə edilməsi; (retrospektiv)

- sənəd-informasiya fondunun tənzimləşdirilməsi; (rekomplektləşdirmə)

Göstərilən komplektləşdirmə sahələrinin hər birinin özünəməxsus xarakterik xüsusiyyətləri vardır. Komplektləşdirmə formalarının ən mühüm sahələrindən birini C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının sənəd-informasiya fondunun yeni kitablarla təchiz edilməsi təşkil edir. Yeni ədəbiyyat oxucu tələbatının təmin edilməsində, fondun formalaşmasında bütün sahələr üzrə ən mühüm sorğuların öyrənilməsində cari komplektləşdirmənin səmərələşdirilməsində əsas rol oynayır. Kitabxanada sənəd-informasiya fondunun cari komplektləşdirilməsində alınacaq sənədlərin bir sıra xarakterik xüsusiyyətləri nəzərə alınmışdır. Bunlardan birini oxucu tərkibinin öyrənilməsi təşkil edir.

Müasir qloballaşma prosesində sosial-siyasi, istehsalat, elmi, tədris və bədii ədəbiyyatı mütaliə edən oxucu tərkibini bir sıra amillər daxilində müəyyənləşdirmək olar: birinci, oxucuların elmi yaradıcılıq imkanları nəzərə alınır; ikinci, oxucuların sorğu və tələblərinin zənginliyinə isnad edilir; üçüncüsü, oxucuların tədris hazırlığına əsaslanır; dördüncüsü, oxucuların mürəkkəb tədrisinə isnad edilir.

## ƏDƏBİYYAT


1. *"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Prezidentinin sərəncamı// Respublika .-2008.-7 oktyabr*
2. *Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında: I və II cild.-B., 2007.*
3. *C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 2009-cu il hesabatı*
4. *Kitabxanaşünaslıq və informasiya jurnalı: Elmi-nəzəri və praktiki jurnal.-B.,2010.-№2*

**З. РАГИМОВА**

## ФОРМИРОВАНИЕ ФОНДА РЕСПУБЛИКАНСКОЙ ЮНЕШЕСКАЯ БИБЛИОТЕКА ИМЕНИ ДЖ. ДЖАББАРЛЫ В НЕЗАВИСИМЫЕ ГОДЫ

В статье речь идет о создании, истории развитии, рабочих принципах, новостях деятельности, внедрении Автоматизации Библиотечно Информационной Системы ИРБИС-64 в Республиканском Юношеском Библиотеке имени Дж. Джаббарлы, принятых распоряжениях в последние годы Президентом Азербайджана.

**Z. RAHIMOVA**

## FORMATION OF THE FUND REPUBLICAN YOUTH LIBRARY NAMED AFTER J. JABBARLI IN THE YEARS OF INDEPENDENCE

The article deals with the creation, history, development, working principles, news, activities, implementation of automation of library systems Information IRBIS-64 in the Republican Youth Library named J.Jabbarli, taken orders in recent years by the President of Azerbaijan.

# BİBLİOQRAFİYAŞÜNASLIQ

**Nadir İSMAYILOV**
***Biblioqrafiyaşünaslıq kafedrasının müdiri dosent, pedaqogika üzrə fəlsəfə doktoru***
**Leyla NAĞIYEVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı***

## NAXÇIVAN İQTİSADİ RAYONUNDA KİTABXANA-İNFORMASİYA RESURSLARININ YERLƏŞMƏSİ VƏZİYYƏTİ

***Açar sözlər:*** *Naxçıvan iqtisadi rayonu, kitabxana-informasiya resursları, resursların yerləşməsi və istifadəsi, elektron resurslar*

***Ключевые слова:*** *Нахчыванский экономический район, библиотечно-информационных ресурсы, размещение и использование ресурсы, электронные ресурсы*

***Key words**: Nakhchivan economical region, library-information resources, settle and usage of the resources, electron resource*

Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan keçən dövr ərzində respublikamızın siyasi, iqtisadi və sosial həyatında mühüm dəyişikliklər baş verib. Artıq ölkəmizdə dinamik iqtisadi inkişaf dövrü başlanıb. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi nəticəsində qazanılan uğurların miqyası və əhatə dairəsi son illər xüsusilə genişlənib. Ölkə başçısının imzaladığı müvafiq fərmanlarla müəyyən edilmiş sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər bu sahədə əldə edilən nailiyyətləri daha da möhkəmləndirib. Digər tərəfdən, ölkə iqtisadiyyatının inkişafının müxtəlif istiqamətlərinin vahid dövlət proqramları çərçivəsində tənzimlənməsi, iqtisadi inkişafın sürətləndirilməsi, sosial-iqtisadi inkişafda mərkəzlə yanaşı, regionların da rolunun yüksəldilməsi, iqtisadiyyatın ayrı-ayrı sahələrinin və regionların kompleks inkişafının təmin edilməsi nəticəsində əhalinin rifah halının və həyat standartlarının təkmilləşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilib.

Azərbaycan Respublikasında 10 iqtisadi rayon var. Onlardan biri də Naxçıvan iqtisadi rayonudur. Naxçıvan iqtisadi rayonu şimalda və şərqdə Ermənistan Respublikası (sərhəd xəttinin uzunluğu 246 km), qərbdə və cənubda Türkiyə (11 km) və İran İslam Respublikası (204 km)

ilə həmsərhəddir. Naxçıvan MR-in Ermənistan ilə sərhədini, əsasən, Zəngəzur və Dərələyəz silsilələrinin suayırıcıları, Türkiyə və İranla sərhədini isə Araz çayı təşkil edir. Ərazisi şimal-qərbdən cənub-şərqə doğru 158 km məsafədə uzanır.

Naxçıvan iqtisadi rayonun ərazisinin sahəsi 5,56 min $km^2$-dir. Bu da Azərbaycan Respublikası ərazisinin 6,4%-ni təşkil edir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli) bölünmüşdür. 4 şəhəri (Naxçıvan ş., Ordubad ş., Culfa ş., Şərur ş.), 9 qəsəbə, 160 kənd inzibati ərazi dairəsi var. Paytaxtı Naxçıvan şəhəridir. (13,s.95)

1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Naxçıvan MR-sı Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və onun statusu bu konstitusiya ilə müəyyən edilir.

Muxtar dövlətin özünün Konstitusiyası, Ali Məclisi, Nazirlər Kabineti və Ali Məhkəməsi vardır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 deputatdan ibarətdir.

Ümumiyyətlə, son illərdə Naxçıvan iqtisadi rayonun hərtərəfli inkişafı həyatın bütün sahələrini əhatə etdiyi kimi, elm sahəsindən də yan keçməmişdir. Dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunan elm adamları elmi fəaliyyətləri, apardıqları elmi tədqiqat işləri və əldə etdikləri elmi yeniliklər ilə Naxçıvanda elmin inkişafına, tarixin bütün mərhələlərinin elmi dərkinə və son nəticədə cəmiyyətin inkişafına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikada elm və təhsilin inkişafında kitabxanalar da mühüm rol oynayır.

Naxçıvan iqtisadi rayonunda ümumilikdə 491 (100.0%) kitabxana fəaliyyət göstərir. Bu kitabxanaların 94-ü və ya 19.1%-i şəhər yerlərində, 397-si və ya 80.9%-i kənd yerlərindədir.

İqtisadi rayonda kitabxanalarının sayına görə birinci yerdə Şərur rayonudur. Belə ki, burada 127 kitabxana oxuculara xidmət göstərir. Bu kitabxanalardan 6-sı (4.7%) şəhər yerlərində, 121-i (95.3%) isə kənd yerlərində yerləşir. Kitabxanalarının sayına görə ikinci yer Ordubad rayonunun payına düşür. Burada fəaliyyət göstərən kitabxanaların 10-u və ya 11.5%-i şəhər, 77-i və ya 88.5%-i kənd yerlərindədir. Babək rayonunda 79 (100.0%) kitabxana oxuculara xidmət işini həyata keçirir. Bu kitabxanaların 4-ü (5.1%) şəhər, 75-i (94.9%) kənd yerlərində yerləşir. Kitabxanalarının sayına görə 4-cü yerdə Culfa rayonu dayanır. Bu rayonun payına 60 (100.0%) kitabxana düşür. Digər rayonlarda olduğu kimi Culfa rayonunda da kitabxanaların böyük bir hissəsi kənd yerlərində fəaliyyət göstərir. Belə ki, kitabxanaların 9-u və ya 15.0%-i şəhər, 51-i və ya 85.0%-i kənd yerlərindədir. Şahbuz rayonunda 5-i

(9.3%) şəhər, 49-u (90.7%) kənd yerlərində olmaqla 54 (100.0%) kitabxana oxuculara xidmət göstərir. Kitabxanalarının sayına görə növbəti yeri Naxçıvan şəhəri tutur. İqtisadi rayonda fəaliyyət göstərən bütün kitabxanaların 49-u (100.0%) bu şəhərin payına düşür. Bu kitabxanaların da hamısı şəhər yerindədir. Kəngərli rayonunda 26 kitabxana oxuculara xidmət göstərir. Bu kitabxanalardan 6-sı və ya 23.1%-i şəhər, 20-si və ya 76.9%-i isə kənd yerlərində fəaliyyət göstərir. Kitabxanalarının sayına görə sonuncu yer Sədərək rayonunun payına düşür. Belə ki, bu rayonda cəmi 9 kitabxana fəaliyyət göstərir. Bu kitabxanaların da 5-i (55.6%) şəhər, 4-ü (44.4%) kənd yerlərindədir. Bütün bu deyilənləri aşağıdakı cədvəldən daha aydın görmək olar. (6, 25)

**Cədvəl 1**

| ***İqtisadi və inzibati rayonların Adı*** | ***Kitabxanaların sayı-cəmi*** | | ***o cümlədən:*** | | | | ***Yekuna görə, %-lə*** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | ***şəhər yerlərində*** | | ***kənd yerlərində*** | | | | |
| | ***ədəd*** | ***%-lə*** | ***ədəd*** | ***%-lə*** | ***ədəd*** | ***%-lə*** | ***cəmi*** | ***şəhər yer-də*** | ***kənd yer-də*** |
| *Naxçıvan iq. r.-cəmi* | *491* | *100.0* | *94* | *19.1* | *397* | *80.9* | *5.8* | *4.0* | *6.4* |
| *o cümlədən:* | | | | | | | | | |
| *Naxçıvan ş.* | *49* | *100.0* | *49* | *100.0* | *-* | *-* | *0.6* | *2.0* | *-* |
| *Babək r.* | *79* | *100.0* | *4* | *5.1* | *75* | *94.9* | *0.9* | *0.2* | *1.2* |
| *Culfa r.* | *60* | *100.0* | *9* | *15.0* | *51* | *85.0* | *0.7* | *0.4* | *0.8* |
| *Kəngərli r.* | *26* | *100.0* | *6* | *23.1* | *20* | *76.9* | *0.3* | *0.3* | *0.3* |
| *Ordubad r.* | *87* | *100.0* | *10* | *11.5* | *77* | *88.5* | *1.0* | *0.4* | *1.2* |
| *Sədərək r.* | *9* | *100.0* | *5* | *55.6* | *4* | *44.4* | *0.1* | *0.2* | *0.1* |
| *Şahbuz r.* | *54* | *100.0* | *5* | *9.3* | *49* | *90.7* | *0.6* | *0.2* | *0.8* |
| *Şərur r.* | *127* | *100.0* | *6* | *4.7* | *121* | *95.3* | *1.6* | *0.3* | *2.0* |

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 491 kitabxananın 234-ü (47.7%) Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanalardır. Belə kitabxanaların inzibati rayonlar üzrə bölgüsü müxtəlifdir.

Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanalardan 60-ı (47.2%) Şərur rayonunda yerləşir. Kütləvi kitabxanaların sayına görə ikinci yerdə Ordubad rayonu gəlir. Belə ki, bu rayonun ərazisində 47 (54.0%) kütləvi kitabxana fəaliyyət göstərir. Babək rayonunda 41 (51.9%) kütləvi kitabxana oxuculara xidmət göstərir.

Kütləvi kitabxanalarının sayına görə dördüncü yer Culfa rayonundur. Bu rayonda 30 kütləvi kitabxana oxuculara xidmət işini həyata keçirir. Şahbuz rayonu ərazisində 29 (53.7%) kütləvi kitabxana fəaliyyət göstərir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanalardan 12-si (46.2%) Kəngərli rayonunun ərazisində yerləşir. Kütləvi kitabxanaların sayına görə növbəti yerdə Naxçıvan şəhəri dayanır. Belə ki, Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən kütləvi kitabxanalardan 10-u (20.4%) bu ərazinin payına düşür. Kütləvi kitabxanalarının sayına görə sonuncu yerdə Sədərək rayonu dayanır. Bu rayon ərazisində cəmi 5 (55.6%) kütləvi kitabxana oxuculara xidmət edir.

Naxçıvan Muxtar Respublikasında cəmi 2 (0.4%) elmi kitabxana vardır. Bu kitabxanaların da hər 2-si (4.1%) Naxçıvan şəhərində yerləşir. Digər inzibati rayonların isə heç birində elmi kitabxana yoxdur. Bu da iqtisadi rayonda fəaliyyət göstərən elmi müəssisələrin məhz Naxçıvan şəhərində yerləşməsi ilə əlaqədardır. Naxçıvan iqtisadi rayonunda cəmi 3 (0.6%) ali təhsil müəssisə nəzdində fəaliyyət göstərən kitabxana mövcuddur. Yerdə qalan inzibati rayonların heç birində belə kitabxanalar fəaliyyət göstərmir. Ona görə ki, muxtar respublika ərazisində fəaliyyət göstərən ali təhsil müəssisəsinin hər 3-ü Naxçıvan şəhərində yerləşir. Muxtar respublikada cəmi 3 (0.6%) orta ixtisas təhsili müəssəsində kitabxana mövcuddur ki, bu kitabxanalar da hamısı Naxçıvan şəhərində yerləşir. Iqtisadi rayonda 3 (0.6%) ilk peşə-ixtisas təhsili müəssisəsi kitabxanası vardır. Bu kitabxanalardan 1-i (1.7%) Culfa rayonunda, 1-i (1.1%) Ordubad rayonunda, 1-i (0.8%) isə Şərur rayonunda yerləşir. Regionda mövcud olan kitabxanalardan 217-si (44.2%) ümumtəhsil məktəblərinin nəzdində fəaliyyət göstərir. Naxçıvan şəhərində 21 (42.9%), Babək rayonunda 34 (43.0%), Culfa rayonunda 27 (45.0%), Kəngərli rayonunda 12 (46.1%), Ordubad rayonunda 37 (42.6%), Sədərək rayonunda 3 (33.3%), Şahbuz rayonunda 23 (42.6%) və Şərur rayonunda 60 (47.3%) ümumtəhsil məktəb kitabxanaları vardır.

Naxçıvan MR-də 25 (5.1%) musiqi məktəbi nəzdində oxuculara xidmət göstərən kitabxana vardır. Bu kitabxanalar da inzibati rayonlar üzrə müxtəlif cür paylanmışdır. Belə ki, Naxçıvan şəhərində 6 (12.2%), Babək rayonunda 4 (5.1%), Culfa rayonunda 2 (3.3%), Kəngərli rayonunda 2 (7.7%), Ordubad rayonunda 2 (2.3%), Sədərək rayonunda 1 (11.1%), Şahbuz rayonunda 2 (3.7%), Şərur rayonunda 6 (4.7%) belə kitabxana fəaliyyət göstərir. Naxçıvan şəhəri istisna olmaqla muxtar respublikanın tərkibinə daxil olan inzibati rayonların heç birində səhiyyə müəssisəsi kitabxanası yoxdur. Iqtisadi rayonda cəmi 2 (0.4%) səhiyyə müəssisəsi kitabxanası vardır ki, bunların da hər ikisi Naxçıvan şəhərində

yerləşir. Naxçıvan iqtisadi rayonunun kitabxanaları ölkə kitabxana resurslarıın 5,8%-ni təşkil edir. Kitabxanaların ümumi informasiya resursları 4696103 nüsxə təşkil edir. Bu resursların 50.2%-i şəhər yerlərində, 49.8%-i isə kənd yaşayış məntəqələrində yerləşir. Şəhər yerlərində toplanmış informasiya resursları ölkənin şəhər informasiya resurslarının 2.9%-i, kənd yaşayış məskənlərinin informasiya resursları isə müvafiq olaraq 7.7%-i təşkil edir.

İqtisadi rayonda kitabxana informasiya resurslarının inzibati rayonlar üzrə bölgüsü aşağıdakı kimidir:

**Cədvəl 3**

| *Iqtisadi və inzibati rayonalrı adı* | *Kitabxana fondu-cəmi* | | *o cümlədən:* | | | | *Yekuna görə,%-lə* | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | *şəhər yerlərində* | | *Kənd yerlərində* | | | | |
| | *nüsxə* | *%-lə* | *Nüsxə* | *%-lə* | *nüsxə* | *%-lə* | *Cəmi* | *Şəhərində* | *Kənd yerində* |
| *Naxçıvan iq.ray-cəmi* | *4696103* | *100.0* | *2358133* | *50.2* | *2337970* | *49.8* | *4.2* | *2.9* | *7.7* |
| *Naxçıvan ş* | *1237019* | *100.0* | *1237019* | *100.0* | - | - | *1.1* | *1.5* | - |
| *Babək r.* | *583849* | *100.0* | *167148* | *28.6* | *416701* | *71.4* | *0.5* | *0.2* | *1.4* |
| *Culfa r.* | *475405* | *100.0* | *139272* | *29.3* | *336133* | *70.7* | *0.4* | *0.2* | *1.0* |
| *Kəngərli r.* | *171639* | *100.0* | *63775* | *37.2* | *107864* | *62.8* | *0.2* | *0.1* | *0.4* |
| *Ordubad r.* | *928607* | *100.0* | *343067* | *36.9* | *585540* | *63.1* | *0.8* | *0.4* | *1.9* |
| *Sədərək r.* | *42789* | *100.0* | *23528* | *55.0* | *19261* | *45.0* | *0.0* | *0.0* | *0.1* |
| *Şahbuz r.* | *404182* | *100.0* | *137490* | *34.0* | *266692* | *66.0* | *0.4* | *0.2* | *0.9* |
| *Şərur r.* | *852613* | *100.0* | *246834* | *29.0* | *605779* | *71.0* | *0.8* | *0.3* | *2.0* |

Yuxarıda da deyildiyi kimi muxtar respublika üzrə kitabxanaların ümumi informasiya resursları 4696103 nüsxə təşkil edir. Bu resurslardan 4569001 (97.3) nüsxəsi kitab, 928 nüsxəsi elektron informasiya daşıyıcısı, 34171 (0.7%) nüsxəsi jurnal, 55246 (1.2%) nüsxəsi qəzet, 36757 (0.8%) nüsxəsi isə digər materiallardır. Naxçıvan şəhərində kitabxanaların ümumi informasiya resurları 1237019 (100.0%) nüsxə təşkil edir. Bunlardan 1171960 (94.6%) nüsxəsi kitab, 742 (0.1%) nüsxəsi elektron informasiya daşıyıcıları, 31607 (2.6%) nüsxəsi jurnal, 28095 (2.3%) nüsxəsi qəzet, 4615 (0.4%) nüsxəsi isə digər materiallardan ibarətdir. Babək rayonunda kitabxana fondlarının ümumi həcmi 583849 (100.0%) nüsxə təşkil edir. Bu informasiya resurslarının 559706 (95.9%) nüsxəsi kitab, 21 (0.0%) nüsxəsi elektron informasiya daşıyıcısı, 260 (0.0%) nüsxəsi jurnal, 15355 (2.6%) nüsxəsi qəzet, 8507

(1.5%) nüxəsi isə digər materiallardır. Culfa rayonunda olan kitabxana-informasiya resurslarından kitablar 461534 (97.1%) nüsxə, elektron informasiya daşıyıcıları 18 (0.0%) nüsxə, jurnallar 209 (0.0%) nüsxə, qəzetlər 5169 (1.1%) nüsxə, digər materiallar isə 8475 (1.8%) nüsxə təşkil edir. Kəngərli rayon kitabxana-informasiya resuslarının ümumi həcmi 171639 nüsxədir. Bunların da 166059 (96.8%) nüsxəsi kitab, 23 (0.0%) nüsxəsi elektron informasiya daşıyıcısı, 250 (0.1%) nüsxəsi jurnal, 1730 (1.0%) nüsxəsi qəzet, 3577 (2.1%) nüsxəsi digər materiallardan ibarətdir. Ordubad rayonunun kitabxana-informasiya resurslarından 922210 (99.3%) nüsxə kitab, 12 (0.0%) nüsxə elektron informasiya daşıyıcısı, 805 (0.1%) nüsxə jurnal, 1250 (0.1%) nüsxə qəzet, 4330 (0.5%) nüsxə isə digər materiallar təşkil edir. Şahbuz rayonunda kitabxana fondlarının ümumi həcmi 404182 (100.0%) nüsxədən ibarətdir. Bu resursların da 397438 (98.4%) nüsxəsi kitab, 46 (0.0%) nüsxəsi elektron informasiya daşıyıcısı, 298 (0.1%) nüsxəsi jurnal, 3404 (0.8%) nüsxəsi qəzet, 2996 (0.1%) nüsxəsi digər materiallardır. Şərur rayonu kitabxana-informasiya resurslarının 848120 (99.5%) nüsxəsini kitab, 58 (0.0%) nüsxəsini elektron informasiya daşıyıcısı, 660 (0.1%) nüsxəsini jurnal, 212 (0.0%) nüsxəsini qəzet, 3563 (0.1%) nüsxəsini isə digər materiallar təşkil edir. Kitabxana-informasiya resurslarının həcminə görə Sədərək rayonu sonuncu yerdə dayanır. Belə ki, burada kitabxanaların ümumi informasiya resursları 42789 (100.0%) nüsxə təşkil edir. Bunların 41974 (98.1%) nüsxəsi kitab, 8 (0.0%) nüsxəsi elektron informasiya daşıyıcısı, 82 (0.2%) nüsxəsi jurnal, 31 (0.1%) nüsxəsi qəzet, 694 (1.1%) nüsxəsi digər materiallardır (6, s.53). Deyilənləri aşağıdakı kimi ümumiləşdirmək olar:

**Cədvəl 4**

| *Iqtisadi və inzibati ray-ın adı* | *Kitabxana fondu-cəmi* | | *O cümlədən:* | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | *kitablar* | | *Elektron inf.daşıyıcıları* | | *Jurnallar* | | *qəzetlər* | | *digər materiallar* | |
| | *nüsxə* | *%* | *nüsxə* | *%* | *nüsxə* | *%* | *Nüsxə* | *%* | *nüsxə* | *%* | *nüsxə* | *%* |
| *Naxçıvan iq.ray-cəmi* | *4696103* | *100.0* | *4569001* | *97.3* | *928* | *0.0* | *34171* | *0.7* | *55246* | *1.2* | *36757* | *0.8* |
| *Naxçıvan* | *1237019* | *100.0* | *1171960* | *94.6* | *742* | *0.1* | *31607* | *2.6* | *28095* | *2.3* | *4615* | *0.4* |
| *Babək r.* | *583849* | *100.0* | *559706* | *95.9* | *21* | *0.0* | *260* | *0.0* | *15355* | *2.6* | *8507* | *1.5* |
| *Culfa r.* | *475405* | *100.0* | *461534* | *97.1* | *18* | *0.0* | *209* | *0.0* | *5169* | *1.1* | *8475* | *1.8* |
| *Kəngərli r.* | *171639* | *100.0* | *166059* | *96.8* | *23* | *0.0* | *250* | *0.1* | *1730* | *1.0* | *3577* | *2.1* |
| *Ordubad* | *928607* | *100.0* | *922210* | *99.3* | *12* | *0.0* | *805* | *0.1* | *1250* | *0.1* | *4330* | *0.5* |
| *Sədərək r.* | *42789* | *100.0* | *41974* | *98.1* | *8* | *0.0* | *82* | *0.2* | *31* | *0.1* | *694* | *1.1* |
| *Şahbuz r.* | *404182* | *100.0* | *397438* | *98.4* | *46* | *0.0* | *298* | *0.1* | *3404* | *0.8* | *2996* | *0.1* |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Şərur r.* | *852613* | *100.0* | *848120* | *99.5* | *58* | *0.0* | *660* | *0.1* | *212* | *0.0* | *3563* | *0.1* |

Aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, hazırda ölkə əhalisinin 13%-i müntəzəm olaraq kompüter texnologiyasından istifadə edir. Bundan əlavə, gözlənildiyi kimi, paytaxtda (16%) kompüterdən istifadə səviyyəsi regionlardakından (9%) yüksəkdir. İnsanların beynəlxalq informasiya şəbəkəsinə daim artmaqda olan marağı digər iqtisadi regionlarda olduğu kimi Naxçıvan Muxtar Respublikasından da yan keçmir. Iqtisadi rayonda fəaliyyət göstərən kitabxanalarda ümumilikdə 75 (100%) kompüter vardır. Bunlardan 25-i (33%) istifadəçilər, 50-si (66.7%) isə kitabxana işçiləri üçün nəzərdə tutlmuşdur. Bu kompüterlərdən cəmi 11-nin (14.7%) internetə çıxışı vardır. Kitabxanaların kompüterlə təminatı inzibati rayonlar üzrə müxtəlif cür paylanmışdır. Belə ki, Naxçıvan şəhərində fəaliyyət göstərən kitabxanalarda 21 kompüter istifadə olunur. Bunlarında 11-i (52.4%) istifadəçilər, 10-u (47.6%) isə kitabxana işçiləri üçün nəzərdə tutulmuşdur. Bu kitabxanaların cəmi 11-nin (52.4%) internetə çıxışı vardır. Babək rayonunun kitabxanalarında 13 kompüter istifadə olunur ki, bunların da 2-si (15.4%) istifadəçiləri, 11-i (84.6%) isə kitabxana işçiləri üçün nəzərdə tutulmuşdur. Kompüterlə təminat baxımından növbəti yer Culfa rayonunun kitabxanalarının payına düşür. Belə ki, bu rayon ərazisində fəaliyyət göstərən kitabxanalarda cəmi 12 kompüter vardır. Bu kompüterlərin də 3-ü (25.0%) kitabxana istifadəçilərinin, 9-u (75.0%) isə işçilərin istifadəsinə verilmişdir. Kəngərli rayon kitabxanalarında cəmi 6 kompüter istifadə olunur. Bunlardan da yalnız 1 (16.7%) kompüter istifadəçilər üçün nəzərdə tutulmuşdur. Təbii ki, bu çox aşağı göstəricidir. Yerdə qalan 5 (83.3%) kompüter isə kitabxana işçilərinin istifadəsindədir. Ordubad rayonunda 2-si (28.6%) istifadəçilər, 5-i (71.4%) isə kitabxana işçiləri üçün nəzərdə tutulmuş 7 kompüter vardır. Kompüterlə təminat baxımından ən aşağı göstərici Sədərək rayonundadır. Belə ki, burada fəaliyyət göstərən kitabxanalarda cəmi 2 kompüter istifadə olunur. Bunların da 1-i (50.0%) istifadəçilər, digəri isə işçilər üçün nəzərdə tutulmuşdur. Şahbuz rayonunda kitabxanalarda 9 kompüter mövcuddur. Bu kompüterlərin 2-si (22.2%) kitabxana istifadəçilərinin, 7-si (77.8%) isə işçilərin istifadəsindədir. 3-ü (60.0%) istifadəçilər, 2-si isə (40.0%) kitabxana işçiləri üçün nzərdə tutulmuş 5 kompüter isə Şərur rayonu kitabxanalarının payına düşür. Qeyd etmək lazımdır ki, Naxçıvan şəhəri istisna olmaqla heç bir inzibati rayon kitabxanasında istifadə olunan kompüterlərin internetə çıxışı yoxdur (6, s.65).

**Cədvəl 5**

| *Iqtisadi və inzibati ray-ın adı* | *Kompüterlərin (fərdi,noutbuk və s.) sayı-cəmi* | | *onlardan:* | | | | | | *Yekuna görə, %-lə* | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | *istf-çilər üçün* | | *kx işçiləri üçün* | | *internetə çıxışı olan* | | *cəmi* | *istf-çilər üçün* | *kx işçiləri üçün* | *Int-ə çıxışı olan* |
| | *ədəd* | *%* | *ədəd* | *%* | *ədəd* | *%* | *ədəd* | *%* | | | | |
| *Naxçıvan iq.ray-cəmi* | *75* | *100.0* | *25* | *33.3* | *50* | *66.7* | *11* | *14.7* | *4.4* | *2.6* | *6.8* | *1.6* |
| *Naxçıvan ş* | *21* | *100.0* | *11* | *52.4* | *10* | *47.6* | *11* | *52.4* | *1.2* | *1.2* | *1.4* | *1.6* |
| *Babək r.* | *13* | *100.0* | *2* | *15.4* | *11* | *84.6* | *-* | *-* | *0.8* | *0.2* | *1.5* | *-* |
| *Culfa r.* | *12* | *100.0* | *3* | *25.0* | *9* | *75.0* | *-* | *-* | *0.7* | *0.3* | *1.2* | *-* |
| *Kəngərli r.* | *6* | *100.0* | *1* | *16.7* | *5* | *83.3* | *-* | *-* | *0.4* | *0.1* | *0.7* | *-* |
| *Ordubad r.* | *7* | *100.0* | *2* | *28.6* | *5* | *71.4* | *-* | *-* | *0.4* | *0.2* | *0.7* | *-* |
| *Sədərək r.* | *2* | *100.0* | *1* | *50.0* | *1* | *50.0* | *-* | *-* | *0.1* | *0.1* | *0.1* | *-* |
| *Şahbuz r.* | *9* | *100.0* | *2* | *22.2* | *7* | *77.8* | *-* | *-* | *0.5* | *0.2* | *0.9* | *-* |
| *Şərur r.* | *5* | *100.0* | *3* | *60.0* | *2* | *40.0* | *-* | *-* | *0.3* | *0.3* | *0.3* | *-* |

Yuxarıda da qeyd etdiyimiz kimi Naxçıvan iqtisadi rayonunda cəmi 491 kitabxana fəaliyyət göstərir. Naxçıvan MR-da fəaliyyət göstərən kitabxanalarda cəmi 2 (0.4%) elektron kataloq və 2 (0.4%) elektron poçt mövcuddur. Iqtisadi rayon üzrə kitabxanalarda mövcud olan elektron kataloq ölkə üzrə kitabxanalarda mövcud olan elektron kataloqun 6.7%-ni, iqtisadi rayon üzrə kitabxanalarda mövcud olan elektron poçt isə ölkə üzrə kitabxanalarda mövcud olan elektron poçtun 2.3%-ni təşkil edir. Kitabxanalarda mövcud olan elektron kataloq və elektron poçtun hamısı Naxçıvan şəhərinin payına düşür. Təəssüflə qeyd etməliyik ki, Naxçıvan şəhəri istisna olmaqla heç bir inzibati rayon kitabxanasında elektron kataloq və elektron poçt yoxdur (6, s.71). Bütün bu deyilənləri aşağıdakı cədvəldən aydın görmək olar:

**Cədvəl 6**

| *Iqtisadi və inzibati ray-ın adı* | *Kitabxanaların sayı-cəmi* | | *Onlarda mövcuddur:* | | | | *Yekuna görə,%-lə* | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | *elektron kataloq* | | *elektron poçt* | | *cəmi* | *elektron kataloq* | *elektron poçt* |
| | *ədəd* | *%-lə* | *ədəd* | *%-lə* | *ədəd* | *%-lə* | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| *Naxçıvan iq.ray-cəmi* | *491* | *100.0* | *2* | *0.4* | *2* | *0.4* | *5.8* | *6.7* | *2.3* |
| *Naxçıvan ş* | *49* | *100.0* | *2* | *4.1* | *2* | *4.1* | *0.6* | *6.7* | *2.3* |
| *Babək r.* | *79* | *100.0* | - | - | - | - | *0.9* | - | - |
| *Culfa r.* | *60* | *100.0* | - | - | - | - | *0.7* | - | - |
| *Kəngərli r.* | *26* | *100.0* | - | - | - | - | *0.3* | - | - |
| *Ordubad r.* | *87* | *100.0* | - | - | - | - | *1.0* | - | - |
| *Sədərək r.* | *9* | *100.0* | - | - | - | - | *0.1* | - | - |
| *Şahbuz r.* | *54* | *100.0* | - | - | - | - | *0.6* | - | - |
| *Şərur r.* | *127* | *100.0* | - | - | - | - | *1.5* | - | - |

Məlumdur ki, kitabxana-informasiya resurslarının formalaşdırılması, müvafiq informasiya axtarış sistemlərinin təşkili, oxuculara xidmətin səmərəliliyi, informasiya mənbələrindən istifadənin fəallaşdırılması bilavasitə kitabxana-informasiya resurslarının əsas komponenti olan kitabxanaçı-biblioqraf kadrlarla təminat vəziyyətindən, həmin kadrların təhsil səviyyəsi, peşəkarlığı, təcrübəsi və s. amillərdən asılıdır.

Bu baxımdan Naxçıvan iqtisadi rayonunda müvcud olan kitabxana-informasiya orqanlarının kadr təminatı və onların təhsil səviyyəsi haqqında aşağıdakı cədvəl aydın təssəvür yaradır.

**Cədvəl 7**

| ***Iqtisadi və inzibati ray-ın adı*** | ***Ştatda olan mütəxəssislərin sayı (müdir də daxil olmaqla)-cəmi*** | | ***o cümlədən təhsil səviyyəsinə görə:*** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | ***Kitabxana üzrə ali*** | | ***qeyri-kitabxana üzrə ali*** | | ***kitabxana üzrə orta ixtisas*** | | ***qeyri-kitabxana üzrə orta ixtisas*** | | ***ümumi orta*** | |
| | ***nəfər*** | ***%*** | ***nəfər*** | ***%*** | ***nəfər*** | ***%*** | ***nəfər*** | ***%*** | ***nəfər*** | ***%*** | ***nəfər*** | ***%*** |
| *Naxçıvan iq.ray-cəmi* | *691* | *100.0* | *33* | *4.8* | *72* | *10.4* | *70* | *10.1* | *68* | *9.8* | *448* | *64.9* |
| *Naxçıvan ş* | *39* | *100.0* | *3* | *7.7* | *6* | *15.4* | *7* | *17.9* | *11* | *28.2* | *12* | *30.8* |
| *Babək r.* | *111* | *100.0* | *6* | *5.4* | *8* | *7.2* | *7* | *6.3* | *9* | *8.1* | *81* | *73.0* |
| *Culfa r.* | *86* | *100.0* | *1* | *1.2* | *9* | *10.5* | *3* | *3.5* | *8* | *9.3* | *65* | *75.5* |
| *Kəngərli r.* | *44* | *100.0* | *3* | *6.8* | *3* | *6.8* | *6* | *13.6* | *3* | *6.8* | *29* | *66.0* |
| *Ordubad r.* | *114* | *100.0* | *5* | *4.4* | *7* | *6.1* | *24* | *21.1* | *11* | *9.6* | *67* | *58.8* |
| *Sədərək r.* | *42* | *100.0* | *1* | *2.4* | *2* | *4.8* | *1* | *2.4* | *2* | *4.8* | *36* | *85.6* |
| *Şahbuz r.* | *89* | *100.0* | *4* | *4.5* | *12* | *13.5* | *3* | *3.4* | *9* | *10.1* | *61* | *68.5* |
| *Şərur r.* | *166* | *100.0* | *10* | *6.0* | *25* | *15.1* | *19* | *11.4* | *15* | *9.0* | *97* | *58.5* |

Cədvəldən göründüyü kimi iqtisadi rayon üzrə kitabxana mütəxxəsislərinin 33%-i ali ixtisas təhsilli, 10.1%-i isə orta ixtisas təhsili kadrlarının ibarətdir. Kitabxanalarda işləyən işçilərinin 10.4 %-i ali qeyri ixtisas təhsilli, 9.8%-i isə orta qeyri ixtisaslı kadrlardır. Bu da

ümumilikdə 20.2 %-təşkil edir. Kitabxana işçilərinin 64.9 %-i isə orta təhsillilərdən ibarətdir ki, bu da ölkə üzrə olan göstəricilərdən 2 dəfə yüksəkdir. Bu vəziyyəti Sədərək rayonunda (86.6%), Culfa rayonunda (75.5%) və Babək rayonunda (73.0%) daha kəskin şəkildə özünü göstərir. Lakin ali ixtisas təhsilli mütəxəsislərin xüsusi çəkisinin ölkə üzrə olan göstəricidən (18.1%) yüksək olmasını da (33%) xüsusi qeyd etmək lazımdır.Orta ixtisaslı kadrların təhsil səviyyəsinə baxdıqda məlum olur ki, bu kateqoriyadan olanlar ümumi işçilərin yalnız 10.1 %-i təşkil edir ki, bu rəqəm ölkə üzrə 20 %-dir. Aparılan araşdırmalar göstərir ki, iqtisadi rayonun kitabxanaçı-biblioqraf kadrların 7 (11.1%-i) şəhərlərdə, 614 nəfəri isə (88.9%) kənd yaşayış məntəqələrində fəaliyyət göstərən kitabxana resurslarını idarə edir və oxuculara informasiya xidmətini göstərirlər. Şəhər yerlərində fəaliyyət göstərən kitabxana işçilərinin 26%-i ali və orta ixtisas təhsilli, kənd yerlərində işləyənlərin 73%-i bu kateqoriyadan olan mütəxəssislərdir (6, s.77).

Orta ixtisaslı kadrların xüsusi çəkisi iqtisadi rayon üzrə olan göstəricidən (64.9 %) xeyli yüksəkdir (69.6%).

İqtisadi rayonda Naxçıvan Dövlət Universitetində Kitabxanaçılıq şöbəsinin fəaliyyət göstərməsini nəzərə alsaq həmin şöbədə əlavə təhsil yolu ilə qeyri-ixtisas ali təhsilli kitabxana işçilərinin ixtisas üzrə təhsil almaları sistemini yaratmaq yolu ilə bu sahədə olan vəziyyəti daha da yaxşılaşdırmaq olar. Eyni zamanda regionda fəaliyyət göstərən kollec və texnikumlarda müstəqil kitabxanaçılıq şöbələri yaratmaq yolu ilə qeyri-orta ixtisas təhsilli kadrları əlavə təhsil yolu ilə ora cəlb etməklə daha səmərəli həll etmək olar.

## ƏDƏBİYYAT


1. *Azərbaycan kitabxanaları XXI əsrn informasiya məkanında. I və II c.- Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.-Bakı: Nurlar, 2007.-820s.*

1. *«Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafı Dövlət Proqramı (2004- 2008-ci illər)» // Azərbaycan.- 2004.- 11 fevral.*

2. *«Azərbaycan Respublikası regionlarının 2009- 2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı».-Bakı: Nurlar, 2009.-184s.*

3. *«Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal.-2008.№ 2.-s.6-29.*

*4. «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında».Azərbaycan Respublikası Prezidentinin sərəncamı //Azərbaycan.-2007.-21 aprel.*

*5. «Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı.-2009.-88s.*

*6. Əliyev.Z.H. Müasir biblioqrafik fəaliyyətin təşkili, inkişafı və tətbiqi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal.-2009.-№ 1.- s. 91-98.*

*7. Xələfov.A.A. Kitabxanaşünaslığa giriş:Dərslik (3 hissədə).-H.3.-B., 2003.- 314s.*

*8. İsmayılov.X.İ. İsmayılov.N.İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: Ali məktəblərarası elmi məqalələr məcmuəsi.-Bur.7.-Bakı: Mütərcim, 2007.-s.318-320.*

*9. İsmayılov.N.İ. Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatlarının yerləşməsi və istifadəsinin bəzi məsələləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal.- B.:BUN,1999,-№1, s. 94-100.*

*10. İsmayılov.N.İ. Azərbaycanın kitabxana- biblioqrafiya ehtiyatı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal.-B.: BUN, 1998.-№2,-s. 81-89.*

*11. Məmmədov.Z.S. Regionların iqtisadi inkişaf problemləri.-B.: Elm,2007.-465s.*

*12. Naxçıvan ensiklopediyası.II c.-də.- B., 2007.- II c.-s.95*

**Н.ИСМАИЛОВ**
**Л.НАГИЕВА**

## СОСТОЯНИЯ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В НАХЧЫВАНСКОЙ ЭКОНОМИЧЕСКОГО РЕГИОНА

## РЕЗЮМЕ

В статье исследованы ситуации библиотечно-информационные ресурсы расположения в Нахчыванский экономической регионе. Экономической области, о чем сообщается отдельно по каждому из библиотеки. Затронули новая информационно-коммуникационных технологий в библиотеках.

**N.İSMAILOV**
**L .NAGIYEVA**

## THE SITUATION OF THE LIBRARY-INFORMATION RESOURCES IN THE NAKHCHIVAN ECONOMICAL REGION

**SUMMARY**

In the article the situation of the library-information resources in the Nakhchivan economical region is investigated. Information is given about each library entering economical region. It is touched to applied problem of new information communication technologies in these libraries.

**Xuraman AĞAYEVA**
***fəlsəfə doktoru***

# TƏHSİLİN İNFORMASİYA TƏMİNATINDA TÖVSİYƏ BİBLİOQRAFİK VƏSAİTLƏRİN ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *pedaqoji biblioqrafiya, tövsiyə biblioqrafiyası, biblioqrafik vəsait, biblioqrafik informasiya təminatı, uşaq ədəbiyyatının biblioqrafiyası.*

***Ключевые слова:*** *педагогическая библиография, рекомендательная библиография, библиографическое пособие, библиографиическое информационное обеспечение, библиография детской литературы.*

***Keywords:*** *Pedagogical bibliography, Recommendation bibliog.raphy, Bibliographic means, provide for bibliographic information, Bibliography of the child literature.*

Azərbaycanda təhsilin biblioqrafik informasiya təminatında sahə üzrə tərtib olunmuş tövsiyə biblioqrafik vəsaitlər sistemi mühüm rol oynayır. Biblioqrafiyanın mühüm qollarından birini təşkil edən tövsiyə biblioqrafiyası insanların təhsil, şəxsi təhsil, təlim, mənəvi əxlaqisi tərbiyə kimi mühüm bir işə xidmət edir. Respublikamızda da təhsil sahəsi üzrə tövsiyə biblioqrafiyası nümunələrinə rast gəlmək olar.

XX əsrin 20-30-cu illərində respublikamızda pedaqoji sahə üzrə tövsiyə biblioqrafiyası dövrün tələblərinə cavab verəcək səviyyədə deyildi. Müxtəlif bilik səviyyəli geniş oxucu kütləsi və xüsusilə ayr-ayrı peşələrlə məşğul olan insanların biblioqrafik informasiya tələbatını ödəyəcək tövsiyə vəsaitləri azlıq təşkil edirdi.

XX əsrin 40-cı illərin əvvəllərində bir sıra biblioqrafik göstəricilər meydana gəlmişdi. «Uşaq ədəbiyyatı: İbtidai məktəblər üçün annotasiyalı kitab kataloqu (tərt.ed.: X.Abdullayeva) (1940) [9] adlanan göstərici Elmi-Tədqiqat Məktəblər İnstitutu tərəfindən çap olunmuşdur. Müəllimlərə, kitabxana, işçilərinə və həm də valideynlərə uşaqların məktəbdənkənar mütaliəsinə rəhbərlik məqsədi güdən ilk tövsiyə vəsaiti kimi diqqəti cəlb edən bu biblioqrafik göstərici Azərbaycanda tövsiyə biblioqrafiyasının inkişafı tarixində mühüm yer tutur. Göstəricinin giriş hissəsində düzgün olaraq qeyd edilir ki, «ancaq uşaq kitabı nəşr etmək azdır, bu kitabları məktəblilərə çatdırmaq, onların malı etmək lazımıdır. Bunun üçün sinifdən xaric oxunu düzgün təşkil etmək, uşaqların kitaba olan maraqlarını, bu sahədəki tələblərini öyrənmək, mümkün qədər bu tələblərin yerinə yetirilməsinə çalışmaq lazımdır [9, 3].

Göstəricidə cəmi 32 adda əsər əhatə olunmuşdur. Onların çox məhdud olan biblioqrafik təsvirləri qısa və uşaqların başa düşdükləri dildə yazılmış annotasiya ilə müşaiyyət olunur.

Vəsaitin daxilində biblioqrafik təsvirlərin düzülüşündəki qeyri-ardıcıllıq onun mütaliəyə rəhbərlik vəsaiti kimi roluna mənfi təsir göstərir. Doğrudur, annotasiyalardan sonra məlum kitabın necənci sinif şagirdi üçün nəzərdə tutulduğu qeyd olunur. Uşaqların mütaliəsinə rəhbərlik məqsədilə tərtib olunan bu tövsiyə vəsaiti respublikanın biblioqrafik informasiya ehtiyatlars sistemində vacib yer tutut.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında hazırlanmış "Ailədə və məktəbdə kommunist tərbiyəsi: Müxtəsər biblioqrafik yaddaş (1953) (tərt ed.: M.Nəcəfova, V.Sitoviç), "Ailədə və məktəbdə tərbiyə: Qısa biblioqrafik yaddaş (Tərt ed.: M.Kazımova) (1954) [2] tövsiyə vəsaitləri də əhəmiyyətlidir. Hər iki vəsait sovet dövrünün məhsuludur və ona məxsus ideoloji çərçivədən kənara çıxa bilməmişdir. Ona görə də haqqında bəhs olunan tövsiyə xarakteril biblioqrafik vəsaitlər müasirlik baxımdan öz aktuallığını bir qədər itirmiş hesab edilə bilər. Lakin Azərbaycan biblioqrafiyası tarixində onlar danılmaz faktlardır və həm də biblioqrafiyaşünaslıq baxımından bəzi əhəmiyyətli cəhətlərə malikdirlər. Həmin vəsaitlərdə xüsusilə biblioqrafiyalaşdırma metodikası üçün indi də əhəmiyyətli ola biləcək üsullar özünü göstərir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) və onun Elmi Kitabxanasının pedaqoji sahə üzrə biblioqrafik fəaliyyəti təqdirəlayiqdir. ADPU təhsil sisteminin ayrı-ayrı sahələrində çalışan pedaqoji işçilərə kömək məqsədilə dərsliklərin, dərs vəsaitlərinin, metodik ədəbiyyatın, proqramların hazırlanıb çap edilməsində böyük işlər görmüşdür. ADPU-nun Elmi Kitabxanasının əməkdaşı Ş.Hüseynova 1938-1962-ci illərdə universitetin qiyabi şöbəsi tərəfindən çap edilmiş vəsaitləri toplamış və həmin vəsaitlər əsasında «Azərbaycan Dövlət Pedaqoji İnstitutun qiyabi şöbə üzrə vəsait nəşrinin sistemli göstəricisi» (1938-1962) [3] adlı mülahizəli tövsiyə ədəbiyyat göstəricisi tərtib etmişdir və göstərici 1963-cü ildə ADPU-nun nəşriyyatında çap olunmuşdur.

Göstəricinin pedaqoji sahənin biblioqrafik informasiya təminatında əsas əhəmiyyəti ondan ibarətdir ki, geniş bir dövr üzrə qiyabi təhsil alan tələbələr üçün çap olunmuş vəsaitlər haqqında biblioqrafik informasiyanı bu göstərici vasitəsilə əldə etmək olar. Digər əhəmiyyətli cəhəti odur ki, pedaqoji sahənin informasiya istifadəçiləri göstərici vasitəsilə ADPU-də tədris ədəbiyyatının yaranması tarixi, nəşr tarixini, 1938-1962-ci illərdə universitetin nəşriyyatçılıq fəaliyyəti haqqında informasiya əldə edə bilərlər.

Göstəricidə verilən bölmələr, ədəbiyyatın qruplaşdırılması sahə mütəxəssislərinin pedaqogikanın müxtəlif sahələrinə dair sorğuların ödənilməsində mühüm əhəmiyyət kəsb edir. Göstəricinin birinci əsas bölməsi «Pedaqogika» adlanır. Pedaqogika fənni məlum olduğu kimi Azərbaycan Dövlət Xarici Dillər Universitetində, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Slavyan Universitetində, ümumiyyətlə pedaqoji kadr hazırlayan bütün ali məktəblərdə tədris olunur. Biblioqrafik göstəricinin «Pedaqogika» bölməsi bu fənnə aid qiyabiçi tələbələr üçün pedaqoji universitetin çap etdirdiyi kitablar haqqında tam məlumat əldə etmələrinə kömək edir. Bu bölmədə pedaqogika üzrə həm orijinal və həm də tərcümə nəşrlərinin biblioqrafik təsviri verilmişdir.

Biblioqrafik göstəricinin digər altbölməsi «Məktəb gigiyenası» adlanır. Məlum olduğu kimi, universitetdə «Məktəb gigiyenası» xüsusi bir fənn kimi tədris olunur. Bu fənni tədris edən müəllimlər və onu öyrənən tələbələr bu sahədə çap olunmuş kitabları və başqa metodiki ədəbiyyatı öyrənməli olurlar. Göstəricinin müəllifi bu sahədə mütəxəssislərə kömək məqsədilə xüsusi bir bölmə – «Məktəb gigiyenası» adlı altbölmə verməklə bu fənnə dair çap olunmuş kitabların biblioqrafik təsvirini əks edirmişdir. Göstəricinin birinci bölməsində olduğu kimi burada da tərcümə və orijinal nəşrlər öz əksini tapır.

Sahə mütəxəssisləri üçün daha əhəmiyyətli olan bölmələrdən biri də «Pedaqogika tarixi» adlanır. Bu bölmənin pedaqogika fənninin tarixini öyrənənlərə kömək məqsədilə mühüm əhəmiyyəti vardır. Bu fənni tədris edən müəllimlər və tələbələr 1962-ci ilə qədər Azərbaycanda pedaqogika tarixinə dair dərc olunmuş mənbələr haqqında bu bölmədən biblioqrafik informasiya ala bilərlər. Göstəricinin müəllifi sahə mütəxəssislərinə kömək məqsədilə pedaqogika tarixinə dair universitet tərəfindən çap olunmuş materialları bu bölmə daxilində əlifba qaydası ilə yerləşdirmişdir.

Məktəbəqədər tərbiyə müəssisələrin işçiləri də pedaqoji ədəbiyyatın əsas oxucularından biri hesab olunur. Məktəbəqədər tərbiyə həmçinin universitetin müvafiq fakültələrində tədris olunan xüsusi fənn hesab olunur. Bu fənnə aid çap olunmuş sənədlər fənni tədris edən müəllimlər, tələbələr və həm də məktəbəqədər tərbiyə müəssisələrində çalışan işçilər üçün əhəmiyyətlidir. Bu sahənin mütəxəssislərinin biblioqrafik informasiya tələbatını ödəmək üçün göstəricinin müəllifi «Məktəbəqədər tərbiyə» adlı xüsusi bölmə vermişdir. Pedaqoji universitet tərəfindən məktəbəqədər tərbiyə məsələlərinə aid çap olunmuş tədris ədəbiyyatı bu bölmədə öz əksini tapır.

Göstəricidə verilmiş ayrı-ayrı bölmələrin mövzularından göründüyü kimi universitet tərəfindən çap edilmiş bu göstərici pedaqoji sahənin biblioqrafik informasiya təminatında mühüm əhəmiyyət kəsb

edir. Göstəricinin tərtibi metodikası, bölmələrin verilməsi, bölmələr üzrə ədəbiyyatın sistemləşdirilməsi biblioqrafiyalaşdırmanın metodikası nöqteyi-nəzərindən düzgündür. Hər bölmə daxilində dərsliklər, dərs vəsaitləri, proqramlar, metodik vəsaitlər əlifba qaydası ilə sistemləşdirilmişdir. Biblioqrafik göstəricinin bölmələri daxilində materialların əlifba prinsipi ilə sistemləşdirilməsi ilkin sənədlərin nəşr tarixini öyrənmək baxımından çətinlik törədir. Biblioqrafik göstəricinin çapa hazırlanmasında ADPU-nun Elmi Kitabxanasının xüsusi rolu vardır. Biblioqrafik göstəricinin çap olunduğu il Azərbaycan biblioqrafiyasının inkişafının ilk dövrləri hesab olunur. Pedaqoji Universitetin Elmi Kitabxanasının bu sahədə fəaliyyəti milli biblioqrafiyanın inkişafı tarixində ilk uğurlu addım kimi гейд етмяк olar.

Qeyd olunduğu kimi, biblioqrafik vəsait tərtib olunarkən biblioqrafiyaşünaslığın metodiki əsasları nəzərə alınmış və vəsaitin məlumat aparatı düzgün tərtib olunmuşdur. "Müəlliflərin və müəllifsiz əsərlərin adlar göstəricisi" adlanan köməkçi aparatı tərtib etməkdə tərtibçinin əsas məqsədi vəsaitdən istifadəni asanlaşdırmaq, biblioqrafik axtarışı düzgün təşkil etmək və vaxt itkisinə yol verməmək olmuşdur.

F.B.Köçərli adına Respublika Uşaq Kitabxanası da uşaqlar üçün müxtəlif tövsiyə vəsaitləri nəşr etdirmişdir. Kitabxana tövsiyə biblioqrafik vəsaitləri vasitəsilə az yaşlı oxucuların mütaliəsinə kömək etmək vəzifəsini qarşısına qoyur. Kitabxananın buraxdığı vəsaitlər əsasən kiçik həcmli olur. Bunlardan «S.S.Axundov» (1968), «Mirmehdi Seyidzadə» (1968), «Qılman Musayev» (1968), "Pionerlər üçün nə oxumalı" (1977) adlı yaddaş xarakterli vəsaitləri qeyd etmək olar. Bunlarla bərabər, kitabxana tərəfindən nisbətən iri həcmli göstəricilər də nəşr edilmişdir. Məsələn, «Azərbaycan uşaq ədəbiyyatı» (1950-1968) (tərt. ed.: A.Əsədullayev (1970) [4], «Писатели Азербайджана – детям» (сост. Т.П.Попова) (1972), «Uşaqların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi» (tərt. ed.: A.Abbasov) [1],, «Uşaq ədəbiyyatı biblioqrafiyası (1985-1990)» (tərt. ed.: Z.Dadaşova) (1992) [10],, «Azərbaycan uşaq ədəbiyyatı (1969-1990)» (tərt. ed.: Z.Dadaşova) (1996) [25] adlı vəsaitləri qeyd etmək olar. Hər bir vəsait uşaqların mütaliəsinə rəhbərlik, onların beynəlmiləl tərbiyəsi, pedaqoji-psixoloji hazırlığı məqsədini güdür.

«Azərbaycan uşaq ədəbiyyatı (1950-1968)»[4] adlı vəsaitdə ədəbiyyat üç hissədə qruplaşdırılmışdır. Onun birinci hissəsi «Məktəbəqədər yaşlı uşaqlar və 1-2-ci sinif şagirdləri üçün ədəbiyyat», ikinci hissəsi «3-4-cü sinif şagirdləri üçün ədəbiyyat», üçüncüsü isə «5-8-ci sinif şagirdləri üçün ədəbiyyat» adlanır. Hissələr daxilində müvafiq ədəbiyyat janrlara görə verilir, təsvirlər isə müəlliflərə və ya əsər adlarına

görə əlifba sırası ilə düzülür. Qeyd etmək lazımdır ki, ayrı-ayrı hissələrdə əvvəl şifahi xalq ədəbiyyatı, sonra isə poeziya və nəsr əsərləri təsvir olunur. Nədəndirsə uşaqlar üçün yazılmış dram əsərləri nəzərə alınmamışdır. Ayrı-ayrı əsərlərə qısa annotasiya yazılmışdır. Lakin bu annotasiyalarda uşaqların yaş xüsusiyyətlərini fərqləndirən və ona müvafiq mütaliəni istiqamətləndirən cəhətlərə az diqqət verilmişdir. Məsələn, 1-2-ci sinif şagirdləri ilə 5-8-ci sinif şagirdləri üçün nəzərdə tutulan əsərlərə yazılan annotasiya dil və məzmun etibarilə fərqləndirilsə yaxşı olardı. 1-2-ci sinif şagirdlərinə tövsiyə edilən əsərlərə yazılan annotasiyalar sadə dildə olmalı və orada uşaqları mütaliəyə maraqlandıran ünsürlərə daha geniş yer verilməlidir. Mütaliəyə kömək məqsədi güdən bu vəsaitdə ədəbiyyatın düzülüşündə məntiqi ardıcıllığa riayət olunmaması onun qüsurlu cəhətlərindəndir. Ümumilikdə götürüldükdə isə «Azərbaycan uşaq ədəbiyyatı» adlı vəsait Azərbaycanda uşaq ədəbiyyatının biblioqrafiyası sahəsində mühüm nailiyyət hesab olunmalıdır.

Kitabxananın muvafiq şöbələri tərəfindən hazırlanmış «Hüquqi biliklərin uşaqlar arasında təbliği: metodiki biblioqrafik tövsiyələr» (1982), «Vahid ailədə: metodiki-biblioqrafik vəsait» (1982), «Kiçikyaşlı məktəblilər arasında ilk mənəvi tərbiyənin formalaşması: tövsiyələr» (1983), «Məktəbli oxucular arasında mülki-müdafiə biliklərinin təbliği: metodiki-biblioqrafik tövsiyə» (1984), «Odlu illərin qəhrəmanları» (1985),«Sov. İKP MK-nın «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri» qərarı ilə əlaqədar 7-9-cu sinif şagirdlərinin peşəyönümünün düzgün istiqamətləndirilməsində uşaq və məktəb kitabxanalarının işi: metodiki-biblioqrafik tövsiyələr» (1985), «Uşaq və məktəb kitabxanalarında hərbi-vətənpərvərlik ədəbiyyatının təbliği: metodiki biblioqrafik tövsiyə» (1985) və başqa vəsaitlər mühüm əhəmiyyət kəsb rdir. Bu vəsaitlərin həcmi 7-19 səhifədən ibarətdir.

Kitabxananın elmi-metodiki şöbəsi tərəfindən hazırlanmış və M.F.Axundov adına Milli Kitabxananın mətbəəsində çap olunmuş «Məktəbli oxucular arasında mülki müdafiə biliklərinin təbliği» (1984) adlı vəsait (tərt. ed.: A.Abbasova) diqqəti daha çox cəlb edir. Metodiki tövsiyə xarakteri daşıyan bu vəsait iki hissədən ibarətdir. Birinci hissədə oxucular arasında mülki-müdafiə işlərinin aparılmasına dair tövsiyələr, ikinci hissədə isə kitabxanaçılara nəzərdə tutulan işdə köməklik məqsədilə lazımi ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. Son illərdə yalnız Azərbaycan dilində çıxmış ədəbiyyat nəzərə alınmış, biblioqrafik təsvirlər qısa annotasiya ilə müşaiyət olunmuşdur. Annotasiyalar uşaqları həm istiqamətdirmək, həm də məlum kitaba marağını artırmaq məqsədini güdür.

Adları çəkilən bütün vəsaitlər öz daxili quruluşlarına, yəni tərtibi metodikasına görə bir-birlərindən o qədər də fərqlənmirlər və ona görə də ayrı-ayrılıqda onların üzərində dayanmağa ehtiyac yoxdur. Lakin bir məsələni xüsusi qeyd etmək olar ki, uşaq oxucularının dəyərləndirici funksiyalı biblioqrafik informasiyaya daha çox ehtiyacları vardır. Ona görə ki, uşaqların mütaliəsinə ilk vaxtdan düzgün istiqamət vermək vacib məsələ idi və bu işdə o zaman tövsiyə biblioqrafiyası böyük rol oynaya bilərdi. Əldə olunan faktlar açıq-aydın göstərir ki, mövcud olan vəsaitlər sistemi nə mövzu əhatəliyinə və nə də məqsəd-oxucu istiqamətinə görə oxucuların ümumi və getdikcə müxtəlif səbəblərdən artan tələbatlarına uyğun gəlmirdi və bu da onların istifadə səmərəliliyinə mənfi təsir göstərirdi. Biblioqrafik vəsaitlərin tərtibi və nəşri planının hazırlanmasındakı kampaniyaçılıq və bir qədər də kortəbiilik heç bir əhəmiyyətli dəyişikliyə aparmırdı və perspektivsiz nəticəyə gətirib çıxarırdı. Buradan belə nəticə çıxır ki, respublikamızda ümumiyyətlə, biblioqrafik fəaliyyətin, o cümlədən tövsiyə biblioqrafiyasının intensiv inkişafını təmin edən iş üsulunu axtarıb tapmaq lazım gəlirdi. Buna nail olmaq üçün əsas şərtlərdən biri biblioqrafik fəaliyyətdir. Respublika Uşaq Kitabxanası Azərbaycanda uşaq ədəbiyyatının tövsiyə biblioqrafiyasının yaradılması sahəsində fəaliyyətini davam etdirir.

1976-1980-ci illərdə Respublika Uşaq Kitabxanası tərəfindən təxminən 24 adda belə vəsait hazırlanmışdır. Onlardan bir qismi «Nə oxumalı?» seriyası ilə tərtib edilmiş kiçik həcmli tövsiyə ədəbiyyat siyahılardan, bir qismi kitabxana işçiləri və uşaq mütaliəsinə rəhbərlik edənlər üçün nəzərdə tutulan metodiki biblioqrafik vəsaitlərdən ibarətdir. Onların mövzuları da xeyli genişləndirilmişdir. Belə ki, həmin vəsaitlər içərisində elmi-təbii, bədii ədəbiyyat, görkəmli yazıçılar, təbiəti mühafizə məsələləri ilə bağlı mövzulara təsadüf edirik.

Uşaqlarda estetik tərbiyə, vətənpərvərlik, əmək tərbiyəsi, idmana həvəsləndirməklə əlaqədar mövzularda kitabxananın tövsiyə biblioqrafik vəsaitlər sistemi də müəyyən yer tutur. Məsələn, «El bilir ki, sən mənimsən» (metodiki biblioqrafik məktub, tərt. ed.: S.Osmanzadə, 1980), «Uşaq və məktəb kitabxanalarında şagirdlər arasında estetik tərbiyənin aparılması» (mütaliəyə rəhbərlik məqsədli təşkilati-metodik məktub, 1978), «Yaradıcı əməyin yeni qütbləri» (1977), «İdman bizim dostumuzdur» (tərt. ed.: S.Nəcəfova, 1980),«Təbiəti sev və qoru» (1977) və başqalarını göstərmək olar. Azərbaycan və rus dillərində tərtib olunan bu metodik biblioqrafik vəsaitlər əsasən uşaq və məktəb kitabxana işçilərinə köməklik göstərmək məqsədini güdür.

Kitabxananın tərtib etdiyi bəzi vəsaitlər uşaqların peşə seçmələrinə kömək etmək, elmi-təbii ədəbiyyatın uşaqlar arasında yayılmasına təsir

göstərmək məqsədi güdürdü. «7-8 sinif şagirdlərinin peşə seçmələrinin düzgün istiqamətləndirilməsində uşaq kitabxanalarının işi» (mütaliəyə rəhbərlik) (tərt. ed.: K.Babayeva), «Yayda nə oxumalı? (1-3 sinif şagirdləri üçün tövsiyə ədəbiyyat siyahısı) (1979), «Elmi-təbii ədəbiyyatın məktəblilər arasında təbliği» (1-8 sinif şagirdləri üçün metodiki biblioqrafik vəsait) (1980) kimi vəsaitlər belələrindəndir.

Bütün bunlar göstərir ki, kitabxana uşaqların mütaliəsinə rəhbərlik, dünyagörüşlərinin genişləndirilməsi, peşə seçmələrinə köməklik, estetik və vətənpərvərlik tərbiyələrinə təsir göstərmək məqsədi güdən xeyli tövsiyə-metodiki vəsaitlərin hazırlanmasına diqqəti artırmışdır. Bunların bəziləri sırf metodiki məktub xarakteri daşısalar da müəyyən ədəbiyyat siyahıları ilə müşayiət olunur və ona görə də sahənin tövsiyə biblioqrafik vəsaitlər sisteminə daxil edilə bilərlər. Lakin qaneedici olmayan iki əsas cəhəti qeyd etmək lazımdır. Birincisi, həmin vəsaitlərin tərtibi metodikasından çatışmazlıqla əlaqədardır. Bu hər şeydən əvvəl ədəbiyyatın seçilməsində, qiymətləndirilməsində, biblioqrafik yazıların qruplaşdırılmasında və həm də annotasiyaların verilməsində özünü göstərir. Bir sözlə, dövrün biblioqrafiyalaşdırma metodikasının nailiyyətlərindən heç də tamamilə istifadə olunmurdu. İkinci cəhət demək olar ki, bütün adları çəkilən vəsaitlərin ya rotaprint, ya da makina vasitəsilə surətlərinin artırılıb yayılması ilə bağlıdır. Xüsusilə makinada çap edilən vəsaitlər daha az cəlbedici olur. Halbuki uşaq oxucuları üçün biblioqrafik vəsaitlərin illüstrasiyalı, bədii cəhətdən zövqlə buraxılması lazım gəlir. Respublika Uşaq Kitabxanasına uşaq və məktəb kitabxanaları sistemində həm əməli və həm də metodiki mərkəz kimi uşaqlar və məktəblilər üçün daha faydalı, məqsədyönlü ədəbiyyat əhatəliyinə malik, metodiki cəhətdən yüksək elmi səviyyəli, oxucuların və valideynlərin çoxcəhətli maraqlarına uyğun gələn tövsiyə vəsaitlərinin hazırlanmasına diqqətin artırılması tövsiyə olunur.

Yekun olaraq onu qeyd etmək olar ki, Azərbaycanda pedaqoji elmlərin tövsiyə biblioqrafiyası müəyyən mənada inkişaf etmişdir və bu sahədə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası mühüm rol oynamışlar. Lakin bu sahə biblioqrafiyaşünaslığın ən az tədqiq edilmiş sahəsidir. Pedaqoji prosesin ayrı-ayrı sahələrini əhatə edən biblioqrafik vəsaitlər hələ də yaradılmamışdır. Bu da pedaqogikanın müxtəlif sahələri üzrə ədəbiyyat axtarışına öz mənfi təsirini göstərir. Adları çəkilən kitabxanaların bu sahəyə diqqəti artırmaları gərəklidir.

## ӘDӘBİYYAT


**1.** *Abbasov A. Uşaqların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi: Metodik biblioqrafik vəsait. Bakı: Qızıl Şərq, 1972, 27 s.*

**2.** *Ailədə və məktəbdə tərbiyə: Qısa biblioqrafik yaddaş / Tərt. ed.: M.Kazımova; M.F.Axundov ad. ADK. Bakı, 1954, 7 s.*

**3.** *Azərbaycan Dövlət Pedaqoji İnstitutun qiyabi şöbə üzrə vəsait nəşrinin sistemli göstəricisi (1938-1962): Mülahizəli tövsiyə ədəbiyyat göstəricisi / Tərt. ed: Ş.Hüseynova. Bakı: APİ nəşriyyatı, 1963, 123 s.*

**4.** *Azərbaycan uşaq ədəbiyyatı: Annotasiyalı tövsiyə ədəbiyyat göstəricisi (1950-1968) / Tərt. ed.: A.Əsədullayev; F.Köçərli adına RUK. Bakı, 1970, 75 s.*

**5.** *Azərbaycan uşaq ədəbiyyatı: Tövsiyə ədəbiyyat göstəricisi (1969-1990) // Tərt. ed.: Z.Dadaşova; Red.: S.Əhmədova; F.Köçərli ad. RUK. Bakı, 1996, 64 s.*

**6.** *Bağça yaşlı uşaqlar üçün kitab kataloqu: "Azərkitab"ın mağazalarında satışda olan kitablar / Tərt. ed.: H.Rzaquliyev; M.F.Axundov ad. ADK. Bakı: Azərkitab, 1951, 16 s.*

**7.** *Əliyev Z.H. Tövsiyə biblioqrafik vəsaitlərinin tərtibi metodikası. Bakı, 1960, 36 s.*

**8.** *Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti. Bakı, 2001, 143 s.*

**9.** *Uşaq ədəbiyyatı: İbtidai məktəb üçün annotasiyalı kataloq (Müəllimlər, kitabxana işçiləri və ata-analar üçün) / Tərt. ed.: X.Abdullayeva; Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəblər İns.-tu. Bakı: Azərnəşr, 1940, 42 s.*

**10.** *Uşaq ədəbiyyatı biblioqrafiyası: Nəşr olunan ədəbiyyatın siyahısı (1985-1990) // Tərt. ed.: Z.Dadaşova; Red.: K.Aslan; F.Köçərli ad. RUK. Bakı, 1992, 38 s.*

**11.** *http: // www.anl.az; anl @aznet.orq;*

**12.** *http: // www. childlibbaku.aznet.orq*



**Х. АГАЕВА**


## ЗНАЧЕНИЕ РЕКОМЕНДАТЕЛЬНОЙ БИБЛИОГРАФИЧЕСКИХ ПОСОБИИ В ИНФОРМАЦИОННОМ ОБЕСПЕЧЕНИЕ ОБРАЗОВАНИЕ. РЕЗЮМЕ


В статье отмечается значение рекомендательной библиографии в системе библиографической информации в области образования и дана информация о методических особенностях этих ресур-

сов подготовленной к публикации в Институте Проблем Образования, Азербайджанском Государственном Педагогическом Университете, Национальной библиотеке имени М. Ф. Ахундова и Детской Библиотеке Республики имени Ф. Кочарли.

**Kh. AGAYEVA**

## IMPORTANCE OF THE RECOMMENDED BIBLIOGRAPHIC ALLOCATIONS IN THE PROVISION OF EDUCATIONAL INFORMATION

### SUMMARY

Importance of the recommended allocations is noted in the bibliographic provision of information of the education and is given information about methodical features of the recommended allocations prepared to publication in the Institute of Educational Problems, Azerbaijan State Pedagogical University, National library named after M.F.Akhundov and Republic Children Library named after F.Kocharly in the article.

**Sima İSMAYILOVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***

# ƏDƏBİYYATŞÜNAS MÜTƏXƏSSİSLƏR BİBLİOQRAFİK FƏALİYYƏTİN POTENSİAL VƏ FƏRDİ OBYEKTİ KİMİ

***Açar sözlər***: *biblioqrafik fəaliyyət, sənəd, təbəbatçı sistemi, informasiya tələbatlarına təsir edən amillər*

***Ключевые слова:*** *библиографическая деятельность, требуемая документальная система, векторы влияющие на информАционные потребности*

***Keywords:*** *bibliographic activities, file system typo (required), factors affecting the information needs.*

İnsan fəaliyyətinin bir sahəsi olan biblioqrafik fəaliyyətin obyekti məsələsinə müxtəlif münasibətlər olmuşdur. Bəziləri bu obyektin yalnız çap əsərlərindən (və ya sənədlərdən) ibarət olduğunu iddia edir, digərləri isə oxucuları (və ya informasiya tələbatçılarını) da onun tərkib hissəsi kimi nəzərə alırlar. Lakin təcrübə göstərir ki, «sənəd –informasiya tələbatçı sistemi biblioqrafik fəaliyyətin bilavasitə obyekti kimi vəhdətdə götürülür. Bu sistemin ünsürləri (çap əsəri və ya sənəd- oxucu, ya da informasiya tələbatçısı) biblioqrafik işdə müxtəlif keyfiyyətə malik olsalar da bərabər səviyyəli rol oynayırlar. Biblioqrafik fəaliyyətin sənədlə informasiya tələbatçısı arasındakı vasitəçilik funksiyasının mahiyyəti həmin fikri təsdiq edir. Biblioqrafik fəaliyyət proseslərində bu sistemin hər iki tərəfi qarşılıqlı əlaqədə götürülür, onların qarşılıqlı münasibətləri nəzərə alınır.

Qeyd etmək lazımdır ki, ədəbiyyatşünaslığa dair sənədlər biblioqrafiyalaşdırmanın bilavasitə obyektidirsə, informasiya tələbatçısı (ədəbiyyatşünas mütəxəssislər) biblioqrafik fəaliyyətin potensial və fərdi obyekti rolunu oynayır. Məsələn, axtarış və kommunikativ funksiyalı biblioqrafik informasiya mənbələrinin yaradılmasında informasiya istifadəçiləri nəzərə alınmır. Lakin onların son məqsədi ümumi informasiya tələbatlarının ödənilməsinə biblioqrafik təsir göstərməkdir. Deməli, həmin prosesdə informasiya tələbatçısı potensial obyekt rolunu oynayır. Xüsusi biblioqrafik mənbələrin yaradılması zamanı və biblioqrafik xidmət prosesində informasiya tələbatçıları bilavasitə və hətta fərdi olaraq nəzərə alınır və onların müxtəlif cəhətdən öyrənilməsini, fərqləndirilməsini tələb edir.

Məlumdur ki, praktiki olaraq hər bir insan yalnız professional deyil, həm də digər fəaliyyət növləri ilə məşğul olur (oxuyur, ictimai işlə, idmanla məşğul olur və s.) Hər hansı professional və qeyri-professional fəaliyyət öz informasiya tələbatlarını yaradır. Buna görə də hər bir insanın müxtəlif xarakterə və məzmuna malik çoxlu informasiya tələbatları ola bilər.

Tələbatçıların biblioqrafik informasiya almaqla bağlı olan sənəd tələbatları, maraqları və sorğuları biblioqraf üçün çox vacibdir.

Cəmiyyətdə sənəd tələbatı obyektiv olaraq həmişə var və baş verdiyi dövrün konkret sosial şəraiti ilə şərtləşir. Fərdi tələbat isə fərdin şəxsi xüsusiyyətlərinə görə dürüstləşdirilir.

Tələbatlar maraq vasitəsilə reallaşır. Maraq tələbatın səciyyəvi mövcudluq formasıdır. Maraq öz növbəsində informasiya istifadəçisində subyektiv şəkildə formalaşan sorğuya çevrilir. Sənəd maraqları və sorğuları sənəd tələbatlarının səciyyəvi mövcudluq formasıdır.

Müasir biblioqrafiyaşünaslıqda informasiya tələbatçıları müxtəlif əlamətlərə görə təsnifləşdirilir. Bu zaman sosial- iqtisadi amillər, hər şeydən əvvəl insanların informasiya tələbatlarına təsir edirlər. Bu amillər aşağıdakılardır: peşə əmək fəaliyyətinin növü, insanın maddi və mənəvi istehsal prosesində tutduğu yer, ümumi təhsil səviyyəsi, kitabla, biblioqrafik vasitələrlə müstəqil işləmək bacarığının olması (mütaliə mədəniyyəti), ailə vəziyyəti. Yaşı, cinsi, məişət şəraiti və s. Son illər tələb və maraqların fərdi şəkildə yaranmasına sorğuların subyektiv şəkildə formalaşmasına, informasiya xidməti şəraitində tələbatçının davranışına təsir edən psixoloji amillərin öyrənilməsinə də diqqət artırılmışdır. Bu amillər aşağıdakılardır: Aktivlik və passivlik, səbəb və məqsədlər xarakterik xüsusiyyətlər (əsəbilik, hövsələsizlik, utancaqlıq) biblioqrafla tələbatçı arasında psixoloji uyğunlaşma və s. [5, s.16] Bütün bunlar biblioqrafik xidmətin təşkili zamanı mütləq nəzərə alınmalıdır.

Lakin biblioqrafik nöqteyi- nəzərdən tələbatçıların peşə fəaliyyəti dairəsi, onların vəzifə statusuna əsasən differensasiyası daha böyük maraq doğurur. Bu cəhətdən xüsusi elmi kitabxanalarda biblioqrafik informasiya tələbatçılarının qruplaşdırılmasını nəzərdən keçirək.

Respublikada mütəxəssis ədəbiyyatşünasların çox böyük bir hissəsi AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərir. Məqalənin tədqiq obyekti kimi AMEA-nın Mərkəzi Elmi Kitabxanasının və Nizami adına Ədəbiyyat institutunun iş təcrübəsindən istifadə edilmişdir.

Bu mərkəzlərdə ədəbiyyatşünaslıq üzrə mütəxəssis informasiya tələbatçıların qruplaşdırılması aşağıdakı kimidir.

Birinci qrupa qərar qəbul etmək hüququ olan ixtisaslaşdırılmış mütəxəssislər kimi müxtəlif dərəcədən olan rəhbər işçilər aiddir. Rəhbər

işçilərin informasiya tələbatlarının mövzu dairəsi öz genişliyi ilə fərqlənir. Rəhbər işçinin elmi dərəcəsi nə qədər yüksək olarsa, onun informasiya tələbatları da bir o qədər yüksək olarsa, onun informasiya tələbatları da bir o qədər çox aspektli olur. Ədəbiyyatşünaslıq sahəsi üzrə rəhbər işçi qrupuna ədəbiyyat institutunun direktoru, müavinlər, şöbə və bölmə müdirləri aiddir. Rəhbər işçilərin informasiya tələbatları məzmuna görə yaxın bilik sahələrini, sosial-siyasi sahələri də əhatə edə bilər. Bu tələbatlar olduqca dinamikdir və böyük təcrübi istiqamətləri ilə fərqlənirlər. Bununla belə, optimal qərarlar qəbul etmək ehtiyacı rəhbər işçidən geniş dünyagörüşünə, ilk növbədə sosial- iqtisadi və siyasi problemlər üzrə nəzəri biliyə malik olmağı tələb edir. Özü də müəyyən baza hazırlığına malik olan hər bir rəhbər işçi öz ixtisası üzrə informasiyaya professional maraq göstərir. Bütün bunlar bu kateqoriyadan olan tələbatçılarla bilavasitə kontaktın olmaması üzündən onların informasiya tələbatlarının öyrənilməsində getdikcə daha da dərinləşən müəyyən çətinliklər törədir. Bu kateqoriyadan olan rəhbər işçilərin informasiya tələbatları konkret müəssisə və təşkilatın fəaliyyəti ilə əlaqədar olsa da bununla məhdudlaşmır, bir qayda olaraq rəhbərlik etdiyi müəssisənin profili üzrə informasiya ilə yanaşı, rəhbər işçilər əməyin idarə olunmasının təşkili, iqtisadi, sosial, hüquqi və bir çox başqa problemlər üzrə müntəzəm olaraq məlumat alırlar.

Ədəbiyyatşünas üzrə informasiya tələbatçılarını ixtisaslar üzrə təsnifləşdirərkən onları humanitar bilik sahəsi üzrə olan mütəxəssislər qrupuna aid edirlər.

İxtisas mütəxəssislərin informasiya tələbatlarının tematik məzmunu müəyyən edir. Lakin, qeyd etdiyimiz kimi, bu tələbatlara təsir edən digər amillər də az deyil. Tutduğu vəzifə üzrə diferensasiyalaşdırılmaqla hər bir ixtisas hüdudunda mütəxəssisləri icra etdiyi işin xarakteri üzrə təsnifləşdirmək olar. Belə ki, ədəbiyyatşünaslıq sahəsi üzrə elmi-tədqiqat işi ilə (alimlər), pedaqoji fəaliyyətlə (ali məktəblərdə filoloji fənlərdən dərs deyənlər) məşğul olan tələbatçıları fərqləndirmək olar.

İnformasiya tələbatçılarının ən görkəmli və aktiv qrupunun sonrakı təsnifləşdirilməsi elmi- fəaliyyəti inzibati fəaliyyətlə birləşdirən şəxslərin (elmi idarələrin rəhbərləri, şöbə, bölmə müdirləri, elmi istiqamətlərin rəhbərləri, cavabdeh və sıravi icraçılar) seçilməsini tələb edir.

Son illər respublikamızın müstəqil inkişaf yoluna keçməsi ilə əlaqədar olaraq, AMEA-da keçirilən islahatlarla bağlı olaraq Ədəbiyyat institutunun strukturu da təkmilləşdirilmiş, yeni tələblərə uyğunlaşdırılmışdır. Bütün bunlar ədəbiyyatşünaslıq üzrə informasiya tələbatçılarının sənəd tələbatlarına da müəyyən mənada təsir etmişdir.

Xüsusilə institutda son illərdə (2002 yanvar) fəaliyyətə başlayan «İnformasiya və biblioqrafiya» şöbəsinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. «İnformasiya və biblioqrafiya» şöbəsi Azərbaycan ədəbiyyatşünaslığının son nailiyyətlərinin «İnternet» şəbəkələr sistemilə dünya elminə inteqrasiya edilməsi, dünya miqyasında müvafiq informasiyaların toplanması və tələbatçılara çatdırılmasını təmin edir. Habelə «İnternet» şəbəkələr sistemindən alınmış informasiyalar əsasında dünya ədəbiyyatşünaslığının son nailiyyətlərini əks etdiroən bülletenlərin nəşr edilməsi mütəxəssis ədəbiyyatşünasların biblioqrafik informasiya təminatında mühüm rol oynayır [4].

Azərbaycan ədəbiyyatşünaslığı sahəsində yeni informasiya texnologiyalarının xüsusilə kompüterin tətbiqi, Azərbaycan mətbuatının ədəbiyyat və elm xadimlərinin biblioqrafiyasının hazırlanması və istifadəçilərə çatdırılması da bu sahədə çox böyük nailiyyətdir.

Nizami adına Ədəbiyyat İnstitutu ədəbiyyatşünaslıq profilli elmitədqiqat müəssisə kimi özünün çoxcəhətli fəaliyyəti ilə xalqın mədəni həyatında mühüm rol oynamışdır. Azərbaycan ədəbiyyatınının inkişaf qanunauyğunluqlarının araşdırılması müxtəlif dövrlərdə institutunun əsas elmi- tədqiqat istiqamətini təşkil etmişdir. Azərbaycan ədəbiyyatı tarixinin, onun ayrı-ayrı mərhələlərinin görkəmli nümayəndələrinin yaradıcılığının öyrənilməsi, nəzəri məsələlərinin, qarşılıqlı əlaqələrinin araşdırılması, həmçinin, ədəbi abidələrin və klassiklərin əsərlərinin sistemli nəşri, şifahi xalq ədəbiyyatı örnəklərinin toplanması, tədqiqi və çapa hazırlanması kimi elmi problemlər həmin istiqamətin əsasında dayanmışdır. Əgər biblioqrafik informasiya tələbatçılarını ən fəalı və fəal olmayan qruplara bölmək mümkün olsa, onda elmi- tədqiqat işçiləri ən fəallarından hesab edilə bilər. Həm də bu fəallıq bir neçə cəhətdən səciyyəvidir.

Birinci ona görə ki, elmi- tədqiqat işi ilə məşğul olanlar həmişə axtarışdadır, sənəd axınını ardıcıl izləməyə və mövcud sənəd toplusunu araşdırmağa məcburdurlar. İkincisi, onları təkcə yerli nəşrlər deyil, həm də dünya elminin nailiyyətlərini işıqdardıran sənədlər maraqlandırır. Üçüncüsü, onlar ən yeni materiallar haqqında daha dolğun, ardıcıl və operativ biblioqrafiki informasiya almaq marağındadırlar [1, s.120]. Ona görə də elmi- tədqiqat işinə köməklik məqsədilə biblioqrafik fəaliyyət proseslərində elmi müəssisələrinin profilləri, onların elmi- tədqiqat işlərinin planları, bu planlarda əsas istiqamətlər nəzərə alınmalıdır.

Nizami adına ədəbiyyat institutu öz tarixini müxtəlif dövrlərində zamanın tələblərinə uyğun yeni problemlərin, aktual məsələlərin tədqiqi ilə də məşğul olmuş və bütün hallarda bu qrumun strukturu həmin problemlərin həllinə imkan verən bir şəkildə müəyyənləşdirilmişdir. Əvvəllər institutunu əsas strukturu Azərbaycan ədəbiyyatının tarixinin,

nəzəriyyəsinin, folklorun, ədəbi abidələrin tədqiqinə imkan verən «Ədəbiyyat tarixi», «Ədəbiyyat nəzəriyyəsi», «Folklor» və «Mətnşünaslıq» şöbələrini əhatə edən akademik qruplardan ibarət olmuşdur [3].

Müstəqillik şəraitində mütəxəssis ədəbiyyatşünaslar Qədim dövr Azərbaycan ədəbiyyatının tarixi və nəzəri məsələlərinin araşdırılması, ərəb dilli və fars dilli mətnlərin tədqiqi və tərcüməsi, klassiklərin yaradıcılığı, onların əsərlərinin tərtibi və nəşrə hazırlanması ilə məşğul olurlar. Təbiidir ki, yeni informasiya yaratmaq, yeni kəşflərə, ixtiralara nail olmaq üçün hər şeydən əvvəl mövcud olanları araşdırmaq, əlaqədar sənədlərə müraciət etmək lazımdır. Sənədin meydana gəlməsi ilə bağlı bu metamorfoza insanı sənədləşdirilmiş informasiyanın istifadəçisi etmişdir və sənəd kommunikasiyaları sistemini indi müşaiyət etdiyimiz yüksək inkişaf səviyyəsinə gətirib çıxarmışdır. Bu da daha əsaslı, bununla bərabər ümumi və sadə formada nəzərə çarpan «sənəd-informasiya istifadəçisi» sistemi kimi səciyyələndirilir. «M-S-T» kimi üçlü sistem əsl çıxış nöqtəsi olan «Sənəd –tələbatçı (informasiya istifadəçisi) sisteminin xüsusi bir halı kimi nəzərə alına bilər [2, s.85].

İnformasiya tələbatçılarının fərqli biblioqrafik təminatı vasitəsi onların elmi əsasla qruplaşdırılmasını zəruriləşdirir.

Ədəbiyyatşünaslıq üzrə mütəxəssis informasiya istifadəçiləri Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən kitabxanada aşağıdakı kimi təsnifləşdirilmişdir.

1. Elmi işçilər
2. Ali məktəb müəllimləri

a) elmi dərəcə ilə:
b) elmi dərəcəsiz

3. Aspirant və dissertantlar.

İnformasiya istifadəçilərinin belə qruplaşdırılmasında əsas məqsəd onları yaxşı tanımaq, sorğularını dəqiq öyrənməkdən ibarətdir. Belə ki, tələbatçı sorğusunun düzgün ödənilməsi onun elmi- tədqiqat fəaliyyətinə müsbət təsir göstərir.

Respublikamızın müstəqil inkişaf yoluna keçməsi ilə əlaqədar baş verən sosial iqtisadi və siyasi proseslər cəmiyyətin, o cümlədən ədəbiyyatşünas mütəxəssislərin informasiya tələbatlarına da öz təsirini göstərir və onu daha da mürəkkəbləşdirir. Bu isə öz növbəsində informasiya tələbatçılarının maraq və sorğularının dərinləşməsində özünü göstərir.

Beləliklə, sənəd biblioqrafiyalaşdırmanın bilavasitə obyekti, tələbatçı isə biblioqrafik təsiretmənin həm potensial (tipik), həm də konkret (fərdi) obyektidir. Deməli, sənəd- tələbatçı sisteminin əsas ünsürləri keyfiyyətcə fərqlənsələr də, biblioqrafik işdə eyni əhəmiyyət kəsb edirlər və onlar həmişə qarşılıqlı əlaqədə nəzərə alınırlar. Başqa

sözlə «sənəd- tələbatçı» sistemi əslində biblioqrafik fəaliyyətdə vahid obyekt rolunu oynayır.

## ƏDƏBİYYAT


1. *Əliyev Z.H.Azərbaycanda elmi-köməkçi biblioqrafiya müasir mərhələdə// BDU-nun Xəbərləri: Humanitar elmlər seriyası- 1994- №1, s.120-127*
2. *Əliyev Z.H. Biblioqrafik informasiya sənəd- informasiya tələbatının ödənilməsində mühüm vasitədir// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal. 2004, №1, s. 85.*
3. *Ədəbiyyat məcmuəsi/ Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri- XVIII c. –B., Elm, 2004, 432 s.*
4. *İsmayılova S.P. Müstəqillik illərində ədəbi biblioqrafiyanın inkişafı vəziyyəti// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi –nəzəri və təcrübi jurnal. Bakı, BUV, 2008, №1, s.164-173.*
5. *Коршунов О. П. Библиография: теория. Методология, методика. М., Книга- 1986, с. 16-17*



**С.ИСМАИЛОВА**


## СПЕЦИАЛИСТЫ –ЛИТЕРАТУРОВЕДЫ КАК ПОТЕНЦИАЛЬНЫЕ И ИНДИВИДУАЛЬНЫЕ ОБЪЕКТЫ БИБЛИОГРАФИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

### РЕЗЮМЕ


В статье дается информации об объекте деятельности, документное- потребительской системе, посреднической функции библиографии между документами и пользователями информации.

Говорится о документном требовании, связанного с получением информации потребителям, классификации потребителей информации, социально- экономических факторов влияющих информациональному спросу людей.



**S. ISMAILOVA**


## LITERARY INFORMATION SPECIALISTS BIBLIOGRAPHIC OBJECT, OF THE BIBLIOGRAPHIC ACTIVITIES

### SUMMARY


Bibliography as like potential and private object of the activities about mediation function in the article between users system of document users documents and information .

Document users classifying users information with is dealt about social economic factors influencing to information.

**İradə BAYRAMOVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi***

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARININ KİTABXANA-İNFORMASİYA RESURSLARININ YERLƏŞMƏSİNİN VƏZİYYƏTİ

***Açar sözlər:*** *Kitabxana-informasiya təminatı, informasiya resursları, kadr təminatı;*
***Ключевые слова:*** *библиотечно-информационных обеспечение, информационных ресурсов, кадрового обеспечения;*
***Keywords:*** *Bibliographic-information provision, information resourses, current status;*

Azərbaycan Respublikasında regional iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi, regionların inkişafına təkan verməklə yanaşı bu regionlarda kitabxana-informasiya sahəsinin inkişafında da mühüm rol oynayır. Məlumdur ki, hər bir iqtisadi rayon respublikanın vahid sosial-iqtisadi sisteminin ayrılmaz tərkib hissəsidir. Buna görə də iqtisadi sahələrdə yaranan dirçəliş, mədəniyyət sahəsinə də öz müsbət təsirini göstərir.

Aydındır ki, regional inkişaf, milli iqtisadiyyatın bütün sahələri ilə qarşılıqlı əlaqədədir. Respublikanın bütün regionlarının iqtisadi və sosial inkişafını daha da yüksəltmək, hər bir iqtisadi rayonun potensialından istifadəni sürətləndirmək üçün, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004 2008-ci illər)" və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın qəbul edilməsi çox mühüm hal kimi qəbul edilməlidir (1;2).

Azərbaycan Respublikasının regionlarında kitabxana-informasiya sahəsinin inkişafından bəhs edərkən, iqtisadi rayonların kənd yaşayış məntəqələrində yerləşən kitabxanalarından, onların kitabxana-informasiya resurslarının yerləşməsi vəziyyətindən, kadr potensialından, müasir inkişaf etmiş cəmiyyət quruculuğu sahəsində kitabxanalar qarşısında duran mühüm və təxirəsalınmaz vəzifələrdən danışmamaq olmaz.

Məlumdur ki, kitabxana şəbəkəsinin yerləşdirilməsi əhalinin sayı və sıxlığı, yaş həddi, ailə vəziyyəti, təhsili, eləcə də sosial-peşəkar qruplara mənsubluğu kimi göstəricilər sistemi ilə sıx bağlıdır. Bu göstəricilərin kitabxana işinin təşkili xüsusiyyətləri ilə qarşılıqlı əlaqədə öyrənilməsi, kitabxananın inkişafının xarakteri və şəraitindəki dəyişiklikləri izləməyə imkan verir.(8.s.68)

Respublikanın iqtisadi regionlarında kitabxana-informasiya resurslarının yerləşməsi, əhalinin informasiya təminatının ödənilməsində kitabxanaların rolu və gələcək perspekrivləri, bu sahədə yazılmış bir çox məqalələrdə işıqlandırılmışdır. Respublikamızın Aran, Dağlıq Şirvan, Naxçıvan, Dağlıq Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında yerləşən kənd kitabxanalarının müasir inkişaf səviyyəsi də diqqətdən kənarda qalmamışdır.

Azərbaycan Respublikasının Aran iqtisadi rayonu Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab inzibati rayonlarını və Şirvan, Mingəçevir, Yevlax şəhərlərini əhatə edir. İqtisadi rayon əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. İqtisadi rayonun ümumi sahəsi 21,43 min kv.km olmaqla, ölkə ərazisinin 24,7%-ni əhatə edir. İqtisadi rayonda əhalinin orta sıxlığı, hər kv km-ə 78 nəfər təşkil edir. İqtisadi rayonda 1988 kitabxana resursu var. Onlardan 1571-i kənd yaşayış məntəqələrindədir. Bu kitabxanalardan 875-i Mədəniyyət və Turizm Nazirliyinin, 688-i isə Təhsil Nazirliyinin tabeliyindədir. İqtisadi rayonun kənd yaşayış məntəqələrində 7842550 nüsxə informasiya resursu var ki, onun 98,9%-i kitablardır.(6.S.55-56) İqtisadi rayonun kənd kitabxanalarında 25 kompüter olmaqla, cəmi 1932 nəfər kitabxana mütəxəssisi var və onların təhsil səviyyəsi belədir: ali-ixtisas təhsillilər 133 nəfər, ali-qeyri-ixtisas təhsillilər 132 nəfər, orta ixtisas təhsillilər 437 nəfər, orta-qeyri-ixtisas təhsillilər 306 nəfər, ümumi orta təhsillilər 924 nəfər. İqtisadi rayonun kitabxana mütəxəssislərinin təhsil səviyyəsinə görə müqayisəli təhlilindən görünür ki, ümumi orta təhsillilər ali və orta ixtisas təhsilli mütəxəssislərdən çoxdur. İqtisadi rayonun kənd yaşayış məntəqələrində 1558 nəfər mütəxəssis var. Onların 76 nəfəri ali-ixtisas, 372 nəfəri orta ixtisas təhsillidir.(6.S.75-83)

İqtisadi regiona daxil olan Ağcabədi inzibati rayonunda cəmi 148 kitabxana resursu var. Bu kitabxanaların 124-ü kənd yaşayış məntəqələrindədir ki, onların 67-i Mədəniyyət və Turizm Nazirliyinin, 50-i isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Ağcabədi rayonunun kənd yaşayış məntəqələrində 342836 nüsxə informasiya resursundan 99,8%-i kitablardır. Rayonun kənd kitabxanalarında cəmi 1 kompüter var. Ağcabədi rayonunda olan 115 nəfər kitabxana mütəxəssisindən 95 nəfəri kənd kitabxanalarında çalışır. Bu mütəxəssislərdən 6 nəfəri ali-ixtisas təhsilli, 29 nəfəri orta ixtisas təhsilli və. s-dir.

Ağdaş inzibati rayonunda 144 kitabxana resursundan 117-i kənd yaşayış məntəqələrindədir. Onların 69-u Mədəniyyət və Turizm Nazirliyinin, 48-i isə Təhsil Nazirliyinin tabeliyindədir. Ağdaş rayonunun kənd yaşayış məntəqələrində 604820 nüsxə informasiya resursundan

99%-i kitablardır. Kənd kitabxanalarında 1 kompüter var. Ağdaş rayon kitabxanalarında 128 nəfər mütəxəssisdən 104 nəfəri kənd kitabxanalarında çalışır. Onların da 3 nəfəri ali-ixtisas təhsilli, 17 nəfəri orta ixtisas təhsilli və. s-dir.

Beyləqan inzibati rayonunda 102 kitabxana resursu var. Bu kitabxanalardan 86-ı kənd yaşayış məntəqələrindədir. Onların 43-ü Mədəniyyət və Turizm Nazirliyinin, 43-ü Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Rayonun kənd kitabxanalarında 453267 nüsxə informasiya resursundan 99,9% kitab olmaqla, cəmi 1 kompüter var. Beyləqan rayonunun kənd kitabxanalarında cəmi 93 nəfər kitabxana mütəxəssisi çalışır ki, onların da 14 nəfəri ali-ixtisas təhsilli, 25 nəfəri orta ixtisas təhsillidir. və.s.

Bərdə inzibati rayonunda 196 kitabxana resursu var. Bu kitabxanaların 169-u kənd yaşayış məntəqələrindədir. Kitabxanaların 109-u Mədəniyyət və Turizm Nazirliyinin, 60-ı Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Bərdə rayonunun kənd yaşayış məntəqələrindəki kitabxanalarda olan 670252 nüsxə informasiya resursundan 99,6%-i kitablardır. Rayon kənd kitabxanalarında cəmi 3 kompüter var. Bərdə rayon kitabxanalarında 151 nəfər mütəxəssisdən 126 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislərin 5 nəfəri ali-ixtisas təhsilli, 18 nəfəri orta ixtisas təhsillidir.

Biləsuvar inzibati rayonunda 76 kitabxana resursundan 65-i kənd yaşayış məntəqələrindədir. Bu kitabxanaların 35-i Mədəniyyət və Turizm Nazirliyinin, 30-u Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Biləsuvar rayonunun kənd kitabxanalarında 456163 nüsxə informasiya resursu var. Bu fondun 99,7%-i kitablardır. Kənd kitabxanalarında cəmi 1 kompüter var. Biləsuvar rayon kitabxanalarında 64 nəfər mütəxəssisdən 54 nəfəri kənd kitabxanalarında çalışır. Onlardan 6 nəfəri ali-ixtisas təhsilli, 9 nəfəri orta ixtisas təhsillidir.

Göyçay inzibati rayonunda 120 kitabxana resursu var. Bu kitabxanaların 100-ü kənd yaşayış məntəqələrindədir. Onların 57-i Mədəniyyət və Turizm Nazirliyinin, 43-ü Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Göyçay rayonunun kənd yaşayış məntəqələrində 602062 nüsxə informasiya resursundan 97,7%-i kitablardır. Kənd kitabxanalarında cəmi 2 kompüter var. Göyçay rayon kitabxanalarında 152 nəfər mütəxəssisdən 134 nəfəri kənd kitabxanalarında çalışır və onların da 5 nəfəri ali-ixtisas təhsilli,71 nəfəri orta ixtisas təhsillidir. Kitabxanalarda cəmi 2 kompüter var.

Hacıqabul inzibati rayonunda 66 kitabxana resursundan 47-i kənd yaşayış məntəqələrindədir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 24, Təhsil Nazirliyinin tabeliyində isə 23 kitabxana var. Hacıqabul

rayonunun kənd yaşayış məntəqələrində 392999 nüsxə informasiya resursu var. Rayon kitabxanalarında çalışan 86 nəfər mütəxəssisdən 69 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir ki, onların da 3 nəfəri ali və orta - ixtisas təhsillidir. Kənd kitabxanalarında 2 kompüter var.

İmişli inzibati rayonunda 131 kitabxana resursundan 115-i kənd yaşayış məntəqələrindədir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 63, Təhsil Nazirliyinin tabeliyində 52 kitabxana fəaliyyət göstərir. İmişli rayonunun kənd yaşayış məntəqələrində 491526 nüsxə informasiya resursu var və onun 98,6%-ni kitablar təşkil edir. Eyni zamanda kitabxanalarda 3 kompüter var. İmişli rayon kitabxanalarında çalışan cəmi 97 nəfər mütəxəssisdən 84 nəfəri kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. Onların 21 nəfəri ali və orta ixtisas təhsillidir. (6.S.75-82)

Kürdəmir inzibati rayonunda cəmi 123 kitabxana resursundan 109-u kənd yaşayış məntəqələrindədir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 60, Təhsil Nazirliyinin tabeliyində 49 kitabxana var. Kürdəmir rayon kitabxanalarında 734005 nüsxə informasiya resursundan 517643 nüsxəsi kənd kitabxanalarındadır və onların da 98% kitablardır. Kitabxanalarda cəmi 1 kompüter var. Kürdəmir rayon kitabxanalarında çalışan 115 nəfər mütəxəssisdən 103 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir ki, onların da 26 nəfəri ali və orta ixtisas təhsillidir.

Neftçala inzibati rayonunda cəmi 115 kitabxana resursundan 78-i kənd yaşayış məntəqələrindədir. Onların 43-ü Mədəniyyət və Turizm Nazirliyinin, 34-ü Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Rayonun kənd kitabxanalarında cəmi 350605 nüsxə informasiya resursu var ki, onların da 99,4% kitablardır. Kənd kitabxanalarında 1 kompüter var. Rayon kitabxanalarında çalışan 143 nəfər mütəxəssisdən 108 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir. Mütəxəssislərin 28 nəfəri ali və orta ixtisas təhsillidir.

Saatlı inzibati rayonunda 109 kitabxana resursundan 96-ı kənd yaşayış məntəqələrindədir. Onların 59-u Mədəniyyət və Turizm Nazirliyinin, 37-i Təhsil Nazirliyinin tabeliyindədir. Rayonun kənd kitabxanalarında 505929 nüsxə informasiya resursundan 98%-i kitablardır. Burada da kitabxanalarda 1 kompüter var. Saatlı rayon kitabxanalarında çalışan 145 nəfər mütəxəssisdən 134 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir. Mütəxəssislərdən 10 nəfəri ali və orta ixtisas təhsillidir.

Sabirabad inzibati rayonunda 161 kitabxana resursundan 144-ü kənd yaşayış məntəqələrindədir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 74, Təhsil Nazirliyinin tabeliyində isə 70 kitabxana var. Sabirabad rayon kitabxanalarında olan 697639 nüsxə informasiya resursundan 537958 nüsxəsi kənd kitabxanalarındadır və fondun əsasını bütövlükdə kitablar təşkil edir. Sabirabad rayonunun kənd kitab-

xanalarında 3 kompüter var. Rayon kitabxanalarında çalışan 123 nəfər mütəxəssisdən 107 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir. Onların 30 nəfəri ali və orta ixtisas təhsillidir.

Salyan inzibati rayonunda 112 kitabxana resursu var. Kitabxanaların 90-ı kənd yaşayış məntəqələrində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 47, Təhsil Nazirliyinin tabeliyində 43 kitabxana fəaliyyət göstərir. Salyan rayon kitabxanalarında 1041700 nüsxə informasiya resursundan 630134 nüsxəsi kənd kitabxanalarındadır. Bu fondun 99,8%-i kitablardan ibarətdir. Kənd kitabxanalarında 2 kompüter var. Salyan rayon kitabxanalarında çalışan 107 nəfər mütəxəssisdən 88 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir və onlardan 20 nəfəri ali və orta ixtisas təhsillidir.

Ucar inzibati rayonunda 94 kitabxana resursundan 79-u kənd yaşayış məntəqələrində yerləşir. Onların 40-ı Mədəniyyət və Turizm Nazirliyinin, 39-u isə Təhsil Nazirliyinin tabeliyindədir. Rayon kitabxanalarında 488773 nüsxə informasiya resursundan 341134 nüsxəsi kənd kitabxanalarındadır və onların 98,4%-i kitablardır.Kitabxanalarda 1 kompüter var. Ucar rayon kitabxanalarında 94 nəfər mütəxəssisdən 81 nəfəri kənd kitabxanalarında çalışır və 27 nəfəri, ali və orta ixtisas təhsillidir.

Yevlax şəhərində 110 kitabxana resursundan 78-i kənd yaşayış məntəqələrində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 43, Təhsil Nazirliyinin tabeliyində isə 35 kitabxana fəaliyyət göstərir. Yevlax şəhər kitabxanalarında 1017418 nüsxə informasiya resursundan 634480 nüsxəsi kənd kitabxanalarının payına düşür ki, onun da 98,3%-i kitablardır. Kitabxanalarda 1 kompüter var. Yevlax şəhər kitabxanalarında 115 mütəxəssisdən 84 nəfəri kənd kitabxanalarında çalışır və onların 19 nəfəri ali və orta ixtisas təhsillidir.

Zərdab inzibati rayonunda cəmi 89 kitabxana resursundan 74-ü kənd yaşayış məntəqələrində yerləşir. Onların 42-i Mədəniyyət və Turizm Nazirliyinin, 32-i Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Zərdab rayon kitabxanalarında 420074 nüsxə informasiya resursundan 310742 nüsxəsi kənd yaşayış məntəqələrindədir ki, onun da əsasını 96,8% olmaqla kitablar təşkil edir. Kənd kitabxanalarında cəmi 1 kompüter var.(6.S.23-62) Zərdab rayon kitabxanalarında 107 nəfər mütəxəssisdən 94 nəfəri kənd kitabxanalarında çalışır və onların 56 nəfəri ali və orta ixtisas təhsillidir.

Azərbaycan Respublikasının Dağlıq Şirvan iqtisadi rayonunun ərazisi 6,06 min kv.km olub, Respublika ərazisinin 6,9%-ni təşkil edir. Bu iqtisadi rayona Şamaxı, İsmayıllı, Ağsu və Qobustan inzibati rayonları daxildir. Bölgədə yaşayanların 95%-ə qədəri azərbaycanlılardan

ibarətdir. Dağlıq Şirvan iqtisadi rayonu ölkə kitabxana resurslarının 4,9%-ni təşkil edir. İqtisadi rayonda 419 kitabxana resursu fəaliyyət göstərir. Bunlardan 366-ı və ya 87,4%-i kənd yaşayış mərkəzlərində yerləşmişdir ki, bu da ölkə kitabxana resurslarının 5,9%-ni təşkil edir. İqtisadi rayon üzrə kitabxanalar inzibati rayonlar baxımından aşağıdakı kimi yerləşmişdir: İsmayıllı rayonunda 126, Şamaxı rayonunda 122, Ağsu rayonunda 119, Qobustan rayonunda 52 kitabxana.Təhlillər göstərir ki, bəhs edilən regionda kitabxana resursları kənd yaşayış məntəqələrində daha çox yerləşmişdir. Belə ki, bu rəqəm Ağsu rayonunda 91,6%, İsmayıllı rayonunda 88,9%, Qobustan rayonunda 96,5, Şamaxı rayonunda isə 82% təşkil edir. İqtisadi rayonda fəaliyyət göstərən kitabxanaların 43,7%-i Mədəniyyət və Turizm Nazirliyinin, 53,4%-i Təhsil Nazirliyinin payına düşür. İqtisadi rayonda 1 ali məktəb, 2 orta-ixtisas təhsil məktəbi, 2 peşə litseyi, 4 musiqi məktəbi kitabxanaları fəaliyyət göstərir. İqtisadi rayonun informasiya resursları ölkə kitabxana-informasiya resurslarının 2,3%-ni təşkil edir və 2,6 milyon nüsxəyə yaxındır. Bu resursların 98,8%-ni kitablar, 196-nı elektron informasiya daşıyıcıları, 0,3%-ni jurnallar, 0,4%-ni qəzetlər, 11711 nüsxəni (0,5%) isə digər informasiya daşıyıcıları təşkil edir. İnformasiya resursunun 69,1%-i kənd yaşayış məntəqələrində toplanmışdır. Regionun rayonları üzrə kitabxanaların informasiya resursları aşağıdakı kıimi yerləşmişdir: İsmayıllı rayonunda 811891 nüsxə, Şamaxı rayonunda 748761 nüsxə, Ağsu rayonunda 634603 nüsxə, Qobustan rayonunda 359508 nüsxə. İsmayıllı və Qobustan rayon kitabxanalarında qəzet, jurnal və digər informasiya daşıyıcıları ümumi resursun 1,3%-ini təşkil edir ki, bu da Şamaxı, Ağsu rayonlarına nisbətən yüksək göstəricidir. Kitabxanaların informasiya resurslarının kənd yaşayış məntəqələri üzrə bölgüsü aşağıdakı kimidir: Ağsu rayonu üzrə 64,7%, Şamaxı rayonu üzrə 69,9%, İsmayıllı rayonu üzrə 69,9%, Qobustan rayonu üzrə 75,6%. İqtisadi rayonda 292 kitabxana mütəxəssisi fəaliyyət göstərir. Onlardan 2,7%-i ali ixtisas təhsilli, 5,1%-i ali qeyri-ixtisas təhsilli, 19,9%-i orta- ixtisas təhsilli, 18,2%-i orta qeyri- ixtisas təhsilli, 54,1%-i isə ümumi orta təhsilli kadrlardan ibarətdir. Bu iqtisadi rayon kitabxanaçı-biblioqraf kadrlarla təminat səviyyəsinə görə də fərqlənir. Iqtisadi rayonun şəhər, qəsəbə və kəndlərində 338 kitabxana mütəxəssisi cəmləşmişdir**.** Bu işçilərin cəmi 11 nəfər ali ixtisas təhsilli (3,3%), 22 nəfəri ali qeyri-ixtisas təhsilli (6,5%),69 nəfəri (20,4%) orta ixtisas təhsilli, 64 nəfəri (18,9%) qeyri-ixtisas orta təhsilli, 172 nəfəri (50,9%) isə ümumi orta təhsilli kadrlardan ibarətdir. Regionun kənd kitabxanalarında çalışan mütəxəssislər Ağsu rayonu üzrə 73 nəfər, İsmayıllı rayonu üzrə 86 nəfər, Qobustan rayonu üzrə 54 nəfər, Şamaxı rayonu üzrə 79 nəfər olmaqla,

əhalinin informasiya təminatını həyata keçirir. İqtisadi rayon üzrə ümumi orta təhsilli kadrlar məntəqələrdə 54,1% təşkil edir ki, bu da informasiya təminatının keyfiyyətinə mənfi təsir göstərən amillərdən biri hesab olunur. Bu rəqəm Qobustan rayonu üzrə 54 % təşkil edir. Onu da qeyd etməliyik ki, iqtisadi rayona daxil olan bölgələr üzrə yalnız Qobustan rayonunda kənd yaşayış məntəqələrində ali təhsilli kadr yoxdur (6.S.75-83). Azərbaycan Respublikasının Naxçıvan iqtisadi rayonunun ərazisi 5,5 min kv.km-dir.İnzibati cəhətdən iqtisadi rayonun tərkibinə Naxçıvan, Ordubad, Culfa, Babək, Şahbuz, Şərur, Sədərək və Kəngərli rayonları daxildir. 2009-cu ilin statistik məlumatına əsasən iqtisadi rayonun əhalisi 397,4 min (4,6%) olmuşdur. Naxçıvan iqtisadi rayonunda əhalinin 99%-ni azərbaycanlılar, qalan 1%-ni isə digər millətlərin nümayəndələri təşkil edir. İqtisadi rayon üzrə əhalinin sıxlığı bir kv.km-ə 72 nəfər düşür. Bu da ölkə göstəricisindən xeyli aşağıdır. Əhalinin ən çox məskunlaşdığı rayonlar Şərur (102,1 min), Naxçıvan şəhəri (73,7 min), Babək (71,4 min) rayonlarıdır. Naxçıvan iqtisadi rayonunda əhalinin məskunlaşması inzibati rayonlar üzrə aşağıdakı kimidir: Naxçıvan şəhərində 73715 nəfər, Babək rayonunda 71360 nəfər, Culfa rayonunda 41038 nəfər, Kəngərli rayonunda 27468 nəfər, Ordubad rayonunda 44962 nəfər, Sədərək rayonunda 13984 nəfər, Şahbuz rayonunda 22720 nəfər, Şərur rayonunda 102132 nəfər. İqtisadi rayonda əhalinin 73%-i kənd yaşayış məntəqələrində yaşayır. Bu da orta respublika göstəricisi ilə müqayisədə xeyli fərqlidir. Hazırda iqtisadi rayonda 491 kitabxana fəaliyyət göstərir. Bunlar inzibati rayonlar arasında aşağıdakı kimi paylanmışdır:

Naxçıvan şəhərində 49, Babək rayonunda 79, Culfa rayonunda 60, Kəngərli rayonunda 26,Ordubad rayonunda 87, Sədərək rayonunda 9, Şahbuz rayonunda 54, Şərur rayonunda 12 kitabxana var. Bu kitabxanaların 397-i(80,9%) kənd yerlərində yerləşir. İqtisadi rayonda olan kitabxanaların 47,7%-i Mədəniyyət və Turizm Nazirliyinin, 46,4%-i isə Təhsil Nazirliyinin tabeliyindədir. Bu kitabxanalar ölkə kitabxana resurslarının 5,8%-ni təşkil edir. Kitabxanaların ümumi informasiya resursları 4696103 nüsxə təşkil edir. Bu resursların 49,8%-i kənd yaşayış məntəqələrində yerləşir ki, bu da ölkə informasiya resurslarının 7,7%-i deməkdir. İqtisadi rayonda kitabxana-informasiya resursları inzibati rayonlar üzrə aşağıdakı kimi yerləşmişdir: Naxçıvan şəhərində 1237019 nüsxə, Babək rayonunda 583849 nüsxə, Culfa rayonunda 475405 nüsxə, Kəngərli rayonunda 171639 nüsxə, Ordubad rayonunda 928607 nüsxə, Sədərək rayonunda 42789 nüsxə, Şahbuz rayonunda 404182 nüsxə, Şərur rayonunda 852613 nüsxə.

Məlumdur ki, kitabxana-informasiya resurslarının formalaşdırılması, müvafiq informasiya axtarış sistemlərinin təşkili, oxuculara xid-

mətin səmərəliliyi, informasiya mənbələrindən istifadənin fəallaşdırılması bilavasitə kitabxana-informasiya resurslarının əsas komponenti olan kitabxanaçı-biblioqraf kadrlarla təminat vəziyyətindən, həmin kadrların təhsil səviyyəsi, peşəkarlığı, təcrübəsi və s. amillərdən asılıdır. İqtisadi rayon üzrə kitabxana mütəxxəsislərinin 33%-i ali ixtisas təhsilli, 10,1%-i orta-ixtisas təhsilli, 10,4%-i ali qeyri-ixtisas təhsilli, 9,8%-i isə orta qeyri-ixtisaslı kadrlardır. Bu da ümumilikdə, 20,2 %-təşkil edir. Kitabxana işçilərinin 64,9%-i orta təhsillilərdən ibarətdir ki, bu da ölkə üzrə göstəricilərdən 2 dəfə yüksəkdir. Bu vəziyyət Sədərək rayonunda (86,6%), Culfa rayonunda (75,5%) və Babək rayonunda (73%) özünü qabarıq şəkildə göstərir. Lakin ali ixtisas təhsilli mütəxəssislərin xüsusi çəkisinin ölkə üzrə olan göstəricidən (18,1%) yüksək olmasını da (33%) xüsusi qeyd etmək lazımdır. Orta ixtisaslı kadrların təhsil səviyyəsinə baxdıqda məlum olur ki, bu kateqoriyadan olanlar ümumi işçilərin yalnız 10,1 %-ni təşkil edir ki, bu rəqəm ölkə üzrə 20 %-dir.

Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı müharibə nəticəsində torpaqlarımız zəbt olunmuş, işğal altında qalan rayonlarda mövcud iqtisadi potensial talan edilmiş, istehsal-texniki və infrastuktur obyektləri dağıdılmış, Azərbaycan xalqı çoxsaylı insan itkisinə məruz qalmış, bir milyona yaxın vətəndaş öz yaşayış və iş yerlərini, var-dövlətlərini itirərək öz vətənində qaçqın vəziyyətinə düşmüşdür.

Dağlıq Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları işğal olunsa da, əhalinin köçkünlük şəraitində yaşadığı ərazilərdə mövcud şəraitə uyğun olaraq, kitabxanalar, məktəblər və s. fəaliyyət göstərir. Dağlıq Qarabağ iqtisadi rayonu Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonlarını və Xankəndi şəhərini əhatə edir. İqtisadi rayonun Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonlarının və Xankəndi şəhərinin əraziləri tamamilə, Ağdam, Füzuli və Tərtər rayonlarının əraziləri isə qismən erməni işğalı altındadır. Bu səbəbdən Dövlət Proqramı çərçivəsində bu iqtisadi rayon üzrə Ağdam və Füzuli rayonlarının işğal olunmamış ərazilərinin və Tərtər rayonunun inkişafına dair tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Hazırda 1482 kv.km ərazini əhatə edən bu üç rayonda 211,8 min əhali yaşayır. İqtisadi rayonda cəmi 608 kitabxana resursu var. Bu ölkə üzrə göstəricilərin 7,1%-i deməkdir. Kitabxanaların 36,2%-i Mədəniyyət və Turizm Nazirliyinin, 59,1%-i isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Bu kitabxanaların 442-i (72,7%) kənd yaşayış məntəqələrində yerləşir. Ümumi yekuna görə iqtisadi rayonun kənd kitabxanaları ölkə üzrə göstəricilərin 2,3%-ni təşkil edir. İqtisadi rayonun kənd yaşayış məntəqələrində Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 197, Təhsil Nazirliyinin tabeliyində 236 kitabxana fəaliyyət göstərir. Dağlıq

Qarabağ iqtisadi rayonunda 2072714 nüsxə informasiya resursundan 1264257 nüsxəsi kənd kitabxanalarındadır. 98,2% olmaqla, fondun əsasını kitablar təşkil edir.(6.S.23-56) Kənd kitabxanalarında cəmi 2 kompüter var. İqtisadi rayonda 560 nəfər kitabxana mütəxəssisi var. Onların ixtisas səviyyəsinə görə bölgüsü belədir: ali-ixtisas təhsillilər 33 nəfər, ali-qeyri-ixtisas təhsillilər 56 nəfər, orta ixtisas təhsillilər 147 nəfər, orta-qeyri-ixtisas təhsillilər 94 nəfər, ümumi orta təhsillilər 230 nəfər. İqtisadi rayon üzrə mütəxəssislərin yalnız 32,2%-i kitabxana üzrə ali və orta-ixtisas təhsillidir. Kənd kitabxanalarında çalışan 406 nəfər mütəxəssisdən 33,3%-nin ali və orta-ixtisas təhsilli, 20,4%-nin ali və orta qeyri-ixtisas təhsilli, 46,3%-nin isə ümumi orta təhsilli olması məlum olur.

Ağdam inzibati rayonunda cəmi 206 kitabxana resursu var. Onların 147-i kənd yaşayış məntəqələrində yerləşir. Kitabxanaların 49-u Mədəniyyət və Turizm Nazirliyinin, 96-ı isə Təhsil Nazirliyinin tabeliyindədir. Ağdam rayon kitabxanalarında olan 761622 nüsxə informasiya resursunun, 472050 nüsxəsi kənd kitabxanalarında yerləşir. Digər iqtisadi rayonlarda olduğu kimi, bu iqtisadi rayonda da fondun əsasını kitablar təşkil edir. Rayon kitabxanalarında cəmi 152 nəfər kitabxana mütəxəssisindən 98 nəfəri kənd kitabxanalarında çalışır və 33,6%-i ali və orta ixtisas, 21,5%-i ali və orta qeyri-ixtisas, 44,9%-i isə ümumi orta təhsillidir. (6.S.75-83)

Füzuli inzibati rayonunda cəmi 126 kitabxana resursundan 89-u kənd yaşayış məntəqələrində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 30, Təhsil Nazirliyinin tabeliyində 52 kitabxana var. Kitabxanalardakı cəmi 285896 nüsxə informasiya resursundan 160448 nüsxəsi kənd kitabxanalarındadır. Kitablar 160362 nüsxə olmaqla, fondun əsasını təşkil edir. Füzuli rayon kitabxanalarında 10 kompüter var. Rayonda cəmi 121 nəfər kitabxana mütəxəssisi var. Onların 90 nəfəri kənd kitabxanalarında çalışır ki, onların 46,7%-i ali və orta ixtisas təhsilli, 18,9%-i ali və orta-qeyri-ixtisas təhsilli, 34,4%-i ümumi orta təhsillidir.

Tərtər inzibati rayonunda cəmi 97 kitabxana resursu var. Kitabxanaların 85-i kəndlərdə yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 49, Təhsil Nazirliyinin tabeliyində 36 kitabxana fəaliyyət göstərir. Tərtər rayon kitabxanalarında 511332 nüsxə informasiya resursundan 348441 nüsxəsi kənd kitabxanalarındadır ki, onun 343219 nüsxəsi kitablardır. Kitabxanalarda 87 nəfər mütəxəssis var. Onların 76 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislərin 34,3%-i ali və orta-ixtisas təhsilli, 14,4%-i ali və orta qeyri-ixtisas təhsilli, 51,3%-i ümumi orta təhsillidir.

Cəbrayıl rayonunda cəmi 77 kitabxana resursu var. Bu

kitabxanaların 47-i kənd yaşayış məntəqələrində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 30, Təhsil Nazirliyinin tabeliyində 17 kitabxana fəaliyyət göstərir. Cəbrayıl rayon kitabxanalarında olan 245265 nüsxə informasiya resursundan 153059 nüsxəsi kənd yaşayış məntəqələrində yerləşən kitabxanalardadır. Rayon kitabxanalarında çalışan 77 nəfər mütəxəssisdən 47 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir. Onların 29,8%-i ali və orta ixtisas təhsilli, 40,4%-i ali və orta-qeyri-ixtisas təhsilli, 29,8%-i ümumi orta təhsillidir.

Xocalı rayonunda cəmi 40 kitabxana resursunun 24-ü kənd yaşayış məntəqələrindədir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 18, Təhsil Nazirliyinin tabeliyində isə 6 kitabxana fəaliyyət göstərir. Xocalı rayonunda kitabxanalarda olan cəmi 74439 nüsxə informasiya resursundan 45438 nüsxəsi kənd kitabxanalarında yerləşir və onların 45283 nüsxəsi kitablardır. (6.S.23-56) Rayon kitabxanalarında çalışan cəmi 40 nəfər mütəxəssisdən 24 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir. Onların 25%-i ali və orta ixtisas təhsilli, 12,5%-i ali qeyri-ixtisas təhsilli, 62,5%-i ümumi orta təhsillidir.

Xocavənd rayonunda cəmi 33 kitabxana resursundan 32-i kənd yaşayış məntəqələrində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 19, Təhsil Nazirliyinin tabeliyində isə 13 kitabxana var. Rayon kitabxanalarında cəmi 75095 nüsxə informasiya resursundan 42504 nüsxəsi kənd kitabxanalarında yerləşir. Kənd kitabxanalarında kitablar 41242 nüsxə olmaqla, fondun əsasını təşkil edir. Rayon kitabxanalarında cəmi 55 nəfər mütəxəssisdən 54 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislər arasında ali ixtisas təhsilli kadrlar yoxdur. Ali və orta qeyri-ixtisas təhsillilər 11,2%, orta ixtisas təhsillilər 13%, ümumi orta təhsillilər 75,8%-dir. (6.S.75-83)

Dağlıq Qarabağ iqtisadi rayonuna daxil olan Şuşa şəhərində cəmi 29 kitabxana resursu var. Kitabxanaların 18-i kənd yaşayış məntəqələrində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 2, Təhsil Nazirliyinin tabeliyində 16 kitabxana var. Kitabxanalarda olan 119065 nüsxə informasiya resursundan 42317 nüsxəsi kənd kitabxanalarındadır və cəmi 42317 nüsxə olmaqla, onun əsasını kitablar təşkil edir. Kitabxana mütəxəssisləri 28 nəfərdir. Onların 17 nəfəri kənd kitabxanalarında çalışır və 41,2%-i ali və orta-ixtisas təhsilli, 35,3%-i ali və orta qeyri-ixtisas təhsilli, 23,5%-i isə ümumi orta təhsillidir.

Kəlbəcər-Laçın iqtisadi rayonu Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarını əhatə edir. Azərbaycan ərazisinin 7,5%-i, əhalisinin isə 2%-dən bir qədər çoxu bu iqtisadi rayonun payına düşür. Iqtisadi rayona daxil olan bütün inzibati rayonlar erməni işğalı altında olduğundan həmin rayonların inkişafına dair tədbirlər Dövlət Proqramı

çərçivəsində nəzərdə tutulmamışdır. İqtisadi regionda cəmi 381 kitabxana resursu var. Bu kitabxanaların 289-u kənd yaşayış məntəqələrindədir. 116 kitabxana Mədəniyyət və Turizm Nazirliyinin, 173 kitabxana isə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərir. İqtisadi rayonda cəmi 1055843 nüsxə informasiya resursu var. Fondun 446165 nüsxəsi kənd kitabxanalarında yerləşir ki, onun da 444976 nüsxəsini kitablar təşkil edir.(6.S.44-66) Regiondakı kitabxanalarda cəmi 369 nəfər mütəxəssis çalışır. Mütəxəssislərdən 277 nəfəri kənd kitabxanalrında çalışır ki, onlardan 29%-i ali və orta-ixtisas təhsilli, 34,4%-i ali və orta qeyri-ixtisas təhsilli, 36,6%-i ümumi orta təhsillidir.

İqtisadi rayona daxil olan Kəlbəcər inzibati rayonunda 114 kitabxana resursundan 71-i kənd yaşayış məntəqələrindədir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 1, Təhsil Nazirliyinin tabeliyində isə 71 kitabxana fəaliyyət göstərir. Rayon kitabxanalarında 292693 nüsxə informasiya resursundan 135462 nüsxəsi kənd kitabxanalarında yerləşir. Burada da fondun əsasını kitablar təşkil edir. Kəlbəcər rayon kitabxanalarında 112 nəfər mütəxəssis var. Onların 69 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislər arasında ali ixtisas təhsilli kadrlar yoxdur və onların 10,1%-i ali və orta qeyri-ixtisas təhsilli, 5,8%-i orta-ixtisas təhsilli, 84,1%-i ümumi orta təhsillidir.

Qubadlı rayonunda cəmi 33 kitabxana resursu var. Kitabxanaların 28-i kənd yaşayış məntəqələrində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 1, Təhsil Nazirliyinin tabeliyində 28 kitabxana var. Rayon kitabxanalarında 184994 nüsxə informasiya resursundan 84373 nüsxəsi kənd yaşayış məntəqələrində yerləşir və əsasını kitablar təşkil edir.(6.S.23-56) Rayon kitabxanalarında cəmi 34 nəfər mütəxəssis var. Onların 29 nəfəri kənd kitabxanalarında fəaliyyət göstərir. Mütəxəssislərin 44,8%-i ali və orta-ixtisas təhsilli, 55,2%-i ali və orta-qeyri ixtisas təhsillidir. Rayonda ümumi orta təhsilli kitabxana mütəxəssisi yoxdur.

Laçın rayonunda cəmi 196 kitabxana resursu var. Onların 189-u kənd yaşayış məntəqələrində yerləşir. Kənd yaşayış məntəqələrində Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 115, Təhsil Nazirliyinin tabeliyində 74 kitabxana fəaliyyət göstərir. Rayon kitabxanalaırnda olan 524977 nüsxə informasiya resursundan, 198855 nüsxəsi kənd kitabxanalarında yerləşir və onun da 197718 nüsxəsi kitablardır. Kitabxanalarda 183 nəfər mütəxəssis var. Onların 176 nəfəri kənd kitabxanalarında çalışır. Mütəxəssislərdən 37%-i ali və orta-ixtisas təhsilli, 38%-i ali və orta qeyri-ixtisas təhsilli, 55 nəfəri orta-ixtisas təhsilli, 25%-i ümumi orta təhsillidir.

Zəngilan rayonunda cəmi 38 kitabxana var. Onların 1-i kənddə

yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 2, Təhsil Nazirliyinin tabeliyində 36 kitabxana var. Bu kitabxanalar şəhər yaşayış mərkəzlərində yerləşir. Rayon kitabxanalarında cəmi 53179 nüsxə informasiya resursu var. Fondun 27475 nüsxəsi kənd kitabxanasında olmaqla, əsasını kitablar təşkil edir. Rayon kitabxanalarında çalışan 40 nəfər mütəxəssisin yalnız 3 nəfəri kənd kitabxanasında fəaliyyət göstərir. Bu mütəxəssislərdən 2 nəfəri ali və orta qeyri-ixtisas, 1 nəfəri orta-ixtisas təhsillidir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda kitabxanaların elm, informasiya,mədəniyyət,təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən,onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institut olması öz əksini tapmışdır. (7.S.3-16) Bununla belə, Qanunda kitabxana fəaliyyətinin gələcək istuqamətləri, kitabxana fondlarının təchizatı, kitabxanaların elmi-metodik təminatı, kitabxanaların kadr təminatında ixtisaslı kitabxanaçı-biblioqraflara üstünlük verilməsi və.s. öz əksini tapmışdır. Əhalinin informasiya təminatının ödənilməsində elmi-texniki, uşaq, gənclər, musiqi məktəblərinin, muzey və digər mədəniyyət və tədris müəssisələrinin, eləcə də müxtəlif təşkilatların tabeliyində olan kitabxanalar, o cümlədən 6 respublika əhəmiyyətli kitabxana, Bakı şəhərində 84 kitabxana və filialı, 72 şəhər və rayon MKS-i mühüm rol oynayır. Respublikamızın müxtəlif iqtisadi rayonlarında fəaliyyət göstərən MKS-lər və onların filiallarından bəhs edərkən, qeyd etməliyik ki, 2009-cu ilin əvvəllərinə qədər respublikamızdakı bütün kütləvi kitabxanaların sayı 4029 olmuşdur. Naxçıvan MR. və digər regionlardakı kütləvi kitabxana şəbəkələri, onların filialları, informasiya resursları 1996-2009-cu ilə qədər bu statistik hesablamalarda öz əksini tapmışdır. Statistik hesablamalardan aydın olur ki, 1996-cı ildə şəhər və kənd yaşayış məntəqələrində kütləvi kitabxanaların sayı 4794 olmuşdur. Lakin 2009-cu ilə qədər statistik hesablamalardan məlum olur ki, bu illər ərzində kütləvi kitabxanaların sayı, onların oxucuları və informasiya resursları azalmağa doğru getmişdir. Yalnız 2007-ci illərdən sonra kütləvi kitabxanalar, onların fondları, informasiya tələbatçıları müəyyən qədər artmağa başlamışdı. Bu artım həm şəhər mərkəzlərində, həm də kənd yaşayış məntəqələrində yerləşən kütləvi kitabxanalarda hiss olunmuşdur. Belə ki, 1996-cı ildə oxuculara düşən informasiya resursunun sayına görə bölgü bu şəkildə olmuşdur: hər 5168 nəfər oxucuya 39,3 milyon nüsxə; 2007-ci ildə : hər 4286 nəfər oxucuya 36,4 milyon nüsxə, 2009-cu ildə: hər 4335 nəfər oxucuya 37,3 milyon nüsxə.(5.S.232-235) 2009-cu ildə respublikamızın kənd yaşayış məntəqələrində yerləşən

kütləvi kitabxanaların sayı- 3402, onların fondu- 19,4 milyon nüsxə, oxucularının sayı- 1196000 nəfər olmuşdur. MKS-lərin və onların filialları olan kütləvi kitabxanaların sayının, oxucusunun, fondunun azalmasına nə səbəb olmuşdur? Bu sualın cavabı əslində "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda öz əksini tapır: ötən əsrin 90-ci illərinin əvvəllərində ölkədə baş verən hadisələr kitabxanaların da fəaliyyətinə mənfi təsir göstərmiş, kitab nəşri və kitab təhcizatı sistemi tamamilə iflic vəziyyətinə düşmüş, onların maddi-texniki bazasının olduqca zəifləməsinə gətirib çıxarmışdır. Bütün bunlar kitabxana sahəsinin tənəzzülünə səbəb olmuşdur. Nəticədə kitabxanalar real və potensial oxucularını itirmiş, xeyli sayda kitabxanalar bağlanılmış, əksəriyyəti oxucu tələbatını ödəyə bilməmiş, mövcud ştat vahidləri ixtisar edilmişdir. Bunun əsas səbəbi Ermənistan silahlı qüvvələri tərəfindən respublika ərazisinin 20 faizinin işğal olunması idi., hazırda bu torpaqların hələ də erməni tapdağı altında olması və bunun nəticəsində 9 Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, 927 kitabxananın və onların 4 milyondan artıq kitab fondunun məhv edilməsi, kitabxanaların yeni nəşrləri almaq üçün vəsaitlə təmin edilməməsi, habelə kitabxana fondlarından məzmunca əhəmiyyətini itirmiş və mənəvi cəhətdən köhnəlmiş kitabların çıxarılması olmuşdur.(3.S.6-29)

Hazırda, kitabxana-informasiya şəbəkəsinə daxil olan kitabxanaların 90 faizi müasir tələblərə cavab vermir.Kitabxanaların əksəriyyətinin yararsız vəziyyətdə olması, eyni zamanda kitabxana filiallarının 79,2 faizinin sahəsi darısqal olduğundan əhalinin 66,8 faizi onlardan istifadə edə bilmir. Bu sıraya Mingəçevir, Naftalan, Sumqayıt, Yevlax, Şirvan, Ağcabədi, Astara, Beyləqan, Bərdə, Qazax, Qobustan, Zaqatala, Yardımlı, Lerik, Neftçala, Biləsuvar, Samux, Xaçmaz, Cəlilabad, Ucar, Kürdəmir və digər rayon kitabxanaları daxildir. Kitabxanaların müxtəlif sahələrə aid yeni nəşrlərlə təmin edilməsinə, fondlarının mühafizəsinə, binalarının əsaslı təmirinə, avadanlıqla təmin edilməsinə və kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına ciddi ehtiyac olduğu "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda da nəzərə çatdırılmışdır.(3.S.6-29) Bundan əlavə kitabxana-informasiya sahəsində həll olunmamış əsas problemlərdən biri də kitabxana fondlarının mühafizəsi və bərpası məsələsidir. Vacib və təxirəsalınmaz işlər sırasına latın qrafikası ilə buraxılan yeni nəşrlərin elektron daşıyıcılara köçürülməsi də daxildir. Bu problemləri həll etmək baxımından Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında " 2004-cü il 12 yanvar

tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamları xüsusi əhəmiyyət daşıyır. Belə ki, kitabxanalarda olan ədəbiyyatın kiril qrafikasından latın qrafikasına çevrilərək, yenidən nəşr edilib kitabxanalara pulsuz paylanması, kitabxana fondlarından məzmunca əhəmiyyətini itirmiş və köhnəlmiş kitabların çıxarılması da bu sərəncamın gözlənilən nəticələri arasındadır. Kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi və modernləşdirilməsi, kitabxana-informasiya resurslarının dünya məkanına inteqrasiyasının təmin edilməsi, elektron informasiya fondlarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, kompüterləşdirilmiş kitabxana infrastrukturunun qurulması, kitabxanaların yeni informasiya texnologiyaları ilə təmin edilməsi və. bu kimi digər vəzifələr də kitabxanaların inkişafı üçün nəzərdə tutulmuşdur. Kitabxana-biblioqrafiya işinin inkişafı və bu sahənin daha da yaxşılaşdırılmasına dövlətimiz tərəfindən daim qayğı göstərilmişdir. "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin 20 aprel 2007-ci il sərəncamında deyildiyi kimi "Bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır" (4)

Azərbaycan Respublikasında əhalinin kitabxana-informasiya təminatının ödənilməsi, ayrı-ayrı regionlarda təşkil olunmuş kitabxana infrastrukturunun inkişaf etmiş cəmiyyətin tələbləri səviyyəsində modernləşdirilməsi, onların informasiya mənbələrinin elektron informasiya daşıyıcılarına köçürülməsi, kitabxanaların kadr potensialının yaxşılaşdırılması, eləcə də bu inkişafın regionların sosial-iqtisadi potensialına uyğun şəkildə həyata keçirilməsi və cəmiyyətin intellektual potensialının tərkib hissəsi kimi dövlət siyasətinin aparıcı prioritetinə çevrilməsində mühüm əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT


1. *«Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafı Dövlət Proqramı (2004- 2008-ci illər)».// Azərbaycan.- 2004.- 11 fevral.*
2. *«Azərbaycan Respublikası regionlarının 2009- 2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı».-Bakı: Nurlar, 2009.-184s.*
3. *«Azərbaycan Respublikasında kitabxana - informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı».//Kitabxanaşünaslıq*

*və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal.-2008.№ 2.-s.6-29.*

*4. «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında». Azərbaycan Respublikası Prezidentinin sərəncamı.//Azərbaycan.-2007.-21 aprel. "Azərbaycanın statistik göstəriciləri 2009".-Bakı.-"Səda", 2009.-772s.*

*5. «Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə.*

*6. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı.-2009.-88s.*

*6. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu// Kitabxanaşünaslıq və biblioqrafiya.1999.-N1.-S.3-16.*

*7. İsmayılov.N.İ. Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi yurnal.- 2010.N1.-s.67-78.*

**И. БАЙРАМОВА**

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ РАЗМЕЩЕНИЯ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### РЕЗЮМЕ

В статье анализируются современное состояние размещения библиотечное-информационных ресурсов в регионах Азербайджанской Республики, о также проявление заботы государства в этой области, о роле библиотек в повышение интеллектуально-культурного развития уровня населения.

**I. BAYRAMOVA**

## THE POSITION OF LOCATION LIBRARY-INFORMATION RESOURSES IN REGIONS OF AZERBAIYAN REPUBLIK

### SUMMARY

In this article analyses the situation of library-information resources in the regions of Azerbaijan Republic. At the some trine in this specter deals with the increasing of libraries because of development of people's intellectual-cultural leve lthe reflection of state's care to it.

**Əliyusif MƏMMƏDOV**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİNİN PREZİDENT KİTABXANASINDA YARADILMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI – 20" ELEKTRON SƏNƏD-İNFORMASİYA LAYİHƏSİNİN QURULUŞU VƏ İNFORMASİYA-AXTARIŞ İMKANLARI

***Açar sözlər:*** *ilkin sənəd-informasiya mənbələri, törəmə sənəd-informasiya mənbələri, elektron sənəd-informasiya toplusu, faktoqrafik-xronoloji göstəricilər, Prezident Kitabxanası*

***Ключевые слова:*** *первичные документально-информационные источники, вторичные документально-информационные источники, электронные документально-информационные сборники, фактографическо- хронологический указатель, Президентская библиотека*

***Key words**: primary documentary-information sources, secondary documentary-information sources, electronic documentary-information compilation, factografical –chorological indexes, Presidential Library*

2011-ci il Azərbaycanda kitabxana işi sahəsində uğurlu bir il olmuşdur. Ölkəmizin bütün dövlət və qeyri-dövlət müəssisələri, təşkilatları kimi respublikanın kitabxanaları da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illik yubileyini geniş qeyd etmiş, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrasını davam etdirmiş, kitabxanalarda mütərəqqi informasiya texnologiyalarının, qabaqcıl metodların tətbiqi sahəsində yeni nailiyyətlər qazanmışlar. Məlumdur ki, Dövlət Proqramında ölkəmizin kitabxanalarının XXI əsrin çağırışlarına cavab verə bilən səviyyəyə çatdırılması istiqamətləri müəyyənləşdirilmiş, prioritetlər nəzərdə tutulmuşdur. Dövlət Proqramında nəzərdə tutulmuş istiqamətlərdən kitabxanaların sənəd-informasiya resurslarının daha da inkişaf etdirilməsi, həmin resursların təşkilinin və təqdim edilməsinin yeni metodlarının tətbiqi xüsusi qeyd edilməlidir. Dövlət Proqramında bu istiqamətdə nəzərdə tutulmuş tədbirlərdən aşağıdakıları göstərmək mümkündür;

"-köklü islahatların aparılması, kitabxana- informasiya resurslarının dünya məkanına inteqrasiyasının təmin edilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, idarələrarası koordinasiyanın təşkil;

- elektron informasiya fondlarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların istifadəsinə verilməsi;

- elektron kataloq və elektron kitabxanaların yaradılması işinin təmin edilməsi, onların müasir standartlar səviyyəsinə çatdırılması;

- kompüterləşdirilmiş kitabxana infrastrukturunun qurulması, kitabxanaların yeni informasiya texnologiyaları ilə təchiz edilməsi" kimi vacib vəzifələr sadalanır [1, S.11-12.].

Göründüyü kimi, bu vacib direktiv sənəddə ölkənin kitabxanaları tərəfindən cəmiyyətin intensivləşən informasiya tələbatının lazımınca ödənilməsinə xüsusi diqqət yetirilir. Bu tədbirlər həm də kitabxana fəaliyyəti sahəsində dünyada müşahidə edilən tendensiyaya müvafiqdir. Məlumdur ki, dünyanın inkişaf etmiş ölkələrində kitabxanalara həm də vətəndaşların informasiyaya azad müyəssərlik hüququnun reallaşdırıldığı bir məkan kimi də xüsusi önəm verilir [2, S.3.] Bu tendensiya müstəqillik dövründə Azərbaycanda da bərqərar olmuşdur və bu hüququn reallaşması üçün Prezident Kitabxanasında da xeyli iş görülür. Ölkəmizin ən mükəmməl kitabxanalarından biri kimi Prezident Kitabxanası qabaqcıl texnologiyaların tətbiqi, yeni metodlardan istifadə sahəsində Dövlət Proqramında təsbit edilmiş məsələlərin həyata keçirilməsi istiqamətində ardıcıl və planauyğun fəaliyyət həyata keçirir.

Dövlət Proqramının qəbulundan keçən müddət ərzində kitabxanada hər il yeniliklər həyata keçirilir, fəaliyyət, xidmət prosesi daha da təkmilləşdirilir. Prezident Kitabxanasında formalaşmış bu ənənə 2011-ci ildə də davam etdirilmişdir. Məhz bu səbəbdən də 2011-ci ildə öz fəaliyyətində əhəmiyyətli nəticələrə nail olan kitabxanaların sırasında Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası da xüsusilə qeyd edilməlidir. Məlumdur ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının ildönümü ilə əlamətdar olmuşdur. Bu səbəbdən də Prezident Kitabxanası Azərbaycan həmin əlamətdar hadisəyə həsr edilmiş qiymətli töhfə hazırlamışdır. Belə ki, həmin tarixi ildönümü ilə bağlı Prezident Kitabxanası tərəfindən zəngin on layn sənəd-informasiya toplusu, "**Azərbaycan Respublikası - 20 "** adlı elektron layihə hazırlanaraq tələbatçıların istifadəsi üçün Kitabxananın internet saytına yerləşdirilmişdir (http://republic.preslib.az/index.html).

Quruluşca mürəkkəb və geniş informasiya təminatı imkanlarına malik bu layihənin strukturuna nəzər yetirməzdən əvvəl belə mənbələrin yaradılmasının zərurətinə, onların müasir kitabxana praktikasında tutduğu yerə və əhəmiyyətinə nəzər yetirmək məqsədəuyğundur.

Meydana gəlməsi tarixi dörd min ildən artıq olan sənəd-informasiya təminatı müəssisəsi kimi kitabxanalar yarandıqları ilk vaxtdan indiki dövrə qədər zəngin bir inkişaf yolu keçmişlər. Yaranmasının ilk dövründə kitabxanalar o zaman qiymətli sərvət sayılan və müxtəlif maddi informasiya daşıyıcılarına yazılan sənədləri toplamaq, mühafizə etmək və onların istifadəsini təşkil etmək funksiyasını yerinə yetirirdi. Bununla paralel olaraq kitabxanalarda həmin sənəd fondunun tərkibini açan ilk biblioqrafik mənbələr-siyahı formalı kataloqlar yaradıldı. Təbii ki, ən qədim dövrlərdən başlayaraq kitabxanaçıların xidməti təkcə istifadəçiyə sənəd verməklə məhdudlaşmırdı. Onlara həm də şifahi şəkildə sənədlərin məzmununu açan, indiki terminologiya ilə desək. "kontent xarakterli" informasiya, həm də sənədləri identifikasiya edən ikinci səviyyəli – biblioqrafik informasiya verilirdi. Bizim eranın başlanğıcında isə kitabxanalar öz sənəd-kommunikasiya funksiyaların daha da genişləndirərək sənədlərin duplikasiyası (nüsxələrinin köçürülərək çoxaldılması) və tələbatçılara təkcə öz fondlarında olan sənədlər haqqında deyil, harada saxlanmasından asılı olmayaraq ümumiyyətlə mövcud olan sənədlər haqqında sıyahılar, göstəricilər şəklində biblioqrafik informasiya verməyə başladlılar.

Bizim fikrimizcə kitabxana işinin tarixin sonrakı iki min illik inkişafında yerinə yetirdiyi əsas vəzifədə əhəmiyyətli bir yenilik müşahidə edilməmişdir. Belə yeniliklər ancaq XX əsrin ikinci yarasından etibarən tədricən yeni informasiya texnologiyalarının sənəd-kommunikasiyalar sisteminə nüfuz etməsi ilə başlamışdır. İnformasiyanın emalını, saxlanmasını, onun axtarılmasını, tələbatçılara təqdim edilməsini dəfələrlə sürətləndirən və asanlaşdıran belə texnologiyaların əvvəlcə nəşriyyatlarda, elmi və texniki informasiya orqanlarında tətbiq edilməsinin ardınca onlar kitabxana işinə də yol tapdılar. Əgər biz kitabxana işində yeni texnologiyalarının tətbiqinin ən parlaq nümunəsi kimi qəbul edilən elektron kataloqun (biblioqrafik verilənlər bazalarının) yaradılması prosesinə nəzər salsaq, bu yeniliyin yerinə yetirdiyi funksiya baxımından ənənəvi kataloq və kartotekadan prinsipcə bir fərqi olmadığını görərik. Burada fərq bu işin daha asan və daha səmərəli, texnikanın və proqram təminatının tətbiqi ilə görülməsi, bir sənədin biblioqrafik yazısının ancaq bir dəfə(elektron formada) yaradılması və sonradan dəfələrlə ən müxtəlif məqsədlərlə istifadə edilmək, daxili kompüter şəbəkəsində, internetdə yerləşdirmək, bu şəbəkələrlə istənilən ünvana göndərmək imkanının olmasıdır.

Kitabxana tərəfindən nəşriyyatlar və digər müəssisələr tərəfindən yaradılmış elektron sənədlərin qəbul edilərək (komplektləşdirilərək) oxu zalı və ya abonement vasitəsi ilə tələbatçıların istifadəsinə təqdim

edilməsinə gəldikdə, burada da kitabxananın ənənəvi funksiya və xidmət istiqamətlərinə prinsipcə fərqli bir yeniliyin əlavə edilməsini söyləmək mümkün deyil.

XXI əsrin astanasında kitabxana fəaliyyətində yeni informasiya texnologiyalarının geniş miqyasda tətbiqi və rəqəmli kitabxanaların yaradılması ilə əlamətdar olmuşdur. Məlumdur ki, yeni informasiya texnologiyalarının kitabxana işinə tətbiqi sahəsində ilk mövqe ABŞ kitabxanalarına məxsusdur. Məhz buna görə də "rəqəmli kitabxanalar" ("digital libraries") termini ilk dəfə məhz bu ölkədə fəaliyyət göstərən Milli Tədqiqat Təşəbbüsləri üzrə Korporasiyanın 1988-ci il üçün illik hesabatında istifadə edilmişdir [4]. Belə kitabxanalar tələbatçıların sənəd-informasiya təminatını coğrafi və zaman məhdudiyyəti olmadan rəqəmli sənədlərlə yüksək keyfiyyətlə həyata keçirməyə imkan verirlər.

Bizim fikrimizcə, XX əsrin son rübü və XXI əsrin əvvəllərində həm ənənəvi, həm də rəqəmli kitabxanaların fəaliyyətində, onların yerinə yetirdiyi xidmətdə meydana gəlmiş əsas yeniliklərdən biri ənənəvi fondlarda və ya əlçatar səviyyəli digər mənbələrdə olan sənəd və informasiya resurslardan istifadə etməklə, yeni tərtibat, kompozisiya əməliyyatlarını yerinə yetirməklə nisbi yeniliyə malik( törəmə) sənəd-informasiya resursları yaradılmasıdır. Beləliklə, bir sənəd-kommunikasiya institutu olmaqla kitabxana informasiya tələbatının öyrənilməsinin müxtəlif metodlarını tətbiq etməklə özünün tələbatçılarının hansı mövzulu, istiqamətli, janrlı və s. xassəli sənəd formasında olan informasiyaya ehtiyacları olduğunu müəyyənləşdirir və öz fondunda olan sənəd resuslarından istifadə etməklə həmin tələbatı daha məqsədəyönlü, dolğun ödəməyə imkan verən informasiya mənbələri yaradır. Biz bu elektron sənəd-informasiya toplularını ona görə "törəmə" adlandırırıq ki, burada olan informasiya öz mənşəyinə görə əsasən orijinal olmayıb, kitabxananın fondunda olan ayrı-ayrı sənədlərin (monoqrafik əsərin, dövri nəşrlərdə dərc edilmiş materialın) tam mətnlərinin və ya onların ayrı-ayrı bölmə və hissələrinin, fraqmentlərin məcmusudur. Bir çox halda belə sənəd-informasiya resursunun əsas hissəsinə digər komponentlər də əlavə edilə bilər. Belə əlavə komponentlərə sənəd-informasiya resursunun mövzusuna, istiqamətinə uyğun olan, bütöv şəkildə təqdim edilməsi məqsədəuyğun hesab edilən kitablar, məqalələr və digər bütöv (tam) sənədlər, mövzu ilə bağlı əlavə mütaliə edilməsi məsləhət bilinən digər kitabların, məqalələrin və digər tam sənədlərin biblioqrafik siyahısı, əlavə olaraq illüstrasiyalar, xəritələr, video və audiofayllar aiddir.

Müşahidələr göstərir ki. aktual mövzu istiqamətli və tələbatçı ünvanlı belə resursların yaradılması bu tipli istifadəçi tələbatının ödənilməsinin effektivliyini dəfələrlə yüksəltməyə imkan verir. Çünki,

çox az oxucu kitabxananın sənəd-informasiya resursunu kitabxanaçının özü qədər dərindən təhlil edə, fondda olan relevant ilkin sənədləri kitabxanaçı qədər peşəkar səviyyədə, tamlıqla aşkara çıxara, onlardan bitkin bir kompozisiya yarada bilər. Bu baxımdan kitabxananın mütəxəssisləri tərəfindən tərtib edilən belə mənbələr əhəmiyyətinə görə əvəzsizdir.

Əlbəttə, kitabxanalarda belə sənəd-informasiya resurslarına tələbat əvvəllər də var idi və onları ənənəvi üsullardan istifadə etməklə yaratmaq da prinsipcə mümkün idi. Sadəcə olaraq, bu iş xeyli çox vaxt və işçi qüvvəsi tələb etdiyi üçün onu həyata keçirmək praktik olaraq qeyri-mümkün idi. Belə mənbələrin yaradılması üçün texniki imkan yalnız kitabxanalarda yeni informasiya texnologiyalarının mənimsənilməsi və onların potensial imkanlarının öyrənilməsi ilə mümkün olmuşdur.

Dünya kitabxanalarında haqqında bəhs etdiyimiz tipli törəmə sənəd-informasiya resursları ilk dəfə XX əsrin 90-cı illərinin sonlarında ABŞ kitabxanalarında yaradılmağa başlamışdır. Bu iş ilk növbədə həmin ölkənin təhsil müəssisələrindəki, əvvəlcə universitetlərdə, sonra isə ümumtəhsil məktəblərindəki kitabxanalarda (məktəb media mərkəzlərində) həyata keçirilməyə başladı və belə resurslar təhsil subyektlərinin sənəd-informasiya tələbatını daha tez və dolğun ödəmək məqsədinə xidmət edirdi.

Azərbaycanda isə bu tipli resursların yaradılması sahəsində ilk praktiki işlər məhz Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Prezident Kitabxanasında həyata keçirilmişdir. Məlumdur ki, bu kitabxana Azərbaycanda kitabxana-biblioqrafik proseslərdə yeni informasiya texnologiyalarının, yeni metodların tətbiqi sahəsində aparıcı mövqelərə malikdir. Elektron kataloqla bağlı tammətnli verilənlər bazasının, fonda daxil olan dövri və ardı davam edən sənədlərin elektron kartotekasının yaradılması işi respublikamızda məhz bu kitabxanada mənimsənilmişdir. Eləcə də, ölkəmizin kitabxanaları arasında ilk dəfə olaraq məhz burada sənəd-informasiya topluları tipli elektron resurslar yaradılmağa başlanmışdır. Bunlar 2004-cü ilin avqustunda istifadəyə verilmiş “Xoşməramlı səfir” və “Azərbaycanda Olimpiya hərəkatı” adlı sənəd-informasiya toplularıdır. Həmin ilk mənbələrin yaradılmasından indiyədək Prezident Kitabxanasında elektron sənəd-informasiya topluları- **13 adda e-resurs və 9 adda e-layihə** yaradılmışdır. Bu toplular kitabxananın missiyası, onun fəaliyyətinin əsas istiqaməti və istifadəçilərin sənəd-informasiya tələbatının əsas istiqamətlərinə müvafiq olaraq tərtib edilmişdir. Məlum olduğu kimi, Kitabxananın fəaliyyətində əsas istiqamət ölkənin ali icra hakimiyyəti orqanlarının sənəd-informasiya tələbatının ödənilməsi, Azərbaycan dövlətçiliyi, idarəetmə sistemi, iqtisadiyyatı, sosial quruculuğu, tarixi və digər ölkəşünaslıq

mövzuları üzrə tədqiqat aparan mütəxəssislərə sənədlə və biblioqrafik informasiya ilə yardım edilməsi olmuşdur. Adları çəkilən sənəd-informasiya toplularının mövzusu seçilərkən, onun dil, janr istiqaməti, həcmi və quruluşu müəyyənləşdirilərkən məhz həmin amillər nəzərə alınmışdır. Bu səbəbdən də həmin toplular sırasında ölkə başçısı Prezident İlham Əliyevin, ölkənin birinci xanımı Mehriban Əliyevanın fəaliyyətinin müxtəlif istiqamətləri, ümummilli lider Heydər Əliyevin irsinin, onun haqqında ədəbiyyatın müxtəlif aspektlərdən təhlilinə və kitabxananın məramı, fəaliyyət istiqaməti ilə əlaqədar digər aktual mövzulara üstünlük verilmişdir. Bu sənəd-informasiya toplularından "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri, bəyanatları: 2003-2011". "İlham Əliyev və Azərbaycanın neft diplomatiyası", "Əsrin müqaviləsi - 15 il", "Azərbaycanda Olimpiya hərəkatı", "Xoşməramlı səfir", "Dağlıq Qarabağ münaqişəsi", "Azərbaycanlıların soyqırımı və deportasiyası" kimi elektron resursları, "Heydər Əliyev: Elektron Sənədlər toplusu", "Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasət fəaliyyəti ", "Odlar Yurdu Azərbaycan", "XX əsrin faciəsi – Xocalı soyqırımı" "Azərbaycan. Dövlət rəmzləri və atributları", "Təcavüz. 20 yanvar. Bakı" kimi elektron layihələri xüsusi qeyd etmək olar, Qeyd edək ki, bu sənəd-informasiya toplularının müvafiq mövzuları və onların ayrı-ayrı hissələri mütəmadi olaraq yeni sənədlərlə zənginləşdirilir və onlar Kitabxananın internet saytında hamının sərbəst istifadəsi üçün yerləşdirilmişdir.

Yeni kitabxana texnologiyaların yaradılması və tətbiqi sahəsində tanınmış mütəxəssislər A.M. Zemskov və Y. L. Şrayberq müasir sənəd informasiya resurslarından bəhs edərkən bu resursları müxtəlif əlamətlərə görə təhlil etmiş, onların fərqləndirici əlamətlərindən biri kimi onların çap olunmuş sənəd-informasiya resurslarına münasibəti baxımdan növünü fərqləndirmiş və öz növbəsində, bunu da üç altnövə ayırmışlar. Bunlar çap analoqları olmayan elektron resurslar, mövcud çap edilmiş sənədlərin dəstəklənməsi(onların mühafizəsi, istifadənin daha səmərəli təşkili və s.) üçün yaradılan elektron resurslar və çap edilmiş sənədlərin əsasında yaradılan, lakin uzun müddət saxlanmaq üçün nəzərdə tutulmayan elektron informasiya resurslarıdır [3, S.56.]. Prezident Kitabxanasında yaradılan elektron sənəd informasiya toplularını ( "e-resurslar" və "e-layihələr") bu alimlərin təklif etdiyi yuxarıdakı təsnifatla tutuşdursaq bu topluların fərqləndirici əlamətlərin həmin təsnifatdakı ayrı-ayrı altnövlərin əlamətlərindən daha geniş olduğunu müəyyənləşdirə bilərik. Belə olduğu təqdirdə, bizim fikrimizcə, yuxarıda verilən təsnifata onun iki ayrıca altbölməsinin əlamətlərini özündə birləşdirən "kompleks" adlı yeni bir altnöv əlavə edilməsi məqsədəuyğun hesab edirik. Çünki

Prezident Kitabxanasında yaradılan elektron sənəd informasiya topluları həm çap analoqu olan, həm də belə analoqu olmayan sənədlər əsasında tərtib edilir. Bunlardan əlavə, Kitabxanada tərtib edilən toplularda bu alimlərin nəzərdə tutmadığı tərkib hissələr də vardır. Bu isə digər kitabxanaların fəaliyyətində analoqu olmayan və Prezident Kitabxanasının öz mütəxəssislərini tərəfindən tərtib edilən faktoqrafik-xronoloji göstəricilərdir ki, hansılar ki, Kitabxananın bir sıra vacib "e-layihə" tipli topluları üçün tərtib edilmişdir.

Prezident Kitabxanası tərəfindən həyata keçirilmiş son layihə olan **"Azərbaycan Respublikası – 20" adlı** elektron layihəsi bu kitabxanada sənəd-informasiya toplularının yaradılması sahəsində əhəmiyyətli mərhələ hesab edilə bilər. Əlamətdar haldır ki, bu elektron layihə əlamətdar tarixə uyğun olaraq 2011-cü ilin oktyabr ayının 21-də istifadəyə verilmişdir**.**

İndi isə Prezident Kitabxanasının Azərbaycan Respublikasının Dövlət müstəqilliyinin bərpasının 20 illiyinə həsr edilmiş **"Azərbaycan Respublikası – 20" adlı** elektron layihəsinin (sənəd-informasiya toplusunun) quruluşu və informasiya axtarış imkanları ilə bir qədər yaxından tanış olaq.

Layihə iyerarxik struktura malikdir. Belə ki, oradakı materiallar 9 tematik hissədən, onların daxilində 29 bölmədən və onların da tərkibində altbölmələrdən ibarətdir. Layihənin yaradılmasında mövzu ilə əlaqədar kitablardan, məqalələrdən və internetdəki informasiya resurslarından bacarıqla istifadə edilmişdir. Layihə ölkəmizlə yanaşı, müxtəlif ölkələrdə yaşayan, müxtəlif dillərdən istifadə edən auditoriya üçün nəzərdə tutulmuşdur və buna görə də, onun Azərbaycan, ingilis və rus versiyaları yaradılmışdır və həm də ayrı-ayrı dillərdə bu mövzuda kitabların, dövri mətbuat materiallarının mövcudluğundan asılı olaraq, dil versiyaların bölmələrində, tərkibindəki materialların tərkibində və həcmində müəyyən fərqlər mövcuddur. Layihədəki mətnlər internet vasitəsi ilə çox asan açılan, mətni sənədlərin tərtibi üçün geniş yayılmış pdf fayl formatındadır. Qeyd edək ki, Prezident Kitabxanasının digər elektron sənəd-informasiya resurslarında olduğu kimi, bu layihənin müvafiq bölmələri də daim yeni materiallarla zənginləşdirilir.

Layihənin birinci hissəsi **"Ümumi məlumat"** adlanır. O, iki bölmədən ibarətdir. **"Azərbaycan bu gün"** adlanan birinci bölmədə Azərbaycan Respublikasının coğrafi mövqeyi, ərazisi, əhalisi, şəhərləri, inzibati-ərazi bölgüsü haqqımda qısa məlumat verilir.

Məlumdur ki, Azərbaycanın tam dövlət müstəqilliyi qazanması və onun bərpası çətin və xeyli zaman davam etmiş bir prosesdir. İstifadəçilərə bu barədə məlumat birinci hissənin "**Müstəqilliyə qədərki**

**tarixin qısa xülasəsi"** adlı ikinci bölməsində verilir. Burada ən qədim dövrlərdən başlayaraq indiki günədək Azərbaycan tarixinin əsas məqamları barədə yığcam məlumat verilir. Bu zaman tarixi dövrləşmə kimi ən qədim zamanlardan XX əsrin əvvəllərinə qədərki dövr, Azərbaycan Xalq Cümhuriyyəti dövrü, Sovet dövrü və ən yeni dövr fərqləndirilir.

Layihənin ikinci hissəsi **"Müstəqil Azərbaycan"** adlanır. Bu hissə dörd bölmədən ibarətdir. **"Dövlət müstəqilliyinin bərpası və qorunub saxlanması"** adlanan birinci bölmə XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda baş verən hadisələrdən, müstəqillik ideyalarının geniş yayılmasından, bu istiqamətdə mübarizədən və nəticədə dövlət müstəqilliyinin bərpasından bəhs edir.

Azərbaycanın müasir dövlət quruluşu barədə dolğun təsəvvür yaratmağa xidmət edən **"Dövlət hakimiyyəti və milli təhlükəsizliyin təminat sistemi"** adlanan ikinci bölmə müasir dövrdə Azərbaycanın dövlət hakimiyyəti sistemi, ölkənin milli təhlükəsizliyini təmin edən dövlət qurumları haqqında məlumat verir.

**"Hüquqi dövlət quruculuğu"** adlanan üçüncü bölmə Azərbaycanda hüquqi dövlət qurmaq sahəsində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyularaq Prezident İlham Əliyev tərəfindən davam etdirilən ardıcıl işdən, bu sahədə məhkəmələrin rolundan, respublika qanunları ilə təsbit edilmiş insan hüquq və azadlıqlarının təmin edilməsindən, həmin sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıqdan bəhs edir. Bölmənin ancaq Azərbaycan versiyası vardır.

Azərbaycan həm Xalq Cümhuriyyəti, həm də müstəqilliyin bərpası dövründə fəal şəkildə beynəlxalq əlaqələr qurmuş, dünya birliyində layiqli mövqe qazanmışdır. Bu səbəbdən də həmin mövzu istiqamətinə ayrıca bölmə həsr edilmişdir. **"Azərbaycan beynəlxalq arenada"** adlanan həmin (dördüncü) bölmə Azərbaycanın dünya miqyasında ən nüfuzlu beynəlxalq təşkilatlara üzv olmasına və onlarla əməkdaşlığa dair materialları özündə əks etdirir. Bu bölmə 9 altbölmədən ibarətdir. Birincidə beynəlxalq təşkilatlarla əlaqələrin ümumi məsələlərindən bəhs edilir, qalan altbölmələrdə isə BMT, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlarla (cəmi 8 təşkilat) ölkəmizin əlaqələri işıqlandırılır.

Məlumdur ki, həm ümummilli lider Heydər Əliyev, həm də onun əməllərinin layiqli davamçısı Prezident İlham Əliyev ölkəmizin iqtisadi inkişafına, xalqımızın rifah halının yaxşılaşdırılmasına müstəsna əhəmiyyət vermişlər. Bu prioritet müasir dövrdə də Azərbaycan dövlətçiliyinin diqqət yetirdiyi sahələrdən biridir. Layihənin üçüncü- "**Sosial-iqtisadi inkişaf**" adlı hissəsi həmin məsələyə həsr edilmişdir. Bu hissə 7 bölmədən ibarətdir. **"Ümumi məlumat"** adlanan birinci bölmədə dövlət

müstəqilliyinin bərpasından sonra Azərbaycanda sosial-iqtisadi inkişafın ümumi icmalı verilir.

**"Sənaye"** adlanan ikinci bölmə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda sənayenin müxtəlif sahələrinin inkişafı sahəsində qazanılmış uğurlardan, **"Kənd təsərrüfatı"** adlanan üçüncü bölmə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda kənd təsərrüfatının nailiyyətlərindən, **"Neft strategiyası"** adlanan dördüncü bölmə müstəqil Azərbaycanın sosial-iqtisadi dirçəlişində mühüm əhəmiyyətə malik neft sənayesinin inkişafı sahəsində siyasətin həyata keçirilməsindən, **"İKT"** adlanan beşinci bölmə Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra informasiya-kommunikasiya texnologiyalarının inkişafı sahəsində görülmüş işlərdən, **"Regionların sosial-iqtisadi inkişafı"** adlanan altıncı bölmə Azərbaycanda müstəqillik dövründə regionların sosial-iqtisadi inkişaf üzrə hazırlanaraq həyata keçirilən işlərdən, bu istiqamətli Dövlət Proqramlarının reallaşdırılmasından bəhs edir..

Bu hissənin nisbətən geniş əhatəli **"Sosial sahə"** adlanan yeddinci bölməsində isə müstəqillik dövründə ölkəmizdə təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, turizmin və idmanın inkişafının ümumi icmalını verilir. Burada həmin sahələrin hər birinə ayrıca altbölmə həsr edilmişdir.

Azərbaycanın müstəqilliyi ilə bağlı araşdırma aparan tədqiqatçıları, mətbuat nümayəndələrini, eləcə də, bu mövzu ilə maraqlanan geniş oxucu kütləsini bu məsələ ilə bağlı rəsmi sənədlər çox maraqlandırır. Layihənin belə mənbələrin toplandığı dördüncü hissəsi "**Sənədlər**" adlanır. Bu hissə dörd bölmədən ibarətdir. Birincidə Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-cu il tarixli Bəyannaməsinin, ikincidə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktının, üçüncüdə 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının, **"Digər sənədlər"** adlı sonuncu bölmədə isə 1990 -2008-ci illərdə qəbul edilmiş bir sıra qanunların mətnləri verilmişdir. Sonuncu bölmənin ingilis versiyası yoxdur

Layihənin beşinci hissəsi **"Müstəqilliyin ildönümünə dair materiallar"** adlanır. Bu hissə iki bölmədən ibarətdir. **"Nitqlər, çıxışlar, müraciətlər, fərman və sərəncamlar"** adlanan birinci bölmə ayrı-ayrı illərdə dövlət müstəqilliyinin bərpasının ildönümü tarixləri ilə əlaqədar keçirilən tədbirlərdə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin söylədikləri nitqlər, çıxışlar, təbriklər, bu məsələ ilə əlaqədar imzaladıqları fərman və sərəncamlar öz əksini tapmışdır.

**"Xarici ölkələrdə keçirilən tədbirlər"** adlanan ikinci bölmədə dünyanın müxtəlif ölkələrində Azərbaycanın səfirlikləri və digər qurumlar tərəfindən respublikamızın öz dövlət müstəqilliyini bərpa etməsinin ildönümləri ilə əlaqədar keçirilmiş tədbirlər haqqında məlumat verilir.

Layihənin altıncı hissəsi **"Xronologiya"** adlanır. Azərbaycan kitabxana praktikasında əhəmiyyətli yeniliyin nümunəsi kimi qiymətləndirilə bilən bu hissə ölkəmizdə bu mövzu ilə əlaqədar tərtib edilmiş ilk faktoqrafik-xronoloji informasiya mənbəyidir. Bu bölmədə müstəqillik ərəfəsində və müstəqillik illərində (1988-2011-ci illər ərzində) baş vermiş ən mühüm hadisələr haqqında lakonik məlumat verilmişdir. Burada 1980-ci il 20 fevral tarixindən 2011-ci ilin 25 oktyabrına qədər cədvəl şəklində hər sətirdə əvvəlcə tarixlər göstərilmiş, onun qarşısında isə həmin tarixin müstəqillik baxımdan nə ilə əlamətdar olduğu izah edilmişdir. Bu təqdirəlayiq bölmənin həcmi 45 səhifədir.

Yuxarıda qeyd edildiyi kimi, Prezident Kitabxanasının sənəd-informasiya toplularının əksər hissəsində toplunun mövzusu ilə əlaqədar müstəqil mənbə kimi əhəmiyyət kəsb edən sanballı kitabların və məqalələrin tam mətnləri ayrıca bölmədə cəmlənir və tələbatçıların istifadəsinə verilir. Təqdim edilən layihənin **"Elektron resurslar"** adlanan yeddinci hissəsi də həmin funksiyanı yerinə yetirir. Burada Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi mövzusuna dair ən əhəmiyyətli kitab və məqalələrin tammətnli elektron versiyaları toplanmışdır. Onun daxilində **"Kitablar"** adlanan birinci bölmədə Azərbaycan dilində 54 adda, ingilis dilində 6 adda, rus dilində isə 36 adda kitabın elektron versiyaları toplanmışdır. **"Məqalələr"** adlanan ikinci bölmədə 169 adda(ümumi həcmi 801 səhifə), ingilis dilində 38 adda (ümumi həcmi 190 səhifə), rus dilində 28 adda (ümumi həcmi 126 səhifə)məqalənin tammətnli elektron versiyaları toplanmışdır.

Layihənin səkkizinci hissəsi **"Biblioqrafiya"** adlanır. Burada Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi mövzusuna dair əlavə mənbə kimi istifadəsi tövsiyə edilən kitab, məqalə və dissertasiya avtoreferatlarının biblioqrafik siyahısı verilmişdir. Buradakı materiallar nəşr növlərinə görə üç bölməyə ayrılmışdır. **"Kitablar"** adlanan birinci bölmədə 1996-cı ildən başlayaraq indiyə qədər Azərbaycanın müstəqilliyi ilə əlaqədar mövzu üzrə nəşr edilmiş kitablar haqqında məlumat verilir. Həmin kitabların biblioqrafik təsvirləri dillər üzrə qruplaşdırılmış, onun daxilində isə material əlifba ardıcıllığı ilə düzülmüşdür. Bu zəngin biblioqrafik mənbədə Azərbaycan dilində 697 adda, xarici dillərdə isə 75 adda kitabın biblioqrafik təsviri toplanmışdır.

**"Məqalələr" -"Dövri mətbuat. Dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünə həsr olunmuş tədbirlər"** adlanan

ikinci bölmədə 2004-cüı ildən başlayaraq indiyə qədər Azərbaycanın müstəqilliyi ilə əlaqədar mövzular üzrə dərc edilmiş məqalələr haqqında biblioqrafik məlumat verilir. Müstəqilliyin 20 illiyi ilə bağlı tədbirlər haqqında biblioqrafik informasiya ayrıca bölmədə verilmişdir. Bölmədəki material düz xronoloji ardıcıllıqla düzülmüşdür. Burada Azərbaycan dilində 349 adda, ingilis dilində 14 adda, rus dilində isə 88 adda materialın biblioqrafik təsviri öz əksini tapmışdır.

**"Avtoreferatlar"**adlanan üçüncü bölmədə ictimai elmlərin müxtəlif sahələrində Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqədar mövzular üzrə ölkəmizdə müdafiə edilmiş alimlik dissertasiyalarının avtoreferatlarının biblioqrafik siyahısı verilmişdir. Bunlardan 112 avtoreferat Azərbaycan, 50 avtoreferat isə rus dilindədir. Bölmədəki material əvvəlcə dillər üzrə qruplaşdırılmış, onun daxilində isə əlifba ardıcıllığı əsas götürülmüşdür.

Layihənin doqquzuncu hissəsi **"Fotoqalereya. Müstəqil Azərbaycanın keçdiyi tarixi yolun qısa fotoxronikası"** adlanır. Burada Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi mövzusunda ən əhəmiyyətli məqamları əks etdirən 78 ağ-qara və rəngli sənədli fotoşəkil toplanmışdır.

Beləliklə, bu zəngin layihənin hər üç dil versiyasında təqdim edilmiş materialların ümumi həcmi 3142 səhifə təşkil edir. Bura əlavə kimi verilmiş materialları (kitab və məqalələrin tam mətni) və biblioqrafik siyahıları da əlavə etsək. həmin rəqəm bir xeyli dəfə də artar. Bu elektron layihənin həm həcminin, zənginliyinin, həm də quruluşunun ənənəvi nəşrlərlə, eləcə də digər internet informasiya resursları ilə müqayisəsi belə bir fikir söyləməyə əsas verir ki, bu layihə indiyə qədər Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsi mövzusunda yaradılmış ən geniş əhatəli və zəngin informasiya mənbəyidir. Bundan əlavə, haqqında bəhs etdiyimiz layihənin quruluşunun və informasiya-axtarış imkanlarının təhlili göstərir ki, bu gün Prezident Kitabxanasında elektron sənəd-informasiya topluları kimi orijinal və faydalı sənəd-informasiya mənbələrinin yaradılması sahəsində bitkin bir metodika formalaşmışdır və Kitabxananın bu faydalı örnəyi respublikanın digər kitabxanaları tərəfindən öyrənilməli və hər bir kitabxana bunu öz profilinə uyğun olaraq yaradıcılıqla tətbiq edilməlidir. Fikrimizcə, digər iri kitabxanaların da bu metodikadan istifadə etmələri ümumilikdə Azərbaycan kitabxanalarının sənəd-informasiya resurslarının inkişafına yeni təkan verə, ölkəmizdə qəbul edilmiş müvafiq direktiv sənədlərdə nəzərdə tutulmuş cəmiyyətin informasiya təminatının təkmilləşdirilməsi sahəsində yeni və xeyli əhəmiyyətli mərhələ ola bilər.

Bu layihənin informasiya təminatı baxımdan necə aktual olması layihənin materiallarının saytda yerləşməsindən sonra sayta olan müra-

ciətlərin xeyli artması və bu resurs barədə istifadəçi rəyləri də sübut edir. Ümid etmək olar ki, bu zəngin elektron layihə bundan sonra həm Respublikamızda, həm də onun hüdudlarından kənarda bu mövzu ilə maraqlanan istifadəçilərin informasiya tələbatlarının ödənilməsində getdikcə daha artıq populyarlıq qazanacaq və tədqiqatçılara daha çox fayda gətirəcəkdir.

Yuxarıdakı faktlara əsaslanmaqla Prezident Kitabxanasında yaradılmış on layn tipli elektron sənəd informasiya topluları (o cümlədən, "**Azərbaycan Respublikası - 20 "**elektron layihəsi) haqqında deyilənləri belə yekunlaşdıra bilərik:

- müasir dövrdə kitabxanaların fəaliyyətində fondda olan sənədlər və digər mənbələr əsasında tərtib edilən sənəd-informasiya toplularının yaradılması kitabxanaların fəaliyyətində **prinsipcə yeni istiqamət kimi** qiymətləndirilə bilər;

- elektron sənəd-informasiya məhsullarının yeni növü- elektron sənəd-informasiya topluları respublikamızda ilk dəfə olaraq Prezident Kitabxanasında tərtib edilməyə başlanmışdır;

-bu topluların tərkibində həm çap analoqu olan, həm də belə analoqu olmayan elektron sənəd və internet mənbələrindən götürülmüş materiallardan istifadə edilir, bir sıra hallarda buraya kitabxananın öz mütəxəssisləri tərəfindən tərtib edilmiş materiallar əlavə edilir və bununla da kitabxananın fonunda olan sənədlərin məzmununun daha aşkar açılmasına yardım edir;

-Prezident Kitabxanasında belə mənbələrin mövzu istiqaməti müəyyənləşdirilərkən kitabxananın missiyası və profili nəzərə alınır;

-bu topluların yaradılması təcrübəsinin 7 illik müddət ərzində tərtib edilmiş 22 adda toplu artıq Prezident Kitabxanasında yaradılmış bu tipli mənbələrin bütöv bir kompleksini əmələ gətirmişdir və bu siyahı daim genişlənir. ;

-kitabxanada yaradılmış bu tipli mənbələrin əksəriyyəti mütəmadi olaraq yeni materiallarla tamamlanır;

-kitabxanada yaradılmış bu tipli mənbələrin bir çoxu üçdillidir ki, bu da onlardan nəinki ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda istifadə edilməsi üçün imkanlar yaradır.

Beləliklə, Prezident Kitabxanasında yaradılmış "**Azərbaycan Respublikası - 20 "** elektron layihəsi burada yaradılmış digər on layn tipli elektron sənəd informasiya topluları kimi ölkəmizdə tələbatçıların sənəd-informasiya təminatında yeni istiqamət kimi qiymətləndirilə bilər.

## ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi nəzəri və metodiki jurnal. - 2008. - N2.- S. 6-31.*

*2. Əhmədov, Mayıl. Müasir tipli kitabxana informasiya cəmiyyətinin atributudur // Azərbaycan.* – 2006. – 20 avqust. – N186. – S.3.

*3. Земсков А.М., Шрайберг Я.Л. Электронные библиотеки: учеб. пособие.- М.: Либерия, 2003.-352 с.*

*4. http://en.wikipedia.org/wiki/Digital_library*

**А. МАММАДОВ**

## СТРУКТУРА И ИНФОРМАЦИОННО-ПОИСКОВЫЕ ВОЗМОЖНОСТИ ЭЛЕКТРОННОГО ДОКУМЕНТАЛЬНО - ИНФОРМАЦИОННОГО ПРОЕКТА «АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА -20» СОЗДАННОГО В ПРЕЗИДЕНТСКОЙ БИБЛИОТЕКЕ УПРАВЛЕНИИ ДЕЛАМИ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### РЕЗЮМЕ

В статье рассмотрены структура, свойства и методические особенности он-лайн электронного документально – информационного проекта «Азербайджанской Республике -20 лет» созданного в Президентской библиотеке Управлении делами Президента Азербайджанской Республики в сравнении с другими он-лайн электронными документально – информационными сборниками, составленными в этой библиотеке.

**A.MAMMADOV**

## STRUCTURE AND INFORMATION SEARCH FEATURES OF ELECTRONIC DOCUMENTARY-INFORMATION PROJECT “AZERBAIJAN REPUBLIC -20” OF THE PRESIDENTIAL LIBRARY OF ADMINISTRATIVE DEPARTMENT OF THE PRESIDENT OF AZERBAIJAN

### SUMMARY

The article describes the structure, properties and methodological features of the on line electronic documentary - information project "Azerbaijan -20" created in the Presidential Library of the Administrative Department of the President of Azerbaijan in comparison with other electronic documents - information collections that were composed in this library.

**Validə HƏSƏNOVA**
***AMEA Mərkəzi Elmi Kitabxanasının doktorantı***

# NAĞILLAR BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARİ SİSTEMİNDƏ

***Açar sözlər:*** *Azərbaycan nağılları, nağılların biblioqrafiyası, Qafqaz əraziləri və xalqarının təsvirinə dair materiallar toplusu, E.Kazubskiy, E.Əfəndiyev.*

***Ключевые слова:*** *Азербайджанские сказки, библиография сказок, Сборник материалов для описания местностей и племень Кавказа,* Э.Казубский, Э.Эфендиев

***Key words:*** *Azerbaijan tales, the bibliography of tales, Collection of materials about the description of Caucasus region and people, E.Kazubskiy, E.Efendiyev*

Nağılların yaranması qədim dövrlərdən başlasa da nağıllara aid sənəd kütləsinin, biblioqrafik informasiya resurslarının meydana gəlməsi XIX əsrə təsadüf edir. Bu dövrdən etibarən nağılların da yer aldığı biblioqrafik göstəricilər yaradılaraq nəşr edilmişdir. Bu tip göstəricilərdən biri müxtəlif dövrləri əhatə edən “Указатель к I – XX выпусками СМОМПК 1881-1894 г.” (5,6) adlı 2 cilddən ibarət biblioqrafik göstəricidir. Məlumat üçün qeyd edək ki, SMOMPK ( СМОМПК – QƏXTMT. Сборник материалов описания местности племени Кавказа - Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu ) 1881–ci ildən 1929-cu ilə qədər Qafqazda yaşayan xalqların müxtəlif elm sahələrinə aid məqalələrini nəşr etmişdir. Müxtəlif mənbələrdə (2.S.32) SMOMPK–un son 2 cildinin, bəzi mənbələrdə isə 3 cildinin Mahacqalada nəşr olunduğu qeyd edilir. Lakin ilkin mənbələrə isnadən qeyd edək ki, toplunun 1915-ci ilə kimi 44 buraxlışı Tiflisdə, son iki nömrəsi- 1926 (45-ci buraxlış) və 1929-cu ildə sonuncu – 46-cı buraxlışı (3,4) olmuş və bunlar Maxaçqalada tərtib və nəşr edilmişdir. Hətta bir çox saytlar da (7,8,9,10,11) fikrimizi təsdiq edə bilərlər.

Bu toplu Azərbaycan xalq nağıllarının da çox saylı nəşrini həyata keçirən ilk mətbu orqanı idi. “Указатель к I – XX выпусками СМОМПК 1881-1894 г.” adlı göstərici nağıllara və həmçinin SMOMPK-a həsr olunmuş ilk biblioqarik göstəricidir. Hansı ki, nağıllar bu göstəricinin əsas tərkib hissələrindən birini təşkil edir. Bu göstərici ölkəşünaslıq xarakteri daşıyır və müəllifi E. Kozubskiydir. Onun tərtib etdiyi bu göstəricinin 1-ci cildi 1895, 2-ci cildi isə 1902 ildə Tiflisdə nəşr

edilmişdir. Göstəricinin I cildinə 1881-1894-cü illəri – I - XX buraxlışların, II cildində isə XXI - XXX buraxlışların, yəni 1896 - 1902-ci illərdə nəşr edilmiş nömrələrin biblioqrafiyası daxil edilmişdir. Ümumulikdə cildlərdə 30 buraxlış haqqında məlumat daxil edilmiş və son 16 (31-46) buraxlış haqqında informasiya verilməmişdir. Cildlərin heç birinə giriş sözü yazılmamışdır. Lakin müəllif göstəriciyə maraqlı qurluş verə bimişdir.

Hər iki cilddə materiallar bir neçə aspektdən qruplaşdırılmışdır və cildlərin daxili quruluşu eynidir. Göstəricidə ilkin olaraq hər buraxılışın xronologiya üzrə ayrı-ayrılıqda tərkibi açılmışdır. Daha sonra isə göstəriciyə 5 adda köməkçi aparat tərtib edilmişdir. İlk köməkçi aparat materialları elm sahələrinə görə (coğrafiya, etnoqrafiya, folklor, tarix, linqvistika, xəritələr, notlar və s.) əks etdirir. Nağıllar köməkçi aparatın elm sahələri üzrə bölgüsündə "folklor", "Qafqaz ərazilərində yaşayan xalqlar" bölməsində - Türklər, Azərbaycan tatarları, dağlı-qaraçay tatarları alt bölməsində, "Qafqaz quberniya və əyalətləri üzrə məqalələr" adda köməkçi aparatda Bakı, Zaqatala və s. kimi əyalətlərin adları ilə bağlı alt bölmələrin daxilində əks etdirilmişdir. Daha sonra isə müəlliflərin adlar və məqalələrin sərlövhələrinin əlifba göstəricisi verilmişdir. Göstəricidə materialların bu prinsip əsasında quruplaşdırılması o dövr üçün mütərəqqi hal idi.

Sərlövhələrin biblioqrafik təsviri zamanı vahid qaydaya riayət edilmişdir. Birinci olaraq əsərin sərlövhəsi, müəllif, cild, şöbə (SMOMPK-da məqalələr şöbələr daxilində qruplaşdırılmışdır ) və səhifələri göstərilmişdir. XIX əsrə aid bu biblioqrafik təsvir kifayət qədər mütəşəkkil və informativdir.

Lakin bildiyimiz kimi Tiflisdə nəşr olunmuş SMOMPK (1881-1915, 44 nəşri) adlı toplu o dövrdə bütün Qafqaz xalqalırına aid materialları nəşr etdirirdi. Elə buna görə də SMOMPK əvvəlki dövlərlə müqayisədə xalq nağıllarımızın tez-tez nəşr olunduğu bir mətbu orqanı idi. Bu baxımdan E. Kozubskinin tərtib etdiyi bu göstərici nağıllarımızın da əks olunduğu hələlik müəyyən etdiyimiz ilk biblioqrafik göstəricidir.

Onu da qeyd edək ki, təkcə I cilddə erməni nağılları bölməsində Bakı quberniyasından, Şamaxı uyezdindən N.Kalaşevin qələmə aldığı "Şah İsmayıl", "Məlikməmməd", "Əlixan", "Qulu xan" "Novruz" və s., T. Yüzbaşevin yazıya köçürdüyü "Yeddi qardaş" və s. kimi nağıllarımız ümumilikdə 15– dən çox nağıl verilmişdir ki, bunun 12-si Azərbaycan xalq nağılıdı. ( 5, s.89-90). Buna görə də tədqiqatçıların göstəricidə yalnız türk, yaxud tatar bölməsinə baxması düzgün olmazdı. Çünki erməni nağılları, yaxud ermənilərin adı ilə topluya daxil edilmiş digər folklor nümunələri də Azərbaycanın müxtəlif əyalətlərindən toplanmış milli

folklor nümunələrimizdir. 2-ci cilddə də eyni vəziyyətdi. Məsələn, “Ramazan” nağılı (6.S.21). Ermənilərə aid materiallarda, xalq nağılları bölməsində onlarla belə nağıl və digər folklor nümunələri (məs. “3 molla” gülməli hekayələr alt bölməsində (6.s.21)) var.

Ermənilər xalq nağıllarımızı indi də erməni nağılları adı altında nəşr etdirirlər. Lakin indi bu nağıllar çox dəyişdirilib və erməniləşdirilib. Ilk baxışda onların xalq nağıllarımız olduğunu müəyyən etmək olmur. O dövrdən başlayaraq nağıllar dəyişdirilərək tanınmaz formaya salınmışdır. Bu baxımdan SMOMPK çox dəyərli bir mənbədir. Çünki ermənilər o dövrdə nağıllarımızı öz adlarından nəşr etdirərkən dəyişdirməmişdirlər. Məsələn, yuxarıda adlarını qeyd etdiyimiz nağılların adlarından da görünür ki, onlar müsəlman və türk adlarıdır.

Göstəricinin (5,6) müsbət tərəfi odur ki, nağıllar üçün ayrıca yarım bölmə yaradılmış və bu yarım bölmə nağılların nəşri xronikasını izləməyə şərait yaradır. Həmçinin bu göstərici mətbuatda ilk işıq üzü görmüş nağıllarımız haqqındadır. Digər baxımdan göstərici 15-ə yaxın xalqların nağılları, onların nəşri tarixi və s. kimi biblioqrafik informasiya ilə də tanışlığa şərait yaradır.

Yuxarıda qeyd etdiyimiz kimi SMOMPK məcmuəsi nağıların davamlı nəşrini təşkil edən ilk mətbu orqanı idi. Cəmi 46 nömrəsi nəşr edilmiş bu cildlərin Ə.Əfəndiyev tərəfindən də biblioqrafiyası yaradılmışdır. Bu baxımdan Ə.Əfəndiyevin tərtib etdiyi bu biblioqrafik göstərici bir çox baxımdan dəyərlidir. İlk növbədə onu qeyd edək ki, bu məcmuənin nömrələri artıq çoxdandır ki, kitabxanaların nadir fondlarında qorunub saxlanılır. Hətta artıq bir qisminin orjinal yox, qeyri-professional yaradılmış kopyaları mövcuddur. Digər tərəfdən Respublikamızın elə bir kitabxanası yoxdur ki, onun fondunda bütün cildlər bir yerdə qorunsun. Toplunun müxtəlif cildləri 6 mühüm kitabxana və dövlət müəssisələrinin fond və arxivlərində qorunur (1.). Həmçinin bəzi cildlərdə səhifələrin tamlığı da pozulmuşdur. Lakin M.F.Axundov adına Milli Dövlət Kitabxanasının Nadir nəşrlər şöbəsində demək olar ki, əksər cildlər mövcuddur. Digər tərəfdən cildlərin elektron variantları yaradılmışdır və bəzi rus saytları cildlərin satışını (elektron və kitab halında) təklif edir.

Əmin Əfəndiyevin yaratdığı bu biblioqrafik göstəricidə bütün cildlər əhatə edilmiş, toplunun qeyri-ənənəvi daxili qurluşu oxucular üçün izah edilmiş, toplu haqqında geniş şərhlər verilmişdir. Göstəricidə cildlərə daxil edilmiş yazılar xronoloji ardıcıllıqla biblioqrafik təsvir edilmişdir. Materiallara müəllif tərəfindən şərti olaraq sıra nömrəsi verilmişdir. Göstəricidə biblioqrafik təsvirdən sonra materiallara anatasiyanın verilməsi göstəricinin informasiya vermək gücünü daha da

artırmışdır. Göstəricinin qurluşunu cildlərin xronologiyası müəyyən edir və o dövrdə xalq nağıllarımızın nəşri qeyri-intensiv olduğu üçün göstəricidə də təbii olaraq nağılların yeri müxtəlifdir. E.Kozubsskinin tərtib etdiyi göstəricidən (5,6) fərqli olaraq bura bütün buraxlışlar daxil edilmişdir. Əsərlərin biblioqrafik təsvirindən əlavə sərlövhələri açan annotasiya da verilmişdir. Topludakı bir qism şöbələrin daxilində verilmiş yarım başlıqlar isə göstəricidə açılmamış, istifadəçi üçün informasiya natamam qalmışdır. Göstəriciyə 3 adda köməkçi aparat tərtib edilmişdir. Müəlliflərin, sərlövhələrin əlifba göstəricisi və mövzu göstəricisi. Mövzu göstəricisində məqalələr elm sahələrinə görə qruplaşdırılmışdır. Bu köməkçi aparatda folklor bölməsi yaradılmamış, nağıllar ədəbiyyat bölməsinə daxil edilmişdir.

Lakin Ə.Əfəndiyevin yaratdığı biblioqrafik göstəricinin çox mühüm xüsusiyyətlərindən biri, müəllifin özünəməxsus yazı üslubu və materiallara yanaşma tərzidir. Təəssüf olsun ki, məcmuənin səhifələrində ermənilər folklor nümunələri ilə yanaşı bir çox elm sahələrində də yalnış informasiya vermişdirlər. Məsələn, SMOMPK-da adət-ənənələrimizə aid cox sayda məqalələr nəşr edilmişdir ki, ermənilər onları öz adət - ənənələri kimi təsvir etmişdirlər. Bu məcmuənin səhifələrində bu kimi yazılara tez-tez rast gəlmək olur.

Göstəricidə müəllif yuxarıda qeyd etdiyimiz bu cür problemlərə biganə qalmamış və tez-tez oxucunun diqqətini bu məsələyə çəkə bilmiş, yalnız biblioqrafiya yaratmaqla kifayətlənməmiş, plagiatizmi nümayiş etdirməyə çalışmışdır.

Göstəricinin digər müsbət cəhəti toplunun bütün cildlərində nəşr olunmuş nağılların xülasə şəklində biblioqrafiyaya daxil edilməsidir. Lakin göstəricinin nöqsanı nağılların tam dəqiqliklə kitabda öz əksini tapmamasıdır. İlk növbədə folklora aid materiallar ədəbiyyat bölməsinə daxil edilmiş, digər tərəfdən isə şöbələr daxilində verilmiş bütün nağılların adları göstərilməməsidir.

Hər iki müəllifin tərtib etdiyi göstəricilər 1800-ci yüzillikdə nəşr olunmuş nağıllarımızın biblioqrafik təzahürüdür. Lakin bu hələ ilk nəşr olunmuş nağılların tam biblioqrafiyası demək deyil.

## ƏDƏBİYYAT

*1. Əfəndiyev Ə. "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" (QƏXTMT-СМОМПК): izahlı biblioqrafiya.-B.:Qartal,1997.-217 s.*

2. *Səfərəliyeva A. XIX əsr rus mətbuatı və ədəbiyyatında Azərbaycan folkloru: f.e.n. ailmlik dərəcəsi almaq üçün dissertasiya. - Bakı,2008.-150 s.*

3. *Сборник материалов для описания местностей и племень Кавказа.-Махач- Кала,1926.-Вып.45.-264 с.*

4. *Сборник материалов для описания местностей и племень Кавказа.-Махач- Кала,1929.-Вып.46.*

5. *Указатель к I – XX выпускамь «Сборник материалов для описания местностей и племень Кавказа » 1881-1894 г. / Сост. Е.Козубский.- Тифлис, 1895.-177 с.*

6. *Указатель к XX I – XXX выпускамь «Сборник материалов для описания местностей и племень Кавказа » 1896 – 1902 г. / Сост. Е.Козубский.- Тифлис, 1902.- 60 с.*

7. *antiq-books.com*

8. *dic.academic.ru*

9. *ru.wikisource.org*

10. *www.knigafund.ru*

11. *http://rutracker.org*

**В. ГАСАНОВА**

## СКАЗКИ В СИСТЕМЕ БИБЛИОГРАФИЧЕСКИХ ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ

### РЕЗЮМЕ

Статья посвящена библиографическим указателям собранных под названием “Сборник материалов для описания местностей и племень Кавказа”. Здесь анализированы библиографические указатели составленные Э.Казубским и Э.Эфендиевым.

**V. HASANOVA**

## TALES AT SYSTEM OF BIBLIOGRAPHICAL INFORMATION RECOURSES

### SUMMARY

The article is about two bibliographical indicators devoted to «Collection of materials about the description of Caucasus region and people», which is one of the first press organizations, where Azerbaijan tales were published. The bibliographical indicators which were compiled by E.Kazubskiy and E.Efendiyev, were analyzed here.

**Xəyalə XƏLİLOVA**
*Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı*

# ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVƏ HƏSR OLUNMUŞ "MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR" ÇOXCİLDLİYİNİN AXTARIŞ İMKANLARI

***Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dününinə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.***

**Heydər Əliyev**

***Açar sözlər:*** *Qeydlər, şəxsi adlar, coğrafi adlar, köməkçi göstərici, çoxcildlik.*

***Ключевые слова:*** *заметки, личные имена, географические названия, вспомогательные указания, многотомник*

***Keywords****: notes, personal names, geographic names, auxiliary indexes, voluminous edition.*

Azərbaycanın XX əsr tarixinin əlli ildən çox dövrü Heydər Əliyev şəxsiyyəti ilə sıx bağlıdır. Heydər Əliyev yeni Azərbaycanın qurucusudur. Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır. Bu nadir dühanın siyasət aləmini, bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi ən nadir, ən mürəkkəb, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergidir. Bütün bunların hamısı bir keyfiyyət altında birləşir: Heydər Əliyev böyük Azərbaycanlıdır, Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşidir. Bu nadir keyfiyyət Heydər Əliyev fəaliyyətinin bütün dövrləri üçün səciyyəvidir.

Sadə zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan və tükənməz fitri istedad sahibi olan Heydər Əliyev doğma xalqının dərdlərinə dərindən bələd olan, hələ çox gənc ikən məkrli qonşuların min bir hiyləsini öz gözləri ilə görən, mükəmməl təhsil almış, o cümlədən tarixi biliklərə dərindən yiyələnmiş, son dərəcə geniş dünyagörüşünə və konkret biliklərə malik olan nadir tarixi şəxsiyyət olmuşdur. O, yarım əsrdən artıq zəngin idarəçilik təcrübəsinə malik olan, müxtəlif xarakterli və səviyyəli idarəçilik sistemlərinə bələd, SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan nadir siyasətçi olmuşdur (2,s.16).

Belə bir şəxsiyyət haqqında yüzlərlə maraqlı əsərin yazılması heç də təsadüfi deyil. Xalqımızın tanınmış yazıçı və şairləri öz ümummilli liderini tərənnüm edən bir-birindən dəyərli sənət nümunələri yaratmışlar. Bu geniş sənət kütləsini məhz biblioqrafiya elminin köməyi ilə ümumiləşdirmək və oxucuları Heydər Əliyevə həsr edilmiş bütün əsərlər haqqında məlumatlandırmaq mümkün olmuşdur.

Bu zamana qədər Heydər Əliyevin bütün yaradıcılığını və ona həsr edilmiş əsərləri, eyni zamanda onun çıxışlarını əks etdirən sənədlərdən biri "Müstəqilliyimiz əbədidir" çoxcildliyidir. "Müstəqilliyimiz əbədidir çoxcildliyi" ümummilli lider Heydər Əliyevin irsini öyrənmək baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. "Müstəqilliyimiz əbədidir çoxcildliyi" 1997-ci ildən nəşr olunmağa başlanmışdır. Hal-hazırda 38 cildi nəşr olunmuşdur. Burada Heydər Əliyevin ölkəmizdə, o cümlədən xaricdə olan çıxışları, onun nitqləri, fikir və düşüncələri haqqında olan məlumatlar öz əksini tapmışdır.

Çoxcildliyin I və IX cildlərinin köməkçi göstəricisi 2008-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə Azərbaycan Milli Kitabxanası tərəfindən tərtib edilmişdir (4,s.3).

Köməkçi göstəricidə çoxcildliyin mətnində verilən qeydlər, şəxsi və coğrafi adlar əlifba sırası ilə qruplaşdırılmışdır. Beləliklə coxcildliyin müvafiq cildlərindəki materiallar sistemli formada bir yerə toplanaraq göstəricidə öz əksini tapmışdır.

Göstərici "Qeydlər", "Mövzu", "Şəxsi adlar", "Coğrafi adlar" bölmələrindən ibarətdir. Qeydlər bölməsində çoxcildlikdə qeyd olunmuş dövlətlər, ictimai təşkilatlar, təşkilat və şirkətlərin başçıları haqqında məlumatlar öz əksini tapmışdır. Belə ki, göstəricinin "Qeydlər" bölməsinə nəzər yetirdikdə oxucuya aydın olur ki, ümummilli lider Heydər Əliyevin Avropa şurası ilə əlaqədar çıxışları "Müstəqilliyimiz əbədidir çoxcildliyi"nin III; V; VI; VII; VIII; XIX cildlərində öz əksini tapmışdır. Bununla da istifadəçilər lazımi məlumatları əldə etmək üçün çoxcildliyin bütün cildlərini axtarmaq məcburiyyətində qalmır, göstəricinin köməyi ilə tez bir zamanda axtarışı "Müstəqilliyimiz əbədidir çoxcildliyi"nin I-IX cildlərinin köməkçi göstəricisi vasitəsilə həyata keçirirlər.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə məlumatların yerləşdiyi cildlər qara hərflərlə göstərilmiş, onların qarşısında isə səhifələr qeyd olunmuşdur. Göstəriciyə əsasən müəyyən etmək olar ki, "Yeni Azərbaycan" partiyası ilə əlaqədar materiallar çoxcildliyin 8-ci cildində 331, 341, 447, 457-ci səhifələrində öz əksini tapmışdır. Ulu öndərimizin Azərbaycan Xalq Cumhiriyyəti ilə bağlı olan fikirləri isə çoxcildliyin I; II; V; və VI cildlərində öz əksini tapmışdır.

“Mövzu” göstəricisi bölməsində adından da bəlli olduğu kimi, müəyyən mövzularla əlaqədar olan və çoxcildlikdə yer almış materiallar haqqında məlumat verilmişdir.

Bu bölmədə Heydər Əliyevin Azərbaycan–Türkiyə münasibətləri, Azərbaycan-Türkiyə əməkdaşlığı, Azərbaycan-Türkiyə əməkdaşlıq şurası haqqında olan çıxışları barədə materiallar da verilmişdir. Azərbaycan-Türkiyə münasibətlərinin, qardaşlığının nə dərəcədə inkişaf etdiyini, ümummilli liderimizin bu qardaşlığa verdiyi qiyməti görmək üçün göstəricidəki qeydləri nəzərdən keçirmək kifayətdir.

Türkiyə-Azərbaycan münasibətlərinin hörmətli prezidentimiz Heydər Əliyev üçün nə qədər önəmli olduğunu göstərən çıxışlardan biri 1993-cü il, oktyabrın 26-sında Bakıda keçirilmiş “Türkiyə Cumhuriyyəti-70” adlı elmi praktiki konfransdakı nitqidir. Həmin çıxışda ümumilli lider Türk Xalq Cumhuriyyətinin yaranmasının 70 illiyinin təkcə Türkiyənin deyil, eyni zamanda bütün Azərbaycan xalqının bayramı olduğunu bu sözlər ilə ifadə edir: “Soykökümüz, adət və ənənələrimizin, bir çox müqəddəs mənəvi sərvətlərimizin ayrılmaz tellərlə bir-birinə bağlı olduğu türk xalqının bu böyük bayramı eyni zamanda Azərbaycan üçün də əziz gündür.”(3,c.I,s.141)

Həmin bu nitq “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin I cildində 141-ci səhifəsində qeyd olunmuşdur. Prezident Heydər Əliyev eyni zamanda Türkiyənin Respublika elan edilməsinin 70 illiyi münasibətilə Türkiyə prezidenti S. Dəmirələ ünvanladığı məktubda Azərbaycan xalqının qəlbindəki Türkiyə sevgisini belə ifadə edir: “Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var. Sizin müdrikliyiniz sayəsində Azərbaycan və Türkiyə daha da yaxın olacaq, daha da doğmalaşacaqdır.” (28 oktyabr 1993-cü il) (3,c.I,s.143)

Bu məktub isə “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin I cildinin 143-cü səhifəsində əksini tapmışdır. Istifadəçilər üçün təkcə Türkiyə ilə deyil, bütün dünya ölkələri ilə bağlı ölkəmizin münasibətlərini Heydər Əliyev cənablarının çıxışlarını və fikirlərini öyrənmək baxımından bu göstərici böyük əhəmiyyətə malikdir.

Ümumilikdə digər xarici ölkələrlə Azərbaycan münasibətlərini izləmək baxımından “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin I-X cildlərinin köməkçi göstəricisində yer alan “Coğrafi adlar” göstəricisi də böyük əhəmiyyətə malikdir. Belə ki, burada təkcə ümummilli lider Heydər Əliyevin dünyanın bir sıra ölkələri ilə əlaqədar deyil, eyni zamanda Azərbaycanın bir-birindən gözəl guşələri, rayonları, kəndlərində olan çıxışları, həmçinin onlar haqqında olan düşüncələri əks olunmuşdur. Göstəricinin bu bölməsinə nəzər saldıqda bəlli olur ki, Heydər Əliyev cənablarının Nardaran kəndi haqqında olan fikirləri

“Müstəqilliyimiz əbədidir” çoxcildliyinin I cildinin 481-ci səhifəsində, Pirşağı haqqında olan fikirləri VI cildin 212-ci səhifəsində, Maştağa və Suraxanı kəndləri haqqındakı fikirləri isə müvafiq olaraq VI cildin 48-ci səhifəsində və II cildin 149, 151 və 156-cı səhifələrində yer almışdır. Çoxcildlikdə eyni zamanda Balaxanı (cV. s.400), Binə (c.I, s.414; s.546) Əmircan (c.III, s.50), Keşlə (c.III, s.407) Şüvəlan (c.I, s. 480) kəndləri haqqında məlumatlar da əks olunmuşdur. Ümumilikdə Abşeron haqqında olan məlumatlar isə I (s.58), II (s.149; s.156 ), IV (s.382; 384; 385), VIII (s.373) və IX (s.130) cildlərdə yer almışdır. Bakı şəhəri haqqında olan məlumatları əldə etmək baxımından “Coğrafi adlar” göstəricisi mühüm əhəmiyyətə malikdir. Bölməyə nəzər saldıqda aydın olur ki, bu haqda olan çıxışları çoxcildliyin I; II; III; IV; V; VI; VII; VIII; XIX-cu cildlərinin müvafiq səhifələrindən əldə etmək mümkündür.

Köməkçi göstəricinin “Şəxsi adlar” bölməsində ulu öndərin Azərbaycanın inkişafı, tarixi və mədəniyyətində böyük rol oynayan mühüm şəxsiyyətlər haqqında fikirlərinin yer aldığı cildlər və onların səhifələri göstərilmişdir. Heydər Əliyev cənablarının prezident İlham Əliyev haqqında fikirlərilə maraqlanan oxucular köməkçi göstəricinin I (s.55), II (s.202), V (s.38) və VIII (s.338) cildlərdən məlumat ala bilərlər.

Heydər Əliyev kitaba, kitabxanaya yüksək qiymət vermişdir. “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin I-IX cildlərinin köməkçi aparatına əsasən qeyd edə bilərik ki, ulu öndərin Axundova adına Milli Kitabxanada kitabxana, kitab haqqında olan fikirləri “Müstəqilliyimiz əbədidir” çoxcildliyinin III və V cildlərində öz əksini tapmışdır.

Çoxcildliyin III cildində ulu öndər Heydər Əliyevin Axundov adına Milli kitabxanada “Vətənə, dövlətə, xalqa sədaqət andı” miniatür kitabının təqdimat sərgisində kitabxana haqqında bu fikirləri söyləmişdir: “Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir. Mən bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram” (3, c.III, s.473).

Həmin çıxışında ümummilli liderimiz Azərbaycan kitabı haqqında belə demişdir . “Azərbaycanda kitab çapının tarixi böyükdür. Yaxın keçmişdə Azərbaycan Respublikası onun 400 illiyini qeyd etmişdir. Keçmiş dövrlərdə məzmununa və formasına görə müxtəlif, çox maraqlı nəfis kitablar buraxılmışdır. Bu nəşrlər dünyanın bir çox ölkələrində də Azərbaycanı təmsil edir, onun haqqında biliklər verir.” (3, c. III, s.473 )

Ümumilikdə qeyd etmək lazımdır ki, köməkçi göstərici çoxcildlikdən istifadəni asanlaşdırmaq baxımından mühüm əhəmiyyətə malikdir.

Çoxcildlikdən istifadəni asanlaşdırmaq məqsədini daşıyan II göstərici də nəşr olunmuşdur. Mədəniyyət və Turizm Nazirliyinin və M.F.Axundov adına Milli kitabxananın birgə layihəsi olan bu göstərici 2010-cu ildə çapdan çıxmışdır. Göstərici 512 səhifədən ibarətdir və "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin X və XXVIII cildlərindən oxucuların istifadəsini asanlaşdırmaq baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Bu göstəricidə də digərində olduğu kimi materiallar "Qeydlər", "Şəxsi" və "Coğrafi" adlar bölməsində əlifba sırası ilə düzülmüşdür.

"Qeydlər" bölməsində digər bölmələrdə ("Coğrafi adlar", "Şəxsi adlar") verilən məlumatların izahlı açıqlaması verilir. Qeydlər bölməsinə nəzər saldıqda aydın olur ki, çoxcildlikdə N.Xəzri, N.Zeynalova, M.Gülgün, M.Füzuli, M.T.Sidqi, M.Dilbazi, Anar, Məhəmməd Peyğəmbər, A.Babayev kimi görkəmli şəxsiyyətlər haqqında olan məlumatlar çoxcildliyin müvafiq bölmələrində əks olunur. Lakin göstəricidə qeyd olunan şəxslərin vəzifəsi çoxcildliyin nəşr edildiyi zamana müfaviq qeyd edilmişdir. Azərbaycan Respublikasının xarici ölkələr ilə münasibətlərini müəyyən etmək məqsədilə göstəricidəki ölkələr haqqında olan qeydlərə nəzər yetirmək kifayətdir. Göstəriciyə nəzər yetirdikdə aydın olur ki, Amerika Birləşmiş Ştatları haqqında ümummilli liderin çıxışları göstəricinin müvafiq cildlərinin (c. XI; XII; XVI; XIX; XX; XXI; XXII; XXIV; XXV; XXVII) müvafiq səhifələrində əks olunmuşdur. Ancaq Moldova respublikası haqqında isə cəmi I cilddə- XXIV cildin 265 və 307-ci səhifələrində materiallar verilmişdir.

Şəxsi adlar göstəricisində ümummilli liderin müxtəlif şəxsiyyətlər haqqında olan bir-birindən dəyərli çıxışlarının yer aldığı cildlər haqqında olan məlumatlar oxuculara təqdim olunmuşdur. Bu bölmədə verilmiş məlumatlar H.Əliyevin dahi şəxsiyyətlər haqqında fikirlərini öyrənmək baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Burada həm xarici, həm də azəri sənətkarlar haqqında olan məlumatlar əlifba sırası ilə düzülmüşdür. Göstəriciyə əsasən müəyyən etmək olar ki, H.Əliyevin R.Rza haqqında çıxışları XIII; XV; XVII; XVIII; XIX; XXVI; XXVII; XXVIII cildlərdə, Nigar Rəfibəyli haqqında fikirləri XIII; XV; XIX; XXV cildlərdə, yazıçı Anar haqqında düşüncələri isə XIII; XIV; XV; XVII; XIX; XXII; XXIII; XXV; XXVI; XXVIII cildlərdə verilmişdir. Göstəricinin XIII cildinin IX səhifəsində Azərbaycan yazıçılarının X qurultayı ərəfəsində yaşlı nəsildən olan görüşündən giriş sözü əksini tapmışdır. Ulu öndər Azərbaycan ədəbiyyatına olan sevgisini öz çıxışında belə əsaslandırmışdır: "Mən düşünürəm ki, Azərbaycan xalqının müsbət keyfiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət göstərib və hörmət ediblər. Bilmirəm bəlkə səhv edirəm ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və

ehtiram bəlkə də az yerlərdə tapılar. Bunun kökləri var, çünki bizim ədəbiyyatımız da, mədəniyyətimiz də zəngindir, ədəbiyyatımızı, mədəniyyətimizi və tariximizi zənginləşdirən dahi şəxsiyyətlərimiz də olubdur. Ona görə də xalq bu şəxsiyyətlərlə həmişə fəxr edərək, onların yaratdıqlarını həmişə sevə-sevə oxuyaraq mədəniyyətə, ədəbiyyata hörməti nəinki saxlayıb, hətta artırıbdır."(4,c.XIII,s.9)

Hörmətli prezidentin çıxışından sonra Azərbaycan Yazıçılar Birliyinin sədri yazıçı Anar, Xalq şairi Qabil, yazıçı Əkrəm Əylisli, Respublika Mətbuat və İnformasiya Naziri yazıçı Elçinin dinlənilən çıxışları müvafiq dildə yer almışdır.

Göstəricinin son bölməsi "Coğrafi adlar" bölməsi adlanır. Bu bölmədə müxtəlif ölkə, şəhər, çaylar, dənizlər və müxtəlif coğrafi obyektlər haqqında olan materiallar əlifba sırası ilə düzülmüşdür. Beləliklə də "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin X-XXVIII cildlərində materiallar bu bölmədə toplanmış və oxuculara təqdim olunmuşdur. Bakı haqqında ulu öndərin fikirlərini, çıxışlarını əks etdirən materillar çoxcildliyin X cildindən XXVIII cildə qədər olan bütün cildlərdə əks olunmuşdur.

Bildiyimiz kimi bütün dünyada məşhur olan Bakı-Ceyhan neft kəmərinin salınmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Onun böyük səyləri nəticəsində Bakı-Tbilisi-Ceyhan neft kəməri 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı-Tbilisi-Ceyhan marşrutunu müdafiə edən "Ankara bəyənnaməsini imzalamışlar. Uzunluğu 1695 km olan Bakı-Tblisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. (5,s.40)

Heydər Əliyevin bu məsələ ilə bağlı bütün çıxışları "Müstəqilliyimiz əbədidir" çoxcildliyininXX; XXI; XXII; XXIII; XXIV; XXV; XXVI; XXVII; XXVIII cildlərində yer almışdır. "Xam neftin Azərbaycan respublikasi, Gürcüstan və Türkiyə respublikasinin əraziləri ilə Baki–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan respublikası, Gürcüstan və Türkiyə respublikasi arasında saziş"in imzalanması mərasimindəki nitqində Heydər Əliyev qətiyyətlə bu fikri söyləmişdir: "Mən bu gün böyük iftixar hissi keçirirəm. Ona görə ki, beş il bundan öncə, 1994-cü ilin sentyabr ayında Bakıda imzalanmış "Əsrin müqaviləsi" adlı böyük neft müqaviləsinə, Xəzər dənizinin neft və qaz ehtiyatlarından müştərək istifadə etmək üçün yaranmış konsorsiumun tərkibinə Azərbaycan, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri, Türkiyə və Rusiya daxildirlər və bu müqavilənin imzalanmasından beş il keçəndən sonra həmin müqavilə imzalanarkən nəzərdə tutulmuş Bakı–Tbilisi–Ceyhan neft

kəmərinin həyata keçirilməsi üçün artıq bu gün bu sənədlər imzalandı. Məlumdur ki, bu, asan iş deyildi. Bizim qarşımızda çox böyük çətinliklər var idi. "Əsrin Müqaviləsi"ni imzalayanda da biz böyük çətinliklərlə rastlaşdıq. Sonra da Bakı–Ceyhan neft kəmərini çəkmək üçün bizim qarşımızda çox böyük maneçiliklər, əleyhimizə çıxanlar var idi. Ancaq biz öz iradəmizi itirmədik, başladığımız işi axıra çatdırdıq." (3.c.XXIII,s.74)

Nəticə olaraq qeyd etmək lazımdır ki, ulu öndərimiz Heydər Əliyevə həsr olunmuş "Müstəqilliyimiz əbədidir" çoxcildliyinə verilmiş köməkçi göstəricilər Heydər Əliyev irsini tədqiq edən elmi işçilər üçün, eyni zamanda onun irsini öyrənən yeni nəsil üçün böyük əhəmiyyətə malikdir, bütövlükdə cəmiyyətin biblioqrafik təminatında əvəzedilməz biblioqrafik ehtiyatdır.

## ƏDƏBİYYAT


1. *"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu. //Azərbaycan,1999.-14 mart.*
2. *Dövlətçilik müdrikliyi Azərbaycan müstəqillik yollarında mövzusunda elmi-nəzəri konfransın materialları (2 may 2002-ci il (tarixi həqiqətlər, faktlar və reallıqlar) Bakı: Universiteti Nəşriyyatı,2002.- 526 s.*
3. *Əliyev Heydər// Müstəqilliyimiz əbədidir.XXXVIII c.-də.I c.- Azərnəşr, 1997.- 612 s.*
4. *Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Coxcildliyin I-X cildlərinin köməkçi göstəricisi (Qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri)/ M.F.Axundov adına Azərbaycan Milli kitabxanası.-Bakı,2010.-512s*
5. *Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Coxcildliyin X-XXVIII cildlərinin köməkçi göstəricisi (Qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri)/ M.F.Axundov adına Azərbaycan Milli kitabxanası.-Bakı,2010.-512s*
6. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik. I hissə.-B., Bakı Universiteti Nəşriyyatı, 2001.-400 s.*
7. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik. II hissə.-B., Bakı Universiteti Nəşriyyatı, 2003.-314 s.*
8. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə.- B.: "Bakı Universiteti" nəşriyyatı, 2007.-552 s.*

**X. ХАЛИЛОВА**

## ПОИСКОВЫЕ ВОЗМОЖНОСТИ МНОГОТОМНОГО “MÜSTƏQILLIYIMIZ ƏBƏDIDIR” ПОСВЯЩЕННОМУ ОБЩЕНАЦИОНАЛЬНОЕ ЛИДЕРА ГАЙДАРА АЛИЕВА

### РЕЗЮМЕ

В статье находит отражение анализ вспомогательных указаний из многотомника "Наша независимость вечна", посвещенной личности Гейдар Алиева и дана инормация о роли указаний в обеспечении библиографического информирования общества в целом.

**X.XALILOVA**

## SEARCH OPPORTUNITIES OF THE VOLUMINOUS EDITION NAMED “MÜSTƏQILLIYIMIZ ƏBƏDIDIR” WHICH WAS DEDICATED TO NATIONAL LEADER HEYDAR ALIYEV

### SUMMARY

The article reflects the analysis of the auxiliary indexes named “Müstəqilliyimiz əbədidir” which was dedicated to Heydar Aliyev. The article informs people about the information security of that auxiliary indexes.

**Günel ƏLİYEVA**
*Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı*

# M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASININ CARİ BİBLİOQRAFİK FƏALİYYƏTİ

***Açar sözlər:*** *milli kitabxana, biblioqrafik fəaliyyət, cari biblioqrafiya, "Yeni kitabar", "Birillik Azərbaycan Kitabiyyatı".*

***Ключевые слова:*** *национальная библиотека, библиографичеcкая деятельность, текущая библиография, «Новые книги», «Ежегодник Азербайджанской литературы».*

***Keywords:*** *national library, bibiographic activity, current bibliog.-raphy, "New books", "Annual Azerbaijan bibliography".*

Azərbaycan Respublikasının yenidən öz müstəqilliyini əldə etməsi tariximizdə çox əlamətdar hadisədir. İndi respublikamızda dünyanın müstəqil dövlətlərindən biri kimi möhkəmlənməsi, iqtisadi, elmi və mədəni cəhətdən inkişaf etdirilməsi sahəsində mühüm addımlar atılır, uğurlu nəticələr əldə edilir və bütün sahələrdə beynəlxalq əlaqələr genişlənir və daha da möhkəmlənir. İstər siyasi, istərsə də sosial-iqtisadi istiqamətlərdə müstəqilliyimizin və həmçinin dünyəvi tələbatlara cavab verə biləcək nailiyyətlərin əldə olunmasında əsas şərtlərdən biri cəmiyyətin bütövlükdə və onun ayrı-ayrı üzvlərinin hər cəhətli informasiyaya malik olmasıdır. İnformasiyasız heç nəyə nail olmaq mümkün deyil. Müasir cəmiyyətin informasiyalı cəmiyyət adlandırılması bunu sübut edir. İnformasiyalaşma cəmiyyətin həyatında getdikcə daha mühüm əhəmiyyət kəsb edir. İndiki əsrin "informatika əsri" adlanması da təsadüfi deyil [2, s. 63].

Cəmiyyətin informasiyalaşmasında kitabxanalarda aparılan biblioqrafik fəaliyyətin də mühüm əhəmiyyəti vardır. Biblioqrafik fəaliyyət idarə mənsubiyyətindən asılı olmayaraq bütün tip kitabxanalarda həyata keçirilir. Məhz kitabxananın biblioqrafik fəaliyyəti onun elmi-informasiya və mədəni-maarif müəssisəsi olmasını müəyyən edir.

Elmin, istehsalatın və sosial həyatın bütün sahələrinin inkişafına, elmi biliklərin təsərrüfat fəaliyyəti və dövlət idarəolunması təcrübəsinə tətbiq edilməsinə təsir göstərmək biblioqrafik fəaliyyətin mühüm vəzifələrindəndir. Bu vəzifələrin yerinə yetirilməsi oxuculara biblioqrafik xidmət işinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsini tələb edir.

Kitabxanaların tipinə və profilinə görə müxtəlif olmaları biblioqrafik fəaliyyətin təşkilinin də müxtəlif istiqamətlərdə aparılmasına

gətirib çıxarır. Lakin bütün tip kitabxanalarda biblioqrafik fəaliyyət əsasən aşağıdakı istiqamətlərdə aparılır:

1- kitabxananın soraq-biblioqrafiya aparatının (SBA) təşkili;

2- müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibi;

3- biblioqrafik informasiya xidməti;

4- soraq-biblioqrafiya xidməti;

5- tövsiyə biblioqrafiya xidməti;

6- metodiki iş və məsləhətlər;

7- biblioqrafik biliklərin təbliği;

8- biblioqrafik iş sahəsində elmi-tədqiqat fəaliyyəti.

Biblioqrafik fəaliyyətin müasir dövr üçün ən modern nümunəsini əsası 1923-cü il 23 may tarixində qoyulmuş M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında görə bilərik.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Azərbaycan Respublikasının ən böyük dövlət kitabsaxlayıcısı, milli mətbuatımızın və kitabiyyatımızın dövlət arxivinin yaradıcısı, ölkənin bütün kitabxanaları üçün elmi metodik mərkəz funksiyasını yerinə yetirən, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində aparıcı elmi mərkəz rolunu oynayan və nəhayət, Azərbaycan elminin inkişafında xüsusi xidmətləri olan elm məbədi və mənəviyyat xəzinəsidir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinə müvafiq olaraq M.F.Axundov adına Dövlət Kitabxanasına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli qərarı ilə "Milli Kitabxana" statusu verilmişdir. [6, s.375] Bu status kitabxananın qarşısına qoyulmuş vəzifələrin əhatəsini xeyli genişləndirmiş və ölkənin ictimai həyatında onun rolunu artırmışdır.

Milli Kitabxanada bütün şöbələr biblioqrafiya işi aparır. Lakin sırf biblioqrafik fəaliyyətlə məşğul olan 3 şöbə vardır:

1. Sorğu-informasiya xidməti şöbəsi
2. Diyarşünaslıq elmi-biblioqrafiya şöbəsi
3. Çap əsərlərinin qeydiyyatı və Milli biblioqrafiya şöbəsi.

Bu sahədə əlaqələndirici əsas mərkəz "Sorğu-informasiya xidməti şöbəsi" hesab olunur. Şöbə 1927-ci ildə büro kimi fəaliyyətə başlamışdır. Bu büro biblioqrafik təsvir, oxucu arayışlarının yerinə yetirilməsi və biblioqrafik göstəricilərin tərtibi ilə məşğul olurdu.

1937-ci ildə büro öz fəaliyyətini dayandırdı. 1940-cı il sentyabr ayında 5 nəfər işçi ilə "Məlumat-biblioqrafiya şöbəsi" təşkil olundu. Şöbə 2 istiqamətdə iş aparırdı: biblioqrafik xidmət və biblioqrafiyalaşdırma.

1943-cü ildə "Məlumat-biblioqrafiya şöbəsi"nin soraq biblioqrafiya fondu və ödənilmiş arayışlar fondunun təşkili soraq-biblioqrafiya xidmətində mühüm rol oynamışdır.

Şöbənin fəaliyyətinin əsas istiqamətləri bunlardır:

- ali dövlət orqanlarından, yeni yaradılmış müxtəlif qurumlardan, müəssisə və təşkilatlardan və ayrı-ayrı oxucu qruplarından şöbəyə daxil olan yazılı və şifahi arayışların ilboyu cavablandırılması;
- şöbəyə daxil olan yeni ədəbiyyatın informasiya bülletenlərinin tərtib edilməsi və oxucuların istifadəsinə verilməsi;
- soraq və biblioqrafik nəşrlər fondunun daxili kataloq və kartoteka sistemində əks etdirilməsi;
- soraq biblioqrafiya və biblioqrafik informasiya xidməti;
- sahəvi zalların oxucuları üçün yeni ədəbiyyatın biblioqrafik xülasələrinin keçirilməsi;
- müxtəlif məzmunlu biblioqrafik vəsaitlərin tərtibi;
- oxucularla iş;
- kitabxana-biblioqrafiya biliklərinin təbliği;
- metodiki iş və s.

Həmin şöbə indi "Sorğu-informasiya xidməti şöbəsi" adlanır. Şöbə əvvəlki Məlumat-biblioqrafiya şöbəsinin funksiyalarını həyata keçirir. İxtiyarında zəngin məlumat fondu olan "Sorğu-informasiya xidməti şöbəsi" oxucu sorğuları əsasında elmin bütün sahələri üzrə yazılı və şifahi arayışları yerinə yetirir, kataloq və kartoteka sistemi ilə biblioqrafik xidmət göstərir, oxucuları məlumat-biblioqrafiya bilikləri ilə maarifləndirir.

1999-cu ildə Milli Məclis tərəfindən qəbul edilən "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ölkə ərazisində dərc olunan çap məhsullarının dövlət uçotunu aparmaq və arxiv fondunu yaratmaq Milli Kitabxanaya həvalə olunur [4].

Artıq 2004-cü ildən başlayaraq kitabxana ölkə ərazisində nəşr olunan bütün çap məhsullarının dövlət qeydini aparır və il ərzində ölkədə nəşr olunan bütün materialları özündə əks etdirən "Birillik Azərbaycan Kitabiyyatı"nı çap edir.

İlk buraxılışlar 1990 və 1991-ci illərdə respublikamızda nəşr olunan kitablar və kitabçalar haqqında məlumatları əhatə etmişdir.

2005-ci ildən başlayaraq 2000-ci ili və sonrakı illəri əhatə edən buraxılışlar ardıcıl nəşr olunur. Cari dövlət biblioqrafiyasının vacib atributu olan bu nəşrin artıq 1990-1992, 1998-2008-ci illər buraxılışları çap olunub.

Qeyd etmək lazımdır ki, bu nəşrlər üçün materialların toplanmasında Milli Kitabxana ilə yanaşı, Azərbaycan Milli Elmlər

Akademiyası Mərkəzi Elmi Kitabxanasının, BDU-nun Elmi kitabxanasının, İqtisad Universitetinin, Tibb Universitetinin elmi kitabxanalarının, bir sıra nəşriyyatların və digər müəssisələrin əməkdaşları da yaxından iştirak edirlər.

Kitabiyyatda biblioqrafik təsvirlər 2003-cü ildə qəbul edilmiş QOST 7.1-2003 "Biblioqrafik yazı. Biblioqrafik təsvir. Ümumi tələbat və tərtibat qaydaları" əsasında tərtib edilmişdir. Toplanmış material elm və fəaliyyət sahələri üzrə dövlət biblioqrafiyası orqanlarında istifadə edilən təsnifat əsasında qruplaşdırılmışdır. Burada məcburi ünsürlərlə yanaşı, fakultativ ünsürlər də öz əksini tapır.

Bölmələr daxilində əvvəlcə Azərbaycan, sonra isə rus dilində olan materiallar verilmişdir. Hər bir bölmə və yarımbölmə daxilində əlifba prinsipi gözlənilmişdir. Vəsaitin sonunda oxucuların ondan istifadəsini asanlaşdırmaq məqsədilə köməkçi aparat kimi həm Azərbaycan, həm də rus dillərində "Müəlliflərin əlifba göstəricisi" və "Sərlövhələrin əlifba göstəricisi" tərtib olunmuşdur. Birinci köməkçi göstərici müəllif üzrə axtarışa köməklik göstərirsə, ikincisi illikdə sərlövhə üzrə təsvir olunmuş əsərlərin axtarışını asanlaşdırır.

İctimai istiqamətinə görə bu vəsait ümumi, funksional məqsəd və xronoloji əlamətə görə retrospektiv, biblioqrafiyalaşdırma obyektinin məzmun əlamətinə görə isə universal göstəricidir. Onun tərtibində əsas meyar kimi bir il ərzində respublikamızda kitab və kitabça halında nəşr olunmuş əsərlər götürülmüşdür.

Milli Kitabxana 2006-cı ildən öz fonduna daxil olan yeni ədəbiyyatın cari biblioqrafik göstəricilərini tərtib etməyə başlamışdır. Bu cari informasiya göstəricisini hazırlamaqda məqsəd oxucu və mütəxəssisləri Milli Kitabxanaya daxil olan yeni ədəbiyyatla tanış etməkdir. "Yeni kitablar" adlı annotasiyalı biblioqrafik informasiya göstəricisi əvvəllər yarımillik idi, ildə iki nömrəsi buraxılırdı. Lakin kitablar çox olduğuna görə 2007-ci ildən etibarən bu biblioqrafik vəsait rüblük hazırlanır və həmin dövr ərzində Milli Kitabxananın fondlarına daxil olan bütün yeni ədəbiyyat orada öz əksini tapır. Burada Azərbaycan, rus və digər xarici dillərdə olan bütün nəşrlər əhatə olunur. Materiallar bölmələrin daxilində elm sahələri üzrə qruplaşdırılır və oxucuların istifadəsini asanlaşdırmaq məqsədilə hər bir kitabın şifrələri də verilir.

Hər bölmə daxilində əvvəlcə Azərbaycan dilində, daha sonra isə rus və digər xarici dillərdə olan ədəbiyyat verilmiş, onların düzülüşündə əlifba prinsipi əsas götürülmüşdür. Burada hər bir əsərə qısa məlumat annotasiyası da verilmişdir.

Milli Kitabxana hər il kitabxana işinin bu və ya başqa məsələlərinə dair xeyli miqdarda vəsaitlər nəşr edir və kitabxanalara göndərir.

Bunların içərisində 60-70-ci illərdə çap olunan və müəyyən səbəblərə görə uzun müddət çap olunmayan "Əlamətar və tarixi günlər təqvimi"ni xüsusilə qeyd etmək lazımdır. 2004-cü ildə bu vəsaitin nəşri yenidən bərpa olunmuşdur və elə həmin ildə 2005-ci ili əhatə edən ilk buraxılış işıq üzü görmüşdür. 2006-2010-cu illərə aid buraxılışlar çap olunmuşdur və hazırda 2011-cu ili əhatə edən 7-ci buraxılış nəşrə hazırlanır.

Ümumi xarakterli cari informasiya bülleteni ilə yanaşı, kitabxana sahəvi cari göstərici də çap etdirir. 1976-1994-cü illərdə kitabxana "Azərbaycan mədəniyyəti və incəsənəti haqqında yeni ədəbiyyat göstəricisi"ni çap etdirirdi. Lakin maliyyə problemləri ilə əlaqədar neçə illərdən bəri bu vəsaitin nəşri dayandırılmışdır. Avtomatlaşdırılmış sistem tətbiq olunduqdan sonra həmin vəsait "Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat" adı ilə yenidən aylıq cari biblioqrafik informasiya göstəricisi kimi nəşr olunur. Çap olunan yeni göstəricini əvvəlki vəsaitin yenidən nəşri kimi qiymətləndirmək olar. Lakin əvvəlki cari informasiya göstəricisindən fərqli olaraq, burada "Mədəniyyət" və "İncəsənət" bölmələrindən başqa müstəqil "Turizm" bölməsi də verilir.

Bu vəsaiti nəşr etməkdə məqsəd Respublikanın Mədəniyyət və Turizm Nazirliyinin rəhbər işçilərinə və aparıcı mütəxəssislərinə müvafiq mövzu üzrə Azərbaycan və rus dillərində Milli Kitabxanaya daxil olan yeni kitablar, bəzi jurnal və qəzet səhifələrində dərc olunmuş məqalələr haqqında operativ məlumat verməkdir. Hazırda bu vəsaitdə əhatə olunan materialların tam elektron mətnləri kitabxananın saytında müvafiq bölmədə yerləşdirilmişdir. [5, s. 181]

## ƏDƏBİYYAT


1. *Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik/Red. N.İ.İsmayılov. – Bakı: Bakı Universiteti nəşriyyatı, 2007. – 190 s.*
2. *Əliyev Z.H. Azərbaycanda biblioqrafik fəaliyyətin bəzi təşkili məsələləri (Tarixi xülasə)//Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri təcrübi jurnal. – 2003. - № 1. – s. 63-77*
3. *Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti. - Bakı: Bakı Universiteti nəşriyyatı, 2001. – 145 s.*
4. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan. – 1999-cu il. – 14 mart*
5. *Tahirov K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923-2008-ci illər). – Bakı: Ulu, 2009. – 218 s.*
6. *Tahirov K. M.F.Axundov adına Milli Kitabxana müstəqillik illərində//Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. – 2010. - № 2. – s. 373-381.*

**Г. АЛИЕВА**

## ТЕКУЩАЯ БИБЛИОГРАФИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ ИМЕНИ М.Ф.АХУНДОВА

**РЕЗЮМЕ**

Данная статья посвящается текущей библиографической деятельности Азербайджанской Национальной библиотеки им. М,Ф.Ахундова за 1999-2009 г.г. В ней анализируются указатели : «Ежегодник Азербайджанской литературы», «Новые книги», «Календарь знаменательных и исторических дат», «Новая литература о культуре, искусстве и туризме», издаваемые Азербайджанской Национальной Библиотекой.

**G. ALIYEVA**

## THE CURRENT BIBLIOGRAPHIC ACTIVITIES OF THE AZERBAIJAN NATIONAL LIBRARY NAMED AFTER M.F.AKHUNDOVA

**SUMMARY**

The given article is devoted to the current bibliographic activities of the National Library named after M.F.Akhundov. The indicators as “Annual Azerbaijan bibliography”, “New books”, “The calendar of the important and historic days”, “New literature about culture, art and tourism” published by National Library, were analyzed here.

**Təranə MİRZƏYEVA**
*AMEA Mərkəzi Elmi Kitabxanasının doktorantı*

# "AZƏRBAYCANDA NEFT SƏNAYESİ" – BİBLİOQRAFİYASININ TƏHLİLİ

***Açar sözlər:*** *Azərbaycanda neft sənayesi, neftə dair biblioqrafiya, neft və biblioqrafik informasiya, neft və biblioqrafik tələbat, neftə dair tövsiyyə biblioqrafyası.*

***Ключевые слова:*** *Нефтяная промышленность в Азербайджане, библиография по нефти, нефть и библииографическая информация, нефть и библиографический спрос, рекомендация на нефтяную библиографию.*

***Key words:*** *Azerbaijan's oil industry, bibliography on oil, oil and bibliographic information, demand for oil and bibliographic, recomendation on oil.*

Məlum olduğu kimi neft dənizlərdəki bitkilərin və heyvanların çürüməsindən sonra qalan qalıqlarından meydana gəlir. Bu qalıqlar dəniz yatağında milyonlarla il boyunca çürüyəndən sonra yerdə ancaq yağlı maddələr qalır. Palçıq və böyük qaya laylarının altında qalan yağlı maddələr də neft və qaza dönür. Yer qabığındakı hərəkətlənmələr bəzən dənizlərin torpaq hissələri halına gəlməsinə və özündə nefti ehtiva edən qayaların minlərlə metr dərinliyə gömülməsinə səbəb olur. Meydana gələn neft də bəzən qaya təbəqələrindəki məsamələrdən sızaraq kilometrlərlə dərindən səthə çıxır və burada buxarlaşaraq(qaz halına dönərək) geriyə qatran yığınağı buraxır. (4).

Neftin əhəmiyyəti, onun necə meydana gəlməsi haqqında hələ VII əsrdə nazil olmuş müqəddəs səmavi kitabımız "Qurani-Kərim"də də bariz şəkildə izah olunmuşdur. "Qurani-Kərim"in 87-ci surəsi olan "Əl-Əla" (yəni "Ən-Uca") surəsinin 1-5-ci ayələrində buyrulur: "Xəlq edən və nizama salan, əzəldən müəyyən edən və yol göstərən, ən uca olan Rəbbinin adını pak və müqəddəs tutub şəninə təriflər de! O Rəbbin ki, yamyaşıl otlar çıxartdı. Sonra da onu quru, qara vəziyyətə döndərdi". (3, 627).

"Əla" surəsinin ilk dörd ayəsində diqqəti cəlb edən üç məsələ neftin yaranma mərhələləri ilə ciddi parallellik içindədir. Xüsusilə "otlaq, düz, çəmənlik" mənalarına gələn "əlməra" ifadəsi ilə neftin yaranmasında iştirak edən üzvi mənşəli maddələrə işarə olunması ehtimalı daha çoxdur. Ayədə ikinci maraqlı söz isə qara rəngə çalan yaşıl, qaraya çalan, əsmər, his rənglərini bildirmək üçün işlədilən "əhva" kəlməsidir. Bu sözü də

yerin altında yığılıb qalan bitki qalıqlarının zaman ötdükcə qara rəngli maddəyə çevrilməsi kimi qəbul etmək olar. Çünki bu kəlmələr üçüncü bir kəlmə ilə - "qusaən" kəlməsi" sel suyunun otları, çöplərini bir-birinə qataraq sürüyüb gətirdiyi və dərələrin ətrafına atdığı ot, çöp, yarpaq və köpük kimi qarışıqlıq" mənasına da gəlir. "Qusmaq" mənasını verən bu söz bəzi mənbələrdə "sel qusmağı" kimi tərcümə edilir və torpağın nefti qusması kimi də tərif edilir. Həmçinin neftin meydana gəlməsi, ortaya çıxması, köpüklü görünşü, rəngi nəzərə alınanda ayələrdə işlədilən kəlmələrin nə qədər hikmətli olduğu daha yaxşı anlaşılır.

Burdan da göründüyü kimi, ayədəki bitkinin qara və axıcı bir mayeyə dönməsi nef-tin əmələ gəlməsi ilə çox oxşardır. Neftin əmələ gəlməsi haqqında məlumatın olmadığı bir dövrdə bu cür uzun illəri əhatə edən bir təşəkkül prossesinin tərif edilməsi şübhəsiz ki, Quranın Allahın vəhyi olmasının başqa bir dəlilidir (4).

Müstəqilliyimizin əldə edilməsi ilə cəmiyyətin bütün sferalarlında dinamik inkişaf getdikcə güclənməkdədir. İqtisadi inkişafımızın qarantı olan neft sənayesinin hərtərəfli tərəqqisi, həmin sahəyə olan elmi və təcrübi marağı da artırmış oldu. İqtisadi maraqla-elmi marağın üst-üstə düşməsi zəngin informasiyaların çoxalmasına və həmin informasiya mənbələrinə tələbatın da artmasına səbəb olmuşdur. Bu da öz növbəsində, neftin mütxəlif sahələrinə həsr olunmuş çoxsaylı elmi və kütləvi nəşrlərin geniş tirajına situmul yaratdı. Təbii ki, belə nəşrlərin asan əldə edilməsinin ən optimal yolu kitabxanalardır. Təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyev M.F.Axundov adına Milli kitabxanada keçirilən “Vətənə, dövlətə, xalqa sədaqət andı” kitabının təqdimat mərasimində kitabı və kitabxana işini yüksək qiymətləndirərək demişdir: “Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində ümumiyyəətlə mədəni-ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil, elm almışıq, həyatda yaşamaq, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq... Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanalara daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir” (2, 20).

Sənəd-informasiya-tələbatçı, bir sözlə sənəd-kommunikasiya sistemində biblioqrafiyaşünaslıq elminin rolu da danılmaz faktlardan birinə çevrilmişdir. Neft üzrə hazırlanmış biblioqrafik göstəricilərin mövzu əhəmiyyəti daşıması, sahəvi biblioqrafiyanın genişlənməsinə şərait yaratdı. Ölkəşünaslıq biblioqrafiyasına daxil olan bu göstəricilərin aktuallığı onların informasiya tələbatının əhəmiyyətini də artırmışdır. Bunun da nəticəsi olaraq, neftə dair çox sayda biblioqrafik vəsaitlər hazırlanmışdır ki, həmin vəsaitlərdən birinin elmi-biblioqrafik təhlilini veririk.

“Azərbaycanda neft sənayesi” adlı bu göstərici ölkəşünaslıq xarakterli biblioqrafik mənbə olub, retrospektiv tipli tövsiyə biblioqrafiyasıdır.

Biblioqrafik göstərici tovsiyə xarakterli olduğuna görə mənbələrin hər birinə ayrılıqda annotasiya verilmişdir. Kitablara verilmiş annotasiyalar geniş olsalar da, qəzet və jurnal məqalələrinə verilmiş annotasiyalar lakonik şəkildədir. Məsələn, İsmayılov Ə.H. Neft sənayesində boru kəmərlərinin və yeraltı metal avadanlıqların korroziyası və onunla mübarizə üsulları. – Bakı: Azərnəşr, 1962. – 153 s.

Kitaba verilmiş annotasiya: Kitabda korroziya haqqında ümumi anlayış, korroziyanın xalq təsərrüfatına vurduğu zərər, neft sənayesindəki boru kəmərləri və yeraltı metal avadanlıqlarının korroziyaya uğrama səbəbləri və onlarla konkret mübarizə üsulları haqqında ətraflı məlumat verilir. Kitab neft sənayesi mühəndis-texniki işçiləri və metalların korroziyası ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

Zülfüqarlı C. Neftdən qızıl // Elm və həyat. – 1971. - № 9. – S. 5.

Jurnal məqaləsinə verilmiş annotasiya: Azərbaycanda çıxan neftin kimyəvi tərkibi haqqında.

Behbudov V. Bakılıların təmənnasız, nəcib köməyi // Bakı. – 1974. – 21 mart.

Qəzet məqaləsinə verilmiş annotasiya: İraq Respublikasında çalışan azərbaycanlı neftçilər haqqında.

Biblioqrafik göstəricidəki materiallar 1960-1975-ci illərdəki çap məhsullarını əhatə edir. Kitablar 1960-cı ildən sonra, məqalələr isə 1970-ci ildən sonra çap olunmuş materiallardır. Biblioqrafiyada bütün mənbələr əlifba prinspi əsasında 11 bölmə daxilində qruplaşdırılmışdır.

Biblioqrafik göstrəricidəki bölmələrin elmi-biblioqrafik cəhətdən təhlili isə aşağıdakı kimidir:

I Bölmə: “V.İ.Lenin və Azərbaycan nefti” adlanır – bu bölmədə V.İ.Lenin Azərbaycan neft mədən işçilərinə, neftçi-mütəxəssislərə, o cümlədən Azərbaycana dəvət olunmuş xarici mütəxəssislərə, Rusiya sənayesinin inkişafında Bakı neftinin böyük rol oynadığı, İngiltərə dövlətinin Bakı neftini öz əlinə keçirmək üçün etdiyi səylərin boşa çıxması və digər məsələlər haqqında çıxışları, teleqramları, məktubları və s. haqqında onun əsərlərinin biblioqrafik təsviri toplanmışdır. Maraqlı məlumat olaraq misallar göstərək. Məsələn, Lenin V.İ. Bakı nefti haqqında. Əsərləri. C. 3. – S. 479 (burada Rusiya sənayesinin inkişafında Bakı neftinin böyük rol oynadığı qeyd olunmuşdur);

V.İ.Lenin Azərbaycan haqqında. – Bakı: Azərəşr, 1970. – 394 s. (burada V.İ.Leninin Azərbaycan haqqında əsərləri, məktubları, nitqləri və sənədləri daxil edilmişdir).

Lenin V.İ. G.K.Orconikidzeyə məktub. Y.Serqoya (Orconikidze) surətləri: Radçenkoya, Frumkinə, Avanesova. V.İ.Lenin Azərbaycan haqqında. – Bakı: Azərnəşr, 1970. – S. 260 (burada V.İ.Lenin Azneft birliyinin müstəqil surətdə xaricdə ticarət etməsi hüququnun saxlanmasını tələb edir).

I bölmənin mənfi cəhəti odur ki, buradakı mənbələrin bəzilərinin nəşr olunduğu il, tarix göstərildiyi halda, bəzilərinin isə nəşr tarixləri göstərilmir. Məsələn, Lenin V.İ. Azərneft fəhlələrinə və mühəndislərinə. Əsərləri. C.33. – S. 353;

Lenin V.İ. Neft konsepsiyaları haqqında məktub. Əsərləri. C.32. – S. 134-136. Və s.

II Bölmə: "Rəhbər materiallar" adlanır – bu bölmədə 13 mənbənin biblioqrafik təsviri verilmişdir. Adından da göründüyü kimi burada neft və neft kimyası, neft sənayesinin inkişafına həsr olunmuş tədbirlər haqqında rəhbər sənədlər, həmçinin dövrünün bu sahədəki məsul şəxslərin məruzələri haqqında məlumat toplanmışdır. 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmuş Ümummilli lider Heydər Əliyevin də məruzə və çıxışları haqqında da bəhs olunur. Məsələn, Sov. İKP MK dekabr (1974-cü il) plenumunun yekunları və respublika partiya təşkilatının vəzifələri haqqında. 1974-cü il dekabrın 26-da keçirilmiş Azərbaycan KP MK Plenumunun materialları. – Bakı: Azərnəşr, 1975. – 47 s. (burada Azərb. KP MK-nın birinci katibi H.Əliyevin plenumdakı məruzəsəində respublikada xalq təsərrüfatının, o cümlədən də neft sənayesinin vəziyyəti dərindən təhlil edilir, əldə edilmiş nailiyyətlərlə yanaşı mövcud nöqsanlar və onların aradan qaldırılması yolları göstərilir).

Əliyev H.Ə. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hesabatı. Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaşın Azərbaycan KP XXIX qurultayında məruzəsi // Kommunist. – 1976. – 29 yanvar.

1976-1980-ci illərdə SSRİ xalq təsərrüfatı inkişafının əsas istiqamətləri. – Bakı: Azərnəşr, 1976. – 107 s. (burada X beşilliyin başlıca vəzifələrindən biri kimi respublikamızda neft sənayesinin inkişafına xüsusi fikir verilmiş, o cümlədən neft kimyası sənayesinin inkişaf etdirilməsi və Bakı neftayırma zavodlarının yenidən qurulması vacibliyi müəyyənləşdirilməsi barədə məlumatlar toplanmışdır) və s.

II bölmənin mənfi xüsusiyyəti odur ki, əlifba prinsipi pozulmuşdur.

III Bölmə: "Ümumi xarakterli ədəbiyyat" adlanır - bu bölmədə 55 mənbə haqqında məlumat verilir. Mənbələr əsasən neft sənayesinin və ümumiyyətlə, neft elminin inkişaf etdirilməsində müstəsna xidmətləri olan alimlər, elmi-mütəxəssislər haqqında, həmçinin Azərbaycanın

müxtəlif bölgələrindən çıxarılmış neft haqqnda, Bakı neft-qaz zavodu və digər neft laboratoriyaları haqqında, orta və yuxarı yaşlı məktəblilər üçün nəzərdə tutulmuş kitablar, neftçilər haqqında kitablar, həmçinin elmi ədəbiyyatlar, dərsliklər, monoqrafiyalar və s. haqqında məlumat verilmişdir. Məsələn, Zeynalov M.M., Zeynalov A.M. Şirvan nefti. – Bakı: Aərnəşr, 1961. – 83 s. (kitabda Şirvan neftindən, onun Azərbaycan neft sənayesində tutduğu mövqedən, Şirvan qazı əsasında elektrik stansiyası tikilməsi məsələsindən, bu neft yataqlarının perspektivliyindən geniş bəhs edilir).

Nəsibzadə L. Xəzərin "qara qızılı". – Bakı: Elm, 1974. – 34 s. (kitabda Xəzər dənizindən neft çıxarılmasının əhəmiyyətindən, neftin çıxarılması tarixindən, neftin sahilə daşınması və emalından, neft çıxarılmasında fədakar əmək nümunələri göstərən qəhrəman neftçilərdən bəhs edilir).

Sadıqov T.M. Buruq tikintiləri. Ali texniki məktəblər üçün dərs vəsaiti. – Bakı: Maarif, 1973. – 255 s. (dərslikdə buruq tikintilərində işlənən müxtəlif inşaat materialları və onlardan hazırlanmış konstruksiyalar, neft sənayesindəki buruq tikintilərinin layihələşdirilməsi, hazırlanması və quraşdırılmasından bəhs edilir).

Quliyev S.M. Biblioqrafiya // Azərbaycan EA Əsaslı kitabxana. – Bakı: Azərbaycan EA nəşriyyatı, 1968. – 100 s. (Göstəricidə Azərbaycan EA-nın həqiqi üzvü, texnika elmləri doktoru, professor S.M.Quliyevin 1932-ci ildən 1968-ci ilə qədər nəşr etdirdiyi elmi-tədqiqat əsərlərini, hesabat və tərcümələrini əhatə edir).

Mahmudov E. Əbədi atəş diyarı // Bakı. – 1973. – 25 sentyabr. (Bakı neft-qaz zavodunun işi haqqında).

Səlimov K. Dəniz və neft // Kommunist. – 1973. -2 fevral. (Dövlət Dəniz Neft Müəssisələri Elmi-tədqiqat və Layihə İnstitutunun işi haqqında).

IV Bölmə: "Azərbaycanda neft sənayesinin inkişafı" adlanır – bu bölmədə 60 mənbə haqqında məlumat verilir. Buradakı materailların əsasən Azərbaycan neft sənayesinin ilkin tarixindən ta 70-ci illərədək keçdiyi tarixi inkişaf yolundan və xüsusilə də Xəzər dənizindən, neftin çıxarılması və s. məsələlərə həsr olunmuş dair mənbələr haqqında informasiyalar verilir. Məsələn, Quliyev S.M., Nəzərova R.H. Azərbaycanda neft quyularının qazılması tarixindən. – Bakı: Azərnəşr, 1962. – 106 s. (kitabda respublikamızda neft sənayesinin yarandığı vaxtdan 1960-cı illərə qədər keçdiyi inkişaf yolunu, xüsusən neft quyularının qazılmasının texnika və texnologiyasının inkişafı tarixini əhatə edir).

Rəsulov A.B. Azərbaycanda neft sənayesinin inkişafı tarixindən. – Bakı: Azərnəşr, 1962. – 153 s. (kitabda Azərbaycan neft sənayesinin

tarixi mərhələli şəkildə tədqiqi ilə yanaşı, bu sahədə əldə edilən nailiyyətlərdən, ixtisaslı mütəxəssislərin hazırlanmasından, texnika və texnologiyanın istehsalatda tətbiq edilməsindən və s. bəhs olunur).

Sultanov Ə.C., Məmmədzadə R.N. Azərbaycan faydalı qazıntılar xəzinəsidir. – Bakı: Elm, 1973. – 34 s. (kitabçada respublikamızın digər faydalı qazıntıları ilə yanaşı neft nə qaz çıxarılmasının tarixi, neft sənayesinin inkişafı, neft yataqlaının axtarış və kəşfiyyatı, Azərbaycanda neftin çıxarılması sahəsində böyük xidmətləri olan bir sıra görkəmli alimlərin fəaliyyəti haqqında qısa məlumatlar verilmişdir).

Ələsgərov M. Xəzərin dərinlikləri fəth olunur // Bakı. – 1973. – 20 dekabr. (Səngəçal Dəniz Qazma İdarəsi haqqında).

Salayev S. Milyardıncı ton Azərbaycan nefti // Elm və həyat. – 1971. – № 4. - S. 2-4.

Şaşin V.D. Neft və qaz çıxarılmasında yeni zirvələri fəth etməli // Kommunist. – 1975. – 20 iyun. (Neft Daşlarının 25 illiyi münasibətilə keçirilmiş yığıncaqda SSRİ Neft sənayesi nazirinin nitqi).

V Bölmə: “Neft geologiyası” adlanır – bu bölmə “Neft və qaz yataqlarının kəşfiyyatı” adlı yarım bölməyə ayrılır. Burada ümumilikdə 30 mənbə haqqında məlumatlar toplanmışdır. Materiallar əsasən neft və təbii qazlar haqqında, Xəzər dənizində neft və qaz yataqlarının axtarışı, onların işlənməsi, həmçinin yeraltı neft və qaz ehtiyatlarının hesablanması məsələləri və s. haqqındadır. Məsələn,

Əzimov B.Ə., Məmmədov Q.Ə. Elektrik modellərində neft yataqlarının işlənməsi məsələlərinin həlli. – Bakı: Azərnəşr, 1975. – 167 s. (kitabda yeraltı hidronomika, neft yataqlarının işlənməsi nəzəriyyəsinin bəzi nəzəri və təcrübi məsələlərinin torşəkilliu elektrik modellərində həllinə həsr edilmişdir).

Orucov V.Ə. Neft və təbii qazın geologiyası. Neft texnikumları üçün dərs vəsaiti. –Bakı, 1968. – 138 s. (kitabda neft və təbii qazlar haqqında, neft və qaz yataqlarının strukturu formaları, əmələ gəlməsi və pozulması, onların coğrafi yayılması, dünyanın əsas neftli-qazlı əyalətləri haqqında ətraflı məlumatlar verilmişdir).

Xəlilov N.Y. Xəzərin yeni neft yataqları. – Bakı: Azərnəşr, 1970. – 79 s. (kitabda Xəzər dənizində neft və qaz yataqlarının axtarılması, neft quyularının qazılması və istismara verilməsi, Xəzərin geoloji öyrənilmə tarixi, geoloji axtarış işlərinin növləri, neft yataqlarının müxtəlif yaşlı çöküntülərlə əlaqəsi və s. haqqında məsələlərdən bəhs edilir).

Abbasov M. Azərbaycanda neft və qaz yataqlarının işlənməsinin nəzəriyyə və texnologiyasının inkişafı // Azərbaycan EA-nın Xəbərləri. Yer haqqında elmlər seriyası. – 1970. - № 1. – S. 45-49.

Şükürov R. Xəzərdə neft kəşfiyyatı davam edir // Kommunist. – 1973. – 19 avqust.

VI Bölmə: "Neft quyularının qazılması. Neft və təbii qazların istehsalı. Neft və qazın mühafizəsi və nəql edilməsi" adlanır – burada 59 mənbə haqqında məlumat verilir. Bölmədəki mənbələr neftlə yanaşı qazın tərkibi, emalı, çıxarılması və nəqli sahələrinə həsr edilmiş materiallardır. Materialların əksəriyyəti dərslik və dərs vəsaitləridir. Məsələn,

Abbasov Ç.İ., Məlik-Aslanov L.S. Neft yataqlarının istismarı. Neft texnikumları üçün dərslik. – Bakı: Azərtədrisnəşr, 1964. – 291 s. (dərslikdə neft-qaz kollektorlarınını xassələrindən, maye və qazların fiziki-kimyəvi xassələrindən, neft laylarının açılması və quyuların mənimsənilməsi, neft çıxarılmasının fiziki əsasları, neft yataqlarının işlənməsinin əsasları, quyuların və layların tədqiqi, quyuların müxtəlif üsullarla istismarı kimi məsələlər öz əksini tapmışdır).

Abdullayev A.M., Nərimanov A.A. Qazın hasilatı, nəqli və işlədilməsi. – Bakı: Azərnəşr, 1967. – 174 s. (kitabda təbii qaz yataqlarından, neft və qaz mədənlərindən qaz hasilatından, qazların təmizlənməsi və qurudulmasından, qazın nəql edilməsi və hesablanmasından, qazın saxlanmasında qazlaşdırılacaq sahələrin layihələşdirilməsi və tikilməsindən, habelə respublikada qazlaşdırmanın vəziyyəti və onun daha da inkişaf etdirilməsi yollarından bəhs edilir).

Axundov B. Neft və qaz quyularının qazılması. I hissə. Texnikumlar üçün dərslik. – Bakı: Maarif, 1973. – 326 s. (ali texniki məktəblərin və neft texnikumlarının tələbələri üçün yazılmış bu dərslikdə quyuların qazılması üsullarından, suxurların təsnifatı, fiziki-mexaniki xassələri və dağıdılmasından, süxurdağıdıcı alətlərdən, qazma kəməri və mühərriklərindən, qazma işlərində tətbiq edilən avtomatlaşdırma və mexanikləşdirmədən bəhs edilir).

Məmmədxanov R.Q. Azərbaycan neft yataqlarında YKZ sənədləri əsasında qazma məhlulunun müqavimətinin üsulu ilə dəqiqləşdirilməsi // Azərbaycan neft təsərrüfatı. – 1973. – № 9. – S. 18-19.

Sadıqov M., Hüseynov O. Neft hasilatının intensivləşdirilməsi yolları // Bakı. – 1974. – 10 may.

VII Bölmə: "Neft quyularının təmiri" adlanır – buradakı mənbələrin sayı isə məhduddur. Belə ki, cəmi 9 mənbənin biblioqrafik təsvirləri verilmişdir. Yarım bölmə kimi hazırlanmış bölmədə yalnız qəzet və jurnal məqalələri öz əksini tapmışdır. Məsələn,

Yusifov S. Neft quyularının əsaslı təmirinin iqtisadi səmərəliliyinin meyarı // Azərbaycan Neft Təsərrüfatı. – 1973. - № 3. – S. 45-47.

Mahmudov S. Universal təmir briqadası // Bakı. – 1973. – 1 sentyabr.

VIII Bölmə: "Neft mədənlərinin avtomatlaşdırılması və mexanikləşdirilməsi" adlanır - bu bölmədə də 9 mənbə haqqında informasiyalar toplanmışdır. Burada o dövrün ən müasir neft emal edən zavodlarının əsas obyektlərinin avtomatlaşdırılması üçün önəmli olan texnoloji qurğular, onların əsas aparatlarında aparılan proseslərin avtomatlaşdırılması haqqında, habelə qazma prosesini avtomatik idarə etmək üçün istifadə olunan məlumat qurğusundan, bu avtomat və yarımavtomatların quruluşundan və işlənməsi üsulları haqqında olan mənbələr göstərilmişdir. Məsələn,

Abbasov M.Ə. Neft emalı zavodlarının avtomatlaşdırılması. – Bakı: Azərnəşr, 1962. – 351 s. (kitabda neft emal zavodları əsas obyektlərinin avtomatlaşdırılmasından və bunun üçün lazım olan avtomatik və telemexanik qurğulardan bəhs edilir).

Quliyev İ.Ş. Azərbaycan neft mədənlərinin avtomatlaşdırılması və telemexanikləşdirilməsi təcrübəsindən // Azərbaycan Neft və Qaz Sənayesinin Elmi-Texniki Cəmiyyəti. – Bakı, 1962. – 80 s. ( kitab mühəndis və texniki işçilər üçün nəzərdə tutulmuşdur. Burada bir sıra neft mədənlərindəki quyuların avtomatlaşdırılması və mexanikləşdirilməsi sahəsində qazanılmış təcrübədən bəhs edilir.)

Mahmudov Y. Elektron hesablama texnikası neft quyularını idarə edir // Elm və həyat. - № 3. – S. 6-7.

Bayramov C. Qazmada təzə texnikanın faydası // Bakı. – 1971. – 26 aprel. (Abşeron neft quyuları haqqında).

IX Bölmə: "Neft mədənlərinin avadanlığı" adlanır – burada 10 mənbə haqqında məlumat verilir. Verilmiş mənbələrdə neft mədənlərində tətbiq edilən elektrik avadanlığının əsas amilləri, elektrik-təchizat sxemləri, idarəedici avtomatların quruluşları ilə yanaşı, həm də cihazqayırma texnologiyasının ümumi məsələləri və s. haqqında informasiyalar göstərilmişdir. Məsələn, Ağamalıyev H., Tağızadə P. Neftmədən geofizikasının aparatları və avadanlığı. Ali texniki məktəblər üçün dərslik. – Bakı: Maarif, 1975. – 258 s. (dərslikdə neft quyularının kəsilişlərinin mədən geofizikası üsulları ilə tədqiqində tətbiq edilən aparat və avadanlığın təsviri və s. haqqında məlumat verilir).

Quluzadə K.N. Neft mədənlərinin elektrik avadanlığı. Ali texniki məktəblər üçün dərslik. – Bakı: Maarif, 1977. – 396 s. (dərslikdə qazma qurğuları nasos üsulu ilə neft çıxarılması, neft mədənlərinin elektrik təchizatı, idarəedici avtomatların quruluşları, elektrik energetikasının inkişafı və s. barədə məlumatlar öz əksini tapmışdır).

Elmirov A. Neftçilər üçün avadanlıq // Elm və həyat. – 1973. - № 11. – S. 23. (Azərbaycan Elmi-Tədqiqat Neft Maşınqayırma İnstitutu haqqında).

Quliyeva Z. SSRİ neft rayonlarının neft-texniki avadanlıqla təmin edilməsində Azərbaycanın rolu // Azərbaycan tarixinə dair materiallar. Azərbaycan SSR EA Azərbaycan tarixi muzeyi. – 1973. – C.VIII. - № 3. – S. 114-127.

Əhmədov B. Avadanlığın keyfiyyəti və standartlaşdırma // Bakı. – 1973. – 3 fevral. (Neft-mədən avadanlığının standartlaşdırılması haqqında).

Əlizadə Ə. Mütərəqqi üsullar, qiymətli cihazlar // Bakı. – 1973. – 15 sentyabr. (Neft yataqları haqqında).

X Bölmə: "Neftin emalı" adlanır – bu bölmədə 17 mənbə haqqında informasiyalar toplanmışdır. Mənbələr neft və qaz emalının texnologiyası üzrə kurs layihəsinin məzmunu və s. məsələlərinə dair ümumi metodik göstərişlər, habelə neftin tərkibi haqqında, neft karbohidrogenlərinin emal edilməsindən, Azərbaycanda mövcud olan neftli ərazilərin bəzilərinin fiziki-kimyəvi xassələri və digər sahələri haqqında geniş məlumatlar verilmişdir. Məsələn, Azəri R.M., Mirzəyev S.D. Neft və qaz emalının texnologiyası. – Bakı: Azərbaycan NKİ nəşriyyatı, 1971. – 112 s. (kitabda neft və qaz emalının texnologiyası üzrə kurs layihəsindən, ayrı-ayrı qurğuların maddi və istilik balanslarının qurulması üçün göstərişlər haqqında məlumat verilir).

Hacıyeva B., Koşelova L.., Haşımov H. Bakı neftlərindən ayrılan C7 – C9 turşularının öyrənilməsi // Azərbaycan Kimya jurnalı. – 1973. - № 7. – S. 77-81.

Qədiməliyeva N. Xam nefti qələviləşdirmə üsulu ilə neft məhsullarının neytrallaşması // Azərbaycan Neft təsərrüfatı. – 1970. - № 6. – S. 33-35.

Nəsirov Ə.B. Neft və kimya. – Bakı: Maarif, 1966. – 121 s. (kitabda neftin emala hazırlanması neft-kimyəvi sintez məhsulları, bu məhsullardan xalq təsərrüfatında istifadə edilməsi haqqında informasiyalar verilmişdir).

Qocayev X. Sintetik yağlar yaradılır // Bakı. – 1972. – 10 may. (Neft məhsulları haqqında).

XI Bölmə: " Neft sənayesinin qabaqcılları" adlanır – sonuncu bölmə olan bu bölmədə respublikamızın neft sənayesi sahəsində çalışan fədakar neftçilərimiz, habelə neft və qaz sahəsinin bütün problemlərinin öyrənilib, araşdırılmasında, yeni-yeni mütərəqqi ideya və kəşflərin edilməsində xidmətləri olan alimlərimizin həyat və fəaliyyətləri haqqında məlumatlar toplanmışdır. Burada 130 mənbənin biblioqrafik təsvirləri

əhatə edilmişdir. Məsələn, Abbasov Ş. Siyəzənneftin qabaqcılları. Jurnalistin qeyd dəftərçəsindən. – Bakı: Azərnəşr, 1964. – 24 s. (kitabçada qocaman neftçi, respublikanın əməkdar mühəndisi, Qırmızı Əmək Bayrağı və "Şərəf Nişanı" ordenli Hüseyn Abbasoğlunun, qazma ustası Zülfüqar Mustafayevin, briqadir Şahlar Əhmədovun, baş geoloq Yusif Yusifovun fədakar əməklərindən, Siyəzənneft yataqlarının istismarından, onların fəaliyyətindən bəhs edilir).

Babayev K. Qabaqcıl təcrübəyə arxalandıqda // Bakı. – 1973. – 29 iyun. (Xərə-Zirə Dəniz Kəşfiyyat Qazma İdarəsi geoloji şöbəsinin qazmaçıları haqqında).

Əliyev F. Bakı neftçiləri İraqda // Bakı. – 1974. – 31 avqust. (Neft daşlarında neftçıxarma operatoru işləyən Lətif Sadıqovun İraqda neft mədənlərindəki işi haqqında).

Mahmudov E. Çovğunlu gecələr // Ədəbiyyat və incəsənət. – 1972. – 26 fevral. (Səngəçal dəniz mədənlərinin neftçiləri haqqında oçerk).

Əliyev S. Zəhmət itmədi // Azərbaycan gəncləri. – 1973. – 19 may. (Özbəkistan neftinin elmi mərkəzi direktoru V.Orucov haqqında).

Mütəllimov X. Bu institutda olsanız... // Kommunist. – 1972. – 19 iyul. (Moskvanın Qubkin adına Neft və Qaz Sənayesi İnstitutu riyaziyyat kafedrasının müdiri, texnika elmləri doktoru, professor Məcid Əziz oğlu Hüseynzadə haqqında).

Mütəllimov X. "Pan Rac" // Azərbaycan gəncləri. – 1974. – 6 aprel. (Polşada çalışan mühəndis Mehrac Hacıyev haqqında).

Statavin R. Neftçilər sülaləsinin dörd nəsili // Bakı. – 1973. – 17 fevral. (Leninneftin 8-ci rayon mühəndis-texnoloji xidmətinin operatoru İ. Aslanov haqqında).

Göründüyü kimi, neftçi-alimlərimiz nəinki ölkə daxilində, hətta xarici ölkələrdə belə öz əməli və elmi fəaliyyətləri ilə diqqət çəkərək şöhrət qazanmışlar. Bu uğurların yalnız kişilərə məxsus olmasını demək düzgün olmazdı. Çünki, fədakar qadınlarımız belə ən çətin peşələrdən sayılan neft sahəsində, buruqların arasında, gərgin əmək tələb edən zavodlarda da öz bacarıq və qabiliyyətlərini nümunəvi şəkildə göstərə bilmişlər. Məsələn,

Əliyev Ş. Əməl bacıları // Azərbaycan qadını. – 1972. - № 2. – S. 16-17. (Kürsəngi 3 nömrəli qazma kontorunun laborantı M.Gözəlova və mühəndiz S.Hüseynova haqqında).

Mahmudov S. Ceyran Rüstəmxanova // Azərbaycan qadını. – 1974. – № 10. – S.19. (Qaradağ neft quyuları, təmiz sexin işçisi Ceyran Rüstəmxanova haqqında).

Mahmudov S. Etimada layiq // Azərbaycan qadını. – 1973. - № 11. – S. 4. (Sahil Dəniz Kəşfiyyat Qazma İdarəsinin işçisi D.Süleymanova haqqında).

Səfa Ə. Zərifə // Təşviqatçı. – № 7. – S. 28-30. (Neftçıxarma operatoru Z. Mirzəyeva haqqında).

Səmədov H. Dağlar qızı // Azərbaycan qadını. – 1972. - № 1. – S. 21-22. (Şirvanneft Neft və Qazçıxarma İdarəsinin 3-cü neftçıxarma rayonunun neftçisi A.Qurbanov haqqında).

Qurbanov H. 32 il buruqlar arasında // Bakı. – 1973. – 19 iyun. ( Leninneftin 5-ci rayon mühəndis-texnoloji xidmətinin neftçıxarma operatoru S.Məşə haqqında).

Nəcəfov Ə. Neftçi Duran xala // Bakı. – 1973. – 7 mart. (D.Hacıyeva haqqında) və s.

Ümumiyyətlə "Azərbaycanda neft sənayesi" biblioqrafiyası tövsiyyə xarakterli olsa da, 400-dən çox mənbə haqqında ətraflı biblioqrafik məlumat verməklə geniş informasiya əhatəliyi ilə də seçilir.

Lakin, bunlarla yanaşı, bəzi kiçik nöqsanlar da vardır ki, onları da qeyd etmək biblioqrafik təhlil baxımından yerinə düşərdi. Məsələn,

- biblioqrafik vəsaitdəki materilallar əlifba prinsipi əsasında düzülsə də, bəzi bölmələr daxilində bu ardıcıllıq pozulmuşdur: "Rəhbər materiallar", "Ümumi xarakterli ədəbiyyat", "Neft geologiyası", "Neft quyularının qazılması. Neft və təbii qazların istehsalı. Neft və qazın mühafizəsi və nəql edilməsi", "Neftin emalı", "Neft sənayesinin qabaqcılları" bölmələrində həmin nöqsanlar aydın olaraq nəzərə çarpır;

- kitablar bölmələr daxilində ardıcıllıqla düzüldüyü halda, qəzet və jurnal məqalələri bir çox bölmələrdə qarışıq verilmişdir: "Azərbaycanda neft sənayesinin inkişafı", "Neft sənayesinin qabaqcılları", "Neftin emalı", "Neft mədənlərinin avtomatlaşdırılması və mexanikləşdirilməsi", "Neft quyularının qazılması. Neft və təbii qazların istehsalı. Neft və qazın mühafizəsi və nəql edilməsi", "Neft geologiyası", "Ümumi xarakterli ədəbiyyat" adlı bölmələrdə həmin prinsip pozulmuşdur və s.

"Azərbaycanda neft sənayesi" biblioqrafik göstəricisi dövrünün biblioqrafik standartlarına müvaiq tərtib edildiyi üçün, müasir biblioqrafik standartlardan fərqlənir. Belə ki:

- müasir biblioqrafik göstəricilərdə oxucuların biblioqrafik vəsaitlərdən istifadəsini asanlaşdırmaq məqsədilə tərtib edilən köməkçi aparatlarda müəlliflərlə yanaşı, əsərlərin və s.-nin əlifba göstərici hazırlanır;

- həm biblioqraflar, həm də informasiya tələbatçıları üçün əlverişli olan xüsusiyyət, göstəricilərdə mənbələrin sıra nömrələri ilə xronoloji qaydada hazırlanmasıdır və s.

Ancaq, “Azərbaycanda neft sənayesi” biblioqrafik göstəricisində nə mənbələrin sıra nömrələri, nə də xronolji qaydası verilməmişdir. Vəsatin köməkçi aparat hissəsində verilmiş müəlliflərin əlifba göstəricisində nəzərə alınan qayda isə mənbələrin yerləşdiyi səhifələrin nömrəsi ilə göstərilməsidir. Məsələn,

Abbasov Ş. ................................39 (yəni 39-cu səhifə);

Əliyev T. ..................................19, 24 (yəni 19 və 24-cü səhifələr) və s.

Yekun olaraq bildirmək istərdim ki, “Azərbaycanda neft sənayesi” biblioqrafiyası dövrün aktual məsələlərindən biri hesab olunan neft sahəsinə həsr edilməsi, məhz neft sənayesinin inkişafına kömək məqsədilə, həm ixtisaslı-peşəkar informasiya tələbatçılarının, həm də geniş oxucu auditoriyası üçün qiymətli biblioqrafik mənbələrdəndir.

Biblioqrafik göstəricinin müəllifi olan Ələddin Əliyevin qeyd etdiyi kimi: “bu göstəricini tərtib etməkdə məqsədimiz neftə dair respublikamızda son illər ərzində nəşr edilmiş kitab, kitabça və məqalələr haqqında oxuculara geniş məlumat verməkdir... Respublikamızda neft sənayesinin inkişafını əks etdirməkdir”.

## ƏDƏBİYYAT

*1. Əliyev Ə. Azərbaycanda neft sənayesi: Biblioqrafiya. – Bakı: Azərnəşr, 1977. - 53 s.*

*2. Əliyeva-Kəngərli A. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar // Elmi red.: A.Xələfov; rəy.: R.Kazımov, X.İsmayılov. – Bakı: Elm, 2007. – 397 s.*

*3. Qurani-Kərim // Ərəb dilindən tərcümə edən: Z.Bünyadov, V.Məmməd-əliyev; ön söz: V.Məmmədəliyev; qeyd və şərh: Z.Bünyadov; məsləhətçi-red: Ş.H.A.Paşazadə. – Bakı: Azərnəşr, 1991. - 711 s.*

*4. http://mid.az/din/8917-quran-i-kjrim.html*

**Т. МИРЗОЕВА**

## АНАЛИЗ БИБЛИОГРАФИИ «НЕФТЯНАЯ ПРОМЫШЛЕННОСТЬ АЗЕРБАЙДЖАНА»
## РЕЗЮМЕ

Статья, посвященная нефтяной отрасли экономики Азербайджана, является одной из важнейших в библиографическом указателе информации. Научно-библиографический указатель «Нефтяная промышленность Азербайджана», проанализирован именно с этого аспекта. Актуальность этого указателя, который входит в

отраслевую библиографию, заключается в его информации о важности увеличения спроса.

Таким образом, собранная печатная продукция за 15-летний период по своему характеру рекомендуется как библиографические источники. И в этом с точки зрения, удовлетворения спроса в библиографической информации потребности читателей, можно увидеть его ценные ресурсы.

**T. MIRZAYEVA**

**THE ANALYSES OF THE BIBLIOGRAPHY OF "THE OIL INDUSTRY OF AZERBAIJAN"**

**SUMMARY**

There is given a bibliography which was dedicated to one of the most importance sphere of Azerbaijanian economy – the oil industry. This bibliography which is called "Azerbaijan the oil industry" was analysed with the scintifical bibliographic aspect.

The actuality of that bibliographical provence increased the significanse of its information reauirement. So, the 15 years periodical bibliographical resource of publicity is an advicable stage. And to compensate the readers information reguirement takes out it as the valuable aid.

***Kompüter tərtibatçısı:*** ***Esmira ZƏRBALİYEVA***

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

*Yığılmağa verilmişdir:23.11.2011*
*Çapa imzalanmışdır: 24.12.2011*
*Kağız formatı 70x100 1/16*
*Fiziki ç.v. 11,5 ç.v*
*Sayı 300*
*Qiyməti müqavilə ilə.*

*Ünvan: AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23*
*Bakı Universiteti Nəşriyyatı*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*